ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

№ 2 (08)

BAKI - 2017

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Mobil Məcidov,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin “Sənaye iqtisadiyyatı və menecment” kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun “Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri” şöbəsinin baş elmi işçisi

i.ü.e.d., professor Sadıq Salahov - Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

ped.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

tarix ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin “Humanitar fənlər” kafedrasının müdiri

biol.ü.f.d., dosent Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dosent Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat” fakültəsinin dekanı

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə” fakültəsinin dekanı

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər” kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması” şöbəsinin müdiri

i.ü.f.d., dosent Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə və mühasibat uçotu” kafedrasının müdiri

i.ü.f.d. dosent Fəhrad Mehbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat və idarəetmə” kafedrasının müdiri

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (055)347-34-36; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 4, 30.12.2017)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

## MÜNDƏRİCAT

**MÜNDƏRİCAT**………………………………………………………………….....3

**HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ**

**Разия Маниева**

Профсоюзное обучение – один из важных приоритетов профсоюзов Азербайджана.........................................................................................................5

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**Ağasəlim Həsənov**

Multikulturalizmin modelləri.........................................................................10

**Azad Cəfərov**

Milli-mənəvi dəyərlərin qorunması ideoloji məsələ kimi...........................................14

**Тамилла Гасанова**

Исторические памятники Баку - Гыз галасы (Девичья башня)............................19

**Eldar Əmirov**

Riyaziyyatda sosiomədəni determinasiyalar.............................................................24

**Faiq Ələkbərli**

Nəsib Bəy Yusifbəylinin dünyagörüşündə Azərbaycan milli ideyası........................31

**Mahrux Abbas**

G.Hofstede. İqtisadiyyatın mədəniyyət “ölçüləri”....................................................41

**Könül Mədədzadə**

Orta əsrlərdə ərəb elmi islam mədəniyyətinin inkişafı kontekstində..........................................49

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**Mobil Məcidov**

Təhsil krediti təhsilə çıxış imkanlarını yaxşılaşdıran əsas maliyyə mexanizmi kimi.........53

**Nurəngiz Mikayılova**

Yerli özünüidarəetmə orqanlarının meydana gəlməsi və formalaşmasının nəzəri əsasları.........60

**Fərhad Mehbalıyev, Raic Həsənov**

İdman və turizmin sosial-iqtisadi təbiəti.........67

**Гюльнара Гаджиева**

Формирование промышленной политики Азербайджана.........75

**Zakir Əlizadə**

Azərbaycanın ixrac potensialının təkmilləşdirilməsində sənayenin restrukturizasiyasının rolu.........82

**Джамиль Алиев**

Практика государственно-частного партнерства (ГЧП) в экономических стратегиях субъектов Федерации.........88

**Təranə Vəliyeva**

İqtisadi informasiyanın avtomatlaşdırılmış işlənməsi.........94

**Gülnarə Tanrıverdiyeva**

Uzunmüddətli investisiyaların uçotunun təşkili və təkmilləşdirilməsi istiqamətləri.........99

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

**УДК – 316**

**Разия Маниева**
**Азербайджанская Академия Труда и Социальных Отнощений, д.ф.э., доцент**

# ПРОФСОЮЗНОЕ ОБУЧЕНИЕ – ОДИН ИЗ ВАЖНЫХ ПРИОРИТЕТОВ ПРОФСОЮЗОВ АЗЕРБАЙДЖАНА

*В статье рассматриваются основные приоритеты системы профсоюзного обучения на современном этапе, с учетом кадровой политики профсоюзов Азербайджана. Также раскрываются сущность сегментов профсоюзного обучения. В тоже время акцентируется внимание на инновационных формах и методах обучения, их практическое значение и роль в профсоюзном обучении.*

Профсоюзное обучение - это процесс формирования и развития знаний, навыков и умений профсоюзных работников и активистов, опыта творческой деятельности и социальных отношений, а также просвещение членов профсоюзов и работников.

Происходящие реформы в обществе, естественно, обусловили изменения системы профсоюзного образования. И задачей данной статьи является попытка описания элементов этой системы и взаимосвязи между ними стратегией и тактикой профсоюза.

В настоящее время существует множественность форм и методов обучения, программ и содержания материала. Но мы хотели рассмотреть обучение, в котором сфокусировано такие важные звенья, как образование, информирование, инструктирование в самом широком смысле, как целенаправленно организованный и систематически осуществляемый процесс передачи знаний, умений и навыков, определяющих успешность функционирования профсоюзной организации.

Чтобы более подробно описать явление «профсоюзное обучение» мы свяжем это с понятием «сегментация», которое иногда ис-пользуется в маркетинге для анализа какого-либо рынка товаров или услуг, хотя сфера профсоюзного обучения не является полностью рыночной, и в тоже время в ней присутствуют коммерческие элементы, а именно образовательные услуги предлагаются на платной основе [1, с.7].

Такой маркетинговый подход для нас важно с точки зрения разделение «источника» профсоюзного знания (продавца, производителя - в нашем случае - преподаватель) и его «получателя» (покупателя, потребителя, реципиента - профсоюзный кадр, активист). Это разделение и дает нам два первых фактора (критерия) сегментации профсоюзного обучения.

Рассмотрим эти критерии. Как известно, в профсоюзах ***«Очень нужно учить людей, как правильно защищать интересы»***, т.е. ***«кто этому научит?»***. Как показало изучение этого вопроса, это преподавательский состав, который можно подразделить на 5 групп, а именно:

- профсоюзные работники всех уровней: Конфедерация Профсоюзов Азербайджана, отраслевые комитеты, региональные профкомы предприятий;
- работники государственных органов и организаций, занимающихся по роду своей деятельности трудовыми проблемами;
- профессиональные преподаватели из ВУЗ-ов и других образовательных учреждений;
- профессиональные профсоюзные преподаватели международных организаций. Это было во-первых.

Во-вторых, кому передаются профсоюзные истины, т.е. ***«кого учить?»:***

- широкие профсоюзные массы;
- активные профсоюзные массы;

- профсоюзные активисты - (председатели и члены участковых комитетов, делегаты конференций, собраний, съездов и т.д.);

- профсоюзные кадры всех уровней, среди которых особо выделяется подгруппа вновь избранных председателей профкомов [2, с.4].

И, конечно, важным критерием может служить содержание обучения:

- обновление знаний законов и норм;
- обучение коллективным переговорам и составлению коллективных договоров;
- обучение по проблемам органайзинга, т.е. организации и привлечения новых членов.

Сочетание и пересечение выделенных критериев, на наш взгляд, можно свести к идеальным типам (сегментам) профсоюзного обучения. Если проанализировать каждый из этих критериев, то каждый из них характеризуется каким-либо доминирующим фактором:

- информационно просветительская работа;
- инструктивное обучение;
- институциализированное обучение.

На современном этапе новые требования предъявляются к руководителям профсоюзных организаций, так как результаты деятельности профсоюзной организации зависят от авторитета председателя профсоюзной организации и его команды, которые должны обладать, прежде всего, профессионализмом и ответственностью [3, с.77].

Исходя из этого, должны быть поставлены основные цели профсоюзной учёбы. Это:

- актуализация содержания и методов обучения за счёт активного внедрения в организацию учебного процесса новейших достижений науки и на этой основе повысить эффективность самостоятельной работы обучающихся;

- создание условий психологической комфортной среды обучения профсоюзного актива, обеспечивающие свободу выбора форм и методов обучения, самообразования, ориентированных на ритмичную интенсивную работу. Это, что касается профсоюзных кадров.

А обучение профсоюзного актива, в свою очередь, должно сориентироваться на формирование знаний, умений и навыков, необходимых членам профсоюзного комитета, постоянным комиссиям профорганизации, профсоюзным активистам [3, с.78].

Такой подход позволяет председателям профсоюзных организаций добиваться овладения:

**знаниями**

- основ правового регулирования деятельности профсоюзной организации, нормативно-правовых актов, регламентирующих работу профорганизации, правильного создания документов управленческой деятельности, организации работы с документами, внедрения методов проектирования в деятельности профорганизации;

**умениями**

- эффективного речевого поведения в актуальных ситуациях общения, искусства речи;
- делового контакта;
- развития коммуникативных и креативных способностей;
- адаптации к новым условиям и др.

Чтобы добиться этого, в основу организации процесса обучения профсоюзного актива заложены принципы инновационной деятельности:

• принцип модульного построения инновационных структур развития образовательного процесса (создание подвижной модульной структуры для решения инновационных задач на различных этапах);

• принцип системности инновационного развития, предусматривающий учёт соразмерности всего комплекса осуществляемых изменений;

• принцип индивидуально-ориентированного способа обучения.

• принцип достигнутого результата, отражающий зависимость последующих нововведений от уровня культурного усвоения предыдущих.

Если проанализировать это в контексте рассматриваемых критериев, то следует отметить, что каждый из этих факторов занимает важное место в профсоюзном обучении. Что это значит?

**Первое: информационно-просветительская работа.** Исходя из того что главным критерием, определяющим данный сегмент профсоюзного обучения, является объект воздействия: широкие профсоюзные массы, то здесь с учетом названия критерия – это профсоюзного просвещение. Здесь основное направление работы - обеспечение профсоюзных кадров и активистов информационно-аналитическими материалами, т.е. пресса-газеты, журналы, сайты электронные почты, ИКТ. А также немаловажный фактор имеет раздача на учебе каждому председателю профсоюзной, в которой укомплектованы разного рода материалов: от законов до макетов коллективных договоров [4, с.122].

В целом это направление профсоюзной деятельности достаточно ресурсоемкое и профсоюзные организации должны постоянно изыскивать дополнительные (помимо профбюджета) способы финансирования.

**Второй сегмент - Инструктивное обучение.** Какая основная цель профсоюзного обучения? Нами было отмечено выше, ***«Мы должны их научить, чтобы они знали свои права»***. Отличительной особенностью данного сегмента профсоюзного обучения то, что преподавателями служат сами профсоюзные кадры (работники республиканских и отраслевых аппаратов, а также председатели профкомы предприятий). И в этом случае профсоюзное обучение должно быть организовано в соответствии со специально разработанной концепцией профсоюзного обучения, и эта концепция должна строиться на основе гибкой многоуровневой системы обучения и повышения квалификации профсоюзных кадров и актива.

**Институциональный сегмент третий** - представлен трансформированными областными или региональными Учебно-методическими центрами. Целью подобных образовательных учреждений является получение прибыли за счет предоставления образовательных услуг. Они занимается учебой не только по профсоюзным проблемам, но и по другим направлениям - это английский язык, бухгалтерское дело, компьютерная грамотность, повышение квалификации работников кадровых, экологических служб, фондов недвижимости и т. д. [4, с.123].

Отличительная особенность подобных центров - это наличие своего штата квалифицированных преподавателей, разработанные методики обучения, большое количество литературы и учебных материалов. Финансирование в таких центрах осуществляется за счет средств профсоюзных центров или отраслевых профсоюзов.

Относительно системы профсоюзного обучения в Азербайджане, то она построена на основе Концепции кадровой политики Конфедерации профсоюзов Азербайджана, принятая в 2003 г [1, с.17].

Основные задачи КПА в соответствии с этой Концепции: 1) обеспечить профсоюзным лидерам и специалистам получение разносторонних знаний и практических навыков в области теории и практики профсоюзного движения, конфликтологии, психологии, менеджмента, экономики, права и социологии, и т.д.; 2) формировать профсоюзного лидера, обладающего всем комплексом качеств, необходимых для работы в новых рыночных условиях и постоянно стремящегося к профессиональному росту, самосовершенствованию.

Академия труда и социальных отношений являющийся современным образовательным центром и организует учебный процесс для профсоюзных кадров и актива всех категорий на основе поставленных задач КПА. Концепция рекомендована в качестве модели для использования в практической работе, и как основа для профсоюзного обучения кадров и актива. [1, с.18].

Сегодня происходящие перемены в обществе диктуют свои приоритеты. В динамично развивающемся, постоянно меняющемся рыночном мире профсоюзная организация, как и любая другая, должна стремиться к повышению своей конкурентоспособности, и это невозможно без обучения кадров. Необходимость обучения профсоюзных кадров и актива,

проведение правового просвещения для членов Профсоюза – это важнейшее направление нашей деятельности. Если мы сможем научить каждого члена Профсоюза отстаивать свои права в отдельности, то они смогут защищать свои права коллективно. По словам Г.Спенсера, ***великая цель образования – не знания, а действия.*** Если это соотнести с профсоюзным обучением, то мы выбираем, как правило, активные формы обучения, те темы, которые дают возможность саморазвиваться, самореализовываться, самоорганизовываться профсоюзным кадрам и активу. Содержание учебного процесса – это в основном модульные программы, внедрение инноваций, разработанные в виде получения тех профсоюзных знаний, и которые направлены на повышения их профессионализма и компетентности, уровня информированности, знаний и методов по защите социально-экономических интересов работников, дают мотивацию профсоюзной активности, когда начинать нужно, прежде всего, с себя [5, с.171].

Современной профсоюзной организации требуется лидер, обученный мыслить и работать по-новому. То есть, способный сохранять позитивные традиции и видеть перспективы, умеющий создать успешную команду единомышленников, отстаивать права работников и выстраивать партнерские отношения с работодателями и властью. Для него важно быть с руководителем на равных, являться достойным оппонентом, общаться и договариваться с ним на одном языке.

Для этого мы в учебном процесс активно используем такие методы, как диалог, тренинги, ролевые и деловые игры, «круглые столы», проблемные семинары, экспертная панельная дискуссия, практические занятия в форме разбора конкретных ситуаций, «мозговой штурм», работа в малых группах и т. д. Одним словом, – это то, что с интересом осваивают профсоюзные лидеры сегодня.

Подтверждением этому служат ответы участников обучения на вопрос анкеты обратной связи, которые одобряют подобную форму обучения и применят полученные знания на местах в своих профорганизациях.

Принимая во внимание, что учебный процесс во многом зависит от преподавателя, мы проели серию тренингов по проблеме «Научи учителя», в данном случае «тренер-преподаватель». Целью данных тренингов было изучение основ методики преподавания и использования активных методов обучения, изучение основ психологии, риторики и физиогномики.

Как же это работает в жизни? В октябре прошлого года в рамках обучения кандидатов в тренеры-преподаватели по методике «Научи учителя» проводился тренинг, целью которого было изучение основ методики преподавания и использования активных методов обучения, изучение основ психологии, риторики и физиогномики.

Конечно, система обучения профсоюзных кадров и актива в современных условиях не может быть достаточно эффективной без использования инновационных образовательных технологий. Можно говорить о двух направлениях применения информационных технологий в профсоюзном образовании: использование мультимедийных средств для проведения очных занятий и использование средств для дистанционного обучения [6, с.214].

Внедрение компьютерных технологий в профсоюзную деятельность позволило использовать такие ресурсы, как интернет-технологии, создание текстовых, табличных документов, электронных архивов, сопровождение выступлений презентационным материалом. Опережающее развитие профсоюзного образования обеспечивается: - актуализацией содержания и практической направленностью обучения методам и способам решения проблем; развитием у обучающихся способностей «учить – учиться», навыков ориентироваться в информационном образовательном пространстве; повышением убежденности, управленческой культуры, психологической устойчивости; - совершенствованием системы повышения квалификации профсоюзных кадров и их резерва, а также актива путем создания условий для дальнейшего развития высших учебных заведений профсоюзов; - формированием оптимальной модели управления профсоюзным образованием, в которой четко определяются и согласовываются компетенция и полномочия, функции и ответственность всех структур профсоюзов, их образовательных учреждений; - созданием системы подготовки и повышения квалификации вне-

штатных преподавателей (тренеров) на базе Академии труда; - интенсификацией учебного процесса на основе современных технологий, развитием учебно-методической и информационной базы обучения, с использованием глобальной сети Интернет и локальных информационных сетей, созданием профсоюзных сайтов, применением дистанционного обучения; расширением научно-исследовательских работ по проблемам профсоюзного движения и воспитания профсоюзной культуры [4, с.189].

Профсоюзное обучение было и остается необходимым. Без него профсоюзы, как общественная организация, в принципе не могут существовать. Систематизированные знания с учетом специфики работы и умение применять их на практике - это основа эффективности профсоюзов.

**Ключевые слова:** обучение, инновация, сегменты, знания, умения, профсоюзные кадры, преподаватель

**Использованная литература**

1. Кадровая политика профсоюзов Азербайджана. Концепция Конфедерации Профсоюзов Азербайджана. Баку, 2003 г.
2. Конфедерации Профсоюзов Азербайджана (КПА). Турин (Италия), 16-28 февраля 2009 г. – презентация. Всемирный семинар.
3. Инновационные формы обучения профсоюзного актива. Учебное пособие. М.: 2010
4. Активные методы обучения в образовании трудящихся. МОТ, 1993
5. Бражко А.Л. Самообразование: организация, психология, технология. М.: АТиСО, Институт повышения квалификации профсоюзных кадров, 2003
6. Краучер Р. Активные методы в профсоюзном образовании: пособие для начинающих преподавателей. Газ. «Солидарность», № 33, 2005

**Raziyyə Maniyeva**

## HƏMKARLAR İTTİFAQLARI TƏLİMİ AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ VACİB PRİORİTETLƏRİNDƏN BİRİ KİMİ

**Xülasə**

Məqalədə Azərbaycan həmkarlar ittifaqlarının kadr siyasətini nəzərə alaraq, hazırkı mərhələdə həmkarlar ittifaqı təhsil sisteminin əsas prioritetlərinə diqqət yetirilir. Həmkarlar ittifaqı təhsil seqmentlərinin mahiyyəti açıqlanır, ona münasibət bildirilir. Eyni zamanda, innovativ formalar və tədris metodları, onların praktiki əhəmiyyəti və həmkarlar ittifaqı təlimində rolu araşdırılır.

**Açar sözlər:** təlim, innovasiya, seqmentlər, bilik, bacarıqlar, həmkarlar ittifaqları kadrları, müəllim

**Raziyya Maniyeva**

## TRADE UNION TRAINING AS ONE OF THE IMPORTANT PRIORITY OF AZERBAIJAN TRADE UNION

**Resume**

The article considers the main priorities of the system of trade union training at modern stage, taking into account the personnel policy of Azerbaijan trade union. Also, discloses the essence of segments of trade union training. At the same time, the main attention is paid to the innovative forms and methods of training, their practical importance and the role in trade union training.

**Keywords:** training, innovation, segments, knowledge, skills, trade-union personnel, teacher

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**UOT - 101.1.**

**Ağasəlim Həsənov**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.**

# MULTİKULTURALİZMİN MODELLƏRİ

*Məqalədə multikulturalizmin mahiyyəti açıqlanır və onun müxtəlif modelləri nəzərdən keçirilir. Bəzi inkişaf etmiş ölkələrin multikulturalizm modelləri müqayisəli təhlil olunur. Həmçinin, multikulturalizmə milli təhlükəsizlik maraqları aspektindən yanaşan və ehtiyatlı siyasət yürüdən ölkələr də nəzərdən keçirilir. Qeyd olunur ki, multikulturalizm siyasəti ölkənin milli maraqları və təhlükəsizliyi ilə uzlaşdırılmalı, ikincilər prinsipial məqamlar kimi öndə olmalıdır. Yəni, etnik, dini müxtəlifliyin inkişaf etdirilməsinə yaradılan şərait gələcəkdə seperatizmə yol açmamalı və ölkənin suverenliyinə təhlükə törətməməlidir.*

Multikulturalizm müxtəlif ənənələrə və mədəni normalara malik insanların intensiv birgə yaşamasıdır. Modern cəmiyyətlərdə mədəni müxtəliflik qaçılmazdır. Multikulturalizmdə tək ümumi mədəniyyət ideyası deyil, bərabər hüquqlara malik çoxlu mədəniyyətlərin birgə yaşaması əsasdır. XX əsrin sonlarını müxtəlif mədəniyyətlərə malik tolerant cəmiyyətlərin meydana çıxdığı dövr kimi qəbul etmək olar.

Müasir dövrdə bəzi dünya ölkələrinin timsalında multikulturalizmin fərqli modellərindən bəhs etmək olar:

**Birinci model.** Tarixən multikulturalizmi dövlət siyasəti kimi təqdim etmənin ilk səyləri 1960-cı illərdə Kanadada federal dövlətin inteqrasiyası ilə bağlı göstərilmişdir. Hətta bu vaxt belə hesab olunurdu ki, bilinqvizm (Bilinqvizm (ikidillik) - əhalinin müəyyən qruplarının iki və ya daha çox dildə danışa bilməsi) siyasəti milli barışığa öz töhfəsini verəcək, anqlofon və frankofon icmaları arasında kəskin ziddiyyətləri aradan qaldıracaqdır.

Kanada multikulturalizmi ölkəni “əridən qazan” kimi deyil, mədəni mozaikalar ölkəsi kimi başa düşməyə xidmət etməli idi. Digər multietnik dövlətlərdən fərqli olaraq, burada iki icma arasındakı mürəkkəb iqtisadi, sosial və mədəni ziddiyyətləri həll etmək üçün *milli identikliyin siyasi interpretasiyası prinsipindən* istifadə olundu. 1977-ci ildən burada miqrantlarla bağlı siyasətdə böyük dəyişikliklər baş verdi və sosial məsələlər deyil, ideologiya üstünlük təşkil etməyə başladı. Onun əsas məqsədi cəmiyyətin bütün üzvləri üçün onların etnik mənşəyi və dinindən asılı olmayaraq sosial bərabərliyə nail olmaq, ölkənin gələcəyi üçün bərabər vəzifələr və məsuliyyəti, bərabər sosial imkanları təmin etməklə milli identikliyi formalaşdırmaq idi.

Multikulturalizmin Avstraliya modelində etnik amillərlə bağlı məqamlara xüsusi diqqət yetirilir. Bu modelin əsas ideologiyası G.Zubrjitskinin 1983-cü ildə irəli sürülmüş olduğu “Bütün avstraliyalılar üçün multikulturalizm” adlı sənəddə müəyyənləşmişdi [2, s.47-51]. Burada ölkənin gələcək inkişafı multikulturalizmin tanınması və həvəsləndirilməsi ilə əlaqələndirilirdi. Bu yanaşmada əsas çətinlik etnik və mədəni plüralizmin inkişaf etdirməyin bu ölkə üçün spesifikliyində və vahid, ümumi Avstraliya identikliyinin tətbiqi məsələsindən ibarət idi. Siyasətdə və ideologiyada etnikliyi neytrallaşdırmağa çalışan Kanada multikulturalizmindən fərqli olaraq, Avstraliya multikulturalizmi dominant sosial dəyər kimi etnik qrupları və onların mədəniyyətlərini əsas götürür. Uyğun olaraq, 1970-ci illərin sonlarından dövlətin sosial yardımı ümumilikdə miqrantlara deyil, müəyyən etnik qruplara göstərilir. Bu siyasət onların daxili özünüidarədə rolunun artmasına, etnik icmaların başçılarının nüfuzunun artmasına xidmət etmiş oldu. Etnik qrupların liderləri dövlət tərəfindən öz məqsədlərinə çatmaq üçün aktiv şəkildə istifadə olunur.

Amerika Birləşmiş Ştatları yarandığı ilk gündən multietnik cəmiyyət olsa da burada “multikulturalizm” anlayışı yalnız 1970-ci illərdə “etnik dirçəlmə” formasında meydana gəlir. “Əridən qazan” siyasəti ideoloji prinsip kimi ölkədə baş verən prosesləri artıq izah etmək iqtidarında deyildi. Amerikada “əridən qazan” ideyası assimilyasiya üçün əsas kimi çıxış edirdi. Bu ideyaya əsasən yeni elementlər bütövün səciyyəvi xüsusiyyətlərini mənimsəyərək öz fərqli cəhətlərini itirirlər. Fərqlər

azaldıqca (xüsusilə mədəni dəyərlər sistemləri) qarşılıqlı anlama və qarşılıqlı məsuliyyət daha da artır.

Avstraliya və Kanadadan fərqli olaraq ABŞ-da multikulturalizm hökumət tərəfindən, yəni yuxarıdan deyil, dörd etnik qrupun – polyakların, yunanların, italyanların və slovakların sosial hərəkatının fəallaşmasının nəticəsi kimi aşağıdan irəli sürülmüşdür. Bu, hökumətə təkcə ağdərili anqlosaksonlara deyil, həmçinin ölkənin qaradərili vətəndaşlarına da münasibətdə siyasəti yenidən nəzərdən keçirməyə imkan verən çox mühüm bir presedent idi. Onu da qeyd edək ki, qaradərililərin hərəkatı həlledici anda azsaylı, lakin olduqca güclü təsir imkanlarına malik yəhudi əhalisi və nüfuza malik tələbə hərəkatı tərəfindən dəstəklənmişdi.

Qaradərili əhali ilə dövlət arasında münaqişənin siyasi səviyyədə nəzərdən keçirilməsi ağ qeyri-anqlosakson vətəndaşlarla münasibətlərdə də de-fakto leqal siyasi disfunksiyanın mövcudluğunu ortalığa qoymuş oldu və bu problemi siyasi sferadan (yəni dövlətlə etnik qruplar arasındakı şaquli münasibətlərdən) mədəniyyət sahəsinə keçirməyə imkan verdi. Amerikada multikultural cəmiyyətin tanınmasında leqal məsələlərdən mədəni müstəviyə keçid istər qaradərililərin, istərsə də ağdərililərin vətəndaş hüquqları uğrunda mübarizəsini siyasətsizləşdirmək imkanını yaratdı. Amerika cəmiyyətinə inteqrasiya olunmuş əvvəlki miqrant qruplarından fərqli olaraq, katoliklər ispan dilini iki nəsil boyu qoruyub saxlaya bildilər. Amerikanın bəzi ştatlarında ispan dili ikinci rəsmi dilə çevrilmişdir. Cənub ştatlarının şəhərlərində Latın Amerikasından olanların üstünlük təşkil etməsi belə fikrə gəlməyə imkan verir ki, onlar öz mədəniyyətlərini və fərqli identiklərini qorumaq əzmindədirlər. T.Eriksenin yazdığı kimi, “əgər ispandilli icma ispan dilini öz ana dili kimi saxlamaqda müvəffəqiyyətə nail olsa, biz Amerika dövlətinin qurulmasının yeni fazasının şahidi olacağıq ki, bu vaxt linqvistik müxtəliflik millətin varlığının şərtinə çevrilmiş olur” [3, s.93].

Lakin Amerika multikulturalizmi timsalında bu, linqvistik və mədəni plyuralizmdən daha çox etnikliyin artan rolundan xəbər verir. Amerika dövləti etnik cəhətdən strukturlaşmış cəmiyyətin bariz nümunəsidir. Burada etnikliyin qurulması pan-etnik qrup strukturlarının yaradılması istiqamətində baş verir ki, bu da onların siyasi çəkisinin və imkanlarının böyüməsinə imkan verir. Məsələn, etnik koreyalılar, vyetnamlılar və çinlilər arasında mövcud olan o qədər də mühüm olmayan fərqlər onlara ümumi siyasi maraqlar naminə “Amerika asiyalıları” adı altında birləşməyə mane olmur. Oxşar vəziyyət amerikalı qaradərililər arasında da mövcuddur. Belə ki, qrup maraqları nöqteyi-nəzərindən Karib hövzəsindən olan qaralar mərkəzi Afrikadan olan miqrantlardan özlərini elə də fərqləndirmirlər.

Beləliklə, ABŞ-da hazırda qüvvədə olan multikulturalizm dövlət ideologiyasının mühüm komponenti rolunda çıxış edir.

**İkinci model.** Amerika ilə müqayisədə Avropa ölkələrindəki multikulturalizm modelləri fərqlənir. Belə ki, Avropa ölkələrinin immiqrantların qəbulu və ya assimilyasiyası ilə bağlı siyasəti daha sərtliyi ilə seçilir. Bu da Avropaya gələn digər rəngdən, ənənələrdən və dinlərdən olan insanların yerli mühitə çətin adaptasiyası ilə bağlıdır. Zənnimizcə, yerli əhalidə narahatlıq doğuran əsas məqam budur.

Avropa ölkələrinə miqrant axını həmin ölkələrdə işsizlik problemini dərinləşdirir. Ötən əsrin 70-ci illərində iqtisadiyyatın radikal transformasiyası zamanı ixtisassız işçilərə tələbat xeyli yüksəlmişdi. Bir çox fəhlələrin işsiz qalması nəticəsində əmək bazarında rəqabət güclənmişdi və bu sosial sferada gərginliyin artmasına səbəb olmuşdu. Digər mədəniyyətlərdən olan əmək miqrantlarının sayının artması nəticəsində rasizm, etnik ədavət, ayrı-seçkilik kimi fenomenlər meydana gəlməyə başladı ki, bunlar da təkcə iqtisadi deyil, həm də sosial-mədəni məzmun daşımağa başladı. Yerli əhali ilə gəlmələr arasında ciddi mədəni fərqlər özünü biruzə verməyə başladı. Məlum oldu ki, miqrasiya ağrısız qarşılanmır və heç də həmişə pozitiv nəticələr vermir.

Almaniya Qərbi Avropada emiqrasiya üçün ən açıq ölkələrdəndir. Bu dövlət immiqrant ölkəsi kimi tanınmağa razılıq vermişdir. Federal Statistika Agentliyinə görə, bu gün Almaniyada 15 milyon nəfər miqrant yaşayır (ölkə əhalisi 81,2 milyon nəfərdir). Tədqiqatçı A.İ.Kuropyatnik yazır: “... Almaniyanın əhalisi multikulturalizmin perspektivlərindən şok keçirmişdir. ...Belə bir vəziyyət Almaniya əhalisinin uzun əsrlər boyu inkişaf etdirilmiş gündəlik həyatını korlamaqdadır” [4, s.307]. Ev sahibi olan cəmiyyətin inteqrasiya olunmaq istəməyən etnik azlıqların üzvlərinə inamsızlığı və narazılığı (iş yerlərinin tutulması, yerli adət-ənənələrə uyğunlaşmama, etika və əxlaq haqqında müxtəlif düşüncələr) yerli əhalinin etirazlarının artması ilə müşahidə olunmaqdadır.

Daha sonra etnik azlıqlara qarşı eyni münasibət Böyük Britaniya və Fransa liderləri də nümayiş etdirməyə başladılar.

Fransalı alimlər bu siyasətin neqativ nəticələrini əsas gətirərək, sübut etməyə çalışırlar ki, müəyyən mədəni qruplara xüsusi hüquqların verilməsi etnik icmaların müvəqqəti təcrid edilmiş vəziyyətdə olmasını daimiləşdirə və bununla da cəmiyyətin bölünməsinə və icmalararası ziddiyyətlərin artmasına səbəb ola bilər. Qrupun özünəməxsusluğunun istənilən şəkildə qanuni tanınması onlar tərəfindən yeni-yeni tələblərin irəli sürülməsinə gətirib çıxarır. Beləliklə, mədəni plüralizmin institutlaşması sosial və siyasi plyuralizmlə nəticələnir. Belə cəmiyyətin xırda hissələrə bölünməsi, fraqmentasiyası qaçılmazdır.

Milli və mədəni identikliklərinin 1990-cu illərdən başlayaraq çox tez pisləşməsinin şahidi olan bir sıra Avropa və xüsusən də Skandinaviya tədqiqatçıları *sosioloji və mədəni təhlükəsizlik konsepsiyasını inkişaf etdirmişlər*. Onlar immiqrant icmalarının rahat şəkildə milli mədəniyyətə inkorporasiya olunmalarının potensial məhdudiyyətlərini (məsələn, öz mədəni xüsusiyyətlərini, doğma dillərini itirmələrini) qiymətləndirməyə başladılar.

Almaniya kansleri Angela Merkel Qərbi Avropada multikulturalizmə ilk reaksiya verən Avropa lideri oldu. O, 2010-cu ilin oktyabr ayında Potsdam Xristian Demokrat İttifaqı (PXDİ) gənclər təşkilatının iclasındakı çıxışı zamanı Almaniyanın təhsil sistemində multikultural yanaşmanı kəskin şəkildə tənqid etdi və müxtəlif millətlərdən olan insanlar üçün ayrı-ayrı məktəblərin mövcudluğunun immiqrant uşaqların onları qəbul edən icmalara inteqrasiyasını məhdudlaşdırmasına şərait yaratdığını qeyd etdi. Merkel belə məktəblərin şagirdlərin sosial inkişafına əngəl törətməklə onlar tərəfindən alman dilinin mənimsənilməsinə mane olmasını diqqətə çatdırdı. Məsələn, onun fikrincə, türk immiqrantların uşaqları Almaniyadakı müavinətlərdən bəhrələnsələr də eyni zamanda buradakı türk məktəblərinə gedir, türkcə kitab oxuyur, türk qonşuların yaxınlığında yaşayır və türk telekanallarına baxırlar.

Böyük Britaniyanın sabiq baş naziri Devid Kameron ölkədə yaşayan gənc müsəlmanlarda öz etnik icmalarına tam bağlılıqdan başqa bir identikliyin olmamasını və multikulturalizmi tətbiq etmək üçün müəyyənləşdirilmiş inteqrasiya modelinin effektsizliyini və hətta təhlükəliliyini təəssüf hissilə nəzərə çatdırdı. Onun fikrincə, etnik azlıqlara öz “tarixi identikliklərini” qoruyub saxlamaq üçün verilmiş azadlıq Böyük Britaniyanı seqreqasiya olunmuş cəmiyyətə aparır və bunun izlərini indidən aydın görmək mümkündür [5].

Fransız politoloq A.Turen hesab edir ki, Fransada multikulturalizmin genişlənməsi mövcud sistemin məhvi ilə nəticələnə bilər. Digər fransız tədqiqatçıları daha da irəli gedərək belə qəribə fikirlər səsləndirirlər ki, dünyada guya multikultural dövlət yoxdur və bu vəziyyətin özü qeyri-təbiidir çünki o, milli deqradasiyaya aparır və əksinə, ölkədə vahid dominant mədəniyyət mövcud olmalıdır və onun daxilində digər mədəniyyətlər özlərini qoruyub inkişaf etdirməlidirlər. 2011-ci ildə Fransa prezidenti Nikolya Sarkozi etiraf etdi ki, birlikdə yaşamaq və bir-birinə hörmət cəhdi tamamilə uğursuzluğa düçar olmuşdur. Oxşar fikirləri Avropa Şurasının nümayəndələri, Norveç, Belçika və Niderland rəsmiləri də səsləndirmişlər. Bu isə hazırda multikulturalizmə fərqli münasibətin olmasını göstərir.

Daha sonra qeyd edək ki, ümumiyyətlə geniş mədəni sferada azlıqların müvəffəqiyyəti çoxluğun mədəni hüquqlarının pozulması hesabına baş verməməlidir. İstər çoxluğun, istərsə də milli, dini azlıqların hüquqları ölkə konstitutisiyasının müəyyən etdiyi norma və qaydalara uyğun tənzimlənməlidir. Həmçinin, cəmiyyətdə multikultural mühitin yaranması üçün fərdlər ümumi razılığa gəlməli, kompromisə getməli, öz ideallarından müəyyən qədər imtina etməli, digər vətəndaşların baxışları ilə razı olmalı, əks fikirlərə də hörmətlə yanaşmalıdırlar.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev qeyd edir: “Tarixi prosesdə formalaşan etnik-mədəni müxtəlifliklər ... və onların əsasını təşkil edən etnik-mədəni dəyərlər xalqların və dövlətlərin inkişafında mühüm rol oynayır. Lakin bu müxtəlifliklər dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün tənzimlənmədikdə, ölkədə uyğun multikultural siyasət formalaşmadıqda ciddi problemlər, hətta münaqişələr baş verir. Buna görə də bu müxtəlifliklərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük əhəmiyyət kəsb edir [1].

Multikulturalizmə fərqli yanaşmaların mövcud olması anlaşılandır. Bəzi inkişaf etmiş ölkələrin multikulturalizmə önəm verməməsinin əsas səbəbi orada oturuşmuş vətəndaş cəmiyyətinin ol-

ması ilə bağlıdır. Digər tərəfdən isə multikulturalizmə milli təhlükəsizlik maraqları aspektindən yanaşan və ehtiyatlı siyasət yürüdən ölkələrin sayı da kifayət qədərdir. Multikulturalizm siyasəti ölkənin milli maraqları və təhlükəsizliyi ilə uzlaşdırılmalı, ikincilər prinsipal məqamlar kimi öndə olmalıdır. Yəni, etnik, dini müxtəlifliyin inkişaf etdirilməsinə yaradılan şərait gələcəkdə seperatizmə yol açmamalı və ölkənin suverenliyinə təhlükə törətməməlidir.

Multikultural mühitin yaranması ümumi vətəndaşlıq hissinin formalaşması ilə bilavasitə əlaqədardır. Belə ki, vətəndaşlıq bir etnosa və ya dinə mənsub olmadan daha əhəmiyyətlidir. Vətəndaşlıq status və hüquqlarla malik olmaqla hər hansı bir ölkədə yaşamaq deməkdir. Bərabərhüquqlu vətəndaşlıq hissinin formalaşması və möhkəmlənməsi cəmiyyətdə sabitliyin vacib şərtlərindən biridir. Tarixi təcrübə göstərir ki, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişaf etdiyi ölkələrdə hər bir vətəndaş hansı etnosa və ya dinə mənsub olmamasından asılı olmayaraq bərabərhüquqlu vətəndaş kimi qəbul edilir.

**Açar sözlər:** multikulturalizm, dəyərlər, modellər, mədəniyyət, dövlət

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev K.M. Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri. "Yeni Azərbaycan" qəz., Bakı, 2015, 24 iyun
2. Castles S. Sozialwissenschaften und ethnische Minderheiten in Australien // Ethnizität Wissenschaft und Minderheiten / Hrsg. E. Dittrich, F.-O. Radtke. Opladen, 1990
3. Eriksen T. Ethnicity and Nationalism: Anthropological Perspectives. London: Pluto, 1993
4. Куропятник А.И. Мультикультурализм: идеология и политика социальной стабильности полиэтнических обществ. Журнал социологии и социальной антропологии. 2000, Том 3, № 2
5. http://www.independent.co.uk/news/uk/politics/cameron-my-war-on-multiculturalism2205074.html The Independent. Thursday 29 January 2015

**Агасалим Гасанов**

## МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

**Резюме**

В статье раскрывается сущность понятия мультикультурализма и рассматриваются его различные модели. Проводится сравнительный анализ моделей мультикультурализма в некоторых развитых странах мира. Кроме того, рассматриваются страны относящиеся к мультикультурализму через интересы национальной безопасности, а также проводящие сдержанную политику. Отмечается, что политика мультикультурализма должна соответствовать национальным интересам и безопасности страны, где последние будучи принципиальным моментом должны быть опережающими. Другими словами, условия, созданные для развития этнического, религиозного разнообразия в будущем, не должны приводить к сепаратизму и создавать угрозу суверенитету страны.

**Ключевые слова:** мультикультурализм, ценности, модели, культура, государство

**Aghasalim Hasanov**

## MODELS OF MULTICULTURALISM

**Summary**

The article studies the concept of multiculturalism and examines its various models. It comparatively analyzes the models of multiculturalism in some developed countries. At the same time, it analyzes the countries which approach the multiculturalism through the national security interests and conduct safe policy. It is noted that the multiculturalism policy must conform to the national interests and security of the country, and the last ones as the fundamental point should be ahead. Therefore, the conditions created for the development of the ethnic, religious diversity should not open the way to separatism and creat a threat to the sovereignity of the country in future.

**Keywords:** multiculturalism, values, models, culture, state

**UOT – 101.1**

**Azad Cəfərov**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, fəl.ü.f.d., dosent**

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI İDEOLOJİ MƏSƏLƏ KİMİ

*Məqalədə milli-mənəvi dəyərlərimizin inkişafı, bu inkişafın dinamik prosesə çevrilməsinin əsasları, ictimai, tarixi, mədəni, sosial-psixoloji amillərin rolu araşdırılır. Mövcud dəyərlərin H. Əliyev tərəfindən dövlət siyasətinə çevrilməsi, Prezident İ.Əliyev və Birinci Vitse-prezident M.Əliyeva tərəfindən mədəniyyətimizin bəşəri mədəniyyətə inteqrasiyası və milli-mənəvi dəyərlərimizin brendə çevrilməsi üzrə səyləri məqalədə öz əksini tapır.*

Bu günə qədər gəlib çıxan milli-mənəvi xüsusiyyətlərimizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək məsuliyyəti zamanın arxi vacib məsələlərindən hesab edilməlidir. Bu sahədə də dövlətimizin, siyasi xadimlərimizin qeyd olunan məsələlərə böyük diqqət yetirmələri təqdirəlayiqdir.

Belə ki, başda Heydər Əliyev fondu olmaqla, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının yanında Gənclər fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və s. onlarla dövlət, ictimai və qeyri-dövlət qurumlarının fəaliyyəti qeyd olunan sahəyə töhfə verməkdədir. Mədəniyyətimizi inkişaf etdirmək dayanıqlı və davamlı inkişafı təmin etmək, bu gün dövlətin prioritet istiqamətini təşkil edir. Dahi Azərbaycan filosofu Nizami Gəncəvinin sözləri ilə desək,

Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyir olmuş, kinindən ziyan.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakı Qlobal Forumdakı çıxışında qeyd etmişdir ki, “Azərbaycanda – bu qədim torpaqda həmin müxtəlif millətlərə mədəniyyət və ənənələrə məxsus insanlar yaşamışlar. Onların hər biri öz töhfəsini vermiş və tarixdə öz izini qoymuşdur. Bu gün ölkəmizdə xristianlar, müsəlmanlar və yəhudilər sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Tolerantlıq anlayışı xalqımız üçün hər hansı nailiyyət deyildir: bu, normadır, bu həyat tərzidir. Biz heç vaxt başqa cür yaşamamışıq... Azərbaycan xalqının ən böyük sərvətidir” [7, s.24]. Məruzəçinin Azərbaycan xalqına, xüsusilə Azərbaycan gənclərinə səslənməsinin, kökündə müasir cəmiyyətin mədəni həyatında gənclərin bilik və bacarıqlarının aşkar edilməsi, onlar üçün şəraitin yaranması, nəticədə onsuz da kövrək olan müstəqilliyimizin möhkəmlənməsində yaradıcı gənclərin formalaşmasının aktuallığından xəbər verir.

Xüsusilə Azərbaycan gəncliyinin cəmiyyətdəki, yeri və rolu, müxtəlif dövlət və ictimai tədbirlərdəki uğurları sağlam vətəndaş cəmiyyətinin formalaşmasından xəbər verir. Mənəviyyatca zəngin gənclikdə vətənpərvərlik ruhu yüksək olar. Müstəqilliyimizin möhkəmlənməsinə, işğal olmuş torpaqların geri qayıtmasına səbəb olar. Qeyd olunan nəticənin yolu isə milli-mənlik şüuru, milli özünüdərkdən keçir. “Real mövcud olan və normal fəaliyyət göstərən əsl millətdən yalnız o vaxt danışmaq olar ki, həmin millətin obyektiv əlamətləri, onun dəqiq ifadə olunmuş milli mənlik şüuru ilə tamamlanmış olsun” [4, s.334], deməklə müəllif cəmiyyətin formalaşmasının və inkişafının əsasında elmi tədqiqatların və elmi müddəaların işlənməsi durur. Bu sahədə alimlərimiz çoxlu araşdırmalar aparmış və bunlardan Qərib Allahverdiyevin ərsəyə gətirdiyi tədqiqatda göstərilir ki, “milli mənlik şüuru millətin öz milli varlığını adekvat və dərindən mənalandırmaq keyfiyyətinə malik olduğu üçün, burada azadlıq, xüsusilə də milli azadlıq anlayışı, onu real həyata keçirməyin üsul və vasitələri, amilləri dəqiq ifadə olunur” [2, s.81]. Yəni azad düşüncə tərzini milli mənlik şüurundan ayır-

maq olmaz. Əks halda üstünlük, adi şüur tərzinə keçər ki, nəticədə səviyyəsizlik, bu və ya digər məsələlərə münasibətdə yanlış mövqe yaranmış olar. Deməli, istənilən halda elm, təhsil, yaradıcılıq istənilən məsələlərin əsasını təşkil etməlidir.

Son zaman alimlərimizin tədqiqatları göstərir ki, XXI əsrin əsas kapitalı ölkələrin, maliyyə imkanları və təbii resurslarının zənginliyi ilə bərabər demək olar ki, eyni səviyyədə insanların intellektual potensialı durur. Hal-hazırda Şərq ölkələrində baş verən hadisələrin əsas səbəblərindən biri də məhz bu ölkələrin zəngin neft ehtiyatları hesabına varlanması, lakin bu ölkələrdə təhsilin kütləvi xarakter almaması nəticəsində cəmiyyətdə olan təbəqələrin qarşıdurmasına gətirib çıxarmışdı ki, bu da sonda cəmiyyətdə inqilabi proseslərlə nəticələndi. Bu isə istənilən cəmiyyət üçün arzuolunmaz hal hesab edilə bilər.

Qərb ölkələrindən müasir texnologiyanın ölkəmizə gətirilməsi iqtisadi imkandan irəli gəlirsə, bu avadanlıqları idarə edə bilən, işlədə bilən kadr potensialına da ehtiyac artır. Deməli xaricdə hazırlanan milli kadrların səmərəli istifadəsinə maksimum diqqəti artırmaq tələb olunur. Lakin onların təhsil aldıqları mühitlə, yaşayış səviyyəsiylə, respublikamızdakı mövcud vəziyyəti nəzərə alsaq problemlərin həllinə yönəlmiş təxirəsalınmaz addımların atılması zamanı yetişmişdir. Digər tərəfdən intelektual potensialın daimi özünüinkişaf (dinamik) prosesə çevirmək istiqamətində, millilik və bəşərililik, qabaqlayıcı təhsilvermə, professional, konkret biliklərə yiyələnməklə bərabər, universal biliklərə yiyələnmə, bütün həyat boyu təhsilalma (fasiləsiz təhsil), yəni maliyyələşmə modelinə keçid nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, hal-hazırda böyük şirkətlər öz məhsullarının təbliğinə nə qədər vəsait ayırırlarsa, təhsil treninqlərinin keçirilməsinə ondan da çox vəsait ayrılır. Bu isə ona dəlalət edir ki, insan kapitalı ilə maliyyə arasındakı mütənasiblik işlək mexanizmə çevrilib. Nəticədə milli texnologiyaların yaranması baş verir və inkişafı daimi prosesə çevirir.

Qeyd olunanları Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə ifadə etsək “İqtisadiyyatda, mədəniyyətdə, elmdə, həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən kökü olan məktəbdir, təhsildir, müəllimdir” [6, s.6]. Bu o deməkdir ki, milli mənsubiyyətimizin qorunub saxlanmasının, milli dəyərlərin yaşamasının yolu iqtisadi kapitalı, insan kapitalına çevirilməsindən keçir. Bu da öz növbəsində azərbaycançılıq ideyasına xidmət edir. Heydər Əliyev demişdir: “Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə sintezindən, inteqrasiyasından bəhrələnmə və hər bir insanın inkişafını təmin etmək deməkdir” [1, s.5]. Bu fikirlər təkcə respublikamızda yaşayan Azərbaycan vətəndaşlarına ünvanlanmamışdır. Bu həm də dünyada yaşayan həmvətənlərimiz üçün, onların mənsub olduğu milli mənliyi, milli xüsusiyyətləri yaşatmağı nəzərdə tutur. Ölkədə yaşayanların öhdəsinə xalqımızın milli-təbii sərvəti sayılan neft və qaz məhsulu brendini, digər sahələrdə istehsal olunan məhsulların milli brendə çevrilməsi istiqamətində görüləcək səylərin yol xəritəsini ifadə edir. Təbiidir ki, qeyd olunanlar, yalnız müstəqil, azad, demokratik inkişaf etmiş cəmiyyətdə mümkündür. Əgər rus alimi Solovyovun fikirlərinə əsaslansaq o deyir ki, demokratiya daim çoxfikirlilik yaradır, ictimai həyatın mənəvi məkanını rəngarəng edir, eyni zamanda o hakimiyyət forması kimi, sosial entropiyanın qarşısını almalı və cəmiyyəti birləşdirməyə cəhd göstərməlidir.

Çoxmillətli Azərbaycan xalqının vahid bir ideya ətrafında birləşməsi, milli mənəvi dəyərlərin mövcudluğu və bu dəyərlərin mükəmməl tarixi irsə bağlılığı imkan verir ki, azərbaycançılıq ideologiyasını konkret əməli fəaliyyətlə həyata keçirib əbədiliyini təmin edib, gələcək nəsillərə ötürməyə nail olaq.

Dünya mədəniyyətinə böyük töhfə verən bir xalq olduğumuzu, bu mədəniyyəti yaşadıb inkişaf etdirmək üçün bugünkü nəslin üzərinə böyük məsuliyyət düşür. Baxmayaraq ki, tarix boyu müxtəlif imperiyalar tərəfindən çox böyük təzyiqlərə məruz qalmışıq, milli-mənəvi dəyəri, mənəvi-əxlaqi mentaliteti yaşatmağa müvəffəq olmuşuq. Eyni zamanda milli-mənəvi dəyər olan dini dəyərləri yaşatmağa nail olmuşuq. Hətta müxtəlif etnik azlıqların, milli azlıqların dini dəyərlərinə hörmətlə və rəğbətlə yanaşmışıq. Onların mədəniyyətlərinin qorunub inkişaf etdirilməsinə də yaxından yar-

dım etməyə yaşatmağa dəstək olmuşuq. Bu isə mənəviyyatca zəngin bir xalqa məxsus olmağımızdan xəbər verir. Dünyanın çox ölkələrində bu prosesin tam tərsini müşayət etməkdəyik. Multikulturalizmin və tolerantlığın bizim xalqın həyat tərzi olmasını bir daha sübut edir. Azərbaycanlılar tərəfindən insanlığa, insani münasibətlərə daha çox önəm verməsi nəticəsində belə keyfiyyətlərin şahidi oluruq. Müstəqilliyimizin əldə olunması nəticəsində sərhədlər açılmışdır. Azərbaycan, bir dünyəvi ölkə olaraq öz qapılarını digərləri üçün açmışdır. Bunun nəticəsində xalq başqa mədəniyyətlərə inteqrasiya olmuşdur. Burada əsas məsələ ondan ibarət olmalıdır ki, bu, inteqrasiya prosesində milli-mənəvi özəlliyimizi qoruya bilək. Belə ki, dünya bizə məhz bu xüsusiyyətlərə görə rəğbət göstərəcəkdir.

Bəzi alimlər Avropa dəyərləriylə Azərbaycan dəyərlərinin oxşar və fərqli cəhətlərini araşdırarkən avropanı yunan elmi nailiyyətlərinə bağlayırlar. Məlumdur ki, yunan mədəniyyəti də öz növbəsində şərq mədəniyyətindən bəhrələnmişdi. Azərbaycan mədəniyyəti isə öz kökünə əsaslanan müdriklik fəlsəfəsini əsas götürüb. Sözsüz ki, hər bir xalqın varis olduğu mədəniyyət həmin xalq üçün doğma hesab edilir. Nəzərə alsaq ki, mədəniyyət artıq uzun müddətdir ki, təkcə bir xalqa məxsus olmasına baxmayaraq ümumbəşəri xarakter daşıyır. Əgər o mədəniyyətdə ümumbəşəri cəhətlər, dəyərlər üstünlük təşkil edirsə, hansısa xalqın mədəni irsi yoxdursa, təbii ki o xalq çalışacaqdır ki, yüksək inkişaf etmiş olan xalqın mədəni irsini mənimsəmə yolu ilə özününküləşdirsin. Müasir dövrdə belə hadisələrlə tez-tez rastlaşırıq. Hətta terrorizm, separatizm, etnik təmizləmə üsulundan istifadə etməklə məqsədlərinə çatmaq üçün yararlanırlar. Bəzən də buna nail olurlar. Buna nümunə olaraq erməni radikal milliyyətçilərini, faşistlərini göstərmək olar. Artıq iki yüz ildən çoxdur ki, havadarların köməyi ilə Azərbaycanın əzəli torpaqlarını işğal etməklə yanaşı, bu torpaqlarda mövcud olan coğrafi, arxeoloji, mədəni irsə məxsus Azərbaycan adlarını dəyişdirir, maddi, mədəni abidələri məhv edir, müxtəlif vasitələrlə irsimizin mövcudluğunu tarixdən silirlər.

Bütün qeyd olunanlara baxmayaraq azərbaycan xalqının müstəqil dövləti vardır. Bu dövlət günü-gündən inkişaf edir və çiçəklənir. Güclü dövlət quran müasir Azərbaycan gec-tez öz itirdiklərinə sahib olacaqdır. Heç bir azərbaycanlının buna zərrə qədər şübhəsi yoxdur. Bu qənaətə gəlməyin həddən artıq çox əsasları vardır. Yuxarıda qeyd olunan mənəvi dəyərlərlə bərabər möhkəm bağlarla bağlanan və fundamental dayağa söykənən ailə institutları mövcuddur. Xalqın yaşamasının bünövrələrində duran milli-mənəvi, ruhun və ondan bəhrələnən milli-mənəvi dəyərlərin, sosial-psixoloji amilin genetik yolla ötürülən azərbaycan ailəsi modeli öz unikallığı ilə, ailədaxili münasibətlərlə zəngin xüsusiyyətlərə malik olması ilə dünya xalqları içərisində fərqlənir. Bu da onu qeyd etməyə imkan verir ki, adət-ənənələrlə, qəhrəmanlıq keyfiyyətləriylə, qürur hissinin, yüksək olmasıyla mənliyə, təəssüfkeşliyə və digər psixoloji əlamətlərə malik olmaqla bərabər, ailə münasibətlərinə önəm verməsi xüsusiyətidir ki, ailənin mənəvi-əxlaqi kimliyində özünü büruzə verir.

Bu sahənin mütəxəssisi sayılan Azərbaycan alimi Taleh Hacıyevin araşdırmaları nəticəsində gəldiyi qənaətə görə məhz ailə ruhunu daşıdığı xalqın mental təxəyyülünü təlqin etməklə yanaşı, fiziki baxımdan formalaşdığı cəmiyyətin dəyərini bərqərar edərək yaşam şərtlərini müəyyənləşdirir. Mental təxəyyülü insanların məişətində əks etdirməklə xalqın mədəniyyətinə mühüm təsirlər göstərir [3, s.405]. Nəticədə bütün bu şərtlər və təsirlər məhrumiyyət və çərçivələrin timsalında xalqın mədəni-mənəvi bütövlüyünün saflığının və özünəməxsusluğunun qorunmasına xidmət göstərir. Deməli, demoqrafik problemin olmamasına təsir edir. Ölən millət yox, artan millət olur. Nəticə etibarilə etnik dəyərləri yaşatmış, ailə institutunu möhkəm dayaqlara söykəmişdir. Məhz bu amilə görə xalqa məxsus olan dəyərli sayılan xüsusiyyətlər bu səbəbdən bütün tarixi çətinliklərə baxmayaraq yaşamış, yaşayır və yaşamaqda davam edir.

Yalnız bir şərtlə Azərbaycan ailə münasibətlərinin modelinə kənar müdaxilələrdən mühafizə edib saflığını qorumaq lazımdır. Gen yaddaşına və kökə bağlılıq ənənəsinə sadiq olmaq lazımdır.

Hətta indiki dövrdə respublikamızın müxtəlif ərazilərinə səyahət edən zaman tarixin müxtəlif mərhələlərinə aid milli-mədəni dəyərləri özündə əks etdirən maddi-mənəvi nümunələrə rast gəlirik. Buna insanların yaşam tərzindən tutmuş, inanc və dini etiqadların mövcud olduğu məkanları əyani olaraq göstərmək olar. Müxtəlif mədəniyyətlərin qovuşduğu yerlərdə qohumluluq, mehriban qonşu-

luq, sevincli halların bölüşdürülməsinin, yasda isə hamılıqla dərdə şərik olmağın qanunauyğun hal kimi qəbul edilməsinin şahidi oluruq.

Xalqa məxsus olan bütün dəyərlərə görə Azərbaycan ailəsinə borcluyuq. Məhz azərbaycan ailəsinin yaratdığı azərbaycanlı düşüncəsi bütün tarix boyu müqəddəs bir hal kimi qorunub inkişaf etdirilmişdir. İnsan tərbiyəsinin önəmli əsasını təşkil edən azərbaycanlı ailəsinin özəlliklərini elmi şəkildə tədqiq edib, onu digər xalqlar üçün nümunə ola biləcək halda təbliğ etməyin zamanı çoxdan çatmışdır. Bizim milli kimliyimizi, milli mənliyimizi, bir sözlə, bizi millət edən azərbaycanlı ailəsinin milli-mənəvi dəyərlər sistemində özünəməxsus yeri vardır. Müasir dövrdəki ailə modeli əvvəlki dövrdəki ailə modellərindən onunla fərqlənir ki, indiki müstəqil, milli dövlətimizin təsiri altında formalaşan ailə modeli müasirləşir, zənginləşir, yeni xüsusiyyətləri özündə təcəssüm etdirir. Ən önəmlisi burada neqativ əlamətlərin azərbaycanlı ailəsinə daxil olan elementlərin qarşısının alınmasıdır. Ən gözəl nemətimiz sayılan milli dəyərlərə görə istənilən ideya ətrafında birləşə bilməyimizdir. Deməli, burada görüləsi işlər çoxdur. İctimai nəzarətin önəmli olması diqqəti çəkir.

Cəmiyyətimizdə olan demokratikləşmə, mövcud olan qanunlar, iqtisadiyyatımızın günü-gündən güclənməsi, hər bir azərbaycanlı ailəsinin rifahının yüksəlməsi nəticəsində hər birimizin iftixar hissinə çevrilməlidir. Bu isə o zaman baş verir ki, ailədaxili münasibətlərdə hörmət, qeyrət, mərdlik, qarşılıqlı anlaşma kimi xüsusiyyətlər cəmiyyət tərəfindən qiymətləndirilməli və tərbiyəvi işin daima gündəmdə olması nəzərdən qaçmamalıdır.

Yeni-yeni texnologiyaların, internetin həyatımıza daxil olması, bu yeniliklər fonunda münasibətlərin formalaşması istiqamətində bir sıra çətinliklər yaradır. Hər bir insana qloballaşmanın təsir etməsi danılmaz faktdır. Bu yeniliyin ən çox təsir dairəsi Azərbaycan gəncliyidir. Dövlətimizin apardığı siyasətin əsasını da məhz bizə yad olan ideologiyaların neqativ təsirinin qarşısının alınması və azərbaycanlıların təhlükəsiz və əmin-amanlıq şəraitində yaşamalarını təmin etməkdən ibarət olmasıdır. Milli-mənəvi dəyərlərə söykənən sağlam Azərbaycan vətəndaşı, güclü dövlətin təməlini təşkil edir. Bu dəyərlər yalnız iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən mükəmməl, sosial cəhətdən təminatlı, mənəvi cəhətdən zəngin olan azərbaycan vətəndaşının sayəsində mümkündür.

Azadlığı çox çətinliklə əldə edən azərbaycan vətəndaşı onun qədrini də yaxşı bilir. Ona uzanan əlləri də qırmağın təcrübəsini bilir. Burada xalq şairi Xəlil Rzanın yazdığı şeir yerinə düşür:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm Bir həb kimi, Dərman kimi.
Mən azadlıq istəyirəm Səma kimi, Günəş kimi, Cahan kimi [5, s.13].

Azərbaycanda keçmişdə olduğu kimi poetik fəlsəfənin nümayəndələri müasir dövrdə də milli ruhdan gələn azadlıq, müstəqillik ideyalarına sadiq qalmış və bunun sayəsində də öz suveren dövlətinin yaranmasına müvəffəq olmuşdur. Yalnız bu xalq tarixi şəxsiyyət olan Heydər Əliyevin apardığı siyasət nəticəsində, liderliyi nəticəsində öz müstəqilliyinə qovuşa bilmişdir [8, s.102]. Müstəqilliyi əldə etmək olar, yalnız əsas məsələ onu qoruyub saxlamaqdan ibarətdir. Hansı dövrə nəzər yetirsək görərik ki, milli ruhda əsərlər ərsiyyəyə gəlmiş, fəlsəfi ideyalar mövcud olmuşdur. Mədəniyyətimiz uzun bir tarixi yol keçərək bu günə qədər gəlib çatmışdır. Respublikamızın ictimai-siyasi xadimi olan Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişaf etdirilməsindəki səyləri danılmaz faktdır və xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Xalqın mənəviyyatını zənginləşdirən irsi yaşatmaq və inkişaf etdirməkdən məsuliyyətli və savab iş yoxdur. Bu misilsiz zəhmətə kölgə gətirənlər isə təbii ki, xalqın düşmənləridir.

Milli mənəvi dəyərlərin dinamik inkişafını təmin edən Azərbaycan təhsili daima təkmilləşir, yeniləşir, müasirləşir. Bu istiqamətdə baş verən islahatlar dünya təhsil sisteminə uyğunlaşdırılır. Mənəviyyatın başlıca əsası maarifçilik və təhsildən, ailə və cəmiyyətdən gəlir. Dövlət başçısının səyləri məhz mövcud olan milli-mənəvi dəyərlərin qorunması, təhlükəsizliyi, torpaqların azad olması ölkəmizin dünyəvi sivil cəmiyyətə çevrilməsinə yönəlmişdir.

**Açar sözlər:** azərbaycançılıq, milli-mənəvi dəyərlər, milli ideologiya, dinamik inkişaf, multikulturalizm

**İstifadə edilmiş ədəbiyyat**

1. Allahverdiyev Q. Azadlığın sosial-fəlsəfi tədqiqinin metodoloji məsələləri. Bakı: Avropa, 2016, 216 s.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.
3. Aydınoğlu T. Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir. “Xalq” qəz., №99, 2009, 8 may
4. Hacıyev Z.C. Fəlsəfə. Bakı: Turan evi, 2012, 488 s.
5. Azərbaycanşünaslığın Aktual Problemləri mövzusunda II Beynəlxalq Elmi Konfransın Materialları, 4-7 may 2011-ci il, Bakı-Gəncə, s.405
6. Xəlil Rza Ulutürk: biblioqrafiya. Bakı: 2017, 464 s.
7. Tolerant Azərbaycan gənci. Bakı: 2017, 120 s.
8. Ulu öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemləri / AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Bakı: ADPU nəşriyyatı, 2012, 294 s.

**Азад Джафаров**

## ЗАЩИТА НАЦИОНАЛЬНО НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ КАК ИДЕОЛОГИЧЕСКАЯ ПРОБЛЕМА

### Резюме

В статье рассматриваются развитие национально-духовных ценностей, основы преобразования этого развития в динамический процесс, раскрывается роль общественных, исторических, культурных, социально-психологических факторов. В статье освещено преобразование в государственную политику существующих ценностей Гейдаром Алиевым, интеграция культуры и инициатива превращения в бренд национально-духовных ценностей Азербайджана со стороны президента Ильхама Алиева и вице-президента Мехрибан Алиевой.

**Ключевые слова:** азербайджанизм, национально-духовные ценности, национальная идеология, динамическое развитие, мультикультурализм

**Azad Jafarov**

## PROTECTION OF NATIONAL-SPIRITUAL VALUES AS AN IDEOLOGICAL ISSUE

### Summary

The article studies the development of national-spiritual values, the transformation of this development into dynamic process, discloses the role of public, historical, cultural, socio-psychological factors. The article deals with the transformation into the state policy of existing values by Heydar Aliyev, the integration of culture and initiative of transformation into a brand of Azerbaijan's national and spiritual values by president Ilham Aliyev and vice-president Mehriban Aliyeva.

**Keywords:** azerbaijanism, national-spiritual values, national ideology, dynamic development, multiculturalism

**УДК – 016.94**

**Тамилла Гасанова**
**Азербайджанская Академия Труда и Социальных Отнощений**

## ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ БАКУ - ГЫЗ ГАЛАСЫ (ДЕВИЧЬЯ БАШНЯ)

*В статье рассматривается история великолепного памятника, ставшего символом Баку - Девичьей башне. В работе рассматриваются основные версии предназначения архитектурного сооружения и предположения об истории создания щедевра.*

Каждый житель города Баку и каждый приезжий знает о существовании в городе величественного памятника - Девичьей башни. Важно понимать, что неповторимый архитектурный стиль и таинственность создания этого памятника культуры продолжают вызывать многочисленные споры в научном сообществе  и манить к себе толпы туристов. Не секрет, что восточный архитектурный стиль отличается разнообразием и яркой спецификой, при этом Гыз галасы встроена в выступ береговой скалы и возвышающаяся в юго-восточной части крепости Ичери Шехер не имеет аналогов ни в восточной, ни в европейской архитектурной традиции. Первое упоминание о Гыз-Галасы (Девичья Башня) относится, к 1403 году, когда уроженец Баку Абд ар-Рашид ал-Бакуви писал о Баку, что там имеются две прочные крепости из камня чрезвычайно укрепленные. Одна из них большая, стоит близ моря, волны которого бьют в ее стены. Эти сведения можно отнести к Гыз-Галасы (Девичья Башня) [3, с.23-38]. Название Гыз-Галасы (Девичья Башня) связано с названием гузских или огузских племен.

Рассматривая исторический потенциал Девичьей башни, нельзя не отметить, что Азербайджан богат историческими культурными памятниками. Если книги – письменная память народа, то памятники – каменная память истории. В средние века невиданного расцвета достигла и приобрела мировое значение культура Азербайджана: литература, музыка, ковроткачество и другие виды декоративного искусства. Эти слова целиком можно отнести и к историческим памятникам, являющимися уникальными произведениями азербайджанских зодчих древних времен средневековья. В истории мирового зодчества и градостроительства они заняли свое достойное место.

Национальным достоянием, жемчужинами архитектуры можно назвать такие исторические и культурные памятники как: Мавзолей Момине Хатун в Нахчиване (1186), Карабаглар (1162), Гюлистан (близ Джульфы, XVIII век), Купола Барды (1322), оборонительные сооружения Апшерона, Девичья Башня в Баку, Баильская крепость, Дворец Ширваншахов (XV век), относящиеся к албанскому периоду христианские храмы «Килседаг», исторический памятник «Дирибаба» в селении Мирза Шемахинского района (1405), Худаферинский мост на реке Аракс (XII век), Сыныг-керпю в Газахском районе (XII век), Дворец шекинских ханов (XVIII век), памятники Шуши, Чухур хамам  и Джума месчид в Кубе (конец XVIII века) и еще сотни исторических памятников [9].

Легенды о Девичьей башне также неоднозначны: по одной из них Гыз-Галасы повествует о страстной любви между дочерью шаха и рыбаком. Каждый день, чтобы увидеть свою возлюбленную, рыбак приходил к башне у моря. Он мерно шагал по поверхности моря «на парусах веры любви». Шло время. Их любовь все больше крепла и придавала влюбленным силы для преодоления любых препятствий на своем пути. Но однажды, на обратном пути, вера рыбака поколебалась, и он стал тонуть. Дочь шаха, провожавшая взором своего возлюбленного, увидев, что он тонет, бросилась с башни, чтобы спасти его и сама утонула, ибо страх в ее душе превысил веру. С того времени башня эта стала называться в народе Гыз-Галасы (Девичья Башня), став символом величия веры и любви, чистоты и храбрости [4]. По другой версии шах был влюблен в собственную дочь и избегая позора девушка покончила с собой, бросившись в море. Можно предположить, что возможность брака между отцом и дочерью определяет возникновение легенды еще в доисламский период. Важно то, что легенда свидетельствует, что Каспийское море плескалось у самого подножья башни. Вне зависимос-

ти от происхождения, сюжет легенды стал любимой темой многих художников и поэтов. Первый советский фильм, созданный в Азербайджане в 1924 году, основывался на сюжете легенды «Девичья башня». В 1923 году известный драматург Джафар Джабарлы написал поэму «Девичья башня», а первый азербайджанский балет, созданный Афрасиябом Бадалбейли создан в 1940 году.

Легенда о Девичьей башне, с которой, по одной из версий, бросилась заточенная в нее юная дочь шаха, стала сюжетом для многих произведений азербайджанской культуры. Девичья башня значит для Баку не меньше, чем Эйфелева для Парижа. Вокруг даты постройки и назначения Девичьей башни до сих пор ведутся споры, башня вдохновляет исследователей своей незаурядной формой. Вызывает сомнения, что Девичья башня строилась для оборонительных целей, хотя подобная версия существовала много лет. Архаичное башенное сооружение города Баку могло возникнуть как синтез архитектуры каспиев и мидийцев, кочевых племен [8, с.22-23].

В древней Мидии  строительным материалом был глиняный кирпич, высушенный на солнце (сырец). Архитектурный образ Девичьей башни постепенно сливался с ритуальным образом храмов. Из камня и извести, потраченных на нее, можно было бы соорудить еще одну стену вокруг города. Существуют предположения, что первоначально башня строилась как храм огня (слово «гала» – «башня» – имеет в азербайджанском языке еще и значение «разводить огонь»), обсерватория, зороастрийская дахма, но ни одна из выдвинутых гипотез не является бесспорной.

С.Ашурбейли отмечала, что зона Баку уже в раннем средневековье отмечалась в источниках как местность, где горели неугосимые огни. Со слов гуннских предводителей «…где пламя поднимается из скалы подводной…» (ex petra maritima flamma ardet) [3, с.23-38]. Это же сведение по Н.Ханыкову, «несомненно относится к бакинским вечным огням». Выходы горючего газа отмечались средневековыми авторами на Апшеронском полуострове, в селе Сураханы, близ Гыз галасы и т.д.

Известно, что на внешней стороне стены Девичьей Башни, на высоте 14 метров над нижней дверью, на каменной табличке размером 4 х0,6м есть запись, написанная почерком куфи [1]. Фон записи вытесан из камня, слова расположены в двух строках. Впервые эта запись была прочитана известным востоковедом Н. Ханыковым: «Купол (свод) Масуда ибн Давуда». Ученые, рассматривая памятники средневековья, пришли к такому выводу, что высокие памятники с куполообразной крышей могут быть или усыпальницей, или обсерваторией [10, с.51]. Предположить, что Девичья Башня была усыпальницей невозможно, потому что во время археологических раскопок внутри башни не было обнаружено следов захоронений.

То, что в надписи есть слово «купол» приближает нас к идее, что Девичья Башня была обсерваторией. Рашид ардин (XIII-XIV века) и Вассаф (XIV век), описывающие обсерватории в Мараге и Тебризе, отмечают наличие высоких куполов в этих обсерваториях. Во время раскопок в Марагинской обсерватории был обнаружен круг этого купола [2, с.20].

Гыз-Галасы, являлось оборонительным сооружением, которое входило в общую систему оборонительных сооружений Ширваншахов, и служила маяком, откуда в случае опасности днем с помощью дыма, а ночью — огня подавались сигналы об угрожающей опасности [4]. В селениях Баку и вокруг были 19 башен, если добавить по Пахомову сюда и Гыз галасы, и Джабехану, и башни вокруг Баку и прочие сооружения то число достигнет где-то 30 башен [10]. Еще остается один довольно серьезный довод в пользу того, что эти имели оборонительное назначение у Бакуви  того  факта,что во всех селениях вокруг Баку имеются укрепленные цитадели с прочными стенами.

Как уже отмечалось, на юго-западной стене Девичьей Башни вмонтирована небольшая куфийская надпись. У Ханыкова в арабском тексте первое слово дано в виде «кубба», которое в русском переводе означает «купол», а в поздних надписях встречается также в значении «усыпальница». Ее надо читать следующим образом «Купола Масуд ибн Давуда». По палеографическим особенностям надпись относят к XII веку, но эта дата связана с ремонтом башни. Девичья Башня в XII веке входила в оборонительную систему города Баку. Название башни Гыз-Галасы (Девичья Башня), по всей вероятности, искаженная форма от Гез-Галасы, то есть «надзирательная башня»… Башня одновременно служила маяком. Днем дымом, а ве-

чером огнем, зажигаемым на башне, подавали сигналы о приближении опасности со стороны моря и суши на остальные оборонительные сооружения, которых насчитывалось на Апшеронском полуострове больше тридцати [5, с.9]. В дым добавляли особые химикаты, чтобы менять свет огня в зависимости от приближающейся опасности.

По одной из версий Сасанидский царь Ардашир (III век) еще более усиливает служение при храмах, приказывает «неугасимо поддерживать огонь Хормузда на жертвеннике в Багаване». В Гыз-Галасы (Девичья Башня) имелось семь очагов-алтарей [6, с.40].

В разные исторические эпохи башня служила как цитадель, как маяк и как культовое сооружение. Только в XX веке она стала музеем.

Рассмотрим особенности исследований с точки зрения историзма Девичьей Башни. Особое место архитектурный памятник занимает в исследованиях Саяпина. М.Саяпин предлагает читателю следующее описание: «Представьте себе, что своды целы. Представьте, по аналогии с малой мардакянской башней, что в центре каждой диафрагмы имеется отверстие... Что эти отверстия с математической точностью расположены друг над другом, и вы могли бы увидеть днем - звезды, свет зодиака» [4]. Сейчас своды «восстановлены», но мы не видим, не только звезды, но и вообще неба. Далее, касаясь окон, он пишет, что «выглянуть из такого оконца вы не сможете, так как нельзя дотянуться по веерообразному лестничному подоконнику к узкой щели, а если и дотянетесь, то ничего не увидите, кроме моря и неба, - слишком высоко находятся эти щели. Вам говорят, что это бойницы. Но в них стрелять можно только из винтовки, но не из лука, и при том без всякой цели, так как вы не можете разглядеть, что творится у основания башни».

Саяпин приходит к выводу, что башни с крепостями - зороастрийские храмы, где горел вечный огонь, устраивались религиозные празднества, приносились жертвы… О том, что Девичья башня, возможно, являлась культовым сооружением писал и один из крупнейших советских историков, академик И.И.Мещанинов. После эту концепцию развивает заведущий кафедрой Азербайджанского инженерно-строительного института доктор архитектуры Д.А. Ахундов. В «Докладах АН Азерб. ССР» была опубликована статья М.А.Набиева «Тайна бакинской Гыз галасы». В статье высказывается еще один взгляд на Девичью башню. Детальное изучение ее внутренних и наружных конструкций, по мнению автора «приводит к твердому убеждению, что она не оборонительное сооружение, не маяк, и тем более не сигнальная башня. Она является зороастрийским культовым сооружением, называемая по-пехлевийски термином «дахма» [7, с.93].

Дахма - это каменная башня, предназначенная для отделения скелета от мяса покойника и последующего хранения костей в помещении, называемом астаданом (костехранилищем, оссуарием). Согласно зороастрийской религии, труп являлся нечистым. Поэтому, если его хоронить или сжигать, то оскверняются святые для зороастрийцев - земля, огонь, вода. Поэтому они выбрали другое средство - кидать трупы птицам или зверям.

Для этого труп клали или на скалы, или же на специально построенные каменные башни. Камень - святым не считался. Такие башни, называемые дахма или башни молчания, сейчас имеются в Индии - Бомбее, где до сих пор сохранилась крупнейшая колония зороастрийцев, бежавших сюда из Ирана и прозванных в Индии парсами. Немного зороастрийцев сумело остаться в Иране, где их называют гебрами.

М.А.Набиев следующим образом представляет похороны бакинцев в прошлом. Из Баку или других поселений Апшерона умерших на носилках с плачем и воплем несут в направлении Гыз галасы (Девичьей башни). Дойдя сюда, мужчины вносят покойника в самый нижний этаж башни. Находящиеся здесь магимобеды (зороастрийские жрецы) привязывают покойника, завернутого в циновку к концу веревки, спущенной с 8-ого яруса, и подают криком сигнал вверх. Мобеды, обслуживающие покойников на 8-ом ярусе, тянут за другой конец веревки, перекинутой через прикрепленное к стенам бревно, и поднимают покойника наверх [7, с.93].

Д.А.Ахундов, проанализировав рисунки Баку XVIII-XIX века считая, что на них показаны и остатки крепости, располагает эту крепость где-то к востоку от старого города. Эта крепость Салхим, остатки которой еще в 60-ых годах прошлого века, по свидетельству академика Б.А.Дорна, виднелись из города. Вообще, еще в 70-ых годах XVIII столетия, судя по

рисунку С.Г.Гмелина, вокруг Баку на возвышениях находились 3 башни-крепости. И тогда понятным становится расположение Девичьей башни; ее построили вдали от города, как это и делали зороастрийцы.

Строительство башни именно на том месте, где она находится сейчас, видимо, объясняется наличием здесь скалы, на которой и можно было возвести это мощное сооружение. Вряд ли оно тогда находилось на берегу. Уровень моря в то время был, если не ниже, то, во всяком случае, выше современного. Постепенно город спускался вниз к заливу, к причалам. Это произошло, видимо, по нескольким причинам. С одной стороны частые обвалы, сносившие сооружения. С другой стороны город рос и сам постепенно расширялся. Видимо, свою роль сыграли и северные ветры - хазри, особенно ощутимые на вершинах холмов. Появилась необходимость строительства крепостной стены.

У Девичьей башни сохранились остатки этой стены. Она вела к «Баиловским камням». Вероятно, к этому времени, она уже перестала выполнять свою роль и ее использовали в системе крепостных сооружений. Тогда же сюда за стены переселились и бакинцы. Судя, по археологическим раскопкам это произошло в VIII-IX веках. А это значит, что Девичья башня была построена задолго до этого. Только до этого здесь не жили, поэтому тут и нет культурного слоя. Древний Баку нужно искать в другом месте.

Датировать башню можно также использовав два обстоятельства: при строительстве Девичьей башни использовался известковый раствор. Самое древнее подобное здание, обнаружено в Кабале и датировано I веком н.э. Это нижний предел  возраста башни. Верхний предел можно определить, если сравнить по цвету камни Девичьей башни и мечети Мухаммеда ибн Абу-бекра, которая расположена в крепости и построена в 1078-79 году. При этом обе постройки выполнены из одной породы известняка, камни Девичьей башни намного темнее, а значит на несколько сотен лет древнее мечети Мухаммеда. Верхний предел - не позднее IX-X веков. С.Б.Ашурбейли выдвинула предположение о строительстве Гыз галасы в первые века нашей эры, М.А.Набиев - в VI веке нашей эры. Существует предположение Д.А. Ахундова о возведении Девичьей башни в VI веке. Историк азербайджанской архитектуры Л.Бретаницкий считал, что ее возводили в 2 этапа: нижняя часть памятника, до высоты 13,7 метров построена в V-VI веках, а верхняя достроена в XII веке.

Особое место занимают религиозные обоснования Девичьей Башни. По мнению Казиевой Девичья башня является тем самым указанным в Библии «пламенным мечом», охраняющим путь к «древу жизни». Другими словами, от мардакянской башни через Девичью башню пролегает кратчайший путь к скрытым в недрах абшеронской земли таинственным сокровищам, оставленным там кем-то «всесильным» [6, с.40].

Важность Гыз Галасы для Азербайджана во все времена была непререкаемой. Российскими властями был произведен ремонт обрушившейся карнизной части Девичьей башни в 1808 году. Имеются сведения и о реконструкции верхней части башни в XIX веке с целью приспособления ее под маяк. Так называемый Бакинский маяк, находившийся на Девичьей башне, начал светить 13 июня 1858 года. До этого же времени на ней поднимался крепостной флаг, флагшток, который предусматривался обмером и планом 1808 года [7, с.93].

Важно понимать, что Девичья башня (XII в., высота 30 м., 5 м. у основания и 4 м. вверху), которая высится в прибрежной части города Ичери Шехер является уникальной приметой города Баку. В плане она символизирует форму буты или пламя огня, так как Азербайджан является страной огней. Легенды, которые окутывают данное сооружение безусловно подпитывают туристический интерес и данная тенденция сохранится еще долгие годы.

Подводя итоги, следует констатировать, что велика роль исторических и культурных памятников в изучении истории азербайджанского народа. Богатейшие материальные культурные ценности Азербайджана еще со второй половины XIX века Исторические памятники Азербайджана привлекали внимание выдающихся русских и зарубежных ученых и путешественников. Однако, ни в коем случае нельзя забывать об огромном труде азербайджанских ученых и исследователей, о том вкладе, который они внесли в дело изучения, сохранения, исследования и пропаганды культурного наследия Азербайджана.

На сегодняшний день исследовано и зарегистрировано сотни памятников. По результатам этих исследований издано сотни книг, монографий и научных статей. В какое-то время в

этой области наблюдался застой, но в годы независимости проблема сохранения культурного наследия страны была постоянно в центре внимания общенационального лидера Гейдара Алиева.

Утвержденная Указом Президента Азербайджанской Республики «Государственная Программа на 2014-2020 годы по развитию и усовершенствованию деятельности по восстановлению и сохранению исторических и культурных памятников и заповедников» [9] является новой вехой в истории азербайджанской археологии и культуры в целом.

**Ключевые слова:** Девичья башня, исторический памятник, реставрация, история

**Использованная литература**

1. Алекпер-заде В. Архитектура Азербайджана эпохи Низами. М.: 1947, 379 с.
2. Ахмедов Г.М. Новые суждения о Гыз-Галасы // Наука и жизнь, 1986, №7, с.20-27
3. Ашурбейли С.Б. Государство Ширваншахов. Баку: Азернешр, 1992, 408 с.
4. Велиев С.С. Древний Азербайджан (Историко-географические очерки). Баку: Гянджлик, 1987, 173 с.
5. Искендеров А.А. Легенды о Гыз галасы. Газ. «Каспий», Баку, 2010, 17 апреля, №066 (11264), с. 9.
6. Казиева В. Охота за истиной // Литературный Азербайджан, 2015, №5, с.39-57
7. Набиев М.А. Тайна Бакинской Гыз-Галасы // ДАН Азербайджанской ССР, 1974, №6, с.93-101
8. Неймат М.С. Эпиграфические памятники Азербайджана эпохи Низами. Баку: Элм, 1991, 253 с.
9. Памятники мирового значения. [Электронный ресурс] Управление Государственного Историко-Архитектурного Заповедника «Ичеришехер», при Кабинете Министров Азербайджанской Республики. http://www.icherisheher.gov.az/static,19/lang,ru/ 12.07.2017
10. Пахомов Е.А. Старинные оборонительные сооружения Апшерона // Труды Инст-та истории АН Азерб. ССР им. А.Бакиханова. 1947, Т.I., с.54-55.

**Tamilə Həsənova**

## BAKININ TARİXİ ABİDƏLƏRİ – QIZ QALASI

**Xülasə**

Məqalədə Bakının simvolu olan Qız qalası əzəmətli tarixi abidə kimi nəzərdən keçirilir. Burada memarlıq abidəsinin təyinatının əsas versiyası, şah əsərinin yaradılması tarixi haqqında fərziyyələr araşdırılır.

**Açar sözlər:** Qız qalası, tarixi abidə, restavrasiya, tarix, rəvayət

**Tamila Hasanova**

## HISTORICAL MONUMENTS OF BAKU – GIZ GALASI

**Summary**

The symbol of Baku-The Maiden Tower are reviewed as a magnificent historical monument in the article. The basic versions of the architectural monument, assumptions about the history of creating a masterpiece are explored in the article.

**Keywords:** Maiden Tower, architectural monument, restoration, history, legend

**UOT – 51.1**

**Eldar Əmirov**
**AMEA Fəlsəfə İnstitutu, doktorant**

# RİYAZİYYATDA SOSİOMƏDƏNİ DETERMİNASİYALAR

*Məqalədə göstərilir ki, riyazi ideyaların, riyazi nəzəriyyələrin yaranması, riyazi problemlərin həlli ya sosiomədəni mühitlə əlaqələndirilir (belə araşdırmalarda sosiomədəni determinasiya dominantdır), ya da apriori olaraq bütün riyazi ideyaların, nəzəriyyələrin hər hansı şəxsin və ya ümumilikdə insanın apriori biliklərinin nəticəsi kimi götürülür. Məqalədə bu araşdırmaların əslində birtərəfli olduğu göstərilir və əsl həqiqətin bu ikisinin kəsişməsində ortaya çıxdığı vurğulanır.*

Ədədlərin yaranması ilə bağlı əsas mülahizə aşağıdakı kimidir. Təxmin edilir ki, 35000-20000 il bundan öncə qədim insanlar ovladıqları heyvanların hər biri üçün kiçik daşlar düzürdülər [4, s.9]. Heyvanların sayı artdıqca daşların da sayını artırırdılar. Onlar beləcə ovladıqları heyvanların sayına uyğun kiçik daşlar düzürdülər. Yəni, ədədlər belə sayma nəticəsində meydana gəlib. Amma maraqlıdır ki, riyaziyyat tarixində ədədlərin yaranması ilə bağlı ilk rəy bundan uzağa getmir, araşdırmaçılar bu mülahizələrlə kifayətlənirdilər. Bu qarşılıqlı birqiymətli uyğunluğa imkan verən, bu əlaqəni yaradan nədir sualına cavab axtarılmır. Bizim mövqeyimiz isə ondan ibarətdir ki, bu əlaqəni yaradan, bu körpünü quran insana öncədən xas olan simmetriya prinsipidir. Heyvanların, əşyaların sayının digər əşyalarda, məsələn, kiçik daşların sayında əks etdirilməsidir. Düşünürük ki, təbiətin parçaları olan bu şeylər arasında oxşarlığı, analogiyanı yaradan instinkt insana öncədən xas olan simmetriya nəticəsidir. Simmetriya prinsipinin insana öncədən xas olması ilə bağlı, Q.Veylin “Simmetriya” əsərində ortaya qoyduğu mövqe ilə biz də razılaşırıq və öz növbəmizdə bu prinsipi ədədlərin mənşəyi ilə bağlı suala cavab axtarışında istifadə edirik [2]. Beləliklə, simmetriya duyğusu qədim insana imkan verdi ki, o, heyvanlar çoxluğu ilə digər əşyalar, məsələn, daşlar çoxluğu arasında əlaqə qursun. Belə insanların həyat tərzi heyvanların həyat tərzindən çox da fərqlənməyən, danışıq dilinə malik olmayan homo sapinesin belə oxşarlığı duymasını təbii ki, onların “ictimai” mühiti ilə yox, anadangəlmə biologiyası ilə bağlamaq birmənalıdır. Hələ nəinki dilə malik olmayan, instinktlərlə yaşayan, qəbilə quruluşunun rüşeym halında olduğu bu primitiv insan toplusunda analogiya duyğusunu nə dil, nə də ki, ictimai məhsul kimi qiymətləndirmək olmaz. Belə olan halda sanki, instinkt şəklində ortaya çıxan bu duyğu çox təbii ki, onların biologiyasında əvvəlcədən mövcud olan, aprior determinasiya olmalıdır. Məhz elə bu simmetriyadır. Müxtəlif tədqiqatlarda sayların yaranmasını əl barmaqlarının olması ilə bağlayan tədqiqatçılar var. Lakin burda bir şey aydın deyil. Əgər, ilkin insan öz əlinin barmaqlarını saya bilirdisə də, bu say onun üçün heç bir şey ifadə etməzdi. Çünki təbiətdən hələ ki, qopmayan, onunla həmahəng yaşayan, əsasən praktikadan asılı olan ilkin insan üçün barmaqların sayı öz-özlüyündə heç nə ifadə etməzdi. Onların praktikasına söykənməyən sayma öz-özlüyündə ortaya çıxmazdı. Sayların barmaqlara “köçməsi” sonrakı mərhələdir. Bu barədə D.J. Stroyk yazır: “Beləliklə, aydındır ki, Yakob Qrimdə rast gəldiyimiz və tez-tez təkrarlanan fikir səhvdir. Belə ki, ədədlər guya barmaqlarla sayma nəticəsində meydana gəlmişdir. Lakin barmaqlarla sayma yalnız ictimai inkişafın müəyyən mərhələsində meydana çıxmışdır.” [15, s.24]. Bunun kimi bu və ya digər tədqiqatlarda sayların barmağa qədərki yolu haqqında heç bir fikir söylənmir [1; 7; 8; 9; 13; 20;].

Beləliklə, heyvanların topaları ilə daş topaları arasında oxşarlığa imkan verən analogiya eynilə daş topaları ilə əl barmaqları arasında oxşarlığı şərtləndirdi. Həmişə özləri ilə daşıya bilmədikləri daşlar ilə malik olduqları əl və ayaq barmaqları arasında da qarşılıqlı birqiymətli uyğunluq gördülər. Həmişə onlarla olan bu vasitə onların işini daha da asanlaşdırdı. Sonradan onlar bu məlumatları digərlərinə ötürmək üçün və ya öz aralarında əlaqə qurmaq üçün sayları barmaqlara oxşar olan düz kərtiklərlə ağac, sümük və daşlar üzərində oymağa başlayacaqlar. Burada bu kəsiklərin barmağa ox-

şamasını xüsusi qeyd etmək lazımdır. Başqa sözlə simmetriyanın işə düşməsi çox aydın görünür. Yox əgər, ilkin insanların sümük üzərində belə barmağa oxşar düz kəsiklər oymasını təsadüf nəticəsində baş vermiş hadisə kimi izah etsək, onda biz ağlasığmaz fikir irəli sürmüş olarıq. Yəni, onlar nə vaxtsa belə kəsikli sümük və ya ağac budağı görüblər və bu onları sayları sümüklər, daşlar və ağaclar üzərində işarə etməyə sövq edib desək, yanılmış olarıq. Çünki arxeoloji qazıntılar nəticəsində müxtəlif ərazilərdən tapılan bu tip əşyalar, müxtəlif yerlərdə eyni təsadüfün baş verməsi ehtimalını heçə endirir. Həmin ərazilərdə yaşayan ilkin qəbilələrin eyni təsadüflə üzləşməsi və həmin təsadüfün də eyni ideyanı meydana gətirməsi fikri absurd görünür.

Ümumiyyətlə, ədədlərin yaranmasına simmetriya prinsipi nöqteyi-nəzərindən yanaşdıqda, ədədlərin yaranması ilə bağlı olan bütün tədqiqatları, mülahizələri bir işıq altında görmək olur. Belə ki, tarixi tədqiqatlarda müxtəlif polemikalar var. Məsələn, yuxarıda gətirdiyimiz sitatdan da göründüyü kimi, ədədlərin yaranması ilə bağlı müxtəlif başlanğıclar seçilir. Amma təklif olunan mülahizə nəticəsində ədədlərin yaranması ilə bağlı birmənalı fikir söyləmək olar. Maraqlıdır ki, simmetriya prinsipi Q.Veyl göstərilən əsərində riyaziyyatda bütün fundamental ideyaların əsasında durduğu göstərilir. Bizim yanaşmamız da öz növbəsində ədədlərin yaranmasını riyaziyyatın sonrakı inkişafı ilə bağlamağa imkan verir. Çünki sonrakı riyaziyyat üçün doğru olan prinsip ilkin riyaziyyat üçün də doğru olmalıdır. Ən azı ona görə ki, riyaziyyat daha çox kumulyativ elmdir. Bu mənada onu ilkin əsaslara qədər reduksiya etmək mümkündür.

Bizim burada qısa şəkildə toxunduğumuz bu ideyamızı diqqət mərkəzində saxlayacağıq və gələcək tədqiqatlarımızda geniş şəkildə tarixi-fəlsəfi aspektdə araşdırmağı nəzərdə tuturuq.

Bu mülahizədən həm də asanlıqla görünür ki, niyə saylar yarandığı zaman sıra da yaranmayıb. Sıra məhz bir texniki məsələ kimi, sonradan meydana çıxır. Məsələn, qədim işarələrdən ta Rum rəqəmlərinə qədər mövqesiz say sistemi davam edir. Sonradan texniki məsələ kimi hindlilər həm sıfrı, həm də mövqeli say sistemini yaradırlar. Meninqer sıra ilə saymanın meydana çıxmasını isə əl-ayaq barmaqlarının nizamlı düzülüşü ilə bağlayır: “Əgər daşlara, bədənin müəyyən hissələrinə mənimsədilən say kəsilməz, differensiallaşmamış idisə, əl və ayaq barmaqları artıq təbiət tərəfindən təsnif olunub və qruplaşdırılmışdı; 5 barmaq bir əli təşkil edir, 10 - iki əli, 20 - əllər və üstəgəl ayaqlar. Çox təbiidir ki, dildə də bu izlənir, beş - “1 əl”, 10 - “2 əl”, iyirmi - “bir adam”. Bu təkcə ilkin insanlarda yox, yüksək cəmiyyətlərdə də müşahidə olunur... Nəticədə, əsası qoyulan ədədlər sırasının sonrakı inkişafı bunun davamı olur... Beləliklə, bu təbiətin insanlığa ərmağanıdır” [8, s.52].

Bu iki fundamental ideya sayma və sıralama, yaxud riyazi terminlərlə desək, kardinal və ordinal ədədlər şəklində bu gün də riyaziyyatın əsas ideyalarından biridir. Qədim köklərə söykənən bu ideya, G.Kantor tərəfindən işlənən və riyaziyyatda yeni paradiqmaya yol açan çoxluqlar nəzəriyyəsinin və kontinium gücün kəşfində bir daha özünü biruzə verir [5].

Buradan maraqlı bir nəticə də alınır. İlkin insanlar kosmosla daha sıx bağlı olduqlarından onların təbiət haqqındakı yarımistik, yarıgerçək görüşləri bu simmetriya nəticəsində ədədlərə də keçmişdir. Və ədədlər də onlar üçün belə xassələrə malik olmuşdu. Bu ən qabarıq şəkildə Pifaqorçuların təlimində üzə çıxmış və maraqlıdır ki, sonrakı dövrlərdə də davam etmişdir. Onlar üçün 1-başlanğıcı, yaradanı, 2 - yer varlıqlarının bölgüsünü, 3 - can, bədən və ruhu, 7 - planetləri və s., ifadə etdiyi üçün müqəddəsdir. Pifaqor bu mistik rəqəmlərin sayını 5040-a çatdırırdı. Bundan başqa dost ədədlər, mükəmməl ədədlər, tək, cüt ədədlər, sadə, mürəkkəb ədədlər və s. kimi ədədlər arasında münasibətlər var idi. Ən qəribəsi isə odur ki, bu əlamətlərin bəziləri hələ heç indinin özündə də bəzi ədədlərdən qopmamışdır. Məsələn, 7 ədədi kimi.

Ədədlərin sonrakı inkişafı Pifaqorçularla bağlıdır. Pifaqorizmin təsiri nəinki həm antik dövrə, həm də günümüzdə də hiss olunur. Pifaqorun həyatı və fəlsəfəsi haqqında çox yazılıb. Lakin biz burada bu geniş məlumata toxunmayacayıq, çünki bu bizim məqsədimiz çərçivəsində deyil. Məqsədimiz Pifaqorun fəlsəfəsinin nüvəsi olan “hər şey ədəddir” deyiminin metafizik yükü ilə tanış olmaqdır.

Ümumiyyətlə, Pifaqorçular (e.ə. VI əsr) ədədlərlə dini ayin şəklində məşğul olurdular. Onların təlimi mistik təlim idi. B.Rassel qeyd edir ki, baxmayaraq ki, bu təlim mistik təlim idi, lakin bu

mistika spesifik intelektual xarakterli idi [12, s.51]. Pifaqorçular ədədləri hər şeyin əsasında görürdülər və bütün dünyanı ədədlərin idarə etdiyinə inanırdılar. S.Trubetskoy bu metafizik ideyanın meydana gəlməsini belə izah edir:

Özündə şeylərin həqiqətini saxlayan dünya harmoniyası, vahidin çoxluqda və çoxluğun vahiddə yerləşməsidir. Buradan isə belə bir sual ortaya çıxırdı: çoxu vahiddə və vahidi çoxda necə dərk etmək olar? Bu sualın birbaşa cavabı ədəd idi. Ədəd özündə çoxluğu birləşdirir, çoxluq ədəddə bütövləşmiş kimi təsəvvür olunur. Ədəd vəhdətin simvoludur, formasıdır. Pifaqor ilk dəfə musiqi qanunlarını, səma cisimlərinin hərəkətini öyrənir və görür ki, onlar ölçüyə və ədədlər arasındakı münasibətlərə tabe olur. Bütün bunlardan o belə nəticəyə gəlir ki, səma harmoniya və ədəddir, ədəd ruhdur, harmoniyanın qanunudur, onun sirridir [16, s.183].

Göründüyü kimi, əgər Fales dünyanın başlanğıcında suyu, Anaksimandr sonsuzluğu, Anaksiman havanı görürdüsə, Pifaqor başlanğıcın ədəd olduğunu deyirdi. Eləcə də ədəd bunlardan fərqli olaraq həm başlanğıcda, həm də şeylər arasındakı münasibətlərdə var idi. Yəni artıq o cismani başlanğıcdan fərqli olaraq bir idraki çalar da qazanmışdı. Fikrimizcə, Rassel elə məhz bu məqamı nəzərdə tuturdu.

Ədədlərin tək və cüt bölgüsü Pifaqorçular üçün, xüsusən xarakterik idi. Ədəd və harmoniya arasında əlaqə həm də iki başlanğıca əsaslanırdı. Pifaqorçulardan olan Filolaya görə, dünya sonlu və sonsuzun qarışığından ibarətdirsə, sonlu tək ədədə, sonsuz isə cüt ədədə uyğundur. Çünki tək bütövün simvoludur, o parçalanmır, cüt isə bölünür, iki yerə bölünür, sonradan onlar da öz növbəsində iki yerə bölünür [3, s.34-35]. Qeyd edək ki, müasir riyaziyyatda tək ədədi də istənilən hissəyə bölmək olar, amma pifaqorçuların ədədləri yalnız bizim bu günkü adla natural ədədlər olduğundan onlar bölunmürdülər. Elə bu mənada da irrasionallığın kəşfi də bu bölgu ilə bağlıdır, yəni irrasional ədəd tək və cüt ədədlərin nisbəti şəklində göstərilə bilməmişdi. İrrasional ədəd ilk dəfə pifaqorçu Hippas tərəfindən kəşf olunur. Tərəfləri vahid olan kvadratın diaqonalı onun tərəfləri ilə ölçülə bilən olmaması irrasional ədədin, yəni $\sqrt{2}$ -nin kəşf olunmasına gətirir. Və rəvayətə görə bu kəşfdən sonra Hippas dənizdə boğulur. Çünki bu dünyagörüşünə görə Hippas dünya nizamına zidd olan sirrin üstünü açmışdı, ona görə də o, qəzəbə düçar olmalı idi.

Antik ruha xas olan irrasional ədəd haqqındakı bu qaranlıq düşüncələr XV-XVII əsrə qədər davam edir. Lakin burada irrasional ədədin dünya nizamını pozan şeytan kimi yox, onun təbiəti haqqında, daha doğrusu əsl ədəd olması haqqında idi. Bu dövrlərdə riyaziyyatçılar öz şübhələrinə baxmayaraq irrasional ədədlər üzərində bütün əməliyyatları yerinə yetirirdilər və həm də riyazi məsələlərin həllində onlardan istifadə edirdilər. XVI əsrdə Con Neper (1550-1617) tərəfindən loqarifmin kəşfi irrasional ədədlər üçün geniş tətbiq sahəsi açdı. Onlar üzərində hesablamalar heç bir çətinlik çəkmədən yerinə yetirilirdi. Dövrün məşhur riyaziyyatçıları, avropalılar, italyan riyaziyyatçısı Luka Paçoli (1445-1514), alman rahibi və riyaziyyat professoru Yene Mixael Ştifel, italyan həkimi və alimi Cirolamo Kardano (1501-1570), flamandiya hərb mühəndisi Simon Stevin (1548-1620) hind və ərəb ənənəsinə sadiq qalaraq irrasional ədədlərdən sərbəst şəkildə istifadə edirdilər [6, s.195]. Lakin buna baxmayaraq, irrasional ədədin doğurdan da əsl ədəd olması haqqında onların şübhələri var idi. Məsələn, Ştifel öz tərəddüdlərini belə ifadə edirdi: “Həndəsi fiqurların xassələri isbat edəndə irrasional ədədlər hər dəfəsində rasional ədədləri əvəz edirlər. Rasional ədədlərin bizə xidmət etmədiyi hallarda irrasional ədədlər bizə yardım edirlər. Bu da bizi belə bir fikrə gətirir ki, onları əsl, tam hüquqlu ədəd kimi qəbul edək. Digər tərəfdən isə, başqa təsəvvürlər bizi bu fikirdən daşındırır. Çünki irrasional ədədləri onluq sistemdə yazmaq olmur və məlum olur ki, onlar bizdən getdikcə uzaqlaşırlar... Əgər ədədin təbiətinə dəqiqlik məxsus deyilsə, biz onu ədəd kimi qəbul edə bilmərik... Necə ki, sonsuzluq ədəd deyil, irrasional ədəd də əsl ədəd deyil, o, sanki bizdən qaçaraq sonsuzluq dumanında gizlənmişdir” [6, s.196].

Burda çətinlik ondan ibarət idi ki, irrasional ədədlər də natural ədədlərlə ifadə edilməyə çalışılırdı. Necə ki, Ştifel daha sonra davam edir ki, əsl ədədlər natural ədədlər və kəsrlərdir, irrasional ədədlər heç birinə aid olmadığından onları əsl ədəd hesab etmək olmaz [6, s.196]. Yəni göründüyü kimi hələ antik dövrün ruhu bu dövrdə də hiss olunurdu və onlar üçün ədəd adlandıra biləcək ob-

yekt yalnız natural ədəd idi. Kəsr ədədlər natural ədədlə ifadə oluna bilirsə deməli ədəddir, irrasional ədəd natural ədədlə ifadə oluna bilmədiyindən o ədəd deyil. Hələ üstündən yüz il keçdikdən sonra da bu antik ruh itmir, Paskal və Barrou hökm edirlər ki, irrasional ədədlər ümumiyyətlə simvoldan başqa bir şey deyillər, onlar həndəsi kəmiyyətdən kənarda mümkün deyillər və irrasional ədədlər üzərində aparılan hesab əməlləri Evklidin kəmiyyətlər nəzəriyyəsi ilə əsaslandırılmalıdır [6, s.196].

Bu fikirlə qismən o mənada razılaşmaq olmaz ki, $\sqrt{2}$ konkret bir ədədi ifadə edir. Belə bir ədəd var. Tərəfləri 1 olan düzbucaqlı üçbucağın hipetonuzunun uzunluğudur. Yəni bu ədəd konkret bir real uzunluğu göstərir və əslində bu ədəd 1,4142135... kimidir. Amma bu yazılış sonsuz bir yazılış olduğundan və hesablamalarda çətinlik yaratdığından onun $\sqrt{2}$ kimi yazılışı daha rahatdır, hesablamalarda çətinlik törətmir. Yəni əslində, $\sqrt{2}$ simvolu ilə göstərilən 1,4142135... ədədi də 1, 2, 3, 4, 5, ... ədədləri ilə bərabər hüquqlu ədəddir. Necə ki, 4, 5, 100, ... ədədləri müəyyən kəmiyyətin ölçüsüdür, məsələn əşyaların sayı, məsafənin uzunluğu göstərir, eləcə də $\sqrt{2}$ . Yəni bu mənada onu tam simvol kimi də qəbul etmək düzgün olmaz. Anlaşılmazlıq nədədir? Anlaşılmazlıq ondadır ki, real obyektə uyğun gələn bu ədəd üzərində aparılan riyazi əməliyyatlar radikalın xassəsidir. Hansı ki, ərəb və hindlilərin analogiya nəticəsində tapmışdılar: $\sqrt{36} = \sqrt{4} * \sqrt{9}$. [6, s.188]. Bu metod rasional üstlü qüvvət nəzəriyyəsinin bütün teoremlərinə, düsturlarına cavab verir. Göründüyü kimi, irrasional ədədlər üçün aldığımız xassələr birbaşa yox, dolayı yolladır, irrasional ədədin sırf öz təbiətindən gələn xassələr, əlamətlər deyil.

Natural ədədlər üçün nəhəng teorem sistemləri işlənib hazırlanıb. Amma irrasional ədədlər isə belə müstəqil deyillər, onlar ya kəsrlərlə, ya da ki, radikallarla ifadə olunurlar. Bizim fikrimizcə, irrasional ədədlər üçün məxsusi işarələr qəbul edib (bəlkə də kəşf edib), onlar üzərində yeni cəbr qurmaq lazımdır.

Burada belə bir qeyd yerinə düşər ki, riyaziyyat tarixinə nəzər saldıqda məlum olur ki, müasir riyazi obyektləri birdən-birə dərk və təsəvvür etmək olmur. Çünki hər birinin arxasında uzun tarixi təkamül durur. Riyazi obyektin canında yatan bu təkamül enerjisini birdən-birə “tutmaq” olmur.

Beləliklə, müasir riyaziyyatın gözü ilə baxdıqda, riyaziyyat hər bir hal üçün, həm sayma üçün, həm də kəmiyyətlərin ölçüsü üçün ədədlərə malik olur. (Təbii olaraq belə bir sual meydana çıxır, başqa ədədlər də varmı? Bu sualın cavabını 1931-ci ildə görkəmli rus riyaziyyatçısı L.S.Pontryaqin verir. O, isbat edir ki, ədəd deyə biləcəyimiz riyazi obyektlər həqiqi, kompleks, kvarternionlardır. Bu tip ədədlərdən savayı ədədlər daha meydana çıxmayacaq [11, s.98]. Bir növ həm diskret, həm də kəsilməzlik üçün ədədlər mövcud olur. Lakin antik ruha uyğun olmayan kəsilməzlik ədədinin qəbulu hələ orta əsrlərə qədər davam edəcək. Bu yanaşmanı alman filosof O.Şpenqler belə təsvir edir: “İrrasional ədədlər, yunan ruhu üçün tamamilə qəbul olunmaz oldu. Evklid deyirdi ki, (hansı ki, onun sözünü birbaşa qəbul etmək lazımdır) ölçülə bilməyən məsafələr arasındakı münasibətlər ədəd kimi deyil. Doğrudan da artıq irrasional ədədin oturuşmuş anlamı, ədəd və kəmiyyət ayrımındadır. Bunun da səbəbi ondadır ki, irrasional ədəd, məsələn Pi, heç vaxt məhdud deyil və heç vaxt da məhdud məsafə ilə ifadə oluna bilmir. Buradan isə belə çıxır ki, kvadratın tərəfinin onun diaqonalı ilə ifadəsi üçün antik ədəd kifayət etmədi. Çünki bu ədəd hisslərin sərhəddi idi, qapalı kəmiyyət idi. Ona görə də, antik dünyaduyumuna yad olan, yeni ədəd ideyasına ehtiyac var idi, hansı ki, onlar bununla qarşılaşanda, sanki, onların məhvinə səbəb olacaq dəhşətli bir sirr ilə üz-üzə gəlmişdilər” [18, s.101]. Daha sonra Şpenqler öz mülahizələrini davam edərək, irrasional ədədin qəbulunun sonsuzluğun qəbulu nəticəsində mümkün olduğunu deyir. Hansı ki, tamamilə doğrudur. “Antik ruh Pifaqorun simasında özünün apollonsayağı ədəd konsepsiyasını işlədi, oxşar olaraq Qərbi Avropa da faustsayağı sonsuzluğa yaxınlaşma ehtiraslı ruhu ilə Dekart və onun müasirlərinin (Paskal, Ferma, Dezarq) simasında tamamilə öz dövrünə uyğun ədədləri kəşf etdilər” [18, s.115].

Beləliklə, Pifaqorçuların dünya ədəd və onlar arasındakı münasibətlərdir, ideyası həmişə öz qüvvəsində qalır. Əgər, onlar bu ideyanın birinci hissəsi ilə öz vaxtlarında məşğul olub, onunla ta-

mamilə həmahəngdə idilərsə, ideyanın ikinci hissəsi olan – dünya, həm də ədədlər arasındakı münasibətlərdir - fikrinin qəbulu isə orta əsrlərə qədər davam edir.

Göründüyü kimi, bu problemin həlli irrasional ədədin natural ədədlə ifadə olunmasında yox, onun özünün varlığının qəbul olunmasıdır. Bu ideyanın ortaya atılması və qəbulu hələ əsrlərlə gözləməli olacaq. Əgər doğrudan da biz yuxarıdakı mülahizələrə qayıtsaq, görərik ki, ilk çaşqınlıq Pifaqorçularla bağlıdır. Çünki insanın gerçək aləmin obyeklərinə qarşı qoyduqları ədəd natural ədəd idisə, ovladıqları heyvanların sayı natural ədədlərlə ifadə olunurdusa, vahid kvadratın dioqanalı da belə real aləmin obyekti idi, ona da qarşı qoyulan müəyyən bir ədəd olmalı idi. Lakin bu faktla ilk dəfə rastlaşanda Pifaqorçuların belə ədədləri yox idi və əvəzində əllərində olan ədədlərdən - natural ədədlərdə istifadə etmişlər. Hansı ki, bu da min illəri yoran həll olunmayan problemə çevrilmişdi. Nəhayət, həlledici ideya Bombelli və Stevinin adı ilə bağlıdır. XVI əsrin ən qabaqcıl düşünərlərindən olan - Bombelli və Stevinin təklif etdikləri ideya, şübhəsiz ki, bütün həqiqi ədədlərin qəbulunu şərtləndirdi. Bombelli təklif etdi ki, müəyyən vahid ölçü seçilmiş düz xətt parçasının uzunluğu ilə həqiqi ədədlər arasında qarşılıqlı birqiymətli uyğunluq var. Və Bombelli parçanın uzunluğu üçün dörd əsas əməli də daxil etdi. Onun fikrinə görə həqiqi ədədlər üzərindəki hesab əməlləri parçanın uzunluğu ilə təyin olunur və həndəsi əməliyyatlara uyğundur. Bununla da Bombelli həqiqi ədədlər sistemini həndəsi olaraq əsaslandırdı. Stiven də, həmçinin həqiqi ədədlərə uzunluq kimi baxdı və hesab etdi ki, bu cür interpretasiya irrasional ədədlərin daxil edilməsi ilə bağlı bütün çətinlikləri aradan qaldırır. Şübhəsiz ki, bu cür yanaşmada həqiqi ədədlərin həndəsi ilə sıx bağlılığı ortaya çıxır [6, s.201].

Riyaziyyat tarixində dönüş yaradan növbəti ideya dəyişən kəmiyyətlərlə bağlıdır. XVI əsrə qədər, riyaziyyat, əsasən, konkret məsələlərin fonunda inkişaf edirdi. Ərəb və hind ölkələrində riyaziyyat konkret riyazi məsələlərin həllindən ibarət reseptlərdən ibarət idi. XVI əsrdə estafet avropalılara ötürülür. Burada da riyaziyyatçılar, əsasən, iki dərəcəli, üç dərəcəli və yüksək dərəcəli tənliklərin həlli ilə məşğul olurdular. Kardano, Tartali kimi riyaziyyatçıların işləri bəzi konkret tənliklərin həlli ilə bağlı idi. Bu riyaziyyatçılar tənlikləri ədədlərin və radikalların köməyilə həll edirdilər. Lakin əsas dönüş və riyaziyyatın sonrakı inkişafı üçün və xüsusən də Dekartın analitik həndəsəsini şərtləndirən ideya fransız hüquqçusu və riyaziyyatçısı F.Viyetin adı ilə bağlıdır [17, s.6]. Viyet ilk dəfə olaraq ədədləri və dəyişənləri simvollara işarə etməyə başlayır. Belə simvolik işarələmə məsələləri ümumi şəkildə həll etməyə və əsaslandırmağa imkan verdi. Demək olar ki, bu ideyanı hesabdan cəbrə keçid kimi qiymətləndirmək olar. Viyet bu ideyanın möhtəşəmliyini çox gözəl dərk etmişdi və özünün əsas cəbri ideyalarını ifadə etdiyi “Analitik sənətə giriş” əsərində onu belə təsvir edir: “Mənim burda ifadə etdiyim sənət yenidir və baxmayaraq ki, o zamanla aşınmaya məruz qalıb və bəziləri tərəfindən təhrif olunub, yenə də mən ona yeni görüntü verməyi vacib hesab edirəm... Bütün riyaziyyatçılar bilir ki, onların cəbri altında müqayisəyə gəlməz xəzinələr yatıb. Amma onlar bunu tapa bilmədilər. Onların çətin hesab etdikləri onlarla məsələ bizim sənətin köməyilə asanlıqla həll olunur və bununla da riyazi axtarışlara düzgün istiqamət verir” [6, s.92]. Göründüyü kimi, bu ideyanın çox gözəl nəticələr verəcəyini görkəmli riyaziyyatçı əvvəlcədən duymuşdur.

Simvolikanın üstünlüyü Viyetə imkan verdi ki, o nəinki yeni nəticələr alsın, həm də əvvəlki nəticələri bütöv şəkildə, əsaslandırılmış şəkildə ifadə etsin. Əgər, Viyetin sələfləri konkret məsələlərin həlli üçün bir neçə qayda, resept və nümunə göstərirdisə, Viyet dördüncü dərəcəyə qədər tənliklərin həlli ilə bağlı məsələləri tam dolğunluğu ilə ifadə etdi [10, s.92].

K.Rıbnikov bu ideyanın mahiyyəti üzərində mühakimə yürüdərək yazır ki, XVI əsrin sonunda sabit kəmiyyətlər öz dövrünü başa vurdu. Söz yox ki, çox işlər hələ yarımçıq qalmışdı, amma buna baxmayaraq kifayət qədər məlumat vahid bir sistem altında birləşə bildi. Düzdür, elementar riyaziyyatın yarımçıq qalmış işləri və təkmilləşməsi bu gün də davam etməkdədir, amma riyaziyyat XVII əsrin gündəliyinə başqa məsələ çıxardı. Tədqiqatların ağırlıq mərkəzi dəyişən kəmiyyətlər üzərinə cəmləndi. Bununla da riyaziyyatda yeni dövr başladı [14, s.126].

Viyetin bu ideyası ilə bağlı, həm də onu demək olar ki, (bu xüsusən fəlsəfəyə aiddir), sadə şəkildə, parça-parça verilmiş hissələr öz daxili məntiqi çərçivəsində qavrana bilmədiklərindən, onlar

bir pillə yuxarı iyearxiyanın işığında daha aydın görünürlər və belə konteksdə məna qazanmış olurlar.

İnsana hadisələri sağlam düşüncə çərçivəsində dərk etmək xasdır. Məsələn, iki ədəd arasında fərqi sağlam düşüncə ilə dərk etmək üçün biz iki qrup əşya arasındakı say fərqinə baxırıq. 5-3=2 ifadəsi bizim üçün, məsələn 5 almadan 3 alma götürdükdə yerdə 2 almanın qalmasıdır. Yəni, biz əməliyyatları təsəvvür etməyə çalışırıq. Kant bunu apriorilərlə bağlayırdı. Kanta görə dərk etmək əslində, hisslərlə aldığımız məlumatın bizə öncədən xas olan fəza və zaman intuisiyası ilə yerbəyer edilməsidir. Amma bütün riyazi obyektləri təsəvvürdə canlandırmaq olmur, hər biri üçün ətraf aləmdən onların təsəvvürünü verən material tapmaq olmur. Lakin irəlidə görəcəyik ki, əslində Kantın irəli sürdüyü prinsip dəyişmir, o, bir şəkildən başqa şəklə keçir. Məsələn, əgər biz kubun həcminin hesablanmasını təsəvvür etmək istəsək, maddi aləmdən çoxlu misallar gətirə bilərik; hər hansı kub formasında olan su çəninin içərisindəki su bizə həcm, tutum intuisiyasını verir. Bu cür düşüncə antik insanın şüuruna xas idi. Lakin belə cismani təsəvvürlər müasir riyaziyyatda, kvant mexanikasında, nisbilik nəzəriyyəsində qeyri-mümkündür. Müasir nəzəri fiziklər etiraf edirlər ki, kvant mexanikasının bütün riyazi aparatları ilə çox rahatlıqla işləyirlər, amma heç vaxt onların nə olduqlarını və necə təsəvvür olunduqlarını bilmirlər.

Bizə görə isə əslində təsəvvür mexanizmi riyaziyyatın müasir üst qatları üçün də mövcuddur. Ən müasir riyazi aparatlar metrika, limit, metrik fəza, topoloji fəza, qrup və.s bir növ arxa fon kimi riyazi əməliyyatlar üçün fəza təsəvvürüdür. Riyazi idrak bu kvazitəsəvvürlər üzərindən ucalır. Məhz elə buna görə də, şərti olaraq “riyaziyyat” adlanan idrak sahəsi yarandığı gündən bu günə kimi qoşa qanad kimi çalışan iki sahədən ibarətdir: həndəsə və cəbr. Biri fəza intuisiyası üçün, o biri zaman intuisiyası üçün. Başqa sözlə, fiziki intuisiyanın bitdiyi yerdə riyazi intuisiya başlayır. Riyaziyyat gerçək, cismani olanla zəkavi olanın hibridinə çevrilir. Sanki, o bir riyazi kentavrdır. Nisbilik nəzəriyyəsi, kvant mexanikası belə riyazi kentavrlardır. Nisbilik nəzəriyyəsi gerçək dünyamızı ifadə etsə də təsəvvür olunan deyil. Əgər bir qədər əvvələ qayıtsaq, hələ vaxtilə Nyuton da deyirdi ki, mən cazibə qüvvəsini riyazi ifadə etdim, amma cazibənin təbiəti haqqında heç bir bilgim yoxdur. Nisbilik nəzəriyyəsinin mahiyyəti sağlam düşüncə üçün təsəvvür olunan etmək üçün çox məşhur olan əkizlər misalı çəkilir. Əkiz qardaşlardan biri Yerdə qalır, digəri isə işıq sürəti ilə Kainata səyahətə çıxır. Uzun müddətdən sonra qayıdanda o, görür ki, Yerdəki qardaşı artıq qocalmış, özü isə hələ cavandır. Təbii ki, bu qocalmanı bizim bildiyimiz bioloji qocalma ilə heç vaxt izah etmək olmur. Yəni nisbilik nəzəriyyəsi əslində, riyazi kentavrdır. Beləliklə, bizdən dünya nizamını idrak etmək üçün təsəvvürlərdən daha çox bu quruluşlara inam gərəkdir. Bu inam olmadan biz reallıq haqqında heç nə bilməyəcəyik. Eynşteynin təbiri ilə desək: “Yaratdığımız nəzəri konstruksiyalarımızın reallığı ifadə etdiyinə inamımız olmasa, həm də dünyamızın daxili harmoniyaya malik olmasına inamımız olmasa, heç bir elm mümkün ola bilməz. Bu inam elmi yaradıcılığın həmişəlik motivi olaraq qalacaq” [19, s.256].

**Açar sözlər:** ədədlər, simmetriya, irrasional ədəd, sayma və sıralama, simvolika, kvazitəsəvvür

**İstifadə edilmiş ədəbiyyat**

1. Берман Г.Н. Число и наука о нем. М.: ГИТТЛ, 1954, 164 с.
2. Вейль Г. Симметрия. М.: Наука, 1968, 192 с.
3. Гайденко П.П. История греческой философии в ее связи с наукой. М.: Либроком, 2009, 264 с.
4. Ifrah G. The Universal History of Computing: From the Abacus to the Quantum Computer. John Wiley & Sons Inc., 2001, 416 p.
5. Кантор Г. Труды по терии множеств. М.: Наука, 1985, 430 с.
6. Клайн М. Математика: Утрата определенности. М.: Мир, 1984, 434 с.
7. Кэджори Ф. История элементарной математики. Одесса: Матщесис, 1910, 392 с.

8. Меннингер К. История цифр. Числа, символы, слова. М.: Центрполиграф, 2011, 598 с.
9. Нейгебауэр О. Точные науки в древности. М.: Наука, 1968, 224 с.
10. Никифоровский В.А. Из истории алгебры XVI-XVII вв. М.: Наука, 1979, 208 с.
11. Понтрягин Л.С. Обобщение чисел. М.: Наука, 1986, 126 с.
12. Рассел Б. История западной философии. В 2-х кн., кн.1. М.: Миф, 1993, 509 с.
13. Roger L. The history of mathematics: A brief course. John Wiley & Sons Inc., 2013, 615 p.
14. Рыбников К.А. История математики. Т.1. М.: Издательство Московского Университета, 1960, 191 с.
15. Стройк Д.Я. Краткий очерк истории математики. М.: Наука, 1990, 256 с.
16. Трубецкой С.Н. Метафизика в Древней Греции. М.: Мысль, 2010, 589 с.
17. Хайвер Э., Ваннер Г. Математический анализ в свете его истории. Пер. с англ. М.: Научный мир, 2008, 396 с.
18. Шпенглер О. Закат Европы: Очерки морфологии мировой истории. Т.1. Образ и действительность. Минск: Попурри, 2009, 656 с.
19. Эйнштейн А. Эволюция физики. Сборник. М.: Устойчивый мир, 2001, 264 с.
20. Юшкевич А.П. История математики. Т.1., М.: Наука, 1970, 352 с.

**Эльдар Амиров**

## СОЦИАЛЬНО-КУЛЬТУРНЫЕ ДЕТЕРМИНАЦИИ В МАТЕМАТИКЕ

### Резюме

В статье кратко излагается история математики додекартовского периода. Обстоятельное изучение исследований по основа математики показывает, что все фундаментальные идеи в этой области основываются на двух источниках – социокультурной среде и априорных структурах человеческого познания. Автор стремится доказать, что истина находится на пересечении двух тенденций, происходящих из указанных выше источников. В статье разработан новый подход относительно возникновения чисел. Выдвигаются также новые идеи о природе математического познания.

**Ключевые слова:** число, симметрия, иррациональное число, подсчет и нумерация, символика, квазиописание

**Eldar Amirov**

## SOCIAL-CULTURAL DETERMINATIONS IN MATHEMATICS

### Summary

The article considers briefly the history of mathematics of pre-Descartes period. The careful study of researches on mathematics bases has showed that all fundamental ideas in this area are based on two sources – socio-cultural environment and apriori structures of human cognition. Author strives to convince that truth is in the junction of two tendencies springing from these two sources. The article sets out a new approach concerning the origin of figures. As well the new ideas on nature of mathematical cognition are put forward in the article.

**Keywords:** number, symmetry, irrational number, count and numbering, symbolics, quasi-account

**UOT –**

**Faiq Ələkbərli**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d., dosent**

# NƏSİB BƏY YUSİFBƏYLİNİN DÜNYAGÖRÜŞÜNDƏ AZƏRBAYCAN MİLLİ İDEYASI

***Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə ithaf edilir***

*Məqalədə XX əsrin əvvəllərində Şimali Azərbaycanda Azərbaycan Türkçülüyü, Azərbaycan Milli İdeyası və ya azərbaycançılığın yaranmasında və inkişafında Nəsib bəy Yusifbəylinin xidmətləri qeyd edilir, onun maarıfçilik, sosial-demokratiya, islamçılıq, müasirləşmək, türkçülüklə bağlı dəyərli mülahizələri geniş şəkildə şərh olunaraq, onun əsas ideya istiqamətləri göstərilir. Məqalənin əsas mahiyyəti Azərbaycan milli ideyasının müəlliflərindən biri kimi Nəsib bəy Yusifbəylinin Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixindəki rolunu ortaya qoymaqdan ibarət olmuşdur.*

Öncə qeyd edək ki, Nəsib bəy Yusifbəyli Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əlimərdan bəy Topçubaşov və başqa tanınmış ziyalılarımız kimi, ilk dövrlərdə maarifçlik işləri görmüş, daha çox dini xurafata, dini mövhumata, cəhalətə və nadanlığa qarşı mübarizə aparmış, İslam dininin bütün bunlarla heç bir əlaqəsinin olmadığına diqqət yetirmişdir. Onun ilk qələm təcrübələrindən olan “Təslim” hekayəsinin məzmununu Azərbaycan Türk millətinin maariflənməsi, başqa millətlər kimi inkişaf etməsi, İslam dininin əsil mahiyyəti və digər məsələlər təşkil etmişdi. O, qeyd edirdi ki, başqa millətlərin dili zəngin, əlifbaları mükəmməl, qrammatikaları müəyyən olub, dövlət məktəblərin tərəqqisinə, maarifə nəzarətə çalışdığı halda, müsəlman-türk xalqlarında vəziyyət ürəkaçan deyildir. Belə ki, müsəlman-türk xalqlarında hələ də, yenilikçilərlə mühafizəkarlar arasında mücadilə davam etməkdədir. Bu anlamda, o, müsəlmanların real təhsil vəziyyətini əks etdirmək üçün mədrəsələrdəki şəraiti hərtərəfli təsvir etmişdi. N.Yusifbəyli yeni dövrün təhsil vəziyyətini göstərmək üçün Molla Mahmudun şəxsində mühafizəkar dünyagörüşünü, Rza bəyin timsalında isə yenilikçi dünyagörüşünü ifadə etmişdir.

N.Yusifbəyliyə görə Molla Mahmudları maraqlandıran millətin geriliyi deyil, öz vəziyyətləri olduğu üçün, onlar İslam dininin əsil mahiyyətini öz maraqları naminə xalqa doğru çatdırmırlar [14, s.55, 58]. Yusifbəylinin fikrincə, nə vaxta qədər məktəblərdə, mədrəsələrdə mühafizəkar ruhlu Molla Mahmudlar dərs keçəcəklər, heç vaxt irəliləyiş olmayacaq. Çünki Molla Mahmudlar təhsildə və ictimai həyatda yeniliyi və tərəqqini deyil, dini xurafat və cəhaləti təbliğ edirlər [14, s.57-58]. Nəsib bəy Rza bəylərin timsalında isə, vaxtilə elm və tərəqqinin mərkəzi olan Türk-İslam dünyasının bu günə düşməsinin səbəblərini də göstərməyə çalışırdı. Onun fikrinə görə, vaxtilə İslam mədəniyyətinin işığı olan məscidlərdəki mədrəsələrin qapalı hücrələrə çevrilməsinə səbəb, burada elmli, dünyagörüşlü insanlar əvəzinə, mərsiyəxanlar yetişdirməsidir. Yusifbəyli yazır: “Ah! Vaxtilə mərkəziülum və fünun olan və İbn Rüşdlər, İbn Sinalar yetişdirən, fəqət bugünkü gündə qeyri-qabili-islah (islahı mümkün olmayan) bir surətə girmiş bulunan şu mübarək mədrəsələrin lal və əbkəm divarları nələr eşitməmiş, nələr görməmişdir” [14, s.59]. Nəsib bəy hesab edirdi ki, artıq geriliyə, köhnəpərəstliyə və xüsusilə, yalançı din xadimlərinə, mollalara qarşı ciddi şəkildə mübarizə aparılmalıdır. Bu məsələdə isə açıqgözlü, milli ruhlu müəllimlərin çiyinlərinə daha ağır yük düşür. Çünki müsəlman ölkələrindəki müəllimlər yalnız öz vəzifələrini deyil, dövlətin işlərini də həyata keçirməlidir. Bir sözlə, bu gün Avropa millətlərinin həyata keçirdiklərini görmək, bu anlamda müsəlman-türk xalqlarını oyatmaq zamanıdır [14, s.63]. Onun fikrincə, başqa millətlərin dili zəngin, əlifbaları mükəmməl, qrammatikaları müəyyən olunub, eyni zamanda dövlətləri məktəblərin tərəqqisinə, maarifə nəzarətə çalışdığı halda müsəlman-türk xalqları isə, hələ də cəhalət və nadanlıqdan əziyyət çəkir, dövlətləri isə xalqa zülm verməklə məşğuldur. Hətta islam ölkələrində bəziləri, xüsusilə ikiüzlü ruhanilər, din xadimləri tapılır ki, tərəqqini, inkişafı dinin-islamın əleyhinə olan anlayışlar kimi qələmə verir, üstəlik Türk-müsəlman xalqlarının tərəqqi və inkişaf uğrunda çalışanları, o cümlədən qa-

baqcıl müəllimləri kafir elan edirlər [14, s.63-64]. Ümumiyyətlə, Rza bəylərin timsalında N.Yusifbəyli gələcəyin yeniləşmə və millətçiliklə bağlı olmasına inanırdı. Onun fikrincə, artıq mühafizəkar fikirlərlə milləti irəli aparmaq mümkün deyildir. Çünki mühafizəkar düşüncələr millətin bir nöqtədə dirənib qalmasından başqa heç bir şeyə xidmət etmir. Bu cür düşüncəli insanların, o cümlədən müəllimlərin yeni məktəblərdə öz işlərini davam etdirməsini təhlükəli hesab edirdi.

N.Yusifbəyli islamçılığı isə müsəlman ölkələrinin vahid dövlət halında birləşməsi və sair kimi deyil, mənəvi birlik olaraq qəbul etmişdir. O, xüsusilə bəzi Avropa ziyalılarının, o cümlədən erməni şovinistlərinin ortaya atdığı “panislamizm” anlayışın qəbul etmir və onu müdafiə edən istənilən qüvvəyə qarşı çıxırdı. Onun fikrincə, bütün müsəlman xalqlarının bir dövlətdə birləşməsi bir utopiyadır. Bu cür utopiyalarla uğraşmaqdansa, daha real işlər görülməli və müsəlman millətlərinin mədəni səviyyəsinin yüksəlməsinə çalışılmalıdır: “Bir iftira qalmadı ki, onlar müsəlmanların üstünə atmasınlar: cahaddanmı cəhd etmədilər, “ittihadi islam” iləmi dövləti qorxudub fəna halımızın daha da fənalaşmasına təşəbbüs etmədilər?” [26]. O hesab edirdi ki, ermənilərin “İttihadi-İslam” məsələsini xüsusilə qabartması məkrlikdən başqa bir şey deyildir. Bununla da ermənilər xristian din qardaşlarının yardımına ümid edirlər. Bu baxımdan ermənilərin qəzetlərdə müsəlmanlara atmadıqları iftira və böhtan qalmamışdır. Yusifbəyli yazırdı: “Bu yıllarda “İttihadi-İslam” xüsusunda nələr yazılmadı, nələr söylənmədi. Ermənilər gecələri yatıb bu xüsusda quramalar düzəldib, röyalar görüb gündüzlər dünyanın hər bir bilmənə xəbərlər yazıb qəzetələri doldururlar” [14, s.120]. Yusifbəyli hesab edirdi ki, ermənilər boş xülyadadırlar və onların iddia etdiyi mənada müsəlmanların vahid dövlətdə birləşməsinə heç ehtiyac da yoxdur. Çünki müsəlmanlar xristianlara ya da başqa qeyri-müsəlmanlara qarşı vahid dövlətdə birləşmək deyil, öz daxilində birlik və bütöv olmaq yollarını arayır. N.Yusifbəyli doğru qeyd edirdi ki, İslam birliyi məsələsindən narahat olan yalnız ermənilər deyil, həm də Avropanın qabaqcıl ziyalıları, onların mətbuatıdır. Avropalılar hesab edirlər ki, bütün müsəlmanlar vahid bir dövlət yaratsalar, ya da Osmanlı Türkiyəsinin ətrafında birləşsələr onlar üçün təhdid yaradacaqlar. O yazırdı ki, bəzi türk-müsəlman mütəfəkkirlərinin İslam birliyi yönündəki yazıları da məsələni daha da mürəkkəbləşdirmişdi [14, s.121-122].

N.Yusifbəyli İslam dini, İslam birliyi məsələlərinə sonralar da həssaslıqla yanaşmışdır. O, Türk Ədəm-Mərkəziyyət Partiyasının sədri olduğu zaman İslam dinindən sui-istifafə etməyə çalışan mühafizəkar ittihadçılara qarşı da mübarizə aparmalı olmuşdur. Çünki həmin dövrdə Gəncədə mühafizəkar ittihadçılar “Məhəmmədi” firqəsi yaradaraq Türk Ədəm-Mərkəziyyət Partiyasını dinsizlikdə ittiham edirdilər [22, s.75]. N.Yusifbəylinin İslam dininə münasibəti, xüsusilə dinin dövlətin işinə qarışmaması düşüncəsi sonralar da davam etmiş, onun baş naziri olduğu dövrdə qüvvədə qalmışdır. N.Yusifbəyli baş nazir kimi ilk çıxışında bəyan etmişdir ki, müqəddəs hürriyyətlərdən məmurların sui-istifadə etməsinə yol verilməyəcək, eyni zamanda ədliyyə məhkəmələrinin ədalətli və qanuni qərarlarına tabe olmaları əsas tutulacaqdır. Onun fikrincə, bu azadlıqların ən müqəddəsi vicdan və şəxsiyyət azadlığı, mənzil toxunulmazlığıdır ki, inanc və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib edilməyəcəkdir [14, s.134].

Nəsib bəy Yusifbəyli ilk dövrlərdə sosial-demokratların bütün millətlərin bərabər hüquq və azadlıqlara malik olması ilə bağlı ideyalarına da xeyli dərəcədə meyil göstərmişdi. Belə ki, Nəsib bəy Odessada, Xarkovda tələbə olduğu (1902-1906) dövrdə və “Tərcüman”da çalışdığı ilk illərdə (1906-1907) siyasi cərəyanlar arasından daha çox sosial-demokratizmə meyil göstərmişdir. Həmin dövrdə bir çox soydaşları kimi Yusifbəyli də, sosial-demokratizmin çar Rusiyasının əsarəti altında olan xalqlara azadlıq gətirəcəyini düşünmüşdür. Şübhəsiz, Odessa və Xarkovda sosial-demokrat təşkilatlarının güclü olması, eyni zamanda onlar proqramının cəlbedici olması Yusifbəyliyə də ciddi təsir göstərmişdir. Necə ki, bu dövrdə sosial-demokratizmin təsiri altında M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Ağaoğlu və başqaları da olmuşdular.

Özəlliklə, Yusifbəyli 1906-1907-ci illərdə “Tərcüman”da yazdığı məqalələrdə Bakıda nəşr olunan “İrşad” və başqa milli-dini yönlü qəzetlərdə sosial-demokratizmdən və onların nümayəndələrindən (Marks, Plexanov, Jores, Bebel və b.) bəhs olunmasını təqdir etmişdi. Xüsusilə, o, “İrşad” da Nəriman Nərimanovun sosial-demokratlarla bağlı məqaləsini şərh etmiş, müəyyən dərəcə də onun fikirləri ilə razılaşdığını ifadə etmişdi [27]. Onun fikrincə, yalnız sosial-demokrat cərəyanı

dövrünün başqa şovinist “pan”izmlərindən fərqlənir və yalnız ona ləkə yaxmaq doğru deyildir: “Panslaviyanizm, panxristianizm, panermənizm, panyəhudizm və qeyri panizmlər ancaq qarnı tox ağaların xam xəyallarıdır və füqarayi-kasibəyə böylə böhtan atmaq rəva deyil!.. Doğrudur, Yer üzünün cəmi ictimaiyyun ammiyyunların (sosial-demokratlarının) da bir “panizmi” var, ona dəxi panxristianizm deməzlər, bunu adı “panfüqarayi-kasibizm”dir” [27].

Gördüyümüz kimi, bu zaman Yusifbəyli milli yönlü ya da milliyyətçi təşkilatları deyil, beynəlmiləl mahiyyətli sosial-demokratizmə üstünlük vermişdir. Hətta, o, iddia etmişdir ki, yalnız sosial-demokratlar doğru yoldadır. Bu anlamda sosial-demokratizm yeganə çıxış yoludur. Çünki sosial-demokratlar cəmiyyətin problemlərinə milliyyətçilik deyil, beynəlmiləlçilik mövqedən yanaşır. Eyni zamanda marksizmə rəğbət bəslədiyi dövrdə bir çox mütəfəkkirlərimiz Ə.Ağaoğlu, Ə.Hüseynzadə, N.Nərimanov, M.Ə.Rəsulzadə və başqaları kimi N.Yusifbəyli də sosial-demokratizmlə islam arasında oxşar cəhətlərin olmasına inanmış və bu cərəyanı bütövlükdə dini dünyagörüşə əks hesab etməmişdir. N.Yusifbəyli ilk dövrlərdə, sosial-demokratizmə meyilli bir şəxs kimi hesab edirdi ki, çar Rusiyası Avropa ölkələrindən fərqli olaraq baş vermiş inqilabdan düzgün nəticə çıxarmır. Belə ki, çar Rusiyasında sosial-demokratların baxışlarından doğru nəticə çıxarmaq əvəzinə onlara qarşı repressiyalar həyata keçirilir. Yusifbəyli yazırdı: “Avropada təcrübə və timsali olub keçmiş inqilab və hərəkatlardan Rusiya dövləti ibrət almaq gərək idi. Qaynayıb axan bir suyun önünü kəsmək mümkün olmadığı kimi oyanmış, qəlyanə gəlmiş xalqın hüquq və vəzifəsini anlamış camaatın da önündə durub toxtatmaq mümkün olamayacağını düşünmək və bilmək gərək idi” [14, s.112].

Qeyd edək ki, Nəsib bəy Yusifbəyli sonralar sosial-demokrat təlimindən uzaqlaşaraq türkçülük, daha sonra onun bir qolu olan Azərbaycan türkçülüyü uğrunda mübarizə aparmışdır. Ancaq bu o demək deyildi ki, o, sosial-demokratizmin insan hüquq və azadlıqlarına aid müddəalarından imtina etmişdir. Hesab edirik ki, Yusifbəyli türkçülük, Azərbaycan türkçülüyü hərəkatının liderlərindən biri olduğu zamanlarda da sosial məsələlərin həllində, o cümlədən fəhlə və kəndlilərin hüquq və azadlıqlarının qorunmasında sosial-demokrat cərəyanının bəzi müddəalarını müdafiə etmişdir. Hətta, onun qurucusu və lideri olduğu “Türk Ədəmi-Mərkəziyyət” partiyasının proqramında da sosial-demokratizmin müddəaları, o cümlədən “Aqrar məsələ”, “Fəhlə məsələsi” də öz əksini tapmışdır. Bununla bağlı “Türk Ədəmi-Mərkəziyyət” partiyasının proqramında yazılırdı ki, xalqın firqəsi kimi Türk ulusunun bütün təbəqələrinə əsaslanır: “Demokratik partiya kimi zəhmətkeş xalq kütlələrinə arxalanır və Rusiyanın İslama etiqad edən bütün türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini müdafiə etməyə çalışır” [4, s.409].

Sadəcə burada zahirən bir anlaşmazlıq var ki, Seyid Cəfər Pişəvəri, Hüseyn Baykara onun Müsavat Partiyası daxilindəki mövqeyini “sol cinaha mənsub olan Nəsib bəy Yusifbəylinin mülkədar və kapitalist qrupu” [5, s.187] kimi dəyərləndirmişlər. İlk baxışda “kapitalist və mülkədarın” sol cinahda dayanması məntiqsizlikdir. Bizə elə gəlir ki, N.Yusifbəyli sinfi təbəqəsinə görə “mülkədar və kapitalist qrup”una aid edilsə də, əslində o, düşüncə və dünyagörüş baxımından bütün insanların sosial bərabərliyinin tərəfdarı olmuşdur. Başqa sözlə, N.Yusifbəylinin “mülkədar və kapitalist qrup”una aid edilməsi simvolik xarakter daşımış, bu daha çox onun əcdadlarının bəy-xan nəslindən olmasından irəli gəlmişdir. Ancaq gerçəklikdə isə, o, bəy-xan əcdadlarının davamçısı kimi heç bir sinfi ayrı-seçkilik qoymamış, Türk ulusunu bütün kimi görmüşdür.

Yusifbəyli də türkçülük ideyasının yaranmasında böyük türkçülərdən İsmayıl bəy Qaspıralının mühüm rolu olmuşdu. Belə ki, İ.Qaspıralının uzun müddət müəyyən fasilələrlə “Tərcüman” qəzetində çalışmış (1906-1912) Yusifbəyli ustadının türk xalqlarının “Dildə, fikirdə və işdə birlik” fəlsəfəsini mənimsəmişdir. Hər halda İ.Qaspıralının dünyagörüşündə türkçülük hərəkatı digər ideologiyalardan, cərəyanlardan üstün mövqeyə malik olmuşdu [13, s.15]. Ə.Cəfəroğlu da yazır ki, N.Yusifbəyli də türkçülük ideyasının yaranmasında İ.Qaspıralının mühüm rolu olmuşdu [7, s.7-8]. Yusifbəylinin Türk milliyyətçisinə çevrilməsində İ.Qaspıralının mühüm rolundan M.B.Məhəmmədzadə də bəhs etmişdir: “Nəsib bəy Qaspıralı İsmayıl bəyin yanında “Tərcüman”da çalışmış, İsmayıl bəydən dərs və ilham almış, onun qızı ilə evlənmiş, 1908-ci ildə İstanbulda yaranan “Türk dərnəyi” cəmiyyətinin ilk üzvlərindən biri olmuş bir şəxsiyyət idi” [14, s.54].

Nəsib bəy Yusifbəylidə türkçülük məfkurəsinin yaranmasında İ.Qaspıralının təsiriylə yanaşı, 1908-1909-cu illərdə Türkiyədə yaşaması və burada “Türk dərnəyi” üzvləri ilə birgə apardığı mübarizə də mühüm rol oynamışdır. Cəfər Seyidəhməd Kırımər “Mücahid” jurnalında (IV cild, 45-46-cı sayıları) nəşr etdiyi “Qaspıralı İsmayıl Bəy - Nəsib bəy Yusifbəyli” məqaləsində yazır: “1909-cu ilin sonlarında bizim həyatımızda əhəmiyyətli bir hadisə olmuşdu. Tələbə cəmiyyətimiz əcələ yığıncağa çağırıldı. Bir komissiya seçildi. İstanbula gələcəyini xəbər aldığımız Qaspıralı İsmayıl bəyi qarşılayacağıq. Nəhayət gözlədiyimiz gün gəldi. İsmayıl bəylə birlikdə, Yusuf bəy Akçura və İsmayıl bəyin kürəkəni Azərbaycanlı Nəsib bəy Yusifbəyli də gəlmişdilər. Biz bu toplantıda Nəsib bəylə razılaşmış və ona candan bağlanmışdıq” [23].

Deməli, 1908-1909-cu illərdən etibarən Yusifbəyli Türkçülüyün əsas dava adamlarından biri olmuşdu. Artıq onun dünyagörüşünün mərkəzində Azərbaycan türkçülüyü əsasında Azərbaycan türklərinin Rusiya daxilində öncə muxtariyyət, daha sonra isə istiqlaliyyət əldə etməsi dayanmışdır. Məhz bunun nəticəsidir ki, 1917-ci ilin martında yaranan “Türk Ədəmi-Mərkəziyyət” partiyasının lideri kimi N.Yusifbəyli çar Rusiyasını federativ şəkildə görmüş, bu federasiya çərçivəsində də Azərbaycanın muxtariyyətini tələb etmişdir. M.B.Məmmədzadə yazır: “Azərbaycana qayıtdıqdan sonra Nəsib bəy Əmin bəylə yaxın əlaqəyə girərək “Açıq söz” ailəsinə daxil olmuşdu. Onun qurduğu Ədəmi-Mərkəziyyət firqəsi “Açıq söz”ün yaydığı millət nəzəriyyəsinə əsaslanırdı və millət məsələsini “Müsavat” kimi həll edirdi. O, Rusiyanın milli varlıqlara parçalanmasını, federalizm üzərində qurulmasını, bütün millətlərə, o cümlədən Azərbaycana, Türküstana, İdil-Urala və Krıma milli-məhəlli muxtariyyat verilməsini tələb edirdi” [15, s.54].

M.Ə.Rəsulzadə də qeyd edir ki, əslində türkçülük mərkəzli Azərbaycan milli ideyası onların tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmışdı: “Hərbi-ümumi sənləri idi. O, Gəncədə bələdiyyə idarəsi əzadarlığında, mən də Bakıda 1915-də təsis etdiyim “Açıq söz” qəzetinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sıx-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini “Açıq söz” idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda 1920-ci ilin son may günlərinədək zərrə qədər xələldar olmayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi. Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda “Açıq söz” qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı” [20, s.110-111].

Bütün bunları nəzərə alaraq M.Ə.Rəsulzadə daha sonra yazırdı ki, Nəsib bəy Yusifbəylinin Azərbaycan istiqlalı hərəkatındakı rolu yalnız maarif naziri və baş nazir olmaqla kifayətlənməmişdir: “Nəsib bəyin Azərbaycan istiqlalı hərəkatındakı rolu sadəcə nazirlikdə və baş vəkillikdə bulunduğunu söyləməklə ifadə ediləməz. Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də “Türk Ədəmi Mərkəziyyət xalq firqəsi” namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir” [20, s.110]. Bu cür oxşar fikri Azərbaycan Türk aydını Nağı Şeyxzamanlı da səsləndirmişdir. Onun fikrincə də, milli istiqlal ideyasının əsas müəllifi kimi Azərbaycan fikrini tələb maddəsi halında irəli sürən N.Yusifbəylidir [22, s.117].

Qeyd edək ki, Nəsib bəy 1917-ci il aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının 1-ci qurultayında “kim dava edə bilər ki, biz kəndini (özünü – F.Ə.) idarəyə səlahiyyətdar bir millət deyilik!” demişdir. M.B.Məmmədzadə yazır: “Qurultayın lap ilk günlərindən etibarən hakim mövqeyi iki firqə tutmuşdu ki, bunlardan biri “Müsavat” xalq firqəsi, digəri də “Türk Ədəmi-Mərkəziyyət firqəsi” idi. Birincinin fikirlərinə Məhəmməd Əmin Rəsulzadə, ikincininkinə isə Nəsib bəy Yusifbəyli tərcüman olurdu” [15, s.55].

Bələliklə, Rəsulzadənin də yazdığı kimi, o, bu qurultayda Azərbaycan türkçülüyü, türkçülük, xalqçılıq və modernləşmə (yeniləşmə) prinsiplərini müdafiə etmişdi. Hətta, bununla kifayətlənməyərək eyni prinsiplərlə çıxış edən iki partiyanın birləşməsinə təşəbbüs göstərmiş və dərhal bunun tətbiqini istəmişdi. Rəsulzadə yazır: “Nəsib bəyin zəkası yalnız bu çıxışı ilə bitməmiş, o qurultayda eyni prinsipləri müdafiə edən Müsavat xalq firqəsinin nümayəndələri və “Açıq söz” qəzetini təmsil

edən cərəyanla sözləşərək, onlara yaxın axınların birləşmələrini təmin etmək zərüriyyətini görmüş və onu həyata keçirmək təşəbbüsünü irəli sürmüşdür. Bir tərəfdən Nəsib bəy, digər tərəfdən də M.Ə.Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan istiqlalçılıq hərəkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbit etməliyəm. Bu ittihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk Federalist Müsavat Xalq Firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir” [20, s.111].

1918-ci ilin əvvəllərində yaradılmış Seymdə Xalq Maarif naziri vəzifəsini tutan N.Yusifbəyli burada da türkçülüyü, Azərbaycan xalqının milli maraqlarını müdafiə etmişdir [23]. Türkiyəylə danışıqlar üçün Batuma sülh nümayəndəliyi göndərməzdən öncə Zaqafqaziya Seyminin türk-müsəlman fraksiyası qarşısında çıxışı zamanı da Yusifbəyli əsas diqqəti Azərbaycan türklərinin çətin günlər yaşamasına, onun varlığının təhlükə altında qalmasına yönəltmişdir. O, bu çıxışında açıq şəkildə bildirib ki, Seymin tərkibindəki gürcülər və ermənilər Şimali Azərbaycanda erməni daşnaklarıyla rus bolşeviklərin türk-müsəlman əhaliyə qarşı soyqırım törətməsinə tamamilə biganədirlər. Belə bir halda, Azərbaycan türklərinin Türkiyə türklərinə üz tutmaqdan başqa çarə qalmadğını deyən Yusifbəyli bütün bunlarla yanaşı, “Müstəqil Azərbaycan” ideyasının qüvvədə qalmasını da ifadə etmişdir: “Bizim nümayəndə heyətimizin Batuma getmək və və Şərqi Zaqafqaziya türkləri adından Osmanlı imperiyasından yardım istəmək vaxtı gəlib çatmışdır. Əlbəttə, biz təcili olaraq qoşun göndərilməsi üçün türklərə çox da təkid edə bilmərik; biz ancaq xahiş edəcəyik. Ancaq bütün bunlarla yanaşı, azad Azərbaycanın müstəqil surətdə mövcudluğu ideyasını heç vaxt gözdən qaçırmaq lazım deyil” [24, s.22-23].

Azərbaycan Cümhuriyyətinin qurulmasında və inkişafında mühüm işlər görmüş Nəsib bəy bu dövrdə əvvəlcə maarif naziri, daha sonra baş nazir kimi bəyan edirdi ki, Azərbaycan türklərinin yeganə ideyası Azərbaycanın milli istiqlalıdır. N.Yusifbəyli Azərbaycan Cümhuriyyətinin birillik ildönümüylə bağlı xalqa müraciətində milli istiqlal məsələsiylə bağlı bildirirdi ki, artıq Azərbaycan Türk milləti istiqlaliyyətini heç bir kəsə güzəştə getməyəcəkdir: “Qan dəryasında qütəvər olan Azərbaycan Türk milləti kəndi müqəddəratını öhdəsinə alaraq, özbaşına buraxılmışdır. O, mətanətiqəlb və əzmi qəti ilə istiqlalı düşünərək yaşayır. Və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb, ona rəvan oldu. Öylə bir yol ki, onu ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu bir sənə müddət ərzində biz yorulmadan işlədik və bu işləməyimiz ilə dövlətimizi möhkəmləndirərək, camaatımızın aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və istərdik ki, camaat və millət vəkillərinin getdikləri yol doğru və xalqın azad fikir və məsləkidir. Bu az vaxt zərfiində Azərbaycan türkləri kəndilərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yeritdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökfərmadır” [25].

Baş nazir kimi proqram səciyyəli ilk çıxışında da, o, Milli istiqlal məsələsini xüsusilə qeyd etmişdir. “Möhtərəm millət vəkilləri! Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti müstəqilliyini elan etdiyi bu az bir zamanda yar və əğyar nəzərində müstəqil olmağa layiq olduğunu göstərdiyindən, bugünkü vəziyyət və mövqeyimiz iki ay əvvəlkindən daha mətin və daha sağlamdır. Bəli, 10 aydan bəri həqiqətən müstəqil olan Azərbaycan bu gün böyük dövlətlər tərəfindən belə hüsni-qəbul əsnasında olduğuna və Azərbaycan Türklərinin yaxın bir zamanda dünyanın bilcümle mədəni millətləri ailəsinə olacağına ümidimiz güclüdür. Bu, belə olacaq idi. Çünki Azərbaycan Türkləri fərdi vücud olaraq kişi-qadın, gənc-qoca, kasıb və zəngin, işçi və rəncbər, “Müsavat”, “Əhrar”, “Sosialist”, “İttihad” xülasə bütün millət vahid vücud olaraq istiqlalımızı mühafizə etməyə and içmişdir. Çünki millətin bu əzminə birbaşa şahid olan böyük və demokratik İngiltərə komanda heyəti, aldığı təəssüratı tərəfsiz, şişirtməsiz Parisdə təşkil edilən məhkəmə-kübrayə kəsb edəcəyi şübhəsizdir...” [14, s.131-132]. Yusifbəyli daha sonra demişdir ki: “İfadə azadlığı, mətbuat azadlığı, yığıncaq azadlığı mədəni və demokratik bir dövlət rəhbərliyi başlıca şərtləridir. Bu barədə, zənnimcə, hər kəsdən biz irəli gedirik. Azərbaycanda görülən bu azadlıqlar dünyanın heç bir tərəfində yox-

dur. Hökumət, təbii, müqəddəs olan bu azadlıqları qoruyacaq. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, harada yığışırsa yığışsın. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. Bu istiqlaliyyəti, millətin bu müqəddəs və qanuni haqqını təhqir etdirməməyə, bu ülvi hissiyyatına toxundurmamağa hökumət var gücü ilə çalışacaqdır” [14, s.132-133].

Baş nazir olduğu dövrdə Azərbaycanın Türkiyəyə, yaxud da Rusiyaya birləşməsini tələb edən “ittihadçılar”a, denikinçilərə, bolşeviklərə ümumiyyətlə, istənilən “ihaqçılar”a qarşı çıxanları isə Yusifbəyli daima tənqid etmişdir. Belə ki, Cümhuriyyətin bəyan olunmasından sonra, ilk dövrlərdə müəyyən təsir qüvvəsinə malik olan osmanlıpərəst “ilhaqçılar”ın milli istiqlala qarşı yönəlmiş ideyalarına cavab olaraq Yusifbəyli deyirdi ki, onlara müəyyən obyektiv səbəblərə görə güzəştlərə getmək olar. Ancaq bu güzəştlər Azərbaycanın milli istiqlalına xətər yetirməməlidir. Nəsib bəy deyirdi ki, əks halda “istiqlalımıza qarşı yönəlmiş təcavüzə qarşı ilk əvvəl üsyana qalxan mən özüm olacağam” [1, f. 970, s.1, i. v.57].

N.Yusifbəylinin fikrincə, bu dövrdə Azərbaycan türkçülüyü ideyasının, milli istiqlalın tamamilə ziddinə olan əsas qüvvə isə bolşevizm və bolşeviklər olmuşdur. “Bolşevizm bizim üçün bir təhlükədir, bəlkə də daha böyük təhlükədir” [3, s.67] deyən, Nəsib bəy daha sonra qeyd edirdi: “Əgər bu saat mənə desələr ki, səni tanıyıb və istiqlalını təsdiq edirəm, mən sabah burada bir bolşevik qoymaram. Çünki bolşeviklərin təhlükəsini biz öz istiqlalımız ilə ölçürük. Biz hürriyyəti-vicdan tərəfdarıyıq” [3, s.68]. Bu anlamda Azərbaycanın baş naziri Milli İstiqlalın yaşaması üçün Rusiyayla, daha doğrusu Sovet Rusiyasıyla münasibətdə diqqətli olmağı hər şeydən vacib hesab edirdi. O bildirirdi ki, Azərbaycanın Rusiyanın daxili işlərinə qarışmağa haqqı yoxdur: “Rusiyada hansı təriqət qalib gələcək, hansı adamlar iş başına keçəcək - bu, bizim vəzifəmiz deyil, böyük Rusiyanın öz işidir. Biz Rusiya dövləti ilə hər zaman sülh və səlahla dostluq keçinmək istəriz.Yalnız bir məsələ var ki, bolşevik Rusiyamı, menşevikmi, yoxsa başqa birimi olsun, bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb edirik. Bunun da haqqımız olduğunu, təbii, kimsə inkar etməz, zənn edirik” [14, s.136-137].

N.Yusifbəyli hesab edirdi ki ki, Sovet Rusiyasına ya da bolşevizmə qarşı dayanmaq üçün tək çıxış yolu qüvvətli olmaqdır: “Bunu tək bilməliyik - qüvvətli olmasaq nə hürriyətimiz, nə də istiqlalımız mümkün deyil. Onun üçün hərbi işimiz hökumət işinin əsası olacaq. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və səy edəcək. Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, imkanlıların, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara izah edəcək. Ayrıca boyun qaçıran olursa lazım olan cəza veriləcək. Xülasə, əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl, gələcəyimiz qüvvətə və millətin əzminə möhtacdır. Birincisi hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir” [14, s.137-138].

1919-cu ilin mayında Bakıda rus fəhlələrinin çox çalışdığı müəssisələrdə tətillər keçirilirdi ki, bu məsələ parlamentin 6 may 1919-ci il tarixli 34-cü iclasında müzakirə olunan zaman Nəsib bəy Yusifbəyli bildirmişdir ki, bu tətil iqtisadi deyil, siyasi xarakter daşıyır: “Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən şəxslərin özləri də inkar etmiyorlar. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, eyni zamanda Azərbaycanda da (ki, onu Rusiyanın bir parçası olaraq görərlər) Sovet hökuməti təşkil edək. Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötəri hər cür vasitəyə müraciət ediblər və edirlər” [14, s.138].

Baş nazir çıxışında daha sonra deyirdi ki, indiyə qədər iş başında olan hökumət və indiki hökumət Azərbaycanda mətbuat azadlığı, yığıncaq, tətil azadlığını qoruyub: “Bunun səbəbi nədir? Səbəbi budur ki, hökumətimizə hər nə qədər bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xalqpərəst əməli ilə demokratlığı sübut etmişdir. Ancaq indi bu azadlıqlardan sui-istifadə edilir. Bunlar da öz içərimizdən olan əhbalimiz deyil, özgə dövlətlərdən gələnlərdir ki, sui-istemal edirlər. Bununla da əsl məqsəd Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Bunu rusların əksəriyyəti, mütəəssifanə, hər bir Rus istəyir” [14, s.139]. Yusifbəyli açıq şəkildə deyirdi ki, Rusiya Azərbaycanın istiqlalını tanıyarsa, onunla hesablaşarsa o zaman ruslara neft vermək mümkündür: “Bunlar olmayınca hökumət Sovetlərə neft verməz. Lakin bunlar deyirlər ki, yolu şərtsiz açın, gəlsinlər. Buna heç bir hökumət, heç bir işçi, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz” [14, s.139].

Azərbaycan Cümhuriyyətinin timsalında Azərbaycan xalqı bir millətin taleyində önəmli rol oynayan ideyaları (istiqlal, müstəqil parlament, müstəqil ordu, bayraq və s.) əldə etdikdən sonra, onu Sovet Rusiyasının əli ilə yıxıb yerində "müstəqil Sovet Azərbaycanı" qurmağın da, bu mənada Nəriman Nərimanovun Sovet Rusiyasının başçıları ilə əslində tabeçilik anlaşması əsasında, onların qarşısında hansısa şərtlərlə çıxış etməsinin də heç bir anlamı yox idi. Burada qazanan yalnız bir tərəf var idi: Sovet Rusiyası və onun əlaltıları. Fikrimizcə, bu baxımdan Nərimanov Sovet Rusiyasından deyil, Sovet Rusiyası Azərbaycan Cümhuriyyətini işğalı planı çərçivəsində "Nərimanov faktoru"ndan maksimum faydalanmışdır.

Bunu, həmin dövrdə Moskvada yaşayan Nərimanovun Azərbaycanda baş verənlərlə bağlı Lenini daima məlumatlandırması, "Qafqazın işğalına baxış" məruzəsi və xüsusilə, Azərbaycanın baş naziri N.Yusifbəyliyə yazdığı məktubundan açıq şəkildə görmək mümkündür. Nərimanov Yusifbəyliyə yazdığı bu məktubunda bolşeviklərlə bir yerdə olmasını siyasi-ideoloji baxışlarındakı fərqlərlə izah etməyə çalışmışdır: "Mən türkləri Qafqaza dəvət etmək tərəfdarlarına qarşı daim ciddi şəkildə çıxış etdim. Hətta mənim Duma salonunda oxuduğum son dərs də tamamilə bu mövzuya həsr edilmişdi və mən indiki vəziyyətinizi təsbit və aydın şəkildə göstərmişdim. Əgər pantürkizm və panislamizm düşüncələrini yayarkən mən bir kommunist kimi sizin qəti əleyhinizə çıxmışdımsa, lakin Türkiyə qanadı altına girmək cəhdinizə, bir psixoloq kimi lütfkaranə baxırdım. Türkiyə "zəfərlə" gəlib rüsvayçılıqla getdi. Bağışlayın, siz İngiltərənin çəkmələri altında əzilə-əzilə onu müsəlman kütləsinə tərifləməyə başladıqdan sonra isə daha mənim nəzərimdə ideyalı adamlar, milləti və xalqı sevən adamlar deyilsiniz, bir ovuc fabrik sahibinin və mülkədarın maraqlarını müdafiə edənlər" [16, s.216]. Çox keçmədi ki, Nərimanovu qanadının altına alan Sovet Rusiyası da Azərbaycana "zəfərlə" gəldi, ancaq şimal ölkəsi Türkiyədən fərqli olaraq ləyaqətlə getmədi, sözün həqiqi mənasında bü ölkəni 70 il müstəmləkəsi kimi idarə etdi.

N.Yusifbəyli isə Nərimanov kimi düşünənlərə cavab olaraq Parlament kürsüsündən bildirirdi ki, milli istiqlalçı kimi bütün qüvvələrə bir nəzər ilə baxır: "Mənim tutduğum nə bolşevik, nə də menşevikdir. Mən yalnız vətənimizin, istiqlalliyyətimizin düşmənlərini tuturam. Onlar öylə adamlardır ki, hər zaman fikirləri bizim hüququmuza və istiqlalımıza təcavüz etməkdir və yaxud idarə tərzimizi dəyişmək üçün çalışmaqdır. Bunlar bizim düşmənlərimizdir" [3, s.69]. Bütün bunları nəzərə alaraq Rəsulzadə Türkiyədə mühacirətdə yaşadığı dövrdə "Yeni Qafqaziya" dərgisində yazırdı ki, ümumilikdə, Nəsib bəy xalqçı, idealist, millətpərvər, demokrat və liberal bir şəxsiyyət olmuşdur: "Nəsib bəyin şəxsiyyətini, onu yetişdirən mühitin xüsusiyyətini kamilən təhlil etmək və nəticədə mərhumun tutduğu həqiqi mövqeyi olduğu kimi təsbit etmək üçün məqaləmizin həcmi müsaid deyildir. Bu qədər söyləyə bilərik ki, o, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik mümətsillərindən biridir. Elə bir mümətsil ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur" [14, s.177].

Fikrimizcə, M.Ə.Rəsulzadənin silahdaşı, məsləkdaşı Nəsib bəy haqqında dedikləri o qədər doğru, dürüst və səmimidir ki, bu deyilənlərə əlavə bir söz demək çox çətindir. Rəsulzadənin Yusifbəyli ilə bağlı dediklərində diqqəti çəkən məqamlardan biri də, Nəsib bəyi milli Azərbaycan ideyasının müəllifi kimi göstərməsidir. Bu onun göstəricidir ki, Rəsulzadə memarı olduğu Azərbaycan Cümhuriyyəti ideyasında Nəsib bəyin rolunu daha üstün verməklə öz ləyaqətinin ucalığını ifadə etmişdir. Başqa sözlə, Rəsulzadənin bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, milli və müstəqil Azərbaycan ideyasının nəzəri-ideoloji müəllifi Rəsulzadə, siyas hədəfçisi isə Nəsib bəy olmuşdur. Belə ki, Nəsib bəy Rəsulzadənin nəzəri-ideoloji şəkildə irəli sürdüyü milli və müstəqil Azərbaycan ideyasını siyasi bir tələb kimi ifadə etmişdir. Deməli, Azərbaycan Cümhuriyyəti iki böyük liderin nəzəri-ideoloji və siyasi praktiki əməllərinin nəticəsidir. Bu mənada bu iki böyük Azərbaycan Türkünün Azərbaycan Cümhuriyyətinin yaranması və inkişafında göstərdiyi xidmətlər misilsizdir [8, s.149]. M.Ə.Rəsulzadə Yusifbəyliylə bağlı eyni fikirləri 1923-cü ildə Türkiyədə nəşr olunan "Azərbaycan Cümhuriyyəti keyfiyyəti-təşəkkül və şimdiki vəziyyəti" əsərində də əks etdirmişdir. Azərbaycan Cümhuriyyətinin qurucusu həmin kitabında yazırdı ki, Nəsib bəy Qafqasiyada türk milliyətpərvərliyini tərvic edən dəyərli xadimlərimizdəndir: "Nəsib bəy qüvvətli bir qələmə malik olduğu

kimi, hərarətli də bir natiq idi. Ona görə də qüvvətli iman sahibi və demokrat bir adamdı” [21, s.133].

Qeyd edək ki, Yusifbəyli Azərbaycan milli istiqlal ideyasına sona qədər sadiq qalmışdır. Belə ki, Nəsib by Yusifbəyli Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal edildikdən qısa bir müddətdən sonra yaxın silahdaşlarıyla (Nağı Şeyxzamanlı və b.) görüş zamanı demişdir: “Azərbaycan istiqlalını qurduq. Ancaq onu saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güclü qüvvələri ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey varsa, o da bizə təsəlli verməkdədir. Ruslar zülmləri, vəhşilikləri ilə xalqımızı nə qədər əzirlərsə əzsinlər, əbədi olaraq qala bilməzlər. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumundan mənəvi varlığımıza hopmuş hürriyyət ruhunu söküb ata bilməzlər. Onlar buna nail olmaq üçün vəhşiliyi və qəddarlığı ilə məhur olan Neronu köməyə çağırsalar da yenə müvəffəq ola bilməzlər” [14, s.195-196].

N.Yusifbəyli Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra 1920-ci ilin iyun-iyul aylarında naməlum şəkildə şəhid olmuşdu. Burada onun hansı şəkildə şəhid olması ilə bağlı geniş müzakirə açmadan yalnız onu qeyd etmək istərdik ki, bütün hallarda Nəsib bəy Yusifbəyli Azərbaycan Türk millətinin, Azərbaycan Cümhuriyyətinin böyük şəhid oğullarından biridir. O, yalnız Azərbaycan Cümhuriyyətinin baş naziri kimi deyil, milli Azərbaycanın siyasi istiqlalının ilk müəlliflərindən biri və şəhid oğlu olaraq sonsuz sevgiyə və hörmətə layiqdir.

Böyük türkçü-turançı Əli bəy Hüseynzadənin Türklük, İslamlıq və Müasirlik “üçlüy”ü, M.Ə. Rəsulzadənin və N.Yusifbəylinin bu “üçlük” əsasında Azərbaycan türkçülüyü ideyasını – azərbaycançılığı irəli sürməsi bir təkamülün nəticəsi idi. Bu təkamülün kökü nə qədər qədimlərə gedib çıxsa da, çağdaş mərhələdə onun yeni cizgiləri XIX əsrdə meydana çıxmış, XX əsrin əvvəllərində isə Azərbaycan milli ideyasının və onun bariz nümunəsi olan Azərbaycan Cümhuriyyətinin (Respublikasının) yaranması ilə nəticələnmişdir. Bunu, vaxtilə M.Ə.Rəsulzadə belə ifadə etmişdir: “Sadə bu mərbutiyyət Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir ismi halına qoymaq üçün kafidir. Nisan matəmində intiqam əhdini təcdid edən milli istiqlal nəslinin qeyrətini təhrik edən böyük amillərdən biri də heç şübhəsiz Nəsib bəyin şəhadətidir. Müzəffər istiqlal nəslinin ilk edəcəyi təşəkkür vəzifələrindən birincisi siyasi azərbaycançılığın ilk mübəşşirlərindən Nəsib bəy adını davam etdirmək və Bakı ilə Gəncədə ona bir abidə qoymaqdan ibarət olmalıdır!” [20, s.112].

Ancaq təəssüf ki, bu günə qədər Bakıda ya da Gəncədə Nəsib bəy Yusifbəyliyə layiq bir abidə ucalda bilməmişik. Görünür, Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, o cümlədən M.Ə.Rəsulzadə, Nəsib bəy Yusifbəyli və başqaları haqqında dediklərindən doğru nəticə çıxara bilməmişik. H.Əliyev 28 may Respublika günü münasibətlə keçirilən tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərimiz, o cümlədən N.Yusifbəyli haqqında çox qiymətli fikirlər irəli sürərək demişdir: “Birinci Dünya müharibəsinin bitməsi ilə əlaqədar olaraq dünyada baş vermiş dəyişikliklər, sosialist inqilabı nəticəsində Rusiya imperiyasının dağılması, Azərbaycanda müstəqil dövlət yaratmaq üçün şərait meydana gətirdi. Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı bu dövrün səciyyəvi cəhətlərindən hesab edilməlidir. Məhz belə bir şəraitdə Azərbaycanın demokratik qüvvələri, siyasi xadimləri 1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Respublikasının yarandığını elan etdilər. Həmin gün Azərbaycan xalqının tarixinə böyük və əlamətdar bir hadisə kimi daxil olmuşdur. Biz bu günü Respublika günü, Milli İstiqlal bayramı kimi qeyd edirik. Bu bayramı qeyd edərkən, biz o zaman Azərbaycanın milli azadlığı, istiqlaliyyəti uğrunda, Azərbaycan Demokratik Respublikası yaranması uğrunda mübarizə aparanları, demokratik dövlətin təşkil olunmasında iştirak edənləri, onun rəhbərliyində fəaliyyət göstərənləri – Məhəmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, Həsən bəy Ağayevi, Məmmədhəsən Hacınskini və başqalarını böyük minnətdarlıq hissi ilə yad edirik. Onların parlaq həyatı, böyük fəaliyyəti və Azərbaycan xalqı qarşısında xidmətləri heç vaxt unudulmayacaqdır” [10, s.385].

Heydər Əliyev başqa bir çıxışında da də N.Yusifbəylinin, M.Ə.Rəsulzadənin və başqa dövlət xadimlərimizin, mütəfəkkirlərimizin Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixindəki yerini çox müsbət qiymətləndirmiş, onlara münasibətdə obyektivliyin gözlənilməsini açıq şəkildə

ifadə etmişdir: “1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir. Düzdür, bu demokratik respublika cəmi 23 ay fəaliyyət göstərdi, sonra isə təslim oldu. Mən bu fikrə yenə qayıdacağam. Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə aid tariximizdə çox faktlar təhrif olunubdur, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir. Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər” [11, s.153-154].

Bu mənada hesab edirik ki, Nəsib bəy Yusifbəyli bu gün Azərbaycanın ən böyük şəhərlərində (Bakı, Gəncə və b.) və həmin şəhərlərin ən görkəmli yerlərində abidəsi ucaldılmalı olan ən layiqli dövlət xadimlərimizdən, mütəfəkkirlərimizdən biridir. Ən azı ona görə ki, o bugünkü Azərbaycan Respublikasının müstəqilliyi uğrunda şəhid olmuş baş nazirdir. Bu gün torpaqları rus-erməni hərbi birləşmələri tərəfindən işğal altında olan bir dövlət və millət üçün Nəsib bəy Yusifbəyli örnəyini öyrənmək və tanımaq son dərəcə zəruridir. Hər halda Azərbaycan xalqı bilməlidir ki, onun milli varlığı və müstəqilliyi uğrunda şəhid olan Nəsib bəy Yusifbəyli kimi baş naziri, mütəfəkkiri də olmuşdur!!!

**Açar sözlər:** maarifçilik, islamçılıq, sosial-demokratiya, müasirləşmək, türkçülük, Azərbaycan türkçülüyü, azərbaycançılıq

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s.1, i. v.57.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: Elm, 2001, 672 s.
3.Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II cild. Bakı: “Azərbaycan” nəşriyyatı, 1998, 992 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild. Bakı: Lider, 2005, 472 s.
5. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, “Azərnəşr”, 1992, 276 s.
6. Балаев А.Г. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Элм, 1998, 280 с.
7. Cəfəroğlu Ə. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008, 408 s.
8. Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı: Elm və təhsil, 2014, 498 s.
9. Ələkbərov F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı: Elm, 2007, 270 s.
10. Əliyev H.Ə. Müstəqillik yollarında. I c., IV cilddə, Bakı: Azərbaycan, 1997, 558 s.
11. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1-ci kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
12. Əliyev M. Nəsib bəy Yusifbəyli. “Odlar yurdu” qəz., Bakı, 1988, noyabr, №21
13. Qaspıralı İ. Dildə, fikirdə, işdə birlik. İ.Qaspıralı 1851-1914. Bakı: Qartal, 2002
14. Qəhrəmanlı N.Ə. Nəsib bəy nümunəsi. Bakı: Nurlan, 2008, 263 s.
15. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
16. Nərimanov N. Məqalələr və nitqlər. II cilddə, I cild, Bakı: Azərnəşr, 1971, 267 s.
17. Nəsib bəy Yusifbəyli – milli istiqlal və dövlətçilik mücahidi. Bakı: Ziya, 2013, 216 s.
18. Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992). Bakı: Azərnəşr, 2001, 272 s.
19. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı: Təknur, 2012, 112 s.
20. Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. “Odlu Yurt” dərgisi, 1929, №3

21. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I Cild. Bakı: OL npkt, 2016, 600 s.
22. Şeyxzamanlı N.S. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: Azərbaycan nəşriyyatı, 1997, 176 s.
23. Tahirzadə Ə. Nəsib Bəy Yusifbəyli. http://www.ursad.org/MakaleGoster.aspx?ID=1047&YazarID=25 21.04.2014
24. Vəkilov R. Azərbaycan Respublikasının yaranma tarixi. Bakı: Elm, 1998, 68 s.
25. Yusifbəyli N. Azərbaycan vətəndaşlarına hökumətin müraciəti. "Azərbaycan" qəz., Bakı, 1919, 28 may, №190
26. Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəz., 1906, 12 aprel, № 37
27. Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəz., 1906, 26 aprel, № 43
28. Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəz., 1906, 26 may, № 56
29. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı: Adiloğlu, 2006, 216 s.

**Фаик Алекперли**

## АЗЕРВАЙДЖАНСКАЯ НАЦИОНАЛЬНАЯ ИДЕЯ В МИРОВОЗЗРЕНИИ Н.ЮСИФБЕЙЛИ

**Резюме**

В статье упоминаются заслуги Насиб бека Юсифбейли в формировании Азербайджанской тюркологии, азербайджанский национальной идеи в начале XX века в северном Азербайджане. Раскрыты идеи по просвещению, социальной - демократии, исламизму, современности, тюркологии. Суть статьи продемонстрировать роль азербайджанского народа в истории философии и общественно мнения одним из авторов национальный идеи, которым является Юсифбейли.

**Ключевые слова:** просвещение, исламизм, социал-демократия, модернизация, тюркология, Азербайджанская тюркология, азербайджанизм

**Faiq Alekberli**

## AZERBAIJAN NATIONAL IDEA IN THE OUTLOOK OF NASIB BEY YUSIFBEYLI

**Summary**

The article mentions Nasib bey Yusifbeyli's role in the formation of Azerbaijan turkology, Azerbaijan national idea in the early XX century in northern Azerbaijan. The ideas on enlightenment, social-democracy, islamism, modernization, turkology are revealed. The main essence of the article is to demonstrate the role of Nasib bey Yusifbeyli in the history of public opinion and philosophy of Azerbaijan people.

**Keywords:** enlightenment, islamism, social-democracy, modernization, turkology, Azerbaijan turkology, azerbaijanism

**UOT – 316.6**

**Mahrux Abbas**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.**

# G.HOFSTEDE. İQTİSADİYYATIN MƏDƏNİYYƏT “ÖLÇÜLƏRİ”

*Məqalə müxtəlif ölkə və cəmiyyətlərin mədəniyyəti ilə onların iqtisadiyyatı arasında qarşılıqlı əlaqəyə həsr olunur. Mədəniyyətin kəmiyyət göstəriciləri G.Hofstede modelinin altı parametri üzrə qısaca təqdim olunur: hakimiyyət aralığı, qeyri-müəyyənlikdən yayınma, individualizm/kollektivizm, maskulinlik/femininlik, uzunmüddətli/qısamüddətli zaman yönlənməsi, istəklərə müsəmma. Məqalədə Hofstede modelinin konseptual və metodoloji əsasları, parametrlərin mədəniyyətin vəhdəti dərəcəsindən asılılığı aydınlaşdırılır.*

**Hansı birincidir: iqtisadiyyat, yoxsa mədəniyyət**

Yaxın vaxtlara kimi iqtisadçılar iqtisadi proseslərin analizində mədəniyyət faktorunu nəzərə almırdılar. Təbii, burada mədəniyyət anlayışının dəqiq təyin olmamasının, anlayışın qeyri-müəyyənliyinin önəmli payı var. Amma tarix boyu ayrı-ayrı xalqların adət-ənənəsi, dini xüsusiyyətlərinin həmin xalqların iqtisadi həyatında böyük rol oynadığını iddia edən müəlliflər də olub.

Klassik iqtisadi nəzəriyyənin baniləri Adam Smit və Con Stüart Mill belə hesab edirdilər ki, bəzən insanların davranışına şəxsi maraq, faydadan çox mədəni faktorlar təsir edir. Karl Marks isə cəmiyyətdə formalaşmış mədəniyyət və iqtisadi münasibətlər arasında səbəb-nəticə əlaqələrini büsbütün dəyişdi. Marksa görə, cəmiyyətdə hakim mədəniyyəti məhz qərarlaşmış texnologiyalar müəyyənləşdirir. “Din istehsal münasibətlərinin əlavə məhsuludur”. Maks Veber isə 1930-cu ildə nəşr etdirdiyi “Protestant etikası və Kapitalizm ruhu” kitabında dini kapitalist cəmiyyətini əsas inkişaf faktorlarından biri sayır. Veber öz fikrini belə əsaslandırır: İstənilən yeni iqtisadi nizam geniş xalq kütlələrinin etirazı ilə qarşılaşır. Sadəcə iqtisadi stimullar sahibkarı yeni istehsal münasibətləri sisteminə görə davranmağa inandırmaq üçün yetərsizdir. Məhz bu nöqtədə din dövrəyə daxil olur və o, kapitalist münasibətlərinin formalaşmasında böyük rol oynayır. Protestant reformizmi var-dövlət toplamaq və rifahın yüksəldilməsini hər bir xristianın üstünlyü yox, borcu olaraq təbliğ edirdi [6].

Macar mənşəli tanınmış amerikan-kanada iqtisadçısı Karl Polani 1940-60-cı illər ərzində nəşr etdirdiyi əsərlərində din və mədəniyyəti zaman-zaman bazar qanunları yoluna çıxan “çəkingənlik faktoru” hesab edirdi. Ancaq İkinci Dünya müharibəsi səbəbindən Polaninin ideyaları iqtisadçılar arasında yayıla bilmədi. Elə o vaxtdan iqtisadiyyat elmi modelləşdirmənin riyazi metodlarını inkişaf etdirmək yoluna qədəm qoydu. Mədəniyyət kimi qeyri-müəyyən, kəmiyyət analizinə gəlməyən anlayışlar bu metodlar üçün gərəksiz hesab edildi.

Mədəniyyəti müstəqil faktor kimi nəzərdən keçirən ilk tədqiqatlardan biri dövlət idarəetmə sahəsi mütəxəssislərindən Edvard Benfildə aiddir. Onun fikrincə, iqtisadiyyatın zəif inkişaf tempi müxtəlif ölkələrin mədəni sistemləri ilə də şərtlənmiş ola bilər. Benfild İtaliyanın cənubunun sənayesi inkişaf etmiş şimaldan geri qalmasını yerli mədəni ənənələrlə əlaqələndirir. Amerikan politoloqu Robert Patnemin 1993-cü ildə irəli sürdüyü hipotezə görə, cəmiyyət nə qədər “altruist”dirsə, burada fəaliyyət göstərən siyasi və dövlət strukturlarının keyfiyyəti o qədər yüksəkdir.

İqtisadi tədqiqatlarda mədəniyyət faktorunu nəzərə almağa yönəlik istənilən cəhd iqtisadiyyat və mədəniyyət arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək ehtiyacı doğurur. İqtisadçılar Luici Quizo, Paolo Sapienza və Luici Zinqales sübut edirlər ki, mədəniyyət iqtisadiyyata birbaşa təsir göstərir. Uzunmüddətli perspektivdə isə məhz iqtisadi sistem və istehsal münasibətləri cəmiyyətin mədəniyyətini formalaşdırır. Məsələn, dindar ailələrdə dünyaya gəlmiş uşaqlar, hətta bu dindən uzaqlaşsalar da, bütün ömür boyu müəyyən davranış stereotiplərini saxlayırlar. Müəlliflərin fikrincə, mədəni inkişafda zəif dəyişmələrin səbəbi valideynlərin öz uşaqlarına ata-babalardan aldıqları informasiyanı müasirliyin tələb və düzəlişlərini nəzərə almadan, düşünüb analiz etmədən, necə var elə, olduğu kimi ötürmək cəhdlərindən qaynaqlanır. İtalyan tədqiqatçılar öz fikirlərini əsaslandırmaq üçün Efiopiyadan misal gətirirlər. Efiopiyanın Murzi tayfasının adət-ənənələrinə görə, qadınlar

dodaqlarında gildən hazırlanmış bəzəklər daşımalıdır. Dodaqları deformasiya edən daimi ağırlıq nəticəsində qadınların çoxu qabaq dişlərini itirirlər. Bəzi gümanlara görə, zamanında bu adət insan tacirləri üçün tayfa qadınlarını az cəlbedici etmək məqsədi güdürmüş. İndi belə təhlükə olmasa da, adət hələ də saxlanmaqdadır. Görünür, bəzi adətlər öz gərəkliyini itirdikdən sonra da yaşamaqda davam edir.

Quizo, Sapienza və Zinqales insanların bir-birinə nə qədər inanmasını mədəniyyət faktoru olaraq araşdırarkən belə nəticə çıxarırlar ki, iki ölkə arasında qarşılıqlı inam eyni dinə mənsub olduqları halda yüksəkdir. Aralarında keçmişdə uzunmüddətli müharibə getmiş ölkələr arasında qarşılıqlı inam azdır. Təhsil səviyyəsinin bu məsələyə təsirinə gəlincə, yüksək təhsilli adamlar ümumi inanc və ənənələrə daha tənqidi yanaşırlar.

İnsanların qarşılıqlı inamı iqtisadi inkişaf üçün önəmli faktordur. Qarşılıqlı inamın yüksək olması qeyri-müəyyən şəraitlərdə də iqtisadi əlaqələrin inkişafına, xarici sərmayənin axınına şərait yaradır. Əhalinin müxtəlif qrupları iqtisadi reallıqlara və qənaətcilliyə fərqli münasibət nümayiş etdirir. Məsələn, katoliklər dindar olmayan ailələrə münasibətdə öz uşaqlarını 3,8%, protestantlar 2,7% daha çox qənaətcilliyə öyrədirlər. Hinduist və buddistlər üçün bu göstərici 7,2%, yəhudilər üçün 6,4% təşkil edir.

ABŞ-da keçirilən bir sorğu maraqlı nəticələr üzə çıxarıb. Gəlirlərin yenidən zənginlərdən kasıblara doğru bölüşdürülməsi fikrini Afrika mənşəli amerikanlar ingilis-sakson mənşəlilərlə müqayisədə 20% çox dəstəkləyir. Kanada, Latın Amerikası mənşəli və hindli amerikanlar Afrika mənşəli amerikanlarla eyni fikirdədir. Yapon mənşəli amerikanlar isə belə bir yenidən bölüşmə ideyasının ən qatı əleyhdarlarıdır.

İllinoys universitetinin antropologiya professoru Sonya Salamon 1840-cı illərdə ABŞ şəhərlərində birgə yaşamış Almaniyadan gəlmə katoliklər və ingilis-sakson protestantları müqayisə edir. Almanlar demək olar ki, heç vaxt torpaq sahələrini satmırdılar və hətta yerli yankilərlə müqayisədə daha çoxuşaqlı ailələrə malik idilər. Almanlar taxıl əkib-becərməyə meyilli idilər. İngilis-saksonlar isə fermer təsərrüfatlarını bir biznes olaraq görür, torpağı alıb-satırdılar. İngilislər taxıllardan daha az zəhmət tələb edən qarğıdalı əkirdilər. Bu ailələrdə uşaqların sayı da az idi. Almanların təsərrüfat üsulu az gəlir gətirsə də, çoxuşaqlı olma sayəsində bu üsulu bir əsrdən çox yaşada bilmişdilər.

**Mədəniyyəti ölçmək mümkündür?**

Hazırda mədəniyyəti iqtisadi inkişafın önəmli faktoru olaraq önə çıxaran xeyli nəzəriyyə meydana çıxıb. Onlardan biri də Niderland sosioloqu Geert Hofstedenin “Mədəniyyətin ölçüləri” nəzəriyyəsidir.

Geert Hofstede yəhudi əsilli, ixtisasca maşınqayırma mühəndisi, sosial psixoloqdur. Onun iş bioqrafiyası əvvəlcə sənaye, sonra da akademik sfera ilə bağlıdır. 1980-ci ildə “Mədəniyyətlərin doğurduğu nəticələr” – Culture’s Consequences (son nəşr 2001-ci ilə aiddir) nəşr olunduqdan sonra mədəniyyətlərin müqayisəli tədqiqinin banisi sayılır. Onun ideyaları bütün dünyada tanınır. Tələbələr üçün yazdığı “Mədəniyyətlər və təşkilatlar: şüurun proqramlanması” (Cultures and Organizations: Software of the Mind,1991) hazırda 16 Avropa dili və 3 Asiya xalqı dilində nəşr olunub.

Mədəniyyətin parametrik modelinin ilkin ideyaları 2 kitabda – **Mədəniyyətlərin doğurduğu nəticələr** (1980) və 1983-cü ildə nəşr olunan 50 ölkə və 3 regionda mədəniyyətlərin ölçüləri öz əksini tapır. Tədqiqat üçün əsas olaraq İBM şirkətinin müxtəlif ölkələrdə olan bölmə əməkdaşları arasında keçirilmiş anket sorğuları götürülüb. Bu sorğularda 116 min adam iştirak edib. Cavablar 5 ballıq sistemlə qiymətləndirilib, sonra orta göstərici çıxarılıb. Orta ölçüyə görə hər göstəricinin öz indeksi hesablanıb. Orta ölçüdən 3 rəqəmi çıxılıb, alınan nəticə 25 dəfə artırılıb və ona 50 əlavə olunub. Yəni cavablar 5 ballıq sistemdən 100 ballıq sistemə köçürülüb. Keçmiş SSRİ-yə aid məlumatlar standart metoda görə yox, dolayı ölçülərlə hesablanıb. Daha sonra ölkələrin sayı 70-ə çatdırılıb.

Hofsede mədəniyyətin yeni anlayışını verir: “Mədəniyyət şüurun kollektiv proqramlanması, bir qrupu digərindən fərqləndirəndir. Bu hadisə hər zaman yığıcı xarakter daşıyır, amma onun bağlı olduğu icmalar bir-birindən fərqlənir” [2, s.8].

Mədəniyyət termini çox vaxt antropologiyada tayfa və etnik qruplara münasibətdə, politologiya, menecment və sosilogiyada millətə münasibətdə, sosiologiya və menecmentdə təşkilatlara münasibətdə işlənir. Peşəkar qrupların mədəniyyəti nisbi az araşdırılmış sahə olaraq qalır. Bu termini

gender, yaş, sosial qruplara münasibətdə də istifadə etmək olar. Ancaq biz bir sosial stratdan digərinə keçəndə mədəniyyət anlayışının tam fərqli təbiəti ilə qarşılaşırıq. Sosial, milli və gender mədəniyyətləri uşaq yaşlarından formalaşmağa başladığından peşəkar qrup mədəniyyəti ilə müqayisədə şüurda daha dərin kök salır. Mədəniyyət cəmiyyətdə çox vaxt dərk olunmamış formada dəyərlərdə “gizlənmiş” olur. Təşkilatlarda mədəniyyət isə daha çox praktikada kök salır.

**Mədəniyyətlərin təsnifatı: konseptual parametrlər**

XX əsrin ikinci yarısından etibarən bir çox müəllif ictimai problemlərdən danışarkən mədəniyyətin kvantitativ tədqiqi parametrlərindən çıxış edir. Sosiumların təsnifatı üçün çox vaxt iqtisadi inkişaf səviyyəsi və müasir standartlara uyğunluq məsələsinə görə aparılır. Sosiumların ənənvi cəmiyyətlərdən müasirlərədək bu cür birölçülü təsnifatı XIX-XX əsrlərə xas tərəqqi ideyasına tam uyğundur. Şüurun kollektiv proqramlanmasında iqtisadi inkişaf, təbii ki öz əksini tapır. Amma bu parametrlər mədəniyyətin digər ölçülərini kölgədə qoymamalıdır. Mədəniyyətin iqtisadi inkişaf ilə əlaqəli olmayan ölçüləri də var.

XX əsrin 70-ci illərində Hofstede təsadüfən 50-dən çox ölkədən dəyərlərlə bağlı məlumat bazası ilə qarşılaşır. İBM şirkətinin filiallarının çoxunda sosial sorğu 4 il fasilə ilə 2 dəfə keçirilmişdi. 100 mindən çox sorğu kitabçası ilə işləyən Hofstede fərdlər səviyyəsində təhlil əsasında heç bir məntiqli nəticə əldə edə bilmir. Ölkə səviyyəsində korrelyasiya sxemləri isə yeni nəzəriyyənin yaranması ilə nəticələnir. Müəllif milli mədəniyyətləri səciyyələndirmək üçün əvvəlcə 4 parametr müəyyənləşdirir. Daha sonra başqa sosioloqların da, xüsusən bolqar linqvisti və sosioloqu Mixail Minkovun araşdırmalarını da bu sistemə qatmaqla mədəniyyətin 6 kəmiyyət “ölçüləri”ni dəqiqləşdirir.

Hofstedeyə görə 6 parametr aşağıdakılardır:

1. Hakimiyyətin distansiyalılığı (güc aralığı) fundamental insan bərabərsizliyi məsələsinin şərhi ilə bağlıdır;
2. Qeyri-müəyyənlikdən yayınma – ictimai gərginlik və qeyri-müəyyən gələcəyi gözləmə ilə bağlıdır;
3. İndividualizm/kollektivizm – fərdin ilkin qruplara inteqrasiyası ilə bağlıdır;
4. Maskulinlik/femininlik – qadın və kişilər arasında emosional rolların bölüşdürülməsi ilə bağlıdır;
5. Uzunmüddətli/qısamüddətli yönlənmə insan fəaliyyəti üçün diqqət mərkəzinin seçilməsi ilə bağlıdır – gələcək, indi və ya keçmiş;
6. İstəklərə müsəmma (izin vermək)/təmkinlilik.

Hər bir ölkə digəri ilə müqayisədə parametrik təsnifatda öz yerini tapır. Ölçülən parametrlər statistik fərqləndirilə bilər və öz aralarında hər cür mümkün yolla kombinasiya yarada bilirlər. Bəzi kombinasiyalar başqaları ilə müqayisədə daha çox müşahidə olunur.

Aşağıda Hofstede sistemində bu 6 parametrə görə başlıca fərqləri göstərən cədvəllər təqdim olunur:

**Güc aralığının az və ya çox olduğu sosiumlar arasında 10 fərq**

**Cədvəl 1**

| Güc aralığının az | çox olduğu toplumlar |
|---|---|
| Hakimiyyətin tətbiqi qanuna əsaslanır və xeyir-şər meyarından istifadə edir; | Hakimiyyət cəmiyyətin əsasıdır, xeyir və şərdən öncə gəlir. Onun qanuni olub-olmamasının önəmi yoxdur; |
| Valideynlər uşaqları özlərinə bərabər tutur; | Valideynlər uşaqları müti öyrədirlər; |
| Yaşlı nəsil qarşısında nə qorxu, nə də həyəcan var; | Yaşlı nəslə qorxu və həyəcanla yanaşırlar; |
| Təhsil şagirdə yönəlidir; | Təhsil müəllimə yönəlidir; |
| İyerarxik pilləkən rolların bərabərsizliyi kimi qavranır; | İyerarxik pilləkəndə ter bərabərsizliyin özü ilə əlaqələndirilir; |
| Tabelər onlardan məsləhət alınmasını gözləyir; | Tabelər onlara nə etmək gərəkdiyini söyləmələrini gözləyir; |
| Çoxpartiyalı sistemlər, seçki və sülh yolu ilə dəyişən hakimiyyət; | Kooptasiya prinsiplərinə əsaslanan və inqilabi yolla dəyişdirilən avtokratik hakimiyyətlər; |
| Korrupsiya az müşahidə olunur, siyasi karyera və skandallar xarakterikdir; | Korrupsiya çoxdur, skandallar gizlədilir; |
| Gəlirlərin bölüşdürülməsi kifayət qədər bərabər xarakter daşıyır; | Gəlirlərin qeyri-bərabər bölgüsü var; |
| Dini ayinlər möminlərin bərabərliyini vurğulayır. | Dini ayinlər din xadimləri ilə iyerarxiyada yerinə yetirilir. |

Hakimyyətin distansiyalılığı indeksi 2010-cu ildə ata, oğul Hofsedelər və Minkovun birgə müəllifliyi ilə nəşr olunan kitabda [3] 76 ölkə üçün müqayisəli təqdim olunur. Şərqi Avropa, Latın Amerikası, Asiya və Afrika üçün bu indeks yüksək, alman və ingilisdilli ölkələr üçün yüksək deyil.

Qeyri-müəyyənlikdən yayınma - bu, riskdən qaçış demək deyil. Bu parametr cəmiyyətdə çoxmənalılığa münasibəti göstərir. O, gözlənilməz situasiyalarda mədəniyyətin öz üzvlərinə hansı dərəcədə sakitlik və ya narahatlıq verdiyini sərgiləyir. Reqlamentləşdirilməmiş situasiyalar yeni, bilinməyən, gözlənilməzdir. Qeyri-müəyyənlikdən qaçan ölkələr belə vəziyyətlərin meydana çıxmasını ciddi davranış normaları, qanun və qaydaların köməyi ilə önləməyə çalışırlar. Onlara görə, ancaq bir Həqiqət var və onlar ona malikdirlər. Tədqiqatlar göstərir ki, bu ölkə insanları daha emosionaldır və bu, daxili əsəbi enerji ilə müşayiət olunur. Əks tip – qeyri-müəyyənliyə imkan verən mədəniyyətlər adət etdikləri fikirdən daha fərqlilərə qarşı daha dözümlüdürlər. Qaydaları azdır. Fəlsəfə və din sahəsində empirik təcrübə və relyativizmə əsaslanırlar, müxtəlif fikirlərin birgə, yanaşı mövcudluğuna imkan verirlər. Bu mədəniyyətlərə aid insanlar daha fleqmatik və müşahidəlidirlər.

**Qeyri-müəyyənlikdən yayınma indeksinin az və çox olduğu ölkələr arasında 10 fərq**

**Cədvəl 2**

| Aşağı indeksli | yüksək indeksli |
|---|---|
| Cəmiyyət həyat axarında meydana çıxan qeyri-müəyyənliyi qəbul edir, hər bir gün olduğu kimi qəbul edilir; | Qeyri-müəyyənlik təhlükə kimi qəbul edilir, onunla mübarizə aparırlar; |
| Yüngüllük, aşağı gərginlik, özünə nəzarət; | Yüksək gərginlik, emosionallıq, neyrotizm; |
| Normadan sapan şəxs və davranışa qarşı səbrlilik. Fərqli olan maraqlıdır; | Normadan sapmaya qarşı dözümsüzlük. Fərqli olan təhlükələdir; |
| Nizamsızlıq və çoxmənalılıq zamanında sakitlik; | Aydınlıq və struktur dəqiqliyi tələbi; |
| Müəllimlər “Mən bilmirəm” deyə bilər; | Müəllimlər bütün sualların cavablarını bilməlidirlər; |
| Yazılı və yazılmamış qaydaların qəbul edilməməsi; | Qaydalara əməl edilmədiyi hallarda belə onlara canatma; |
| Siyasi həyatda vətəndaşlar özlərini rasional düşüncə sahibi sayır və onlara qarşı münasibət də belədir; | Siyasi həyatda vətəndaşlar rasional düşünmədiklərini güman edir və qarşı tərəfin də onlara münasibəti belədir; |
| Din, fəlsəfə və elmdə relyativizm və empirik yanaşma; | Din, fəlsəfə və elmdə son həqiqətlərə inam və böyük nəzəriyyələr gözlənilməsi; |
| İş dəyişmək problem deyil; | Adamlar gördükləri işi, iş yerini sevməsələr də, onu saxlamağa meyllidirlər; |
| Sağlamlıq və rifah halından az şikayət. | Sağlamlıq və rifah halı ilə bağlı şikayətlərin çoxluğu. |

Hofsede 2010-cu ildə nəşr olunan kitabda [3] qeyri-müəyyənlikdən yayınma indeksi 76 ölkə üçün müqayisəli araşdırılır. Şərqi və Mərkəzi Avropada, Latın Amerikası və almandilli ölkələrdə bu indeks yüksək, ingilisdilli ölkələr, Şimali Avropa və çin mədəniyyətində aşağıdır.

İndividualizm/kollektivizmə qarşı fərdin yox, cəmiyyətin xarakteristikasıdır. İndividualist cəmiyyətlərdə fərdlərarası əlaqələr möhkəm deyil. Hər kəs özünə və yaxın ailəsinə cavabdehdir. Kollektivist cəmiyyətlərdə insanlar doğulandan güclü, möhkəm qruplara aiddirlər. Ailə geniş anlamda – dayı, xala, nənə, baba hamısı bilikdə - başa düşülür. Bu qruplar sözsüz tabelilik qarşılığında onları qoruyurlar.

**Cədvəl 3**

| İndividualizm | Kollektivizm |
|---|---|
| Özü və yaxın ailəsi üçün məsuliyyət; | Uşaqlar böyük klan və ailədə doğulur; |
| Mən şüur; | Biz şüur; |
| Şəxsi həyat hüququ; | Qrupa aidliyin ifadəsi; |
| Normaların pozulması günah hissi doğurur; | Normaların pozulması ayıb, utanc hissi doğurur; |
| Qarşıya qoyulan məqsəd qarşılıqlı münasibətlərdən daha vacibdir; | Qarşılıqlı münasibətlər qarşıya qoyulan məqsəddən daha vacibdir; |
| Şəxsi fikri ifadə etmək normal hesab edilir; | Harmoniyanı saxlamaq daha vacibdir; |
| Başqalarına münasibət ayrıca şəxsiyyətlərə münasibət deməkdir; | Başqalarına münasibət öz və ya başqasının qrupuna münasibət deməkdir; |
| Təhsilin məqsədi necə oxumağı öyrənməkdir; | Təhsilin məqsədi necə davranmağı öyrənməkdir; |
| Bu cəmiyyətdə hər kəsin öz fikrini ifadə etməsi gözlənilir: hər kəs öz düşüncəsinə görə səs verir; | Rəy və səsvermə mənsub olduğun qrup tərəfindən müəyyənləşdirilir; |
| Nitqdə *mən* əvəzliyini işlətmək zəruridir. | Nitqdə *mən* əvəzliyindən qaçılır. |

2010-cu ildə nəşr olunmuş kitabda [3] 78 ölkə üçün bu göstərici üzrə nəticələr müqayisə olunur. İnkişaf etmiş Qərb ölkələrində individualizm göstəricisi yüksək, az inkişaf etmiş və Şərq ölkələrində bu göstərici aşağıdır. Yaponiya bu indeksə görə orta mövqedədir.

Maskulinlik/femininlik sosial xarakteristikadır, gender qrupları arasında dəyər bölgüsünü ifadə edir.

**Cədvəl 4**

| Femininlik | Maskulinlik |
|---|---|
| Gender qrupları arasında minimum rol differensiasiyası müşahidə olunur; | 2 gender qrupu arasında emosional rolların maksimum differesiasiyası var; |
| Həm qadın, həm kişi əxlaqlı və qayğıkeş olmalıdırlar; | İş ailədən yüksəkdə durur; |
| Uşaqların konkret və emosional tərbiyəsində həm ata, həm ana iştirak edir; | Atalar konkret işlə, analar emosional tərbiyə ilə məşğuldurlar; |
| Oğlanlar da qızlar kimi ağlaya bilər, amma heç bir halda dalaşmamalıdırlar; | Qızlar ağlaya bilər, oğlanlar yox; |
| Ailədə uşaq sayını ana müəyyənləşdirir; | Ailənin ölçüsünü ata müəyyənləşdirir; |
| Seçkili orqanlarda çoxlu qadın var; | Seçkili orqanlarda qadın azdır; |
| Din din qardaşlarına yönəlidir; | Din Allaha və ya allahlara yönəlidir; |
| Seksuallığa normal münasibət. Bu, qarşılıqlı münasibət formasıdır; | Seksuallığın əxlaq nöqteyi-nəzərindən qiymətləndirilməsi |
| Ailə və iş arasında tarazlıq var; | İş ailədən yüksəkdə durur; |
| Zəiflərə simpatiya. | Güclülülərə heyranlıq. |

2010-cu ilə aid kitabda (2010) 76 ölkədə femininlik/maskunlik göstəricisi üzrə müqayisə aparılıb. Yaponiyada, almandilli ölkələrdə, Meksikada maskulinlik dərəcəsi yüksəkdir. İngilisdilli Qərb ölkələrində də vəziyyət belədir. Skandinaviya və Hollandiyada maskulinlik dərəcəsi aşağıdır. Bu göstərici bəzi roman ölkələri – Fransa, İspaniya, Portuqaliya və Çilidə, bəzi Asiya ölkələrində - məsələn, Koreya və Tailandda nisbətən yüksək deyil.

Uzunmüddətli/qəsamüddətli yönlənmə. Mədəniyyətin bu ölçüsü ilk dəfə 23 ölkədən olan tələbələr arsında keçirilən sorğu əsasında müəyyənləşdirilmişdir. Sorğunun təşkilatçıları çinli tədqiqatçılardır. Tarixi konfusiçiliklə bağlı bütün ölkələr şkalanın bir qütbündə toplandıqları üçün araşdırmaların aparıcı müəllifi Maykl Harris Bond onu “konfusiçilik dinamizmi” adlandırır. Bu parametr, sən demə, müasir iqtisadi artımla güclü korrelyasiyadadır. İBM-lə bağlı araşdırmadan ön görülən 4 parametrdən heç biri iqtisadi artımla əlaqədar olmadığından Hofstede Bonddan bu parametri öz sisteminə daxil etmək izni alır [4].

Sorğuda iştirak edən 23 ölkə tələbələrinin çoxunun Konfusi haqda heç bir bilgisi olmadığı üçün Hofstede bu parametri yenidən adlandırır: uzunmüddətli/qısamüddətli yönlənmə. Uzunmüddətli yönlənmə ilə bağlı şkala qütbü Bondun “konfusiçilik dinamizmi”nə uyğundur. Bu qütblə bağlı üzə çıxarılan dəyərlər – iradəlilik, ehtiyatlılıq, münasibətlərin statusa görə iyerarxiyası, utancaqlıq hissinin olması.

Qısamüddətli yönlənmədə - qarşılıqlı sosial vəzifələr, ənənələrə hörmət, “simanı itirməkdən qorxmaq” kimi keyfiyyətlər önə çıxır.

**Uzunmüddətli/qısamüddətli yönlənmə parametrinə görə sosiumlar arasında fərq.**

**Cədvəl 5**

| Qısamüddətli yönlənmə | Uzunmüddətli yönlənmə |
|---|---|
| Ən vacib həyati məsələlər keçmişdə baş verib və ya halhazırda baş verməkdədir; | Ən vacib həyati məsələlər gələcəkdə baş verəcəkdir; |
| Şəxsiyyət sabit və stabildir: yaxşı adam həmişə belədir; | Yaxşı adam vəziyyətlərə uyğunlaşır; |
| Xeyir-şərlə bağlı hamının həmfikir olduğu təsəvvürlər var; | Xeyir, şər və həqiqət situasiyadan asılıdır; |
| Ənənələr müqəddəsdir; | Ənənələr şərtlərin dəyişməsindən asılı olaraq dəyişə bilər. |
| Ailə quruluşunun əsasında qürur hissi dayanır; | Ailə sisteminin əsasında ümumi məsələlər dayanır; |
| Səndən öz ölkənə görə qürur hissi gözlənilir; | Başqa ölkələrdə oxuma cəhdi; |
| Vacib məsələ başqa adamlara xidmət məsələsidir; | Vacib keyfiyyətlər iradəlilik və qənaətcillikdir; |
| Sosial ehtiyac və xərclər; | Böyük pul ehtiyatı, sərmayə üçün vəsait toplanması; |
| Təhsildə uğur və ya uğursuzluq bəxtigətirmə ilə əlaqələndirilir; | Uğur - əməyin, uğursuzluq – kifayət qədər çalışmamanın nəticəsidir; |
| Geri qalmış ölkələrdə yavaş iqtisadi artım və ya onun yoxluğu müşahidə olunur. | Sürətli iqtisadi artım rifah halına çatdırır. |

Uzunmüddətli yönlənmə Şərqi Avropa ölkələri, Şərqi və Mərkəzi Avropa ölkələrində müşahidə olunur. Qısamüddətli yönlənmə Avropanın cənubu və şimalında, eləcə də Cənubi Asiyada müşahidə olunur. ABŞ, Avstraliya, Latın Amerikası, Afrika və müsəlman ölkələri də bu qəbildən ölkələrdir.

Hofstede nəzəriyyəsində 6-cı parametri müsəmma/təmkinlilik adlanır və toplumların öz istək və arzularına nəzarət dərəcəsi ilə bağlıdır. Bu parametri nəzəriyyəyə bolqar sosioloqu Minkov daxil edib. Bu göstərici də ÜDİ-nin təhlilinə əsaslanır və az və ya çox dərəcədə uzunmüddətli/qısamüddətli zaman yönlənməsini tamamlayır. Faktik olaraq o, sonuncu ilə mənfi korrelyasiyaya malikdir.

İstəklərə müsəmma göstərmə, yəni izin vermə əsas və təbii insani ehtiyacların kifayət qədər azad təmin edildiyi cəmiyyətlərə xasdır.

Təmkinlilik o sosiumlara xasdır ki, tələbatların ödənməsi nəzarətdə saxlanılır və ciddi ictimai normalarla idarə olunur. Hofstede araşdırmalarında bu parametrə görə nəticələr 93 ölkəni əhatə edir. Aşağıda təqdim olunan cədvəldə bu parametrə görə sosiumlar arasındakı bəzi fərqlər açıqalnır.

| Müsəmma | Təmkinlilik |
|---|---|
| Özünü xoşbəxt hesab edən adamların sayca çox olması; | Çox xoşbəxt adamlar azdır; |
| Öz-özünlə istədiyin kimi rəftar edə bilərsən düşüncəsi; | Köməksizlik hissi, sənlə baş verənlər sənin davranışının nəticəsi deyil; |
| Söz azadlığının vacibliyi; | Söz azadlığı əsas qayğı deyil; |
| Asudə vaxtın böyük əhəmiyyəti; | Asudə vaxtın az önəmi; |
| Yüksək təhsilli ölkələrdə daha yüksək doğurqanlıq səviyyəsi; | Yüksəktəhsilli ölkələrdə daha aşağı doğurqanlıq səviyyəsi; |
| Müsbət emosiyaların xatırlanması daha böyük ehtimallıdır; | Müsbət emosiyaların xatırlanması daha az ehtimallıdır; |
| Daha çox insan aktiv idmanla məşğul olur; | Daha az insan fəal idmanla məşğul olur; |
| Kifayət qədər yeməyin olduğu ölkələrdə artıqçəkili adamların çoxluğu; | Kifayət qədər yeməyin olduğu ölkələrdə artıqçəkili adamların azlığı; |
| İmkan çoxluğunda seksual davranış normaları daha azaddır; | İmkan çoxluğunda seksual davranışşın daha ciddi normaları; |
| Ölkədə nizam-intizam birincidərəcəli məsələ deyil. | 100 min nəfərə düşən polis sayı daha çoxdur. |

Müsəmma – istəklərin azad təmin edilməsi Şimali və Cənubi Amerika, Mərkəzi Avropa və bəzi Afrika ölkələri üçün xarakterikdir. Şərqi Avropa, Asiya və müsəlman dünyasında təmkinlilik üstünlük təşkil edir. Aralıq dənizi Avropası isə bu parametrə görə orta göstərici nümayiş etdirir.

Bolqar sosioloq Mixail Minkov daha sonrakı araşdırmaların nəticələrini 2011-ci ildə təkrar nəşr etdirdiyi “Qloballaşan dünyada mədəni fərqlər” [1] kitabında verir. Ölkələr üzrə ayrıcalıq/universalizm və monumentalizm/hərəkətli itaətlilik (flexumility) yeni mənbələrə də əsaslanmaqla – 86 ölkə üçün ayrıcalıq, 43 ölkə üçün monumentalizm göstəricisi üzrə yenidən dəyərləndirilir. Hofstede sistemindəki müsəmma/təmkinlilik parametri bir az dəyişdirilərək əməksevərlik/müsəmma olaraq yenidən adlandırılır.

Minkov bu kitaba sosial sorğu nəticələrinə deyil, ölkələrin cinayət nəticəsində həyatını itirmiş adam sayı, QİÇS-lə yoluxma, yeniyetmə yaşda hamilə qalma, aşağı orta İQ (aşağı təhsil səviyyəsi ilə izah olunan intellektuallıq amili) səviyyəsinə görə statistik məlumatlarını təhlil əsasında yeni bir parametr – yaxıngörmə/ehtiyatlılıq parametrini daxil edir. “Yaxıngörmə” (Minkov tibbdən götürdüyü bu terminlə açıq neqativ qiymətləndirmədən qaçmaq istəyir) parametrini 80 ölkə üçün araşdırır və bu göstəricinin ayrıcalıq/monumentalizm parametri ilə güclü korrelyasiyasını üzə çıxarır.

Bəs dünyanın sürətlə dəyişməsi ilə mədəniyyətin parametrik model arasında necə bir korrelyasiya var? Hofstedeyə görə, dəyişmələr be metodun səmərəliliyini heç də azltmır. Əksinə, be modelin köməyi ilə dəyişmələrin daxili məntiqini açmaq, eləcə də nəticələri öngörmək mümkündür. Bəzi müəlliflər Hofstede parametrlərinin sayını artırmağı təklif edirlər. Məsələn, Triandis GLOBE layihəsi çərçivəsində bu parametrlərin sayını 18-ədək artırmağı təklif etmişdi. Amma əlavə edilmək istənən parametrlər məzmunca çox vaxt məlum parametrlərlə qismən və ya tamamilə üst-üstə dü-

şürlər. Üstəlik, sosiologiyada çoxdan qərarlaşmış epistemoloji arqumentə görə, bu parametrlərin sayı çox olmamalıdır. Bu parametrlər, ölçülər real deyil, bizim şüurumuzun mürəkkəb gerçəkliyi anlamaq üçün “uydurduğu” anlayışlardır. Miller məşhur məqaləsində [5] bu cür kateqoriyaların sayının 7 üstəgəl, çıx 2 olmasının doğruluğunu əsaslandırır.

Parametrlərin sayının artırılması informasiyanın işlənməsində dolaşıqlıq yarada bilər.

Parametrik model çərçivəsində mədəniyyət hansısa parametrin şkalasında göstəriciləri dəyişə bilər. Tənqidçilərin fikrincə, Hofstedenin ötən əsrin 70-ci illərində İBM şirkətində aparılan sorğular əsasında gəldiyi nəticələr köhnəlib. Ancaq nəzərə almaq lazımdır ki, parametrik göstərici hər hansı ölkənin mütləq mövqeyini deyil, çoxlu başqa ölkəyə münasibətdə nisbi mövqeyini ifadə edir. Parametrlərin cəmiyyətin əsas problemləri ilə əlaqəsi və bu məsələləri milli həll yollarının analizi göstərir ki, parametrlər öz doğruluğunu uzun müddət qoruyub saxlaya bilirlər. Yeni texnologiyalar xarici təsir sayılır və bütün ölkələrə təsir edir. Nəticədə onların nisbi mövqeyi və ya statusu dəyişmir. Bir ölkənin mədəniyyəti dəyişirsə, başqa ölkələrin də mədəniyyəti dəyişir və beləcə nisbət qorunmuş olur. Amma bəzən elə də ola bilər ki, hər hansı bir ölkə başqa ölkələrin üstündən “hoppana” bilər. Amma bu, nadirən təsadüf olunan hadisədir. Misal olaraq Çini göstərmək olar. Bu ölkədə nisbi izolyasiyadan sonra bir neçə on ildir davam edən iqtisadi yüksəliş, dünya strukturlarına inteqrasiya, xüsusən, gənc nəsildə irəliləyişə səbəb olmuşdur. Amma bunun ciddi metodoloji tədqiqat çərçivəsində sübuta ehtiyacı var.

Bəzi müəlliflər yeni texnologiyaların inkişafı ilə sosiumların bir-biri ilə bərabərləşməsini iddia edirlər. Texnologiyaların yaxşılaşdırılması mədəni dəyişmələrin önəmli hərəkətverici qüvvəsidir və müxtəlif cəmiyyətlərdə bənzər hadisələr doğurur. Amma bunun başqa parametrlər üzrə fərqləri aradan qaldırması haqda heç bir sübut yoxdur. Əksinə, cəmiyyət mövcud dəyər yönlənməsi bazasında texniki modernizasiyayla üz-üzə qaldığında, bu, fərqlərin güclənməsinə gətirib çıxara bilər.

Hofsedeyə görə, mədəniyyətin mahiyyətcə dəyişə bilməsi üçün 50-100 il kimi önəmli bir zaman sürəsi, ya da çox dramatik xarici olayla sarsılması lazımdır. Mədəniyyətlər arasında XX əsrin əvvəllərində müşahidə olunan fərqlər bu əsrin sonunda da vardı, eləcə də XIX-XVIII əsrlərdə də nəzərə çarpırdı və çox güman ki, 2100-cü ilə qədər və hələ daha bir müddət də davam edəcək.

Hofstedenin araşdırmalarına Azərbaycan cəlb olunmayıb. Belə bir tədqiqata ehtiyac varmı, bu araşdırmanın nəticələri necə faydalı ola bilər?

Əvvəla, Hofstede modelini, nəzəriyyənin eksperimental hissəsi ilə bağlı verilər bankını akademik təşkilatlar sərbəst şəkildə, heç bir qarşılıq ödəmədən Hofstedenin internet səhifəsində əldə edə bilər. Yeganə tələb modelə yaxşı bələd olmaqdır. Hofstede özü parametrlər düzgün tətbiq olunmadığı təqdirdə yanlış nəticələr doğura biləcəyini, xüsusən, bu istiqamətdə aparılmış 118 araşdırmanın nəticələrinin düzgün olmadığını qeyd edir. Üstəlik, nəzərə almaq lazımdır ki, bu ölçülər nisbi xarakter daşıyır və yalnız başqa mədəniyyətlərlə müqayisədə özünü doğruldur. Nəzəri olaraq, araşdırma aparmadan da Azərbaycanda bu indekslər üzrə göstəriciləri təxmini gümanlaşdırmaq olar. Xalqımızın xüsusiyyətlərini nəzərə alsaq, güc aralığı, qeyri-müəyyənlikdən yayınma, təmkinlilik parametərləri üzrə orta göstəricinin üzərində, individuallıq, uzunmüddətli zaman yönlənməsi, maskulinlik parametrləri üzrə orta göstəricinin altında bir qiymət gözləmək olar.

Məlumdur ki, Hofstede modeli təşkilatlara münasibətdə daha dəqiq işləyir. Xüsusən, əcnəbi iş adamlarının tanımadıqları ölkələrlə iqtisadi əlaqələr qurmağa çalışdıqları zaman bu model çox gərəkli ola bilər. Maraqlıdır ki, qonşu Türkiyədə Ərdoğan hökuməti siyasətə biznes idarəetmə üsullarını gətirdi və Türkiyə iqtisadiyyatının Çindən sonra ikinci sürətlə böyüyən iqtisadiyyat olması bu qərarın doğruluğuna işarədir. Hofstedenin Türkiyə üzrə araşdırmaları iqtisadi inkişafla korrelyasiyada olan heç bir parametrə (individuallıq, uzunmüddətli yönlənmə, maskulinlik) görə yüksək nəticə üzə çıxarmır. Deməli, mədəniyyətin kəmiyyət ölçüləri ilə iqtisadiyyatın inkişafı arasında əlaqədə başqa faktorların da önəmli rolu var. İqtisadçılar xüsusən, böyük korrupsiya, inhisar olan ölkələrdə iş adamlarının çəkingən davranışını məntiqli hesab edirlər.

**Açar sözlər:** mədəniyyət, iqtisadiyyat, mədəniyyətin ölçüləri, Hofstede modeli

**İstifadə edilmiş ədəbiyyat**

1. Cultural differences in a Globalizing World: Minkov 2011
2. Hofsede, Geert (2011), Dimensionalizing Cultures: the Hofstede model in context. Online readings in Psychology and Culture, Unit 2, http:/scholarworks.gvsu.edu/orpc/vol2issi/8
3. Hofsede, Hofstede, Minkov (2010), Cultures and Organizations: Software of the Mind
4. Hofsede&Bond (1988), The Confucius connection: from cultural roots to economic growth
5. Miller G.A. (1956), The magical number seven, plus, or minus two: Some limits on our capacity for processing information. İn Psychological Review, 63, 81-97
6. Veber M. Die protestantische Ethik und der “Geist” des Kapitalismus. https://www.amazon.de/Die-protestantische-Ethik-Geist-Kapitalismus/dp/3406602002/ref=pd_sbs_14_2/261-1073562-9135003?_encoding=UTF8&psc=1&refRID=47JSBX9J0XGWGFBTC51K

**Махрук Аббас**

## КУЛЬТУРНЫЕ ПАРАМЕТРЫ ЭКОНОМИКИ (ПО МОДЕЛИ ХОФСТЕДЕ)

### Резюме

Статья посвящена выявлению взаимосвязи между культурами различных стран, обществ и их экономическим развитием. Кратко описаны шесть параметров модели Хофстеде, определяющих количественные характеристики национальных культур: дистанцированность власти, избежание неопределенности, индивидуализм/коллективизм, маскулинность/фемининность, долгосрочная/краткосрочная временная ориентация и потворство желаниям/сдержанность. Показаны разработки данной модели, ее концептуальные и методологические основы. В статье подчеркивается зависимость параметров от степени единства культуры.

**Ключевые слова:** культура и экономика, параметры культуры, модель Хофстеде

**Mahrukh Abbas**

## CULTURAL DIMENTIONS OF ECONOMY (BY HOFSTEDE MODEL)

### Summary

The article is devoted to revealing the relationship between the cultures of different countries, societies and their economic development. The article describes briefly six parametres of Hofstede model, which determine quantitative characteristics of national culture: power distance, uncertainly avoidance, individualism /collectivism, masculinity/femininity, long/short term orientation, indulgence/restraint. The development of this model, its conceptual and methodological foundations are shown. The article emphasizes the dependence of parameters on the degree of unity of culture.

**Keywords:** culture and economy, parameters of culture, Hofstede model

**UOT – 1(091)**

**Könül Mədədzadə**
**Sumqayıt Dövlət Universiteti, f.ü.f.d., dosent**

## ORTA ƏSRLƏRDƏ ƏRƏB ELMİ İSLAM MƏDƏNİYYƏTİNİN İNKİŞAFI KONTEKSTİNDƏ

*Məqalədə orta əsrlərdə ərəb elmi, ərəb dilinə tərcümə, tanınmış müsəlman mütəfəkkirlərin dünya elm xəzinəsinə bəxş etdiyi nailiyyətlər barədə danışılır. Dünya şöhrətli alimlərdən Əl-Xarəzmi, Əz-Zerhalı və N.Tusinin qiymətli əsərləri təhlilə cəlb olunur. Ərəb elminə Avropa alimlərinin münasibəti araşdırılır, bu barədə maraqlı fikirlər irəli sürülür.*

Mədəniyyət insanın həyat fəaliyyətinin mühüm xarakteristikalarından biridir.

İnsanların əksər tələbatı məqsədəuyğun səciyyə daşıyan əmək vasitəsi ilə təmin edilir. Bəşər mədəniyyəti sistemi öz tələbatlarını ödəmək məqsədi ilə insanların yaratdığı əşyaların, predmetlərin dünyasıdır. Müasir fəlsəfi ədəbiyyatlarda mədəniyyətin yüzlərlə tərifi vardır. Mədəniyyət dünyası hər bir insanı əhatə edən tükənməz bir reallıqdır. Yaratmaq eşqi ilə yaşayan hər bir insan sanki bəşər mədəniyyətinin əşyalar və predmetlər dünyasına qərq olmuşdur.

Qeyd edək ki, elm bəşər mədəniyyətinin müstəqil forması kimi rəsmləşdiriləndən sonra təbiət və cəmiyyət haqqında biliklər mənəvi mədəniyyətin ayrı-ayrı hallarına, o cümlədən praktiki təcrübəyə, müdrikliyə, xalq təbabətinə, etnosların əxlaqi-mənəvi sisteminə, naturfəlsəfəyə daxil edilirdi. Lakin XX yüzillikdə belə bir şərh artıq pozitiv sayıla bilərdi, belə ki, mədəniyyətin təbii-elmi və humanitar növləri eyni bir dayağa, elmi biliyə söykənirdi.

Elm bəşər cəmiyyətinin ən mühüm komponentlərindən biridir. Elm həmişə maksimal dəqiqliyə, obyektivliyə can atır. Elmi idrakın nəticələri (anlayışlar, ideyalar və s) elə təşkil olunur ki, bu halda subyektə aid olan bütün cəhətlər bilikdən kənarlaşdırılır.

Dərin inteqrallaşdırıcı proseslərin baş verdiyi müasir elmi-texniki inqilablar dövründə və insanın təbiətə münasibətində təbiət elmlərinin humanitar elmlərlə yaxınlaşması prosesi danılmaz həqiqətə çevrilmişdir. Elmin bazası cəmiyyətin maddi mədəniyyətinin, başlıcası təbiətşünaslığın nailiyyətləri əsasında yaradılmışdır [2, s.25].

Əvvəllər bir-birindən ayrı salınmış pərakəndə dövlətlərdən eramızın VII əsrində Yaxın və Orta Şərqin ərazilərində mərkəzləşdirilmiş ərəb dövləti - Ərəb xilafəti yarandı. Bu isə feodal əsasları üzrə vahid sistemin yaranmasına səbəb oldu.

823-cü ildə Abbası xəlifəsi Əl-Mətin (813-833) məğlub edilmiş Bizans imperatoru II Mixaildən bir sıra yunan əlyazmalarının və ya onların surətlərini tələb etmişdir.Məşhur astronom və riyaziyyatçı Klavdi Ptolomeyin “Almaqest” əsəri ərəblərin əlinə keçmişdi. Yerli mədəni əlaqələrin Antik dövrün mədəni irsi ilə mürəkkəb kompleksinin mənimsənilməsi müsəlman mədəniyyətinin çiçəklənməsini təmin etmişdi [2, s.81].

Ərəb dünyasında Aristotelin əsərləri geniş yayılaraq müsəlman intibahının genişlənməsinə səbəb oldu. Allahın dünya prosesinin ayrı-ayrı hissələrinə deyil, yalnız ümumi gedişatına təsir edə bilməsi fikrini irəli sürən İbn Rüşd fəlsəfə və elmin ilahiyyatdan asılı olmaması ideyasını əsaslandırmaqla dünyaya münasibətdə Allahın funksiyasını minimuma endirirdi. İbn Rüşdün təlimində təbiət Allahdan asılı deyil, özünün xüsusi, sonlu formalarının yaradıcısı, təbiətin özüdür. “İkili həqiqət” haqqında da təlim İbn Rüşdə aiddir [3, s.57]. Bu həqiqətlərdən biri elmin İlahi, digəri elmin fəlsəfi həqiqətidir.İbn Rüşdə görə həm elm (fəlsəfə), həm də din

(ilahiyyat) bütün mövcudluğu və dərk olunmaların başlanğıcı və yüksək səbəbi olan Allah haqqında düşünür. Qurani-Kərimdə iki məna tapmaq olar: Birinci məna ilahiyyatçılar, ikinci məna isə elm və fəlsəfə nümayəndələri tərəfindən dərk olunur.

VIII-XI əsrlər Orta əsr ərəb mədəniyyətinin çiçəklənməsi dövrü olmuşdur. Həmin dövrdə xilafətin iri şəhərlərində oxu zalları, tərcümələr və kitab üzü köçürmələr üçün xüsusi binaları olan kitabxanalar ətrafında elmi mərkəzlər, elmi cəmiyyətlər və ali məktəblər yaradıldı. Ərəb riyaziyyatı Orta əsrlərdə yüksək inkişaf səviyyəsinə çatmışdır. Şərq peripatetizmin görkəmli nümayəndəsi olan Əl-Xarəzminin “Hind ədədləri haqqında” əsəri (XII əsrdə) tərcümə edildikdən sonra onluq sistemi Avropa ölkələrinə də məlum olmuşdur. Əl-Xarəzmi Yaxın Şərq tarixində və dünyada cəbr elmi ilə bağlı ilk elmi əsər yazan alim kimi məşhurlaşmışdı.

Əl-Xarəzminin adı Avropaya latınca “Alkorismi” kimi tələffüz edildiyindən onun tapdığı metoda “alqoritm” adı verilmişdir. O, dünyada cəbr elmi ilə bağlı ilk elmi əsər yazan alim kimi məşhurlaşmışdır. Dünyada ilk dəfə olaraq Əl-Xarəzmi özünün “Cəbr və müqayisə hesabları” kitabında say sistemini gündəmə gətirmiş, tənlik qurma yolu ilə məsələlərin həlli yolları göstərilmişdir. Bu məşhur türk riyaziyyatçısının dəqiq elmlər qarşısında ən böyük xidmətlərindən biri də sıfır ədədindən istifadəsi olmuşdur. Əl-Xarəzmi sıfırı hər şeyin başlanğıcı olan, nə də sonu olan sıfır ilə simvollaşdırır. Eynilə sıfır kimi Allah da nə çoxalır, nə də azalır... Nəhayət sıfır bütün sayları on qat çoxaldır və azaldır.Ərəb xilafətində yeni hesablama üsulları və xüsusi alqoritmlər nəzəriyyəsi geniş inkişaf etdirilmişdir. O dövrdə Uluqbəyin saray astronomu olan Əl-Kaşi düzgün çoxbucaqlıların köməyi ilə “π” ədədini on yeddinci işarəyədək hesablaya bilmişdir. Ərəbdilli riyaziyyatçılar böyük bir cəsarətlə, irrasional və rasional ədədləri həqiqi ədədlər çoxluğuna birləşdirməklə bunlar arasındakı sərhəddi tədricən aradan götürmüşlər. Bu ideyanı Avropa riyaziyyatçıları yalnız XVI əsrdə qəbul etmişlər. Şərqin böyük riyaziyyatçısı Əl-Xarəzmi bir iki dərəcəli tənliklərin sistemli həllini tapmışdır. Cəbr sahəsində ən böyük nailiyyətlərdən biri Şərqin məşhur rübai ustası, astronomu və riyaziyyatçısı Ömər Xəyyamdır. O, “Məsələlərin sübutu haqqında traktat” əsərində qədim dövrün həndəsi metodları əsasında kub tənliklərin nəzəriyyəsini tədqiq etmişdir [4, s.37].

Müsəlman riyaziyyatçılarının Orta əsrlərdə tarixi xidmətləri çoxdur, onlar həndəsənin əsasları üzrə dərin tədqiqatlara başlanğıc veriblər. Ömər Xəyyam və Nəsrəddin Tusi evklid həndəsəsinin paralel xətlər haqqında beşinci postulatını teorem kimi sübut etməyə təşəbbüs göstərmiş və bu baxımdan XIX əsrdə qeyri-evklid həndəsəsinin (Bolyak, Qass, Riman, Lobaçevski) yaradılması üçün rasional fikir mənbəyi yaratmışdır. Həmin dövrdə müsəlman alimləri mexanika, fizika və astronomiya məsələləri ilə məşğul olmuşlar. Burada mexanikanın statistika bölməsi xüsusilə inkişaf etdirilmişdir. Bu inkişaf həmin dövrdəki iqtisadi inkişafla əlaqədar idi. Daimi inkişaf etdirilən pul dövriyyəsi istər daxili, istərsə də xarici beynəlxalq ticarət ölçü metodlarının ölçü və çəki sistemlərinin durmadan təkmilləşdirilməsini tələb edirdi.Bu tələbat isə çəki və onun əsasları haqqında elmin inkişafını şərtləndirir, tərəzilərin müxtəlif növlərinin konstruksiyalarının yaradılmasına səbəb olurdu [1, s.87].

Müxtəlif metal və mineralların xüsusi çəkisinin təyin edilməsi metodlarını təkmilləşdirərkən xüsusi çəki anlayışından istifadə məsələləri ilə Əl-Biruni, Ömər Xəyyam, Əl-Xarəzmi daha çox məşğul olmuşlar. Onlar Arximed qanunundan istifadə etməklə cisimləri havada deyil, həm də suyun içərisində çəkirdi. Alınan nəticələr dəqiq olurdu. Məsələn: XII əsrdə civənin xüsusi çəkisi 13,56 q/sm$^3$ idisə, indi bu çəki 13,557q/sm$^3$, gümüş - 10,30q/sm$^3$ idisə, indi 10,49 q/sm3, qızıl - 19,05 q/sm$^3$, müasir çəki - 19,27 q/sm$^3$-dir. Orta əsr alimləri mexanikanın dinamika bölməsinə qarşı da etinasız qalmayıb, onu Aristotelin müvaviq əsərlərinin şərhi əsa-

sında inkişaf etdirmişlər. Alimlərin İbn Sinanın, Əl-Bağdadinin və Əl-Bitruçinin əsərlərində tədqiq olunan “impetus teoremi” sonralar Orta əsrlər Avropasında ətalət prinsipi probleminin meydana çıxmasına səbəb olmuşdur. Onlar mexanikanın kinematika bölməsinin də inkişafına öz töhfələrini vermişlər. Kinematikanın inkişafı astronomiyanın göy cisimlərinin hərəkətini ciddi metodlarla təsvir edə bilməsi səbəbindən irəli gəlirdi [1, s.93].

Astronomiya elminin inkişafına Şərq ölkələrinin ərəbdilli alimləri daha da böyük töhfələr vermişlər. Belə ki, atsronomik mexanikanı təkmilləşdirmiş, səma cisimlərinin hərəkət trayektoriyaları haqqında elmi məlumatları xeyli inkişaf etdirmişlər. Bu dövrdə böyük xidmət göstərmiş Kordova xilafətində yaşayan əz-Zerhalı olmuşdur. Əz-Zerhalı Avropa alimlərinin təsdiqlənməsinə görə XI əsrin ən yaxşı müşahidəçi astronomu olmuşdur. 1080-ci ildə Qərbi Avropada triqonometriyanın inkişaf etdirilməsində müşahidəçi astronom əz-Zerhalının tərtib etdiyi Toled planetlər cədvəlinin əhəmiyyətli rolu olmuşdur.K.Ptolomeyin “Almagesta” əsəri əsasında göy cisimlərinin hərəkətlərinin kinematikanın inkişafı ilə əlaqədar olması tələbatından irəli gəlirdi. Bununla yanaşı bir sıra tədqiqatlarda Yer kürəsinin hərəkətlərinin kinematikası da öyrənilirdi. Bir sıra hallarda hərəkət anlayışı həndəsi mülahizələrin sübut edilməsinə də cəlb edilir, mexaniki hərəkətdən antik hadisələrin izah edilməsi üçün istifadə edilirdi. Orta əsrlərin ərəb kinematikasının istiqamətlərinin birində bərabərsürətli olmayan hərəkətlərin öyrənilməsinə tətbiq edilmiş metodlar trayektoriyanın hər hansı bir nöqtəsi üçün “ani sürət” anlayışını müəyyən etməyə imkan verirdi.

Şərqdə fəaliyyət göstərmiş görkəmli astronomlar içində ən layiqli yer 1201-ci ildə Həmədan şəhərində anadan olmuş xalqımızın əvəzsiz alimi Nəsirəddin Tusiyə məxsusdur.

Orta əsrlər müsəlman riyaziyyatçısı, astronomu, rubai ustası Ömər Xəyyam və görkəmli astronom, riyaziyyatçı, filosof Nəsirəddin Tusi evklid həndəsəsinin paralel xəttlər haqqında beşinci postulatını teorem kimi sübut etməyə təşəbbüs göstərmiş və bu baxımdan XIX əsrdə qeyri-evklid həndəsənin yaradılması üçün əsas mənbə rolu oynamışlar. Nəsirəddin Tusi XII əsrdə müsəlman xalqlarının mənəvi inkişafına ciddi təsir göstərmiş riyaziyyatçı və filosof olmuşdur. Onun 150-dən artıq əsərin müəllifi olması mənbələrdə qeyd olunur. Bu əsərlər sırasında “Əxlaqi-Nasiri”, “Qədim şahların adət və hüquqları haqqında traktat” əsərləri xüsusilə mühüm əhəmiyyət kəsb edir. Əsərlərində idrak nəzəriyyəsi, etika, sosiologiya və s. məsələlərdən bəhs olunur. Onun ən böyük xidməti ondan ibarətdir ki, Şərqdə ilk dəfə materiyanın yox olmaması və qarşılıqlı çevrilməsi prinsipini irəli sürmüşdür. Elmin müxtəlif sahələri üzrə heyrətamiz bilik və yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirən N.Tusi zəmanəsinin tanınmış ictimai xadimi olmuşdur. Abbasilər xilafətinə son qoymuş monqol hökmdarı Hülaki xanın vəziri kimi 1259-cu ildə N.Tusi məşhur Marağa rəsədxanasını tikdirmiş və inkişaf etdirmişdir. Marağada inşa edilən rəsədxananın əlyazmalardan ibarət zəngin kitabxanası olmuşdur. Rəsədxanada o dövrün ən həssas astronomik cihazları – firlanan kvadrat, artilyar sfera, böyük divar kvadrat və s. fəaliyyət göstərmişdir. Rəsədxanada N.Tusinin başçılığı ilə Ay və Günəş tutulmasını qabaqcadan xəbər verən cədvəllər hazırlanmışdı.

1205-ci ildə yazılmış “Əxlaqi-Nasiri” əsəri xüsusi elmi və tarixi-fəlsəfi əhəmiyyət kəsb edir. Əsərdə idrak nəzəriyyəsi, etika və sosiologiya məsələləri şərh edilir. N.Tusi dərk edilə bilən dünyanın obyektiv mövcudluğuna şübhə etmir. Onun fikrincə, idrak dünyanın təfəkkür məzmununun dərk edilməsi deyil, xarici şeylərin obrazlarının onları dərk edənin hissələrində və zəkasında unikasıdır. Yalnız mükəmməl zəkaya və sağlam təbiətə malik olan insanlar dünyanı dərk edə bilərlər [2, s.91].

O, bu ideyalardan çıxış edərək belə hesab edirdi ki, metafizika - fəlsəfə bütün elmlərin zirvəsidir və həmin elmi nəzəri və praktiki fəlsəfəyə bölür. Nəzəri fəlsəfə metafizika, riyaziyyat və fizikadan ibarətdir.

Praktiki fəlsəfə əxlaq fəlsəfəsinə, evdarlıq fəlsəfəsinə və cəmiyyət fəlsəfəsinə bölünür. N.Tusi Nizami ənənələrini davam etdirərək özünün “azadlıq şəhəri” adlandırdığı gələcək cəmiyyətə öz baxışlarını şərh edir. O belə hesab edirdi ki, insan özünün bütün qüsurlarına və zəifliklərinə rəğmən, Tanrının ən nəcib məxluqudur, o Tanrının iradəsi ilə bütün başqa canlılardan ucadadır, onlardan üstündür və onlara hökm etməlidir.

**Açar sözlər:** mədəniyyət, sivilizasiya, müsəlman riyaziyyatçıları, alqoritm, astronomiya, rasional və irrasional ədədlər

**İstifadə edilmiş ədəbiyyat**

1. Адам Мец. Мусульманский Ренессанс. М.: Наука, 1973, 473 с.
2. Mehdiyev R.Ə. Fəlsəfə. Bakı: Şərq-Qərb, 2010, 360 s.
3. Mədədzadə K.M. Təbiətşünaslığın inkişafının tarixi mərhələləri: Fəlsəfi Qnoseoloji təhlil. Bakı: 2015
4. Məmmədov Ə.B., Bəşirov D.U. Müasir təbiətşünaslığa konseptual yanaşma. Bakı: Elm, 2001, 757 s.

**Конул Мадатзаде**

## В КОНТЕКСТЕ РАЗВИТИЯ ИСЛАМСКОЙ КУЛЬТУРЫ АРАБСКАЯ НАУКА В СРЕДНЕЕ ВЕКА

**Резюме**

Статья посвящена достижениям знаменитых мусульманских ученых в мировую научную сокровищницу. Раскрываются ценные произведения таких ученых, как А.Харезм, А.Зехралы, Н.Туси. Также исследуются отношения европейских ученых к арабской науке.

**Ключевые слова:** культура, цивилизация, мусульманские математики, алгоритм, астрономия, рациональные и иррациональные числа

**Konul Madatzada**

## IN THE CONTEXT OF THE DEVELOPMENT OF ISLAMIC CULTURE ARABIAN SCIENCE IN THE MIDDLE AGES

**Summary**

The article is devoted to the achievements of famous Muslim scholars in the world scientific treasury. The valuable works of such scientists as A.Kharezm, A.Zehraly, N.Tusi are disclosed. Also, the relationship of European scholars to Arab science is explored.

**Keywords:** culture, civilization, Muslim mathematics, algorithm, astronomy, rational and irrational numbers

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**UOT – 783.3**

**Mobil Məcidov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent**

# TƏHSİL KREDİTİ TƏHSİLƏ ÇIXIŞ İMKANLARINI YAXŞILAŞDIRAN ƏSAS MALİYYƏ MEXANİZMİ KİMİ

*Məqalədə təhsil krediti təhsilə çıxış imkanlarını yaxşılaşdıran əsas maliyyə mexanizmi kimi nəzərdən keçirilir, beynəlxalq təcrübədə təhsil kreditinin tətbiqi formaları təhlil edilir, Azərbaycanda ali təhsilin təhsil krediti vasitəsi ilə maliyyələşdirilməsinin mümkünlüyü nümunələrlə təqdim edilir. Tədqiqatın yekununda təhsil kreditinin verilməsinə dair yeni bir model təklif edilir, onun digər modellərdən üstün və fərqli cəhətləri göstərilir.*

Müasir dövr təhsil sisteminin köklü islahatını tələb edir ki, bu da ilk növbədə təhsil verənlərin səviyyəsinin yüksəldilməsindən, idarəetmənin yeni səmərəli üsullarının tətbiqindən və əsasən təhsil müəssisələrinin maliyyələşdirilməsinin yeni mexanizmlərinin tətbiqindən asılıdır. Beynəlxalq təcrübədə təhsilin maliyyələşdirilməsinin onlarca forma və metodu mövcuddur ki, onların kiçik detallarından istifadə belə bu sahənin inkişafına səbəb ola bilər. Bu forma və metodların içərisində təhsil kreditlərinin üzərində dayanmaq istərdik. Təhsil kreditlərinin verilməsi təcrübəsi Azərbaycanda geniş yayılmasa da, bu sahədə xarici təcrübənin öyrənilməsi təhsil sisteminin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

XX əsrin II yarısında əksər inkişaf etmiş ölkələrin ali təhsil müəssisələrinin üzləşdiyi maliyyə sıxıntıları tələbə kontingentinin sürətli artımı və dövlət maliyyələşdirilməsinin məhdudlaşdırılması ilə əlaqədar idi ki, bu dövrdə dövlətlərin əksəriyyəti çıxış yolu kimi təhsil kreditinə müraciət etdilər [1]. Nümunə üçün qeyd edə bilərik ki, Fransa (1991), Böyük Britaniya (1991), Cənubi Afrika Respublikası (1994), Polşa (1998), Honkonq (1998), Sloveniya (1999), Macarıstan (2001), Hindistan (2001), Misir (2002) təhsil kreditlərindən istifadə edən ilk ölkələr oldu. Kanada, ABŞ, Böyük Britaniya, Niderland kimi ölkələrdə isə təhsil krediti qrant və stipendiyaları (təqaüdləri) kölgədə qoydu.

Hazırda Qərbi Avropa və Şimali Amerika ölkələrində ali təhsilin maliyyələşdirilməsinin bu üsulu (təhsil krediti) geniş yayılıb. ABŞ-da federal və fərdi təhsil kreditləri geniş yayılıb. Burada verilən kreditlərin fərqli xüsusiyyəti kreditlərin təhsillə bərabər yaşamaq üçün də verilməsidir. ABŞ-da federal kreditlərin zəmanətçisi hökümət hesab olunur və kredit verən bankların sığortalanması da hökümətin üzərinə düşür. Hazırda kreditlərin verilməsinin şərtlərini və dərəcələrini hökümət müəyyən edir. Dərəcələrə gəldikdə isə onlar hamı tərəfinən əldə ediləndir və 4-8% arasında dəyişir. Federal təhsil kreditlərinin verilməsinin şərtləri olduqca sadədir. Çünki kreditlər verilərkən ödəmə qabiliyyəti nəzərə alınmır. Lakin qanunvericilikdə sadəliklə bərabər kreditlərin verilməsi prosesində gecikmələrə və ödəməmələrə görə məsuliyyət tədbirləri də nəzərdə tutulmuşdur.

Təhsil kreditlərinin verilməsi şərti müxtəlifdir. Maraqlı haldır ki, tələbənin sosial vəziyyəti ağır olduqca kreditin verilməsi şərtləri də yüngülləşir. ABŞ-da təhsil kreditləri təhsil müddətinin sonunadək (yəni 4-6 il müddətinə), eyni zamanda 8-12 il müddətinə verilir. İstisna hallarda müddəti 30 ilədək uzatmaq mümkündür. Qeyd etməliyik ki, federal təhsil kreditləri yalnız ABŞ vətəndaşları və leqal immiqrantlar üçün nəzərdə tutulur.

ABŞ-da fərdi qaydada kommersiya banklardan təhsil kreditinin alınması şərtləri olduqca mürəkkəbdir. İlk növbədə kredit götürənə amerika vətəndaşı zamin dayanmalı, bundan əlavə gəlirlər ödəniləcək kredit məbləğinə uyğun olmalı və nəhayət hər hansı əmlak girov şəklində qoyulmalıdır. Fərdi götürülən kreditlərin faizləri də olduqca yüksəkdir [3, s.141-142].

İsveçdə təhsil kreditlərinin verilməsi 60-cı illərdən həyata keçirilir. Bu ölkədə ali təhsil pulsuzdur (ödənişsizdir), lakin tələbə yaşayış xərclərini bağlamaq üçün kredit götürə bilər. Təhsil kreditinin real faiz dərəcəsi sıfıra bərabərdir. Dərəcələr kredit götürənin gəlirinə uyğun olaraq müəyyənləşdirilir. Hazırda gəlirin 4%-i faiz şəklində banklara ödənilir. Gəliri olmayan tələbələr isə faiz ödəmədən yalnız kredit məbləğini ödəməklə də borclarını bağlaya bilərlər. Kreditin götürülməsi şərtləri də olduqca sadə və mülayimdir. Bu baxımdan bu prosesdə heç bir problem yaranmır [3, s.142].

Almaniyada təhsil kreditlərinin verilməsi uzun illərdir ki həyata keçirilir. Burada təhsil krediti faizsiz ssuda xarakteri daşıyır, hansını ki, təhsil alan aylıq olaraq alır və ali təhsil müəssisəsini bitirdikdən sonra borcunu qaytarır. Əslində Almaniyada təhsil pulsuzdur (ödənişsizdir), lakin tələbə laboratoriyaları, kitabxanaları və idman zallarını ziyarət etdiyinə görə ödəniş etməlidir. Tələbə ali təhsil müəssisəsini bitirdikdən və işə düzəldikdən sonra kredit borcunu qaytarmağa başlayır. Almaniyada təhsil krediti sahəsində bir sıra güzəştlər də nəzərdə tutulur. Misal üçün, təhsil müddətində yüksək nəticələr göstərən tələbələrə borcun 50%-i qrant şəklində bağışlanılır. Almaniyada təhsil kreditinin bağlanması 10 ilədək çəkir [3, s.142].

Cənubi Afrika Respublikasında təhsil xərclərini və istisna hallarda nəqliyyat xərclərini ödəmək üçün ali təhsil müəssisələrinin tələbələrinə təhsil krediti verilir. Cənubi Afrika Ali Təhsil Fondu (TEFSA) Cənubi Afrika Respublikası tələbələrinin milli maliyyə yardım sistemini idarə edir. Fondun məqsədi kredit vermək deyil. Məqsəd müxtəlif mənbələrdən maliyyə vəsaitlərini toplamaq və onu ali təhsil müəssisələri arasında bölüşdürməkdir. Kreditləri isə ali təhsil müəssisələri özləri müəyyənləşdirir və verir [2, s.89].

Misirdə təhsil krediti 40 il müddətinədək verilir. Kreditin faiz dərəcəsi isə inflyasiyaya uyğun müəyyənləşdirilir və üzərinə cari bank xərclərini ödəmək üçün əlavə olaraq 2% gəlir. Ümumilikdə faiz dərəcələri 3-8% arasında dəyişir. Bəzi ali təhsil müəssisələri kredit borcunu 40%-dək azaltmağa imkanlar yaradır. Bu o halda baş verir ki, tələbə müvafiq kursu müvəffəqiyyətlə başa vurur. Kursun yarısını belə uğurla başa vuran tələbələrə 20%-dək güzəşt müəyyən edilir. Misirdə qeyri-dövlət bankları da təhsil krediti verir. Fərq isə faiz dərəcələrinin həddindən artıq yüksək olmasındadır [2, s.90].

Rusiyada təhsil kreditlərinin verilməsi 2000-ci ildən həyata keçirilir. 15 illik təcrübənin olmasına baxmayaraq hələ də, Rusiyada təhsil kreditinin verilməsi mexanizmi formalaşmayıb. Belə ki, digər ölkələrlə müqayisədə Rusiyada kredit faizləri olduqca yüksəkdir. Digər tərəfdən verilən kreditin müqabilində girov tələb olunur və kredit tələbələrə deyil, onların valideynlərinə verilir. Bu isə çox hallarda problemlər yaradır. Çünki burada əsas göstərici valideynlərin ödəmə qabiliyyəti götürülür. Düzdür 2010-cu ildə eksperiment kimi 5% dərəcə ilə 16 il müddətinə təhsil kreditlərinin verilməsinə başlanılıb. Lakin bu təhsil kreditinə ehtiyacı olanların çox kiçik bir hissəsini əhatə edib. Belə ki, 2010-cu ildə yalnız 200 tələbə təhsil krediti ala bilib. Rusiyada təhsil kreditləşməsi sahəsində mövcud olan əsas problem isə rus rublunun məzənnəsinin dollara nisbətdə dəyərdən düşməsi olub. Yəni iki dəfəyədək dolların qalxması dollarla təhsil krediti götürənləri böyük maliyyə sıxıntılarına salıb, çünki, onların kredit borcu iki dəfəyədək yüksəlib.

Təhsil kreditlərinin verilməsində əsas məqsəd təhsil haqqını ödəmək iqtidarında olmayan ali təhsil müəssisələrinin tələbələrinə maliyyə yardımı göstərməkdir. Ali təhsilin kreditləşdirilməsinin 2 əsas xüsusiyyəti vardır: kreditin hamı tərəfindən əldə edilən olması və kreditləşmə proqramlarında dövlətin iştirakı. Burada əldə edilən dedikdə, verilən kreditlərin hamı tərəfindən, hətta aşağı gəlirli (aztəminatlı) ailələr tərəfindən də əldə olunması nəzərdə tutulur. Dövlət kreditləşməsinə gəldikdə isə bu halda kredit siyasəti potensial oxumaq istəyənləri üzə çıxarır ki, bu şəxslər də adətən aztəminatlı ailələrdən çıxır. Eyni zamanda aztəminatlı ailələrin övladlarının güzəştli şərtlərlə ali təhsil almaq hüququnu qazanması iqtisadi səmərəliliyi yüksəldir.

Beynəlxalq təcrübədə kreditləşmənin 2 forması geniş yayılıb: müəyyən şərtlərə əsasən verilən kreditlər və gələcək gəlirlərə əsasən müəyyən edilib verilən kreditlər. Birinci formada götürülmüş kredit məbləğinə illik faiz hesablanır və ödəyici hissə-hissə öz borcunu qaytarır. İkinci formada isə kredit götürənin gələcəkdə əldə edəcəyi gəliri proqnozlaşdırılır və faizlərə məhdudiyyət qoyulur.

Hər iki halda riskin sığortalanması istiqamətində müqavilələr bağlanır. Birinci forma əsasən aztəminatlı ailələrə verilir. İkinci formadan isə bütün təbəqələrdən olan ailələr istifadə edir.

Xarici təcrübədə təhsil krediti vətəndaşlarda təhsilə stimul yaradır. Maliyyə sıxıntıları olanlar artıq təhsil kreditinə arxalanaraq təhsil müəssisələri arasında sərbəst seçim edir, daha yaxşı təhsil müəssisəsinə sənəd verirlər. Bu isə ali təhsil müəssisələri arasında da rəqabət yaradır və onlar daha yüksək səviyyədə təhsil xidməti göstərmək istiqamətində islahatlar aparırlar. Kreditləşmə proqramlarında dövlətin iştirakı və kreditin hamıya əlçatan olması isə kredit götürənləri daha da həvəsləndirir.

Təhsil və elmi biliklər müasir dövrün əsas inkişaf resursu olduğu üçün dövlət siyasətinin əsas istiqamətlərindən biri ali təhsil sisteminin maliyyələşdirilməsi olmalıdır. Reallıqda bu sahədə dövlətin imkanları çox məhduddur. Bu baxımdan ali təhsil sahəsinə büdcədən kənar vəsaitlərin cəlb edilməsi zəruruidir. Bu problemin həlli yolunu isə inkişaf etmiş ölkələrin əksəriyyəti təhsil kreditləşdirilməsi sisteminin yaradılmasında görürlər. Təhsil kreditləşməsinin üstün və çatışmayan cəhətlərinə keçməzdən öncə təhsil krediti anlayışını aydınlaşdıraq, onun istehlak kreditlərindən fərqli xüsusiyyətlərini müəyyənləşdirək. Təhsil krediti istisnasız maliyyə alətidir, lakin bir çox xüsusiyyətlərinə görə sosial xarakter daşıyır. İlk öncə qeyd edək ki, vətəndaşlara keyfiyyətli ali təhsil almaq imkanlarının yaradılması dövlətin əsas sosial funksiyalarından biridir. Bu baxımdan təhsil kreditlərinin əsas xüsusiyyətlərini müəyyənləşdirərkən mütləq sosial prinsiplər nəzərə alınmalıdır.

Birincisi, təhsil krediti ali təhsil almaq üçün verilən kreditdir və o məqsədli xarakter daşıyır. Onun digər məqsədlərə sərf olunması qeyri-mümkündür. Çünki, pul vəsaitləri tələbələrə deyil, birbaşa ali təhsil müəssisəsinin hesabına köçürülür. İkincisi, o krediti təhsil krediti hesab edə bilərik ki, ödəniş öhdəliyi bilavasitə tələbədə yaransın və o bunun məsuliyyətini dərk etsin. Düzdür reallıqda tələbələrin böyük əksəriyyəti təhsil aldıqları müddətdə öz valideynlərinin himayəsində qalır və onların maliyyə vəsaitlərindən istifadə edirlər. Lakin kredit öhdəliyinin tələbələrin üzərinə qoyulması beynəlxalq təcrübədə ən doğru addım hesab edilir və kreditin rəsmiləşdirilməsində bu həlledici rol oynayır.

Üçüncüsü, təhsil kreditinin şərtləri müəyyənləşdirilərkən nəzərə almaq lazımdır ki, təhsil aldığı müddətdə tələbənin gəlir əldə etmək imkanları minimuma bərabərdir. Beynəlxalq təcrübə göstərir ki, təhsil kreditinin müddəti minimum təhsil müddətindən iki dəfə artıq olmalıdır, eyni zamanda güzəştlər müəyyənləşdirilərkən onların təhsil müddətində olması da nəzərdən qaçmamalıdır.

Dördüncüsü, təhsil kreditlərinin faiz dərəcələri mümkün qədər aşağı olmalıdır.

Mövcud iqtisadi şəraitdə yuxarıda qeyd olunan “ideal” təhsil kreditini təqdim etmək təcrübi olaraq mümkün deyil. Belə ki, xarici təcrübədə dövlət və kommersiya bankları tərəfindən təqdim olunan təhsil kreditlərinin dəyəri olduqca yüksəkdir. Bundan əlavə kredit verilərkən əmlak girovu və ya zamin tələb olunur (əksər ölkələrdə hər ikisi). Bu şərtlərlə verilən təhsil krediti isə əhalinin təminatlı təbəqəsi üçün nəzərdə tutulur, hansılar ki, yüksək gəlirə və əmlaka sahibdirlər. Aztəminatlı ailələrə gəldikdə isə, faiz dərəcəsindən asılı olmayaraq onlar bu imkandan onsuz da istifadə edə bilmirlər. Hesab edirik ki, təhsil kreditləşməsinin inkişafı yolunda olan maneələr yalnız dövlətin bu prosesdə iştirakı ilə dəf oluna bilər.

Təhsil krediti formasında təhsilin maliyyələşdirilməsinin digər formalarla müqayisədə bir sıra üstünlükləri vardır. Əksər hallarda təhsilin maliyyələşdirilməsi vergi ödəyicilərinin hesabına həyata keçirilir, hansıların ki, əksəriyyətinin heç ali təhsili yoxdur. Bu baxımdan təhsil kreditlərinin verilməsi ədalət prinsiplərinə tam uyğundur. Çünki təhsilin haqqını təhsil alan özü ödəyir və o, bu prosesdə təhsili olmayanlarla müqayisədə qazanan tərəfdir. Maliyyələşmənin bu forması az gəlirli ailələrlə yüksək gəlirli ailələr arasında ayrı-seçkilik yaratmır, əksinə az gəlirli ailələrə imkan yaradır ki, təhsil alaraq gələcəkdə öz təhsil haqlarını gəlirlərindən ödəsinlər. Təhsil kreditləri sisteminin genişləndirilməsi dövlətin təhsil xərclərinə də böyük yardımdır. Bu sahənin inkişafı eyni zamanda büdcənin yükünü azaltmağa xidmət edir.

Təhsil krediti ilk növbədə ali təhsili hamıya yaxın edir. Çünki kreditləşmə sayəsində təhsilə həvəsi olan və təhsil xərcini çəkə bilməyənlərə güzəştli təhsil almaq imkanı yaranır. İkincisi kredit-

ləşmə ali təhsilin səmərəliliyini yüksəldir. Çünki artıq ali təhsili almağa yalnız pulu olanlar deyil, aztəminatlı ailələrdən olan yüksək potensiallı insanlar da gəlir.

Kreditləşmə zamanı mövcud prosesin əsas iştirakçısı kimi dövlətin bəzi funksiyaları yaranır: birincisi dövlət qaytarılmayan borclara görə məsuliyyəti öz üzərinə götürməlidir. Çünki standart kreditləşmədən fərqli olaraq təhsil kreditlərinin verilməsi zamanı kredit ödəyicisinin gələcək imkanları və ödəmə qabiliyyəti qeyri-müəyyən olur. Ona görə də dövlət kredit verən təşkilatların bu riskini sığortalamalıdır. İkincisi dövlət kredit faizlərini ödəmək məqsədilə tələbələrə subsidiyalar nəzərdə tutan proqramlar həyata keçirməlidir. Üçüncüsü dövlət vergilər vasitəsilə kredit ödəyicilərinə maliyyə yardımı göstərə bilər. Misal üçün; təhsil kreditinin ödəyicilərinə kredit bitənədək gəlir vergisi üzrə vergi güzəştləri tətbiq oluna bilər.

Təcrübədə təhsil kreditləşməsinin bir neçə forması geniş yayılıb: conventional loans (CL-ipoteka tipli kreditlər) və income contingent loans (ICL-gələcək gəlirdən asılı olan kreditlər). Birinci forma kreditləşmədə faiz dərəcəsi (orta hesabla illik 10%), ödəmə dövrü, ödəmə şərtləri müəyyənləşdirilir. İkinci formada kreditin ödənilməsi gələcək gəlirlərdən asılı olduğu üçün müqavilə də yalnız gələcək gəlirə uyğun faiz dərəcəsi müəyyənləşdirilir. Qeyd edək ki, bu formadan istifadə edənlər daha çoxluq təşkil edir. Çünki ödəyici gələcəkdə çox gəlirdən çox, az gəlirdən az kredit ödəyəcəyinə imza atır. Bu formadan istifadə edənlər üçün isə bəzi məsuliyyət tədbirləri də nəzərdə tutulur. Belə ki, gəlirini gizlətməyə və ya azaltmağa cəhd göstərənlər üçün qanunvericilikdə bir sıra inzibati cəza tədbirləri də nəzərdə tutulmuşdur [5, s.5].

Təhsil kreditinin əsas üstünlüyü ondadır ki, abituriyentin ali təhsil müəssisələri arasında seçim etmək imkanı yaranır. Bəzən valideynlər maliyyə problemləri üzündən aşağı ödənişli ali təhsil müəssisəsinə üstünlük verirlər. Yüksək ödənişli ali təhsil müəssisələrində yüksək təhsilin olduğunu nəzərə alanlar isə təhsil kreditinə müraciət edirlər. Fikrimizcə bu düzgün seçimdir. Yüksək ixtisaslı kadr kimi yetişmək üçün yüksək intelektə investisiya yatırmaq lazımdır. Təhsil krediti isə bu məqsədə nail olmaq üçün ən yaxşı imkandır.

Təhsil kreditləşməsi mexanizmində dövlətin iştirakı bu prosesə kredit təşkilatlarının marağını artırır. Dövlət bir neçə formada bu maliyyələşmə mexanizmini stimullaşdıra bilər: ya kreditlər üzrə zamin kimi çıxış edə bilər, ya fərqini büdcədən subsidiyalaşdırmaqla təhsil kreditləri üzrə bazar dərəcələrindən aşağı faiz dərəcələri müəyyən edə bilər, ya da az gəlirli ödəyicilərin xeyrinə güzəştli ödəmə və ya silinmə mexanizmi yarada bilər. Lakin dövlətin bu prosesdə iştirakı heç də o demək deyil ki, kreditlər mütləq dövlət tərəfindən təmin olunmalıdır. Beynəlxalq təcrübə göstərir ki, kreditləşmənin ən səmərəli üsulları məhz kredit təşkilatları və ali təhsil müəssisələri tərəfindən həyata keçirilir.

Nəzərə almaq lazımdır ki, təhsil krediti sisteminin yaranması hazırki şəraitdə həm dövlətin, həm bankların, həm təhsil müəssisələrinin, həm də tələbələrin mənafeyinə xidmət edir. Dövlət münasib təhsil krediti şərtləri müəyyən etməklə həm təhsil müəssisələrinə, həm də tələbələrə maddi yardım etmiş olur. Belə ki, təhsil kreditinin verilməsi mexanizminin sadələşdirilməsi ilə ali təhsil müəssisələri maliyyə problemli tələbələrdən, tələbələr isə maliyyə sıxıntılarından azad olar. Vasitəçi rolunu oynayan banklar isə yeni müştəri ilə təmin olunar.

Bankların əksəriyyəti təhsil kreditinin verilməsini böyük risk hesab edir. Onların fikrincə təhsil kreditləşməsi prosesinin iştirakçıları uzunmüddətli münasibətləri nəzərdə tutan müqavilə imzalayırlar ki, bu müqavilə bağlanan anda kredit götürən tələbə ödəmə qabiliyyətinə sahib olmur və gələcəkdə onun işlə təmin ola biləcəyinə də heç kim zəmanət vermir. Bundan əlavə təhsil kreditlərini istehlak kreditlərindən fərqli olaraq təminatı yoxdur, belə ki, təhsil xidmətlərinin girov təminatı kimi çıxış etmək imkanı yoxdur. Bütün bu səbəblər isə bunları təhsil krediti verməkdən yayındırır, onlar istehlak kreditlərini daha səmərəli, etibarlı və təminatlı hesab edirlər.

Azərbaycanda təhsilin maliyyələşdirilməsi metodu kimi təhsil kreditlərinin verilməsinin xüsusi təcrübəsi yox dərəcəsindədir. Bu məqsədlə verilən kreditlər isə yüksək faiz dərəcələri və ağır şərtləri ilə seçilən istehlak kreditlərini xatırladır. Belə şərtlərlə verilən kreditlərə isə təhsilin əldə olunması mexanizmi və sosial bərabərliyin təmin olunması prinsipi kimi baxmaq olmaz. Kreditləşmənin bu forması vətəndaşların aztəminatlı təbəqəsindən daha çox, orta təminatlı təbəqə üçün nəzərdə tu-

tulduğunu göstərir. Hansı ki, orta təminatlı təbəqə kredit cəlb etmədən də maliyyə problemlərini həll edə bilərdi. Hesab edirəm ki, təhsil kreditlərinin verilməsində məqsəd məhz, aztəminatlı ailələrə istiqamətlənmiş kreditləşmə mexanizmini yaratmaq olmalıdır.

2016-cı ildən Respublikanın Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü ilə 10 aparıcı ali təhsil müəssisəsi (Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti) tərəfindən təsis edilən “Maarifçi” Tələbə Kredit Fondunun missiyası aztəminatlı ailələrdən olan tələbələrə ali təhsil almaqda bərabər imkanlar yaratmaqdır.

Fond öz məqsədinə nail olmaq üçün işini iki istiqamətdə qurur:

- Aztəminatlı tələbələrə onların təhsil məsrəflərinin maliyyələşdirilməsinə dəstək olmaq üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən müvəkkil kredit təşkilatları tərəfindən güzəştli təhsil kreditlərinin verilməsini təşkil etmək;
- Aztəminatlı tələbələrə onların təhsil məsrəflərinin maliyyələşdirilməsinə dəstək olmaq üçün müxtəlif qurumlar və fiziki şəxslər tərəfindən qrantların verilməsini təşkil etmək.

Fondun təqdim etdiyi kredit imkanlarından təsisçi ali təhsil müəssisələrindən əlavə tərəfdaş universitetlərin (Lənkəran Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti) tələbələri də yararlana bilər.

Fondun təqdim etdiyi kreditlər üzrə müraciət edən tələbələr Azərbaycan Respublikasının vətəndaşı olmalı; Fondun təsisçisi və ya tərəfdaşı olan ali təhsil müəssisələrinin birində təhsil almalı; təhsilini davam etdirməsi üçün maliyyə yardımına həqiqi ehtiyacı olmalı; valideynlərinin və özünün daha əvvəl aldığı kreditlər üzrə problemi olmamalı; valideynlərinin illik gəlir həddi təxminən 10 min manat civarında olmalı; tələbənin yaşı 25-dən yuxarı olmamalı; Ümumi Orta Müvəffəqiyyət Göstəricisi 71 baldan yuxarı olmalı; akademik borcu olmamalıdır. Elan sessiyasında nəzərdə tutulduğu təqdirdə ailə başçısını itirmiş şəxslərə; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərə; sağlamlıq imkanları məhdud şəxslərə müvafiq kredit növü yüngülləşdirilmiş (güzəştli) şərtlərlə təqdim oluna bilər [6].

Fond 2017-ci ildən etibarən faizsiz olmaqla ildə 4000 manatadək kredit verir. Kreditin qaytarılması isə tələbə məzun olduqdan bir il (hərbi xidmətlə əlaqədar güzəşt müddətinə 1 il də əlavə olunur) sonra başlayır və 60 ay müddətində ödənilir.

“Maarifçi” Tələbə Kredit Fondu fəaliyyətə başladığı vaxtdan indiyədək 4 elan sessiyası keçirib. Bu müddət ərzində fonda daxil olan 300 elektron müraciət əsasında 176 təhsil krediti müqaviləsi imzalanıb [7].

Şərtlər olduqca sadə və münasibdir. Lakin əsas problem həll edilməmiş qalır. Belə ki, fond vasitəsilə 176 nəfər ödənişli təhsil almaq imkanı əldə etsə də, on minlərlə gənc bu imkandan məhrumdur. Nəzərə alsaq ki, respublikanın ali təhsil müəssisələrində 167 minədək tələbə təhsil alır və onlardan da təxminən 70%-i ödənişli təhsil alır, deməli bu imkandan tələbələrin yalnız 0,15%-i istifadə edib. Hesab edirik ki, birbaşa dövlətin dəstəyi olmadan bu problemi həll etmək mümkün deyil.

Düzdür, “Təhsil krediti haqqında” qanun layihəsi hazırlanaraq bir neçə dəfə Milli Məclisin iclaslarında müzakirələrə çıxarılıb, lakin nədənsə qanunun qəbulu ləngiyir. Qanun layihəsində təhsil kreditlərinin iki formada (kommersiya xarakterli və sosial xarakterli təhsil kreditləri) verilməsi təklif olunur. Beynəlxalq təcrübədə təhsil kreditlərinin faiz dərəcələri bir qayda olaraq ya simvolik xarakter daşıyır, ya da ki, ölkədəki inflyasiyanın orta illik səviyyəsinə və ya Mərkəzi Bankın uçot faiz dərəcəsinə uyğun səviyyədə müəyyənləşdirilir. Qanun layihəsinin tələblərinə görə, sosial xarakterli təhsil kreditlərinin faizsiz və ya simvolik olaraq 1 faizlə verilməsi təklif olunur. Kommersiya xarakterli təhsil kreditləri maksimum 5 faiz dərəcəsi ilə verilməsi məqsədəuyğun sayılır. Bu həm Azərbaycanın Mərkəzi Bankının uçot faiz dərəcəsinə, həm də Azərbaycanda orta perspektivdə gözlənilən inflyasiyanın proqnoz göstəricilərinə uyğundur [8].

Tədqiqatın yekununda təhsil kreditinin verilməsinə dair bir model təklif etmək istərdik:

Bank təhsil müəssisəsinin vasitəçiliyi və iştirakı ilə təhsil krediti əldə etmək istəyən tələbə (valideyn) ilə təhsil dövrünün 2 misli müddətinə müqavilə bağlayır. Müqavilənin əsas şərti ondan ibarət olur ki, tələbə bu kreditin əsas məbləğini təhsil aldığı müddətdə (4 və ya 6 il) hər ay ödəməklə geri qaytarır. Faizlər isə yalnız təhsil bitdikdən sonra ödənilməyə başlanılır. Belə olan halda bank verdiyi kreditin əsas məbləğini risksiz geri qaytarır və təhsil müddətində borc ödəməyə vərdiş edən məzun faizləri qalan müddət ərzində asanlıqla geri qaytarır.

Misal üçün: tələbə qəbul olduğu ali təhsil müəssisəsində təhsil haqqı 2000 manatdır. Deməli tələbəyə 4 il üçün 8000 manat vəsait lazımdır. Müqaviləyə əsasən bank hər il tələbə üçün ali təhsil müəssisəsinin hesabına 2000 manat vəsait köçürür. Aylıq ödənişi 166,66 manata (2000:12=166,66) bərabər olan tələbə (valideyn) tədris ilinin sonunadək bu pulu gecikmələr olmadan ödədiyi halda müqavilənin 2-ci mərhələsi işə düşür və bu qayda ilə hər il təhsil haqqı hesaba köçürülür. Müqavilənin şərtlərinə əsasən hər hansı bir mərhələdə 3 və daha artıq gecikmə olarsa müqavilə pozulur. Bu modeldə bank tələbəyə ümumilikdə 2000 manat vəsaitini ayırır, lakin 8000 manatın faizlərini alır. Bu baxımdan faiz dərəcələri də standart dərəcələrdən aşağı təqdim etmək mümkündür. Müqavilənin şərtlərinə eyni zamanda borcun tez və ya gecikmə olmadan ödənilməsinə görə bonusları (faizlərin aşağı salınması), gecikmələrə görə cərimələri, tədris ilini akademik borcsuz və ya yüksək nəticələrlə bitirdiyinə görə əlavə stimullaşdırıcı güzəştləri də daxil etmək olar.

Hesab edirik ki, bu model həm dövlətə, həm banka, həm ali təhsil müəssisəsinə, həm də tələbəyə sərf edən bir modeldir.

İstərdik ki, təhsil krediti ilə bağlı keçirdiyimiz sorğunun nəticələrini təqdim edək. Sorğuda respublikanın 16 ali təhsil müəssisəsindən ödənişli əsaslarla təhsil alan 122 tələbə iştirak edib. "Təhsil krediti nədir" sualını 97 respondent cavablandıra bilməyib və onu istehlak krediti kimi xarakterizə edib. 25 nəfərin isə təhsil krediti barədə az da olsa təsəvvürü olub. "Təhsil haqqını necə ödəyirsiniz" sualını 83 nəfər "bankdan kredit götürürük", 12 nəfər "qohumların köməyi ilə", 20 nəfər "borc alırıq" deyə cavablandırıb. 7 nəfər isə problemsiz ödədiklərini bildirib. "Təhsil krediti verilərsə onun hansı şərtlərə olmasını istərdiniz" sualını 108 nəfər "aşağı faizlə" (1-5%) və "uzun müddətə", 11 nəfər "krediti məzun olduqdan sonra ödəsəm götürərəm", 3 nəfər "kreditdən qorxuram" deyə cavablandırıb. Sorğunun nəticələrinə əsasən deyə bilərik ki, rəyi soruşulanlarda təhsil krediti haqqında məlumatsızlıq var. Kiçik informasiyalar təqdim edildikdən sonra tələbələrin böyük əksəriyyətinin təhsil kreditini əldə etmək istəyində olduğunun şahidi olduq. Çünki, onsuzda onlar təhsil haqqını müxtəlif mənbələrdən əldə edirlər. Respondentlərin 88,5%-i kreditin "aşağı faizlə" və "uzun müddətə" verilməsini, 9%-i isə kreditin məzun olduqdan sonra qaytarılmasını məqsədəuyğun hesab edib. Qeyd edək ki, sorğu keçirilərkən respondentlərin ailə vəziyyəti nəzərə alınmayıb.

Ali təhsildə "təhsil kredit"lərinin tətbiq olunmasında əsas məqsəd təhsil xərclərini qarşılaya bilməyən tələbələrə maliyyə yardımı göstərməkdir [4, s.2].

Beləliklə, deyilənlərdən belə nəticə çıxara bilərik ki, maliyyələşmə mexanizmi kimi məhz təhsil krediti həm dövlətin, həm ali təhsil müəssisələrinin, həm də tələbələrin maraqlarına tam uyğundur. Hesab edirik ki, təhsilin kreditləşməsi sahəsində həyata keçirilən siyasətin əsas istiqamətləri təhsil kreditləşməsi münasibətləri iştirakçılarında sistemli institutsional sabitliyin təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, bank biznesi infrastrukturunun inkişafı, bank sisteminin tənzimlənməsinin və bank nəzarətinin yaxşılaşdırılması, həmçinin vergitutma, dövlət xərcləri və investisiyalar sahəsində dövlətin maliyyə vəsaitlərinin optimallaşdırılması yolu ilə bankların, əhalinin və ali təhsil müəssisəsinin stimullaşdırılması olmalıdır.

**Açar sözlər:** təhsil krediti, ödənişli təhsil, maliyyə mexanizmi, universitet, aztəminatlı ailə

**İstifadə edilmiş ədəbiyyat**

1. Абанкина И.В., Домненко Б.И., Левшина Т.Л., Осовецкая Н.Я. Перспективы образовательного кредитования в России // Вопросы образования, 2004, №4, с.64-88
2. Комлева А.С., Гаджикурбанов Д.М. Образовательное кредитование: российская и мировая практика // Экономика образования, 2012, №2, с.88-92

3. Прахов И.А., Савицкая Е.В. Образовательный кредит: зарубежный опыт и возможности использования в условиях ассиметричной информации // Экономика образования, 2008, №2, с.138-148
4. Finnie R. Student Financial Aid: The roles of Loans and Grants. School of Policy Studies, WP 37, Dec.2004: http: // www.queensu.ca/sps/workinq papers /Files/sps.wp37.pdf.
5. Johnstone D.B. Student Loans in International Perspective: Promises and Failures, Myths and Partial Thuths. The center for Comparative and Global studies in Education, University at Buffalo. 2001: http://www/qse.buffalo.edu./ora/intHiaher Ed Finance/textForSite/StudentLoanenternatFinal
6. http://maarifci.az
7. http://mektebgushesi.az/ Tələbələrə şad xəbər – Təhsil kreditləri faizsiz oldu. 15.09.2017
8. http://news.atv.az/az/demo-sos/60858-tehsil-krediti. 23.02.2016

**Мобил Меджидов**

## ОБРАЗОВАТЕЛЬНЫЙ КРЕДИТ КАК ОСНОВНОЙ ФИНАНСОВЫЙ МЕХАНИЗМ В ЦЕЛЯХ УЛУЧШЕНИЯ ДОСТУПА К ОБРАЗОВАНИЮ

**Резюме**

В статье рассматривается образовательный кредит как основной финансовый механизм для улучшения доступа к образованию. Анализируются формы применения образовательного кредита в международной практике. Представлены примеры возможного финансирования высшего образования с помощью образовательного кредита. Предлагается новая модель образовательного кредита, даны его положительные и отрицательные черты от других моделей.

**Ключевые слова:** образовательный кредит, платное образование, финансовый механизм, университет, малообеспеченная семья

**Mobil Majidov**

## EDUCATIONAL CREDIT AS THE MAIN FINANCIAL MECHANISM TO IMPROVE ACCESS TO EDUCATION

**Summary**

The article considers educational credit as the main financial mechanism for improving access to education. It analyzes the forms of application of educational credit in international practice. The possibility of financing of higher education with the help of educational credits is presented in the article. A new model of educational credit is offered, its positive and negative features are given.

**Keywords:** educational credit, paid education, financial mechanism, university, low-income family

**UOT – 342.55**

**Nurəngiz Mikayılova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.**

# YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ MEYDANA GƏLMƏSİ VƏ FORMALAŞMASININ NƏZƏRİ ƏSASLARI

*Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü bölməsinə uyğun olaraq, yerli özünüidarəetmə institutu uğurla formalaşmaqdadır. Məqalədə yerli özünüidarəetmənin - bələdiyyələrin formalaşmasının nəzəri əsasları, tarixi kökləri, dünya təcrübəsi göstərilmiş, bələdiyyələrin son statistik məlumatları təhlil edilmişdir.*

İdarəetmə ictimai iqtisadi münasibətlərin konkret məqsədəuyğun təşkil edilməsidir, bütöv tam bir sistemin ayrı-ayrı hissələri, ünsürləri arasındakı əlaqəni təmin edən bir prosesdir. İdarəetmə əvvəlcədən nəzərdə tutulan və dərk edilmiş məqsədə nail olmaq, nəticələr əldə etmək üçün hər hansı konkret obyektə məqsədəuyğun təsir etmə vasitəsidir. İdarəetmə bütün obyektiv qanunlar sisteminin tələblərinin habelə müasir cəmiyyətə xas olan ictimai, kollektiv və şəxsi mənafelərin həyata keçirilməsi mexanizmidir.

İdarəetmə elmi bütün cəmiyyətlər üçün təxminən eyni olan bir sıra əlamətlərə malikdir. Çünki idarəetmə prosesi hansı cəmiyyət olursa olsun müəyyən sistemlərin, o cümlədən iqtisadi, sosial, texniki sistemlərin, habelə idarəedən və idarə olunan yarım sistemlərin, idarəedici parametrlərin, müəyyən informasiyaların toplanmasını, işlənməsini, idarə edən və idarə olunan sistemlərdə əks əlaqələrin mövcudluğunu və s. nəzərdə tutur. Bununla belə, idarəetmənin sosial məzmunu ayrı-ayrı ictimai-iqtisadi formasiyalarda müxtəlif olmuşdur.

İdarəetmə nəzəriyyələrinin inkişafı əsasən aşağıdakı dörd mərhələdən keçmişdir:

I dövr (mərhələ) – qədim dövr. Bu dövr idarəetmənin I inkişaf dövrü olmaqla, ən uzunmüddətli olub, təxminən eramızdan 9-7 min il başlayaraq XVIII əsrə qədər olan dövrü əhatə edir. Yunan filosofu Sokrat birinci olaraq idarəetmənin xüsusi fəaliyyət növü olmasını qeyd etmişdir (e.ə. 470-399-cu il).

İdarəetmənin II dövrü (mərhələsi) – sənayeləşmə dövrüdür (1775-1890). İdarəetmə elminin yaranması və inkişafının tədqiqi bu dövrdə əsasən A.Smitə məxsusdur. O, nəinki siyasi iqtisadın klassik nümayəndəsidir, həm də idarəetmənin mahir bilicisidir.

İdarəetmənin III dövrü – sistemləşdirmə dövrüdür. Bu dövr 1895-1960-ci illəri əhatə edir. Bu dövrdə müxtəlif məktəblər, axınlar formalaşır, idarəetmə prosesləri müasirləşir, yüksək səviyyəli idarəetmə mütəxəssisləri, menecerlər yetişirlər. Menecment idarəetmə elmi kimi özünü təsdiq edir. İdarəetməyə bir elm kimi baxılması əsasən F.Teylora məxsusdur (1856-1915). O, “Fabrikin idarə olunması” (1903), “Menecmentin (idarəetmənin) elmi prinsipləri” əsərlərini yazır və əməyin elmi təşkili məsələlərini ön plana çəkir.

L.Cilbert, A.Fayol, E.Meyor və başqaları idarəetmə elmini daha da təkmilləşdirmişlər. D. Makqreqor XX əsrin ortalarında “X” və “Y” nəzəriyyələrini (idarəetmənin) irəli sürür.

“İdarəetmənin IV dövrü – məlumatlar dövrüdür” (1960-cı ildən bu günə qədər).

Yerli özünüidarəetmə sistemi insan cəmiyyətinin qurulması və inkişafı ilə təşəkkül tapmış, iri dövlətlərin yaranmasına səbəb olmuşdur. Yerli özünüidarə anlayışını açıqlayarkən tarixə nəzər yetirmək və ilk növbədə, elmə məlum olan ayrı-ayrı yerli özünüidarəetmə konsepsiyalarına nəzər salmaq lazımdır. Yerli özünüidarənin icma xarakteri onun sosial idarəetmənin ilk nümunəsi olduğunu göstərir. Sonralar Qədim Afinanın və Romanın şəhər-dövlətlərində yerli özünüidarəetmə xüsusiyyətlərinə malik orqanlar, orta əsrlərdə işə Avropanın bir sıra şəhərlərində özünüidarəetmə orqanları mövcud olmuşdur.

İdarəetmənin bu forması hər yerdə yayılmışdır və bütün tarixi sivilizasiyalar onun üzərində qurulmuşdur. İcma idarəçiliyini əvəz edən dövlət bir müddət bu durumun səlahiyyətlərinin daraldır və bütün hakimiyyət və səlahiyyətləri əllərində mərkəzləşdirir. Ancaq tezliklə iri ərazilərdə haki-

miyyət üsullarını itirən dövlət yenidən “yerli hakimiyyət” orqanlarını yaratmağa və səlahiyyətlərinin bir hissəsini yerli hakimiyyətin təyin olunmuş nümayəndəsinə verməyə məcbur olmuşdur. “Yerli hakimiyyət”in meydana gəlməsi şəhərlərin meydana gəlməsi və idarəçiliyi ilə bağlı olmuşdur. Qeyri-kənd təsərrüfatı istehsal və xidmət sahələri şəhərlərdə nisbətən kiçik bir ərazidə toplandığından onlar öz münasibətlərini “bələdiyyə” şəhər idarəçiliyi formasında reallaşdırmışlar.

Şəhərlərin və feodal münasibətlərinin inkişafı yerli özünüidarənin yeni mərhələsinin açır və bu, cəmiyyətdəki sosial, iqtisadi və siyasi proseslərin idarə edilməsi ilə əlaqəli xüsusi terminləri meydana gətirir. YÖO ilə işlədilən “münisipalitet”və “bələdiyyə” terminləri tez-tez rast gəlinən terminlərdir. “Bələdiyyə”nin kökü ərəb “mənşəli” bələd olmaq sözündən götürülüb, yerli əraziyə bələd olan idarəçilik anlamını verir. Daha geniş yayılmış “münisipalitet” sözü isə latınca “municipium” sözündən götürülüb. “Munus” çətinlik, ağırlıq, “capio” və “recipio” isə götürürəm, anlayıram deməkdir. Bu termin ilk dəfə olaraq, Qədim Romada, respublikaçıların hakimiyyəti zamanı meydana gəlib. Bu adla özünüidarəetmə hüququ olan şəhərlər adlandırılırdı. Ərəb mənşəli bələdiyyə termini isə müsəlman ölkələrində orta əsrlərdən başlayaraq geniş istifadə olunur [5, s.28]. Yerli özünüidarənin dünya təcrübəsi müxtəlif, bir-birindən fərqli formalarda təşəkkül tapsa da ümumilikdə başlanğıcdakı icma demokratiyası və şəhər özünüidarəsinin bu prinsiplərinə söykənir: tayfa-icma sistemi, antik dünyanın şəhərləşmə sistemi, Orta əsrlər Avropasının və müsəlman Şərqinin şəhər və kənd icmaları.

Azərbaycanda bələdiyyələrin çox qədim və zəngin tarixi var. Qədim cəmiyyətlərin ictimai quruluşlarında demokratiya və ədalətlilik hökm sürüb. Zərdüştlik, onun əsas mənbəyi “Avesta”, xristianlığın ilk mənbələri, “Kitabi Dədə Qorqud” dastanı və sair mənbələrdə Azərbaycanda yerli özünüidarənin tarixi kökləri aydın nəzərə çarpır. Hələ eramızdan əvvəl II minillikdə Azərbaycan ərazisində imperiyalar yaranmış və süquta yetmişdir. Həmin imperiyaların idarə edilməsində idarəetmənin müxtəlif formalarından, o cümlədən, yerli idarəetmədən istifadə edilmişdir [5, s.30].

Orta əsrlərin müxtəlif dövrlərində Azərbaycan ərazisində özünüidarənin müxtəlif formaları mövcud idi. Albaniyanın tarixinə dair mənbələrdə Azərbaycanda orta əsrlərdə ilkin xristianlıq və kənddən şəhər mədəniyyətinə keçməklə yerli özünüidarəetmə sürətlə inkişaf etməyə başlamışdır. Şəhərlərin idarə edilməsi bələdiyyələr(ərəb mənşəli mənbələrdə belə adlandırılmışdır) tərəfindən yerinə yetirilirdi. Görkəmli Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusinin monqol hakimiyyəti dövründə islam hüququnun bərqərar olmasında böyük rolu olmuşdur. O, dövlət və yerli özünüidarənin bütün formalarının təsvir edildiyi “Əxlaqi-Nasir” adlı əsərinin bizlərə irs qoyub. Bununla bərabər, Tusinin təsnifatındakı müxtəlif şəhər növləri sırasında “azad səhər-dövlət” diqqəti cəlb edir. Bu şəhər demokratik, özünü idarə edən dövlətin təsviri ilə üst-üstə düşür [3, s.37]. Azərbaycan özünüidarə formalarının inkişafının sonrakı mərhələsi dini istiqamətlənməsini dəyişərək, Azərbaycan tarixində mühüm bir dövlət yaradaraq ölkədəki siyasi, iqtisadi, sosial-mədəni münasibətləri qəti surətdə dəyişən Səfəvilərin fəaliyyəti ilə sıx bağlıdır.

XVII əsrin ikinci yarısı Azərbaycan dövlətinin xanlıqlara bölünməsi dövrüdür ki, xanlıqlar da mahallara bölünürdü. Xanlığın idarə aparatı mahal, şəhər, kənd üsul-idarəsindən ibarət idi. Mahal hakimləri iri feodallar arasından xan tərəfindən seçilirdi. Mahal hakimləri-naiblər maliyyə-idarəetmə, polis, məhkəmə funksiyalarını icra, biyar və töycünün bölüşdürülməsinə nəzarət edirdilər. Şəhərin bütün inzibatçılıq aparatı ona tabe idi. Bundan əlavə şəhərlərin idarə edilməsində kələntərlər təyin olunurdu ki, bunlar da əsas etibarı ilə naiblərin köməkçilərinə çevrilirdilər. Kələntərlər şəhər tacirlərinin başçısı funksiyasının yerinə yetirməklə bərabər, hər bir zümrə üçün illik vergi norması təyin edir, vergilərin yığılmasına nəzarət edirdilər. Səhərlərin mühafizəsi xana tabe olan və asayişə, təhlükəsizlik üçün məsuliyyət daşıyan qalabəyinə həvalə edilirdi. Şəhərin özünüidarəetmə sistemində məhəllə və sexlərin başçıları iştirak edirdilər. Şəhərin məhəllə başçıları əhalidən çoxsaylı vergilərin yığılmasına yardım edirdilər, əhalinin siyahıya alınmasında iştirak edirdilər və s. Onlar öz təşkilatlarında inzibati, maliyyə və hüquqi işlərə baxırdılar: məsələn, sex nizamnaməsinə riayət olunması, müxtəlif vergi və mükəlləfiyyətlərin icrasına nəzarətin edilməsi, eləcə də şəhərin həmkarlıq məhkəmələrində mübahisə və iddiaların araşdırılması onların vəzifələrinə daxil olurdu.

Müasir dövrdə işlədilən özünüidarəetmə anlayışı və buna uyğun olaraq yaradılan yerli özünüidarəetmə orqanları öz başlanğıcını XIX əsrdə Qərb ölkələrində aparılan siyasi islahatlardan götü-

rür. Bu islahatlara xüsusilə XVIII əsr Fransa inqilabı və onun nəticələri böyük təsir göstərmişdir. İlk dəfə olaraq 1790-cı ildə Fransa parlamentində icmalarda idarəetmənin təşkili ilə bağlı qanun layihəsinin müzakirəsi zamanı icmaların idarə olunmasında görüləcək işləri iki yerə bölmək təklifi irəli sürülmüşdür: a) bilavasitə icma idarəçiliyinin xarakterinə uyğun gələn icma işləri; b) dövlət orqanları tərəfindən həvalə edilmiş dövlət işləri. Bu təklif sonralar müxtəlif yerli özünüidarəetmə nəzəriyyələrinin yaranmasına ciddi təsir göstərmişdir [6, s.414]. 1790-cı ildə ilk dəfə olaraq Fransada özünü idarə edən orqanlar barəsində ilk hüquqi sənəd imzalandı.

Belçikanın (1830-cu il) Milli Təsis Konqresinin qərarına görə, yerli hakimiyyət qanunverici, icra və məhkəmə hakimiyyətinə qarşı qoyulurdu. İcmaların müstəqilliyi yalnız təsərrüfat məsələləri ilə məhdudlaşırdı. Milli dövlətlər yarandıqca yerli hakimiyyətlərlə dövlətin qarşı-qarşıya qoyulması ideyası getdikcə öz qüvvəsini itirirdi. Yerli orqanlar öz fəaliyyətlərində dövlət səlahiyyətlərinin bir hissəsini əldə etməyə başladı. Bu hal özünüidarənin dövlət nəzəriyyəsi adını aldı. İngilislər bu nəzəriyyəni inkişaf etdirdilər. YÖ-nin statusu və təbiəti haqqındakı müzakirələr sonda ona gətirib çıxardı ki, onların yerlərdə dövlət hakimiyyətinin təmsilçisi olması və ya dövlətdən asılılığı olmayan və yalnız yerli əhəmiyyətli məsələlərin həlli ilə məşğul olan müstəqil özünüidarəetmə orqanları olması ətrafında mübahisələr yaratdı.

Avropa, Şimali Amerika dövlətləri, Yaponiya və digər ölkələrdə bələdiyyə hüququnun inkişafı YÖ-nin nəzəri əsaslarının hazırlanmasından, bələdiyyə fəaliyyətini nizamlayan qanunvericiliyin 19-cu əsrdəki islahatlar zamanı formalaşmasından sonra baş verdi. Bələdiyyə islahatları uzun illər mövcud olmuş orta əsr şəhərlərinin mülkiyyəti əsasında aparılırdı. YÖ mərkəzi hakimiyyətdən azad olmağa çalışırdı. Bu dövrdə “Amerikada demokratiya” əsərində A.Tokvil yazırdı: “İcma təsisatları olmadan da millət azad hökumət yarada bilər, lakin əsl azadlıq ruhunu heç vaxt əldə edə bilməz”.

Eyni zamanda, Belçikanın 1813-çü il Konstitusiyası YÖ-lərə icma idarəçiliyi statusu vermişdir və bu orqanları 4-cü hakimiyyət kimi tanıyırdı. Bu mövqe 1790-cı ildə fransız alimi Ture tərəfindən əsaslandırılmışdır. O, YÖ-nin sırf icma xarakterli və dövlət tərəfindən verilən fəaliyyət növlərini irəli sürmüşdür.

XIX əsrdə yaranmış yerli özünüidarəetmə nəzəriyyələrindən biri **icmanın təbii hüquqları və ya “azad icma”** nəzəriyyəsidir (Herber, Arens). Yerli özünüidarə nəzəriyyəsinin yaranmasında alman hüquqşünasları Qneyst, Şteyn, və Labandın 19-cu əsrdə söylədikləri fikirlər böyük rol oynamışdır. Bu nəzəriyyəyə görə, icmalar üz təbiətinə görə müstəqildirlər, insanın olduğu kimi icmanın da öz daxili məsələlərinin həlli sayəsində təbii və ayrılmaz hüquqları vardır. İcma tarixən dövlətdən əvvəl yarandığı üçün dövlət icmalarının öz məxsusi işlərini müstəqil surətdə idarə etmək hüququnu reallaşdırmağa hörmətlə yanaşılmalıdır. Özünüidarə nəzəriyyəsi də dövlət və cəmiyyət arasında səlahiyyət bölgüsünü və icma xarakterli YÖ prinsiplərini əldə rəhbər tuturdu. Lakin bu nəzəriyyə tələb edirdi ki, YÖO qeyri-dövlət işləri ilə məşğul olmalıdır. Belə ki, YÖO icmanın ərazi hüdudları çərçivəsində təsərrüfat fəaliyyəti ilə məşğul olmalıdır. Bu çatışmazlıq dövlət özünüidarə nəzəriyyəsi adlanan nəzəriyyədə aradan qaldırıldı. Yeni nəzəriyyəyə görə YÖO dövlət hakimiyyətinin yerlərdəki təmsilçiləri hesab olunurdu. Özünüidarənin dövlət nəzəriyyəsi bir çox müasir YÖ haqqında nəzəriyyələrin əsasında durur. Bu nəzəriyyələrə görə, bələdiyyələr yerlərdəki mərkəzdən asılı olmayan təmsilçiləridir.

İkinci nəzəriyyə **ictimai təsərrüfatçılıq nəzəriyyəsi** adlanır. Bu nəzəriyyə də icma və dövlət işlərini bir-birindən ayırır, yerli biliklərə öz problemlərini həll etmək üçün sərbəstlik verilməsini təklif edirdi. O biri nəzəriyyədən fərqli olaraq, bu nəzəriyyənin baniləri Qirke və Şeffner özünüidarənin mahiyyətini müəyyən məhdud ərazidə olan müəyyən təsərrüfat əhəmiyyətli işlərinin yerinə yetirilməsində görür. Bu nəzəriyyə də yerli icmaların öz vəzifələrini müstəqil həyata keçirilməsi prinsipindən çıxış edərək, əvvəlki nəzəriyyədə olduğu kimi icmanı dövlətə qarşı qoyurdu.

Həm ictimai təsərrüfatçılıq nəzəriyyəsi, həm də icmanın təbii hüquqları və ya “azad icma” nəzəriyyəsi **ictimai** nəzəriyyənin müxtəlif növləri hesab olunurdular. Belə ki, yerli orqanlara yerli əhəmiyyətli məsələləri, dövlət orqanlarına isə dövlət işlərinin idarə edilməsi tövsiyə olunurdu. İctimai nəzəriyyə yerli icmanı dövlətə, ictimai maraqları siyasi maraqlara qarşı qoyurdu. Burada cəmiyyət və dövlət hər biri ayrı-ayrılıqda öz maraqlarını təmin etməyə çalışırdılar. Lakin belə bir baxışlar uzun müddət davam edə bilməzdi. İcmaların dövlətə qarşı qoyulması icmaların inkişafına ma-

ne olurdu. Eyni zamanda dövlətin yerlərdə gördüyü işlərdən tamamilə uzaqlaşması mümkün deyildi və dövlət özü bu kimi işlərdə maraqlı idi.

Özünüidarəetmə nəzəriyyələrinin arasında özünə xüsusi yeri **dövlət özünüidarəetmə nəzəriyyəsi** tutur. Bu nəzəriyyənin müəllifləri alman alimləri L.Şteyn və R.Qneyst olmuşlar. Nəzəriyyəyə görə, yeri özünüidarəetmə dövlətin bir hissəsidir, özünüidarə yerlərdə dövlət idarəetməsinin təşkili formalarından biridir. Yerli özünüidarəetmə sahəsinə verilən səlahiyyətlər dövlət tərəfindən verilir, icmanın həll etməli olduğu problemlər də müəyyən dərəcədə dövlət əhəmiyyətlidir. R.Qneyts hesab edirdi ki, yerli özünüidarəetmə yerli seçkili orqanlar tərəfindən dövlətin iradəsinin həyata keçirilməsi, yerli orqanlar isə hər şeydən əvvəl, dövlət maraqlarının ifadəçiləridir və yerli maraqların qorunması bundan sonra gəlir [6, s.416]. Nəzəriyyəyə görə, dövlət yerlərdə öz planlarını məmurlarla deyil, xalqın köməyi ilə həyata keçirir. Belə idarəetmənin ən mühüm xüsusiyyəti yerli idarəetmə orqanlarının və onların rəhbərlərinin dövlət tərəfindən deyil, xalq tərəfindən seçilərək hakimiyyətə gəlir, eyni zamanda həmin rəhbər xalqın arasında və nəzarətində olur.

Bu nəzəriyyə tərəfdarları arasında müəyyən fikir ayrılıqları vardır. Bu fikir ayrılıqları nəzəriyyə daxilində hüquqi və siyasi istiqamətlərin yaranmasına səbəb oldu.

Siyasi istiqamətin nümayəndəsi olan R.Qneystə görə, yerli idarəetmə orqanlarının və onun rəhbərlərinin seçki yolu ilə hakimiyyətə gəlməsi hələ onların tam müstəqilliyi demək deyildir. Yerli özünüidarəetmə orqanlarının müstəqilliyini təmin etmək üçün burada çalışan vəzifəli şəxslər öz işlərini ictimai əsaslarla görməli, buna görə əmək haqqı almamalıdırlar. O, vəzifəli şəxslərin maaşla işləmələrini yuxarı hakimiyyət orqanlarından asılı olacağını göstərmişdir. İşlərin əvəziödənilən olması onlara gəlir mənbəyi kimi baxılmasına gətirib çıxarır və bu da yerli özünüidarəetmə orqanlarında çalışanların, həm də bu orqanların müstəqilliyinə mənfi təsir göstərir.

Hüquqi istiqamətin nümayəndəsi L.Şteyn yerli özünüidarəetmə orqanlarının müstəqilliyinin əsasını dövlət orqanları tərəfindən dövlət idarəçiliyinin müəyyən məsələlərinin həvalə olunduğu yerli icmanın olmasında görürdü. Şteyn hesab edirdi ki, yerli özünüidarəetmə orqanlarını dövlət maraqlarından başqa heç bir marağı olmayan və yalnız dövlətin adından çıxış edən dövlət orqanlarından fərqləndirən əsas cəhət yerli ərazi biliklərinin xüsusi hüquqi statusa malik olması və dövlətlə hüquqi əlaqələrə daxil ola bilməsidir [6, s.417].

Dövlət özünüidarəetmə nəzəriyyəsinin başqa bir nümayəndəsi alman alimi G.Ellinek qeyd edirdi ki, özünüidarəetmədə idarəçilik peşəkar məmurlar tərəfindən deyil, fəal sakinlər tərəfindən həyata keçirilir. Onlar yuxarıdan müəyyən edilən reqlament və təlimatlara deyil, yalnız ölkə qanunlarına tabedirlər. Beləliklə, həmin şəxslər daha müstəqil və sərbəst olurlar.

Yerli özünüidarəetmə nəzəriyyələrindən biri də **dualizm** nəzəriyyəsidir. Bu nəzəriyyələrin tərəfdarları hələ XVIII əsrin sonlarında müəyyən fikirlərlə çıxış etmişdilər. Bilə ki, onlar özünüidarəetmə orqanlarının fəaliyyətinin iki yerə ayrılmasını təklif etmişdirlər (dövlət və icma). Onlar hesab edirdilər ki, özünüidarəetmə orqanları dövlət tərəfindən həvalə olunan işləri həyata keçirərkən yerli icmanın maraqlarından kənara çıxır və dövlət idarəetmə aparatının bir hissəsinə çevrilir. Nəzəriyyədə mərkəzi hökumətin yerli həyata müdaxiləsi əksər yerli məsələlərin - təhsil, mədəniyyət, səhiyyə və s. ümumdövlət marağı xarakterinə malik olması ilə izah olunur. Bələdiyyələr istər-istəməz yerli maraqlar çərçivəsindən çıxaraq, dövlətin idarəetmə alətinə çevrilir. Dualizm nəzəriyyəsi bələdiyyə orqanlarının hüquqlarına və müstəqilliyinə mərkəzi hökumət tərəfindən edilən müdaxilənin sosial səbəblərini açıqlamır və müdaxilənin əsas səbəbini dövlət əhəmiyyətli sahələrin dövlətin nəzarətdə saxlaması kimi izah edir. Mərkəzdən verilmiş göstəriş və sərəncamlar yerli özünüidarəetmənin bütün sferalarında geniş yayıldığına görə buradan belə bir nəticəyə gəlmək olar ki, yerlərdə bələdiyyə orqanları fəaliyyət göstərsə də, yerli əhəmiyyətli məsələlərin əksəriyyətinə dair qərarlar hökumət tərəfindən verilir. Yerli özünüidarəetmə orqanlarının isə əsas vəzifəsi həmin qərarların yerinə yetirilməsindən ibarətdir. Beləliklə, bu nəzəriyyəyə görə bələdiyyələrin müstəqilliyi dövlət əhəmiyyətli işlərdə məhdudlaşır - yəni bu tip işlərdə göstərişləri yerinə yetirən mexanizmə çevrilir, digər yerli məsələlərin həllidə isə müstəqilliyini tamamilə qoruyub saxlayır.

**Sosial xidmət nəzəriyyəsi** də özünüidarəetmə nəzəriyyələrinin sırasında özünəməxsus yer tutur. Bu nəzəriyyəyə görə, yerli özünüidarəetmə orqanları cəmiyyətin bütün təbəqə və siniflərin maraqlarının bərabər ifadə edən və sosial xidmətin göstərilməsi üçün yaradılan bir qurumdur. Onların

əsas məqsədi sosial xidmətlərin göstərilməsindən ibarətdir. Bu zaman dövlət iri sahibkarların maraqlarına uyğun gələn bələdiyyə xidmətinin qorunub saxlanılması və inkişafına tərəfdar olur. Sakinlərin sosial təminatına olan ehtiyacları ilə dövlət tərəfindən xüsusi sahibkarlar üçün faydalı olan sahələrdə bələdiyyələrin fəallığına hədd qoyulması arasında ziddiyyət yaranır. Beləliklə, xüsusi sahibkarlığın genişlənməsi hesabına bələdiyyələrin sosial proqramları məhdudlaşır, bələdiyyələrin sosial funksiyaları üçün lazım olan maddi baza sıxışdırılır.

Müasir dövrdə bəzi ölkələrdə “siyasətdənkənar” yerli özünüidarəetmə konsepsiyası da tətbiq olunur. Konsepsiyaya görə, bələdiyyələr cəmiyyətə xüsusi qayğı göstərən xidmət aparatı olmalıdır. Özəl sektora malik olan fəaliyyət formaları və metodları bələdiyyə orqanlarına da yayılmasının vacibliyi konsepsiyada qeyd olunub. Bu konsepsiyada bələdiyyələrin siyasətdən kənar tutulmasının əsas məğzi heç də bu orqanların siyasi həyatdan kənarlaşdırılması deyildir. Burada yeganə məqsəd hökumətin siyasətinin həyata keçirilməsində bələdiyyə orqanlarını sözəbaxan və itaətkar bir alətə çevirməkdir [6, s.418].

Bütün bu konsepsiyaların təhlili onu göstərir ki, yerli işləri dövlət işlərindən ayırmaq çox çətindir, yerli özünüidarəetmə özündə eyni zamanda həm dövlət, həm də ictimai qurum elementlərini birləşdirir. Hər hansı bir ölkədə özünüidarəetmənin təşkili, yerli özünüidarəetmə və dövlət orqanları arasında səlahiyyətlərin bölünməsi müvafiq yerli özünüidarəetmə nəzəriyyələrinə söykənir.

Müxtəlif ölkələrdə özünüidarə prinsiplərinin inkişafı sonda bir neçə bələdiyyə tipinin formalaşmasına gətirib çıxardı.

Böyük Britaniya, ABŞ, Kanada, Avstriya kimi bir sıra ölkələrdə yerli özünüidarənin anqlosakson tipi mövcuddur ki, bu da bələdiyyələrin muxtariyat dərəcəsinin çox olması ilə fərqlənir. Bələdiyyələr üzərində dövlət nəzarəti minimumdur, YÖO-ı ölkənin qanunverici orqanlarının onların üzərində qoyduğu səlahiyyətləri icra edirlər. Müasir dövrdə Böyük Britaniyada bələdiyyələr qanunvericiliyin müəyyən etdiyi çərçivə daxilində fəaliyyət göstərir [5, s.34].

Yerli özünüidarənin geniş yayılmış bir tipi də fransız modelidir. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində bu model fəaliyyətə başlamışdır. Anqlosakson tipindən fərqli olaraq, Fransada yerli özünüidarə orqanları üzərində sərt inzibatı nəzarət tətbiq olunmuşdur. 1982-ci ildə Fransada keçirilmiş islahatlardan sonra YÖO-nın yerli əhəmiyyətli işlərdə səlahiyyətləri artırıldı.

Azərbaycanın Rusiya tərəfindən işğalı yerli özünüidarədə deformasiyalara gətirib çıxardı. Sonda bu sistem tamamilə dağıldı. Rus inqilabı və rus imperiyasının süqutu Azərbaycanın milli elitasına öz problemlərini özünün həll etməsi üçün imkan yaratdı. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası elan edildi. ADR 1919-cu il iyulun 21-də əsasnaməsi dərc olunmuş Təsis iclasını keçirməyə macal tapmadığı üçün konstitusiya qoymayıb [3, s.47]. Şərqdə ilk Demokratik Respublikanın tarixinin uzun sürməməsi səbəbindən burada yerli özünüidarə sistemi formalaşa bilməmişdir.

Hər yerdə olduğu kimi, Azərbaycanda da Sovet Hakimiyyətinin bərqərar olduğu ilk dövrlərdə özünüidarənin yeni yarımmüstəqil forması olan Sovetlər yaradıldı. Zaman keçdikcə, Sovetlər dövlətin və kommunist partiyasının tam təsiri və nəzarəti altına düşdülər. Müxtəlif səviyyəli Sovetlər SSRİ-nin süqutu zamanı öz müstəqilliklərini bərpa etməyə çalışdılar, ancaq bu proseslər ölkənin dağılması nəticəsində dayandırıldı. Müstəqil dövlətin yerli özünüidarə orqanlarının yeni sisteminin yaradılması təqribən 9 il çəkdi.

1995-ci ildə müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyada bələdiyyələrin yaradılması və onlara seçkilər keçirilməsi barədə müvafiq müddəalar öz əksini tapıbdır. Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü bölməsi, IX fəsil, maddə 142.1-də göstərilmişdir: “Yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir.” [1, s.43]. Bələdiyyələrin yaranmasının əsasında Azərbaycan Respublikasının Konstitusiyası və onu əldə rəhbər tutaraq qəbul edilmiş qanunlar, prezident fərmanları və digər normativ-hüquqi aktlar durur. Konstitusiyaya əsasən, “Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini nizama salmaq imkanı verir.”

Respublikamızda yerli özünüidarənin başlıca forması olan bələdiyyələrin yaranması və fəaliyyətini tənzimləyən çoxsaylı qanunlar və normativ hüquqi aktlar qəbul edilmişdir. Bunlara misal ola-

raq, “Bələdiyyələrin statusu haqqında”, “Bələdiyyələrin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında” qanunu, “Yerli vergi və ödənişlər haqqında”, “Bələdiyyə qulluğu haqqında”, “Bələdiyyələrin torpağı və əraziləri haqqında”, “Bələdiyyələrin maliyyəsinin əsasları” haqqında Azərbaycan Respublikasının qanunları və bunların fəaliyyəti ilə bağlı Prezident fərmanlarını, Nazirlər Kabinetinin qərarlarını və sərəncamlarını göstərmək olar [4].

Konstitusiyanın 142-ci maddəsinin birinci bəndində göstərilir ki, yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Həmin maddənin ikinci bəndinə görə bələdiyyələr seçkili orqandır və seçkilər əsasında yaradılır. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu 2 iyul 1999-cu ildə qəbul olunmuşdur. Bu, bələdiyyələrin fəaliyyətinin tənzimlənməsində əsas normativ hüquqi aktdır. Bu qanun hazırlanarkən Respublikamızın yerli şəraiti, milli xüsusiyyətləri ilə yanaşı, “Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası”nda müəyyən olunmuş prinsiplər, xarici ölkələrin müvafiq sahədə təcrübəsi də nəzərə alınmışdır.

Avropa ölkələrinin YÖ sisteminin əsaslarını Avropa Xartiyası təşkil edir. Bu Xartiya Avropa Şurası tərəfindən 1985-ci ildə qəbul olunub. Avropa Xartiyası postsovet ölkələrində əsas sənəd kimi qəbul edilmişdir. Burada deyilir ki, yerli icmaların mümkün qədər çox idarəetmə məsələləri etibar edilməlidir və bu məsələlərin həllinə dövlət qarışmamalıdır. Xartiya yerli icmaların siyasi, inzibati və maliyyə müstəqilliyinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi və müdafiə olunması vəzifələrinin Avropa Şurasına daxil olan dövlətlərin öhdəsinə qoyur.

Xartiya bütün postsovet ölkələrində, o cümlədən, Azərbaycanda da bələdiyyə hüquqlarının inkişaf etdirildiyi əsas aktlardan biridir. Xartiyaya görə, yerli özünüidarə anlayışı altında yerli özünüidarə orqanları tərəfindən dövlət işlərinin mühüm hissəsinin öz üzərinə götürülməsi, onun öz səlahiyyətlərinə və yerli əhalinin maraqlarına uyğun olaraq qanun çərçivəsində idarə edilməsi başa düşülür. Avropa Xartiyası yerli özünüidarəetməni “yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində fəaliyyət göstərərək öz məsuliyyəti altında və yerli əhalinin maraqları baxımından dövlət işlərinin əhəmiyyətli hissəsini nizamlamaq və idarə etmə hüququ və bacarığı” kimi müəyyən edir [8].

Azərbaycan demokratik inkişaf yoluna yeni qədəm qoyduğuna görə burada bələdiyyə özünüidarəetmə forması da yenidir. Onun yaranmasının zəruriliyi, əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 dekabr 1999-cu il bələdiyyə seçkiləri ilə əlaqədar xalqa müraciətində aydın göstərilmişdir: “Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm də demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir” [2, s.1]. Müraciətdə deyildiyi kimi bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, fəaliyyəti dövlətin hər bir vətəndaşı üçün yeni imkanların yaradılması, ölkəmizin inkişafı üçün yeni idarəetmə formasının başlanğıcı olmalıdır.

Azərbaycanda yerli özünü idarəetmə sistemi “Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası”nda deyildiyi kimi, Konstitusiya və qanunvericilik əsasında qurulur. Qanunvericilikdə yerli özünüidarəetmənin mühüm məsələləri öz əksini tapmışdır ki, bura yerli büdcələrin formalaşması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən olunması, yerli sosial müdafiə və yerli inkişaf proqramlarının (maddə 5), yerli iqtisadi inkişaf proqramlarının (maddə5), yerli ekoloji proqramların (maddə 6) işlənib hazırlanmasını və reallaşdırılmasını aid etmək olar [8].

Bələdiyyələr 1999-cu il dekabr ayının 12-də ölkəmizdə ilk dəfə keçirilmiş Ümumxalq Seçkiləri əsasında yaranmışlar. Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələrin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur. Bələdiyyə orqanları bələdiyyə tərəfindən yaradılan, dövlət orqanları sisteminə daxil olmayan yerli əhəmiyyətli məsələləri həll etmə səlahiyyətləri verilən seçkili və başqa orqanlardır.

Bələdiyyələr birpilləli idarəetmə sisteminə malik olan qeyri-dövlət qurumudur. Dövlət idarəetmə qurumlarından fərqli olaraq bələdiyyələrin yaranmasında müstəqillik var. Belə ki, istənilən yaşayış məntəqəsində əhalinin sayından, təsərrüfat strukturundan, əmlak vəziyyətindən asılı olmayaraq, həmin ərazidə yaşayan əhalinin istəyilə bələdiyyə yaradıla bilər. Dövlətin maliyyə ayırmalarına baxmayaraq, bu gün respublikamızda bələdiyyələr nüfuzlu siyasi institutlara çevrilə bilmirlər. Bələdiyyələr bir sıra hallarda dövlət hakimiyyətinin aşağı pilləsi kimi çıxış edir. Bu xoşagəlməz hal yerli özünüidarəetmə institutunun formalaşdırılmasının hələ tam başa çatmadığını göstərir.

**Açar sözlər**: idarəetmə, özünüidarəetmə, bələdiyyə, dövlət, Avropa Xartiyası, konstitusiya

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2016, 68 s.
2. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Azərbaycan xalqına müraciəti. “Azərbaycan” qəz., Bakı, 1999, 11 dekabr
3. Azərbaycan Respublikasında bələdiyyələrin hüquqi əsasları / Analitik İnformasiya və Araşdırmalar Mərkəzi. Bakı: Naksuana, 2005, 567 s.
4. Bələdiyyələr haqqında sənədlər toplusu. Bakı: Qanun, 2005, 312 s.
5. Hüseynzadə S. Yerli özünüidarəetmə tarixi və dünya təcrübəsi: Azərbaycanda və Gürcüstanda yerli özünüidarə. Bakı: 2002, AREAT, Avrasiya Fondu
6. Qəndilov T.S. Dövlət idarəçilik nəzəriyyəsi. Bakı: Elm və Təhsil, 2010, 513 s.
7. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı: Elm və Təhsil, 2007, 513 s.
8. Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası. Strasburq, 15 oktyabr 1985-ci il

**Нурангиз Микаилова**

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ВОЗНИКНОВЕНИЯ И ФОРМИРОВАНИЯ ОРГАНОВ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ

**Резюме**

Согласно четвертому разделу конституции Азербайджанской Республики институт местного самоуправления успешно формируется. В статье раскрываются теоретические основы формирования органов местного самоуправления, мировой опыт, исторические корни. Анализированы статистические данные муниципалитетов.

**Ключевые слова:** управление, самоуправление, муниципалитет, государство, Европейская Хартия, конституция

**Nurangiz Mikayilova**

## THEORETICAL BASIS OF CREATION AND FORMATION OF LOCAL SELF-GOVERNMENT BODIES

**Summary**

According to the fourth divide of the Constitution of the Azerbaijan Republic, institute of local self-government is formed successfully. The article reveals theoretical basis formation of local self-government bodies, world experience and historical roots. It also analyzes the statistical data of municipalities.

**Keywords:** management, self-government, municipality, state, European Charter, constitution

**UOT – 7965**

**Fərhad Mehbalıyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent**
**Raic Həsənov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# İDMAN VƏ TURİZMİN SOSİAL-İQTİSADİ TƏBİƏTİ

*Məqalədə müasir dövrdə qeyri-neft sektorunun respublikamızda ən sürətlə inkişaf edən idman və turizm sahəsinin sosial-iqtisadi məzmunu, turizmin formaları və növləri, onların qarşılıqlı əlaqələri, idman və turizmə tələbatı doğuran əsas amillər təhlil edilir. Eyni zamanda milli gəlirin yaradılmasında idman və turizmin rolu, turizmin inkişafı nəticəsində yeni iş yerlərinin açılması təhlil edilir, regionların iqtisadi inkişaf proqramının həyata keçirilməsinə idman və turizmin təsir mexanizmi araşdırılır.*

Biososial varlıq kimi insan öz tələbatının ödənilməsi baxımından özünün bilik və bacarığını, iş görmə qabiliyyətini, ideyalarını, mədəniyyətini və idmanı məcmu formada iqtisadi inkişafa sərf edir. Belə ki, məhsuldar qüvvələrin dinamik inkişafı və əmək bölgüsünün dərinləşməsi ilə əlaqədar olaraq insanlar artıq həyatda qalmaq naminə deyil, yəni yaşayış üçün zəruri olan malları əldə etmək məqsədilə çalışmaq dövrünü başa vuraraq, idman, əyləncə, istirahət, yeni biliklər əldə etmək, gəzinti, sağlamlığını yaxşılaşdırmaq və s. haqqında fikirləşməyə başladılar. Bəşər cəmiyyəti (sivilizasiya) inkişaf etdikcə insanlarda yeni informasiyalar əldə etmək, öz fiziki, maddi və mənəvi dəyərlərini artırmaq marağı, təbii ki, səyahət etmək, yəni turizmə zərurəti meydana çıxardı. Turizm fransız sözü olub (tour) gəzinti, bir yerə getmək mənasını verir.

Tarixin müəyyən bir mərhələsində artıq səyahətlərə tələbatın kəskin artması bu sahəyə maraq göstərən, yəni bu xidmətləri istehsal edənlərin meydana gəlməsinə səbəb oldu. Bunun da nəticəsində istehlak bazarında yeni növ əmtəə-turizm formalaşmağa başladı. İdman və turizmin istehlak bazarında əmtəə kimi möhkəmlənməsi və inkişafı bu sahənin maddi-texniki bazasının, turistlərə xidmət göstərmək üçün kadr hazırlığının və bütövlükdə bir təsərrüfat subyekti kimi idarə olunması zərurətini yaratdı. Başqa sözlə, xalq təsərrüfatının sahələrə bölgüsündə yeni bir müstəqil sahə, idman və turizm sahəsi meydana gəldi. Dövlətlərin iqtisadi inkişaf səviyyəsindən və coğrafi mövqelərindən asılı olaraq, müxtəlif ölkələrdə turizmin və idmanın inkişafı da bir-birindən fərqlənməyə başladı. Turizm, xüsusən “turist” termini uzun bir təkamül prosesi keçsə də bu günə qədər birmənalı tərifi dəqiqləşdirilməmişdir. Hal-hazırda Birləşmiş Millətlər Təşkilatı (MBT) tərəfindən turizmin tərifi aşağıdakı kimi qəbul edilmişdir: “Turizm insanların daimi yaşayış sahəsindən yerlərini dəyişməklə, sağlamlığının möhkəmləndirilməsinə təsir edən, insanların fiziki və mənəvi inkişafına səbəb olan fəal istirahətdir”.

Bu günə qədər xalq təsərrüfatının sahələrə bölünmə təsnifatında idmanın və turizmin istehsal və ya qeyri-istehsal sahəsinə aid olunması dəqiq müəyyən edilməmişdir. Bunun əsas səbəbi ictimai istehsalın strukturunda gedən müasir dəyişikliklərin əvvəlki meyarlar üzrə təsnifləşdirilməsinin müasir prinsiplərə uyğun gəlməməsidir. Belə ki, iqtisadi münasibətlər sisteminin dərinləşməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyaların istehsala nüfuz etməsi, əvvəllər qəbul olunmuş xalq təsərrüfatının sahələri arasındakı ənənəvi bölgüsünü aradan çıxarır. Müasir kapitalizmin xarakterik cəhəti ondan ibarətdir ki, hər hansı bir sahənin, yaxud özəl bölmənin iqtisadi maraqları, yəni öz mənfəətini artırmaq üçün bu bölməyə aid olmayan sahələrə “diversifikasiya”nı zəruri edir. Şaxələnmə, nüfuz etmə nəticəsində sənaye məhsulları istehsal edən şirkət xidmət, ticarət, mehmanxana biznesi və s. sahələri də məşğul edir. Yeri gəlmişkən, müasir dünyada gedən qloballaşma bu prosesi daha da sürətləndirir. Xalq təsərrüfatının sahə strukturu bir çox müxtəlif fəaliyyət sahələrini özündə birləşdirən, ictimai əmək bölgüsünə əsaslanan, ölkə iqtisadiyyatının maddi və qeyri-maddi istehsal sahələrindən ibarətdir. Hal-hazırda “BMT-nin millətlərarası statistika siste-

mində bütün iqtisadiyyat üç iri bölməyə ayrılır. Birinci bölməyə - kənd və meşə təsərrüfatı, balıqçılıq; ikinci bölməyə - sənaye sahələri, tikinti, emaledici sənaye və energetika; üçüncü bölməyə isə xidmət sahələri, nəqliyyat, rabitə, idman, təhsil, turizm və s. aid edilir. Birinci və ikinci bölmə maddi istehsal sahələrini, üçüncü bölmə isə həm istehsal, həm də qeyri-istehsal xidmətlərini əhatə edir. Bu bölgüdə idman sahəsi və turizm qeyri-istehsal sahəsi kimi üçüncü sektora aid edilir” [3, s.14].

Turizm sahəsində ancaq bir xidmət istehlakçısı vardır ki, o da turizmin özüdür. Əmtəə və maliyyə bazarından fərqli olaraq (hansı ki, əmtəə satıcını axtarır) turizmdə əksinə, satıcı özü turist məhsuluna, turizm xidmətlərinə gedir. Turist məhsulunun istehlakçısı – turistin özü qabaqcadan ona təklif olunan xidmətlərin keyfiyyəti ilə tanış ola bilmir. Turist məhsulu öz qiymətini ancaq turist tərəfindən istehlak olunan prosesdə alır. Bədən tərbiyəsi – idman və turizmin iqtisadi mahiyyəti dedikdə, bu sahənin fəaliyyəti prosesində yaranan iqtisadi münasibətlər sisteminin cəmi başa düşülür. Bu baxımdan turizmin formalaşması və inkişafı müəyyən iqtisadi göstəricilər sistemi ilə xarakterizə olunur. Turizmin inkişafını əks etdirən əsas iqtisadi göstəricilərə aşağıdakıları aid etmək olar:

1. turist axınının ümumi həcmi;
2. idman və turist obyektlərinin maddi-texniki vəziyyəti;
3. idman və turist firmalarınn maliyyə-iqtisadi göstəriciləri.

Qeyd etmək lazımdır ki, Beynəlxalq turizmlə yerli turizmin maliyyə iqtisadi göstəricilərinə yanaşmada müəyyən fərqlər ola bilər. Bir kompleks sahə kimi turizmin sahəsinin struktur sxemini aşağıdakı kimi vermək olar:




**Şəkil 1. İdman və turizm sahəsinin strukturu (quruluş sxemi).**

Turist ixracı dedikdə ölkədən çıxarılan turistlərin apardığı təsərrüfat başa düşülür. Bu da ölkəyə turizmdən pul vəsaitlərinin daxil olması ilə nəticələnir. Turist idxalı dedikdə ölkəyə kənardan gələn təsərrüfatlar başa düşülür ki, bu da pul axını ilə müşayiət olunur. Əmtəə idxalından fərqli olaraq, idman və turizm ixracı dedikdə, xaricdən ölkəyə daxil olan turistlər başa düşülür ki, bunun nəticəsində Respublikaya maliyyə vəsaiti daxil olur. Turizmin iqtisadi mahiyyətini və məzmununu daha asan başa düşmək üçün xarici əmtəə ixracı ilə xarici turist ixracı arasındakı qarşılıqlı fərqi sxematik olaraq aşağıdakı kimi vermək olar:




**Şəkil 2. Turist ixracatında axın. Maliyyə və turist axını.**




**Şəkil 3. Əmtəə ixracında maliyyə və əmtəə axını.**

Şəkildən göründüyü kimi əmtəə ixracı zamanı maliyyə axını ilə əmtəə-mal axını əks istiqamətdə olur. Ümumiyyətlə, elmi texniki tərəqqi və qloballaşmanın dərinləşməsi turizmin iqtisadi mahiyyətinin və daha çoxşaxəli formalarının yaranmasına gətirib çıxarır. Son dövrlər, bilavasitə, sırf iqtisadiyyat sahəsinə aid olan turist firmaları, turizm biznesi daha da inkişaf etməkdədir.

Beynəlxalq turizm təşkilatının (UNWTO) statistik məlumatlarına əsasən dünya üzrə ümumi daxili məhsulun 11%-i turizmdən gələn gəlirlər hesabına formalaşır. Turizmin sahəsində hər ildə 4 trilyon dollara yaxın pul dövr edir. Turist bazarlarının iştirakçısı olan bəzi ölkələr büdcənin əsas hissəsini turizmdən formalaşdırır. 80 dövlət büdcəni bilavasitə, turizmdən daxil olan maliyyə gəlirlərinin məbləğinə uyğun tərtib edir” [4, s.14]. 2016-cı ildə Rusiyadan turizmlə əlaqədar 12 milyard dollar xarici maliyyə axını olmuşdur. Turizm rəsmi olaraq iqtisadiyyat sahəsi kimi artıq qəbul olunub.

Müasir iqtisadiyyatın inkişafı elmsiz mümkün deyil. Çünki turizm sahəsində rəqabət iqtisadiyyatın başqa sahələrinə nisbətən daha çoxdur. Ona görə də turizm sahəsində elmi araşdırmalar olduqca vacibdir. Milli Məclis və ya başqa aidiyyatı orqanlar tərəfindən turizm haqqında qanun və qərarlar qəbul edildikdə mütləq bu sahə üzrə elmi araşdırmaların aparılması üçün imkanlar yaradılmalıdır. Bu sahədə çoxlu elmi işlər aparılsa da onların koordinasiyası zəifdir. Bu isə turizm sahəsinə vahid elmi yanaşmanın olmasını zəruri edir. Yəni, turizmin iqtisadi, sosioloji, fəlsəfi, tibbi və s. sahələrində aparılan tədqiqatlar bir-biri ilə əlaqələndirilməli və qarşılıqlı təhlil olunmalıdır.

Turizm fəaliyyətinin iqtisadi səmərəliliyi çox zaman turizmin formalarının düzgün təsnifləşdirilməsi ilə müəyyən olunur. Turizmin təsnifləşdirilməsi dedikdə turist sahələrinin oxşar əlamətlərə görə praktiki məqsədlər üçün qruplaşdırılması başa düşülür. Turizmin hər bir forması turistin tələbatından asılı olaraq müəyyən növ xidmətlərin düzgün təyin olunub qruplaşdırılması ilə xarakterizə olunur. İstehsal-xidmət prosesindəki roluna görə turizmi aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Turizmin forması;
2. Turizmin növü;
3. Turizmin formasının müxtəlifliyi.

Turizmin formalara görə bölgüsü dövlət ərazi prinsipinə görə aparılır. Bu əlamətə görə turizmin iki forması olur: daxili və beynəlxalq turizm. Daxili turizm dedikdə ölkə daxilində aparılan turizm fəaliyyəti başa düşülür. Daxili turizm müxtəlif peşəkar məqsədlərlə ola bilər. Yerli turizm üçün gəldiyi turist obyektində 24 saatdan çox qalmaq zərurəti olmur.

Müxtəlif ölkələrin turist qanunvericiliyində daxili turizm üçün bir-birindən fərqli meyarlar mövcuddur. Məsələn, Kanadada turist yaşayış məntəqəsindən 40 km, Hindistanda isə 50 km məsafədə təyin olunur. Rusiya qanunvericiliyində məsafədən asılı olmayaraq ölkə sərhədləri daxilində, ölkədə daimi yaşayan əhalinin turizmi daxili turizm sayılır.

Beynəlxalq turizm dedikdə xarici turizm, başqa bir ölkəyə turist səfəri başa düşülür. Beynəlxalq turist münasibətləri kompleks şəkildə olur və beynəlxalq hüquq normalarına, dövlətlərarası sazişə, turizm mübadiləsinə və s. münaqişələrə uyğun həyata keçirilir. Beynəlxalq turizm dünyanın iqtisadi münasibətləri sistemində mühüm rol oynayır. Hal-hazırda dünyada gedən qloballaşma pro-

sesi, informasiya-kommunikasiya sisteminin sürətli inkişafı beynəlxalq turizmin inkişafına geniş şərait yaradır. Bundan əlavə, demoqrafik, iqtisadi və sosial faktorların təsiri altında beynəlxalq turizm genişlənir. Demoqrafik faktorlara əsasən əhali artımı, urbanizasiya prosesi, iri şəhərlərdə oturaq həyat tərzinə münasibətin dəyişməsi və s. aiddir.

Beynəlxalq turizmin iqtisadi amillərinə gəldikdə isə bu əsasən dünya iqtisadiyyatının dinamik inkişafı ilə əlaqədardır. Bundan əlavə əhali gəlirlərinin artması, biznes əlaqələrinin sürətlənməsi, elmi sahələr arasında əlaqələrin genişlənməsi də beynəlxalq turizmə təkan verən amillərdir. Beynəlxalq turizmin sosial amillərinə isə əhalinin fəaliyyəti və yaşayış şəraiti ilə bağlı amillər aiddir. Turizmin növləri isə ölkə və ya regionun büdcəsində maliyyə nəticələrinin xüsusiyyətləri ilə əlaqədardır. Bu xüsusiyyətlərinə görə turizm 2 yerə bölünür: aktiv turizm və passiv turizm. Aktiv turizmdə pul (valyuta) axını ölkəyə və ya regionun büdcəsinə gəlir. Passiv turizmdə isə turistlərin başqa ölkəyə və ya regiona getməsindən asılı olaraq pulun (valyutanın) ölkədən və ya ərazidən çıxması ilə müşahidə olunur. Turizmin müxtəlif növlüyünə isə əsasən aşağıdakılar aiddir: “rekrasion” turizm-istirahət, sağlamlıq və müalicə üçün nəzərdə tutulan turizm sahəsi, tanışlıq (mədəni) turizmi, elmi turizm, biznes fəaliyyəti ilə bağlı işgüzar turizm də turist müxtəlif növçülüyünün əsas ünsürləridir.

Hal-hazırda Respublikada aparılan uğurlu iqtisadi siyasət ölkədə turizmin inkişafına və formalarının sayının artmasına geniş imkan yaradır. Belə ki, əhali gəlirlərinin artımı, regionlarda infrastrukturunun yaxşılaşması, ölkədə münbit investisiya mühitinin yaradılması Azərbaycanı turizm üçün əlverişli məkana çevirmişdir. Dövlətimizin həyata keçirdiyi son illərdə iqtisadi siyasət imkan verir ki, Bakıda inşa olunan müasir standartlara uyğun tikilən mehmanxana kompleksləri, ölkədə biznes forumların keçirilməsi üçün şərait yaradır. Respublikada əhalinin işlə təmin olunmasına və ölkəyə valyuta axınının yönəlməsinə geniş imkanlar açır. Bundan əlavə, Qusar rayonunda qış idman kompleksinin inkişafı Respublikamızda idman turizminin inkişafı üçün böyük perspektivlər açır.

Nazirlər Kabinetinin “2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə” həsr olunan iclasında ölkə prezidenti İlham Əliyev yekun nitqində qeyd edir ki: “Turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlər görüləcək. 2016-cı ildə xarici turistlərin gəlişi 24% artmışdır, keçən il isə əlavə daha 20% artım olmuşdur və rekort səviyyəyə çatmışdır. Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var, - əlbəttə, mən bu barədə dəfələrlə danışmışam - həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, keçən il turistlər bank kartları ilə 70% çox pul xərcləmişlər. Turistlərin sayı cəmi 20% artmışdır, amma xərclənən pul 70% artmışdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünkü turizm ölkəyə valyuta gətirir” [1, s.10].

Turizm formalarının və müxtəlif növ turist sahələri arasında koordinasiyanın - qarşılıqlı əlaqələrin olması üçün elmi araşdırmaların aparılması və kadrların hazırlanması üçün də imkanlar artırılıb. Bakıda Azərbaycan Turizm və Menecment Universiteti fəaliyyət göstərir.

İnsanların turizmə tələbatı doğuran amillər olduqca müxtəlifdir. Bu tələbat sivilizasiyanın inkişafı ilə əlaqədar daha da dərinləşmiş və çoxsaylı xarakter almışdır. İqtisadi inteqrasiyalar, elm və texnikanın sürətli inkişafı, dini-mədəni əlaqələr və s. sosial amillər də turizmə tələbatın artmasına səbəb olmuşdur. Hazırda əhalinin turizmə tələbatını doğuran amilləri ümumi halda aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İstirahət və əyləncə;
2. Daha çox gəzməklə dünyanı dərk etmək (idrak);
3. İdmana olan tələbat;
4. İqtisadi tələbat (konqress, simpozium);
5. Müalicəvi;
6. Müqəddəs yerlərə ziyarət;
7. Qohumluq əlaqəsi ilə əlaqədar olan amillər.

Qeyd etdiyimiz kimi turizmə tələbatı doğuran motivlər (əsas səbəb) çox amillərdən asılıdır. Son zamanlar iqtisadiyyatla bağlı tələbatlar daha önəmli yer tutur. Bunun da əsas səbəbi dünya iqti-

sadiyyatının qloballaşmasıdır. Reklam bazarının inkişafı, azad iqtisadi zonaların yaradılması, investisiya mühitinin öyrənilməsi və s. amillərə görə turizmin iqtisadi mahiyyəti, başqa sahələrdən daha çox önə çıxır. XX əsrin 60-cı illərində yaranmasına baxmayaraq müasir dövrdə əməli turizm və biznes turizmi də turizmin başqa sahələrinə nisbətən daha gəlirli sahəyə çevrilir. Beynəlxalq statistika komitəsinin proqnozlarına görə biznes turizmindən gələn gəlir yaxın dövrdə 2 trilyon dollardan çox olacaq. Biznes turizminin müxtəlif formaları mövcuddur. Bunlardan ən çox fəaliyyət göstərəni böyük sərgilər təşkil etmək, elmi konfranslar keçirmək, ölkəyə və ya regiona investisiyalar cəlb etmək və s. məqsədlərlə dünyanın məşhur iş adamlarını, biznesmenlərini və valyuta maqnatlarını güzəştli şərtlərlə turist kimi dəvət etməkdir. Hazırda Azərbaycanda biznes turizminin inkişafı üçün optimal şərait vardır. Dünya standartlarına uyğun mehmanxana kompleksləri tikilir, sərgilər təşkil etmək üçün arenalar, simpoziumlar keçirmək üçün böyük konfrans zalları olan və hər cür texniki vasitələrlə təchiz olunan obyektlər istifadəyə verilir. 2011-ci ildə biznes turizmə geniş şərait yaradan iki böyük (Hilton) mehmanxana binası Bakıda istifadəyə verilib.

Bunu da qeyd etmək lazımdır ki, biznes turizmin inkişafı üçün vahid hüquqi bazanın olması və turist sahələri arasında, o cümlədən nəqliyyat şirkətləri, operatorlar, mehmanxanalar, sığorta şirkətləri arasında düzgün əlaqələndirmə mexanizmi yaradılmalıdır. Ümumi halda turizmə tələbatı doğuran amilləri dörd qrupda birləşdirmək olar: tanışlıq xarakterli; regional; iqtisadi; psixoloji-sosial.




**Şəkil 4. Turizmə tələbatı doğuran əsas motivlər – amillər.**

Turizmə tələbatı yaradan amillər arasında əsas yeri iqtisadi maraqlar oynayır. Həmin amillərə turist məhsulları alıcılarının gəlirləri, təyinatı yerinə, turist, əmtəə və xidmətlərin qiyməti, turizm sahəsinin ümumi inkişafı, həmçinin bütövlükdə xidmət səviyyəsi, nəqliyyat sistemi, maqazin və mehmanxanaların qiymətləri və s. aiddir.

Təhlil göstərir ki, iqtisadi faktorlardan asılı olaraq, yəni insanların gəlirlərinin çoxalması, yəni maddi durumun çoxalması və yaxşılaşması digər faktorların, regional, tanışlıq və psixoloji motivlərin artmasına gətirib çıxarır.

Əlbəttə ki, turizmə tələbatı doğuran faktorların müəyyən edilməsi məsələnin sadə və asan tərəfidir. Əsas məsələ isə turizm tələbatının ödənilməsi prosesidir.

Turizm sahəsini inkişaf etdirmək üçün bu işlə məşğul olan müxtəlif səviyyəli qurumlar və əməkdaşlar arasında bilik yaratmaq, sadə turist işçisindən tutmuş, menecerlər, mehmanxanalar, şir-

kətlər arasında şəbəkə əlaqəsi yaratmaq müxtəlif saytlar və məlumatlar bazası yaradıb internetdə yerləşdirmək lazımdır. Bunun üçün isə aşağıdakılar vacibdir:

1. Ayrı-ayrı regionların respublikada turizm potensialını dəqiq öyrənmək;
2. Regionlarda turizmin davamlı inkişafı üçün konsepsiya hazırlamaq, yəni hər bir obyektə fərdi yanaşmaqla unifikasiya olunmuş (sadə cədvəl sxemi) sənədlər hazırlamaq;
3. Dünyada baş verən siyasi prosesləri nəzərə almaqla, müasir reallığa cavab verən hüquqi bazanı təkmilləşdirmək;
4. Turizm sahəsində iqtisadi səmərəliliyin araşdırılması üçün proqnozlaşdırma və statistik təhlillərin aparılması, həmçinin praktiki nəticələri respublikanın turist saytında yerləşdirilməsi;
5. Turizmdə marketinq elmi konsepsiyanın hazırlanması;
6. Turizmin ekoloji təsirlərinin öyrənilməsi və proqnozlaşdırılması;

Müasir dövrdə turizm iqtisadiyyatın digər sahələrinə nisbətən daha sürətlə inkişaf edən sahəyə çevrilməkdədir. Neft-mədən sənayesi və avtomobilqayırmadan sonra turizm ixrac sahəsi kimi dünya iqtisadiyyatında üçüncü yer tutur. Bu sahədə illik artım tempi xalq təsərrüfatının digər sahələri ilə müqayisədə iki dəfə çoxur. Ona görə də bu sahədə rəqabət də güclənir. Turizm obyektləri mənfəəti artırmaq üçün öz maliyyə imkanlarını da genişləndirir. Müəyyən regionda rəqabətə davamlı olması üçün iri turizm şirkətləri müxtəlif iqtisadi üsullardan istifadə edir. Müxtəlif şirkətlərin qiymətli kağızlarını (aksiya) almaqla, menecment fəaliyyətini genişləndirmək və s. üsullarla turizm bazarında rəqabət mühitini çətinləşdirir. Bütün bu proseslərin qarşısında dayanmaq, respublika daxili və beynəlxalq turizmi inkişaf etdirmək, turizmdən ölkə iqtisadiyyatına daha çox fayda əldə etmək üçün sanballı elmi araşdırmalar tələb olunur. Son zamanlar turizm sahəsində aparılan elmi-tədqiqat işlərinin ümumi sayı çox olsa da, bu sahədə sosial-iqtisadi amillərin rolu az araşdırılmışdır. Ona görə də bu sahədə olan tədqiqat işlərini sistemləşdirmək, hansı problemin daha vacib olduğunu üzə çıxarmaq və onun riyazi statistik cəhətdən daha ciddi araşdırılmasını zəruri edir. Daha ciddi araşdırmalar isə, ancaq bu sahəyə iqtisadi-riyazi modelləşdirməni tətbiq etdikdə mümkündür.

Respublikada ümumi daxili məhsulun (ÜDM) tərkibində turizm sahəsindən daxilolmaların məbləğini artırmaq dövlətimizin qarşısında duran vacib məsələdir. Ona görə ki, Azərbaycanda turizm üçün zəruri olan tarixi, milli-mənəvi, ekoloji, coğrafi və s. amillər mövcuddur. Bu amillərin hər birini ayrı-ayrılıqda təhlil edib, ümumi bir sistem halına gətirmək lazımdır. Sistemin effektliyi isə onun dayanıqlığından, düzgün idarə olunmasından asılıdır. Bildiyimiz kimi, turizm sahəsində iqtisadi idarəetmə, başqa sahələrə nisbətən daha mürəkkəbdir. Mürəkkəbliyi doğuran əsas səbəb isə bu sistemə daxil olan elementlərin sayının çoxluğu və bir-birilə asılılığının nisbətən az olmasıdır.

Ümumi şəkildə turizmdə idarəetmənin struktur sxemini aşağıdakı kimi göstərmək olar:




**Şəkil 5. İdarəetmə sisteminin sadələşmiş quruluş sxemi**

Ümumi şəkildə idarə olunan struktur model bəzi xüsusiyyətləri nəzərə almaqla həm bütövlükdə turizm sahəsinin, həm də kiçik turist firmalarının, mehmanxanaların və s. obyektlərin təhlilində istifadə olunur. Təhlilin özü sistemin hissələrə ayrılaraq öyrənilməsidir.

İstənilən iqtisadi sahədə, o cümlədən də turizmdə idarəetmənin əsas vəzifəsi mövcud təbii resurslardan, əmək potensialından, maddi-texniki bazadan, xidmət sahəsindən və s. amillərin düzgün əlaqələndirilməsi və istifadə olunması hesabına yüksək mənfəət əldə etməkdir. Sistemin səmərəliliyi mənfəətdən asılıdır. Mənfəətin tam maya dəyərinə, yəni çəkilmiş bütün xərclərə nisbəti isə obyektin rentabellik səviyyəsini göstərir.

$$R = \frac{M}{T_d}$$

Burada R – rentabellik, M – mənfəət, $T_d$ – tam maya dəyəri

Mikroiqtisadi səviyyədə bu iki göstəricinin təhlili turizm obyektləri üçün daha önəmlidir.

İdman və turizmin idarə olunmasında onun iqtisadi səmərəliliyinin artırılmasında ən yaxşı üsullardan biri funksional dəyər təhlili (FDT) üsuludur. Bu üsulun əsas mahiyyəti ondan ibarətdir ki, istənilən turizm obyektinin (mehmanxana) iqtisadi səmərəliliyini artırmaq üçün məqsədyönlü şəkildə tərtib olunmuş kompleks üsulların cəmini sistem halında bir yerə toplayır. Belə olduqda isə səmərəliliyə təsir edən bütün amilləri, həm texniki, həm iqtisadi, həm mədəni və s. qarşılıqlı təhlil etmək asanlaşır. Bunun nəticəsində, müqayisəli təhlil əsasında hansı amilin iqtisadi səmərəliliyə necə təsir göstərməsi aydınlaşdırılır və onların optimal olan variantı hazırlanır.

Onu da qeyd edək ki, “funksional-dəyər təhlili (FDT) nəzəriyyəsini bütün sistemlərə tətbiq etmək mümkündür. Bu nəzəriyyə iqtisadi ədəbiyyatlarda XX əsrin 50-ci illərindən sonra Almaniyada işlədilmişdir (FAST)” [2, s.21].

Məlumdur ki, turizm sahəsində işçi qüvvəsindən nə qədər düzgün istifadə olunarsa, iqtisadi səmərə bir o qədər yüksək olar. Ona görə də turizmdə əmək ehtiyatlarından düzgün istifadənin funksional dəyər təhlili prosesinin modelləşdirilməsini nəzərdən keçirək. İşçi qüvvəsinin funksional-dəyər təhlili prosesində mürəkkəb bir obyektin “identifikasiya”sı və modelləşdirilməsi həyata keçirilir. Bu zaman müxtəlif sahələrdən və elmi nəzəriyyələrdən bir-birilə bağlı olan anlayışlardan istifadə olunur. Ona görə də sosial-iqtisadi biliklərin dəqiqliyi və düzgün əlaqələndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu isə “intuitiv” (xəyali) yaxınlaşmadan fərqli olaraq dəqiq iqtisadi nəticələrin alınmasına kömək edir.

Turizm sahəsində növlərindən asılı olamayaraq işçi qüvvəsinin idarə olunmasını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İşçi qüvvəsinin bölüşdürülməsinin təşkili;
2. İşçi qüvvəsindən səmərəli istifadənin təmin olunması;
3. İşçi qüvvəsindən istifadəyə nəzarəti həyata keçirmək.

Əlbəttə ki, bu sahələrin hər biri üzrə ayrıca funksional dəyər təhlilinə, bu sahənin səmərəliliyinin artırılması və keyfiyyətinin yaxşılaşdırılması şərti ilə xərclərin minimuma endirilməsinə yönəldilmiş sistemli təhlil metodu kimi baxırıq. Bu zaman ierarxiya – qarşılıqlı ardıcıllıq prinsipi üzrə baş, əsas və köməkçi funksiyaları seçirik. İşçi qüvvəsinin özünü baş amil kimi, işçinin təhsil səviyyəsini, məsuliyyətini və sağlamlığını əsas funksiya kimi qəbul edirik.

**Açar sözlər:** idman, turizm, turist ixracı, turist idxalı, idman və turizmin idarə olunması, istirahət və əyləncə, ekologiya, turist xidmətləri

**İstifadə edilmiş ədəbiyyat**

1. 2017-ci il sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Bakı, 10 yanvar 2018-ci il
2. İsrafilov V.V. Əmək ehtiyatlarının idarə olunmasının funksional dəyər təhlili. Bakı: 1991, 128 s.
3. Mehbalıyev F.F., İsrafilov V.V. Bədən tərbiyəsi və idmanın iqtisadiyyatı. Marketinq. Bakı: Uniprint, 2010, 192 s.
4. Mehbalıyev F.F., İsrafilov V.V., Əliyeva S.F. İdman və turizmin sosial-iqtisadi əsasları. Turist bazarı. Bakı: ADNSU, 2016, 187 s.

**Фархад Мехбалиев**
**Раидж Гасанов**

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ПРИРОДА ТУРИЗМА И СПОРТА

**Резюме**

В статье излагается социально-экономическое содержание наиболее быстро растущего не нефтяного сектора спорта и туризма в республике, формы и виды туризма, их взаимоотношения, основные факторы вызывающие спрос на спорт и туризм. В тоже время изучается роль спорта и туризма в создании национального дохода, анализируется состояние создания новых рабочих месть в результате развития туризма, раскрывается механизм влияние спорта и туризма на претворение программ экономического развития регионов.

**Ключевые слова:** спорт, туризм, туристический экспорт, туристический импорт, управление спортом и туризмом, отдых и развлечение, туристические услуги

**Ferhad Mehbaliyev**
**Raij Hasanov**

## SOCIAL AND ECONOMIC NATURE OF TOURISM AND SPORT

**Summary**

The article describes the social and economic content of the fastest growing non-oil sector of sport and tourism in the country, the forms and types of tourism, their mutual relations, the main factors of demand for sport and tourism. At the same time, the article studies the role of sport and tourism in the creation of national income, analyzes the creation of new workplaces in the result of the development of tourism, discloses mechanism of the influence of sport and tourism on the implementation of programs of economic development of the regions.

**Keywords:** sport, tourism, tourist exports, tourist import, sport and tourism management, recreation and entertainment, travel services

**УДК – 339.543.62**

**Гюльнара Гаджиева**
**Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э., доцент**

## ФОРМИРОВАНИЕ ПРОМЫШЛЕННОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

*В статье исследуются подходы ученых экономистов к вопросам экономической политики, а также промышленной политике. Здесь уделяется место свободным направлениям экономической политики, таким как конъюнктурная, структурная политика. Для достижения оптимизации в этой сфере расскрываются формы промышленной политики.*

Характерной особенностью суверенного государства является экономическая политика. В первую очередь государство должно быть суверенным, чтобы определить свою экономическую политику. Таким образом, приобретением государственного суверенитета обеспечивается важнейшее условие претворения экономической политики. Вторым важным условием промышленной политики является формирование рыночной экономики.

Азербайджан выходя из состава СССР трансформировался в свободную рыночную модель, который отличается от социалистической модели формой собственности, другими особенностями, связанными с механизмом управления. В рыночных условиях экономики, практически все составные элементы экономики меняются: распределение и размещение ресурсов, типы воспроизводства, мотивационные модели и др [1]. Формирование рыночной экономики требует взаимодействия множества факторов, основными из которых экономисты считают частную собственность, инвестиции, свободная конкуренция, а также экономический человек. Кроме основных факторов, для нормального функционирования, существуют косвенные, такие как желание получить прибыль, свобода печати, форма мышления, свобода личной инициативы, демократия и т.д.

В этой связи, развитие новой экономической системы возможно при трансформации существующей системы поэтапно:

- ликвидация факторов, создающих препятствие формированию свободной рыночной экономики;
- укрепление необходимости существования рыночной экономики;
- развитие рыночных отношений.

Трансформационный период охватывал выполнение требуемых задач на первом и втором этапах. Каждый из этих этапов во времени начинается одновременно. Успешное выполнение задач, относящихся к первому этапу ускоряет решение задач второго этапа. Переход к третьему этапу зависит от результатов 1-го и 2-го этапов. Каждый из названных этапов ставит перед государством широко спекторные проблемы. Однако, государство целенаправленно проводя меры, другими словами совершенной экономической политикой находит пути решения этих проблем.

Следует учесть, что промышленная политика является составным элементом экономической политики. Учитывая это постараемся подходить к проблеме от общей призмы. Так, взаимоотношения между экономикой и политикой не является новой проблемой. В различные времена ученые показывали различные подходы к рассматриваемой проблеме. В своем произведении «Политика» Аристотель различил сферы влияния экономики и политики, ограничил сферу влияния экономики управлением законов, политики - государственным строением. В последнее время все больше считают целесообразным единства между ними.

Увеличивающая роль регулирования государства в условиях рыночной системы показывает увеличение роли экономической политики. К сущности, экономической политики

можно найти интерпретацию в Азербайджанской Советской Энциклопедии, что «экономическая политика это система экономических мер, проводимых государством в пользу всего общества. Сущность и задачи экономической политики определяется характером собственности над производственными средствами. Экономическая политика направлена на регулирование материального производства и тем самым определения темпа роста социального развития, которая влияет изменению социальной структуры и развитию уровня жизни. А для достижения этой цели необходимо увеличение эффективности общественного производства, роста производительности труда и т.д. В современном этапе экономическая политика отделяется как самостоятельное научное направление и является объектом исследования. Его предмет составляют изучение опыта экономической политики на различных этапах развития общества … научные основы и принципы политического руководства экономикой [2].

Несмотря на то, что политика отражает деятельность государственных правительственных органов и государственных организаций, включающих в себя экономическую и общественную структуру общества, но это еще не означает, что экономическая политика всегда опирается на научно-экономические результаты фундаментальных наук. История подтверждает факты отвержения экономической политики от фундаментальных научных основ, допущения субъективизма в выполнении экономических потребностей. Несмотря на это, развитие научных теорий в определении сущности, значения, цели и методов их достижения превратилось в важный фактор.

В свое время председатель экономического совета правительства Кеннеди, говорил, что «переговоры по интеллектуальной революции стали возможны не на основе изобретения новых экономических реальностей, а на основе ускоренного влияния современных экономических теорий на фабрику национального сознания и разработкой экономической политики».

Однако, конец XX века советская экономическая наука потерпела поражение. Разработанные классиками 100-летиями научные иследования не дали выхода из сложившегося положения, который настиг советских экономистов в борьбе масштабным дефицитом, нахождений путей ослабления социальной напряженности.

Отметим, что в свое время В.Ленин говоря о марксистской мощи, отмечал, что он приобрел все лучшее, что было создано в XIX веке. Допускалось, что он не останется в обочине от развития мировой цивилизации. Однако, изоляция марксистской идеи от мировых экономических достижений привело крушению всей системы. Хотя Существует пример Китайской народной республики, где ученые опираясь на марксистско-ленинские теории, успешно используют приемы и методы рыночной экономики, который является реальным научным феноменом с которым нужно считаться. Потому, считаем, что в управлении экономикой необходимо изучать все научные направления без запрета и использовать различные приемы и способы для регулирования национальной экономики. Однако во всех случаях национальный консерватизм должен сказать свое слово. Думаем, что именно это и является главной в политике.

Если обратить внимание на эволюцию экономической политики стран после второй Мировой войны Западной Европы, то можем быть свидетелем в регионе дирижиризма, кейнсианства, неоконсерватизма. Каждый из них в послевоенное время соответствует этапам восстановления командной экономики, экстенсивно-интенсивного его роста, радикальной структурной перестройки и т.д. Одним словом, по уровню сложности развития хозяйств, применения и дифференциации методов государственного вмешательства были сформированы свободные направления экономической политики:

- конъюнктура (бюджетно-финансовый);
- антиинфляционное;
- структурное;
- внешнеэкономические отношения;

- социальное.

В настоящее время нашло свое применение теория конвергенции. Технический прогресс, развитие крупной промышленности независимо от системной структуры сближает все страны.

В такой ситуации конечной целью экономической политики является улучшение материального и морального благосостояния населения. В направлении общей деятельности непосредственно к индивидам особая роль принадлежит социальной политике. В этой статье мы остановимся на первых 3-х направлениях.

Коньюнктурная политика основываясь на национальные правовые нормы, формируется в годовом бюджете, подготовленной правительством и утвержденной парламентом страны. Бюджет учитывает современное экономическое состояние, прогноз возможных условий экономического развития, оценку влияния на него экономической политики государства.

Сегодня, как и в начале 2005 года в республике, снижение прибыли, которое сопровождалось увеличением текущих расходов, увеличение цен, которое привело к неопределенности инвестиционно-экономические перспективы выводит на первый план антиинфляционные меры, носящие реструктивный характер, опирается на денежно-кредитные методы. В этом случае бюджетные меры вытесняются на 2-ой план, они используются методом воздействия на совокупный спрос. В процессе реализации экономической политики антиинфляционные меры в руках государства играет роль прожектора. Претворение активной экономической политики, а также ее эффективность зависит от своевременного применения антиинфляционных мер и от правильной информированности правительства о реальном периодическом развитии.

Определенное значение в экономической политике имеет структурная политика государства. Экономическая структура включает в себя следующие формы; структура производственных факторов, структура региональной экономики, структура внутренних и внешних отношений, структура производства и потребления, структура инвестиций и т.д [3]. В целом, структурная политика-комплекс мер, направленных на решение задач, связанных с экономической структурой государства.

В каждой стране в результате углубления хозяйственных диспропорций, такие направления как промышленность, энергетика, инновация переходят на первый план. Мы здесь, в первую очередь будем рассматривать вопросы формирования промышленной политики. В конце 60-х годов прошлого “века” промышленная политика вошедшая в экономическую литературу, связывалась с регулированием обрабатывающей промышленности. Отметим, что и сегодня между промышленной политикой и государственным регулированием промышленности существует сходство. Промышленная политика занимает особое место в экономической политике каждой страны. Это исходит из высокого положения промышленности в хозяйственной жизни. Так как, промышленность является стержнем экономики и обеспечивает другие хозяйственные отрасли оборудованием, сырьем, населения-продуктами первого потребления и т.д. Следует обратить внимание, что лидирующие мировые страны являются промышленно развитыми. В связи с этим не удивляет особое внимание промышленной политике. Должна осуществляться такая промышленная политика, которая смогла бы обеспечить эффективность экономической системы, достижение оптимального уровня безработицы.

Темп развития, задачи, источники финансирования промышленности зависят от существующих производственных отношений. Такая зависимость находит свое отражение в рамках проводимой политики. Если речь идет о промышленной политике, то это характеризует линию государства в сфере промышленности.

Следует определить причины, порождающие необходимость промышленной политики, одним из которых является во-первых, то, что промышленность - ведущая отрасль экономи-

ки; во-вторых, промышленность сталкивается как внутренними, так и внешними проблемами.

Говоря о промышленности, первое, что приходит на ум, это производственный процесс - что, как и для кого производить.

Промышленная политика охватывает синергетические факторы, комплексные вопросы связанные с планированием, организацией, кадровым обеспечением, управлением и контролем. Так как, промышленная политика является целенаправленной деятельностью, при принятии мер, необходимо соблюдать определенные принципы. Каждый шаг необходимо оценить с точки зрения национальных интересов. Важно также системное проведение этой политики. По мнению О.Беляева, если не придерживаться логики в принятых решениях, то это может привести к следующим выводам: 1) нехватка ресурсов для достижения цели; 2) не достижение цели существующими ресурсами [4].

В обоих случаях принятые меры, т. е. проводимая политика не приводит к положительным результатам. Поэтому важность принятия решений доказывает его реальность.

Экономическая наука при определении равновесия ресурсов и потребность на них должен опираться на оптимальность. При этом необходимо использовать модель «затраты – выпуск», который позволяет определить зависимость между ценой и добавочной стоимостью по каждому экономическому сектору.

На самом деле, во всех видах экономической деятельности существует ограничения, нехватка ресурсов. Эти недостатки в экономической деятельности, начиная с малого предпринимательства до крупных корпоративов, наконец, высокопоставленных государственных деятелей предрекает к принятию мер по оптимизации равновесия между ограниченными ресурсами и неограниченными потребностями.

Такое равновесие в первую очередь, создается между «производством» и «потреблением».

В первом случае, целью экономической деятельности является повышение экономического и социального благосостояния. Экономическое благосостояние характеризуется количеством и степенью эффективности потребляемых товаров и услуг. Если доходы потребителя ограничены, известна ценность каждого товара и услуг, то экономическое благосостояние можно объяснить так, что целью здесь является:

- Довести до максимума ценность приобретаемых потребителем товаров и услуг;
- Ограничения: уровень доходов, другие ресурсы, направленные на потребление; ценность различных товаров и услуг для потребителей.

Таким образом, потребитель в условиях определенных возможностей и ограничений, старается максимально увеличить полезность используемых товаров и услуг, другими словами достигнуть высокой шкалы благосостояния населения.

В рамках этих ограничений потребитель имеет самостоятельную отрасль действия и принятия решений. Эта отрасль определяется возможностями изменения совокупности товаров и услуг, приобретаемых потребителем.

На макроуровне в отраслях, на микроуровне предприятиях этих отраслей принятые меры должны способствовать выбору объекта и ее сохранению потребителем. Так как, в рыночной системе производство служит потреблению, следовательно, нужно производить так, чтобы потребитель превратился постоянному клиенту определенных товаров и услуг.

На самом деле функционирование производственной сферы не для склада, а для рынка, означает увеличения государственного бюджета, увеличения доходов, рост уровня жизни, укрепление безопасности страны.

Думаем, главное значение промышленной политики заключается в мерах, направленных на формирование оптимальной производственной структуры, обеспечивающий динамическое развитие страны; во втором случае – производственная сфера, которая является одним

из отраслей ограниченной оптимизации. Для достижения оптимизации в этой сфере необходимо рассмотреть его формы.

Последнее время все чаще используется термин промышленная политика. Говоря о промышленной политике или за основу берется в целом промышленная политика, или же опираются на какую - либо ее формы. При исследовании промышленной политики зависимо от методов подхода необходимо различать ее формы. Следует группировать формы промышленной политики следующим образом:

- По моделям развития стран;
- По уровню экономического развития стран;
- По внешнеэкономическим связям;
- По уровню технического развития правительства;
- По охвату.

**По моделям развития стран различаются экономические цели и средства их достижения:**

а) совершенная рыночная экономика (Laissez Faire);
б) демократическая социалистическая доктрина;
в) смешенная экономическая система;
г) централизованное планирование;
д) переходная экономика.

В зависимости от этого промышленная политика правительств этих стран существенно отличается. Следует отметить, что страны, входящие в эту модель имеют конкретные цели, приоритеты, который считается идеальным.

**По уровню экономического развития промышленная политика различается**:

- политика индустриализации;
- политика промышленного лидерства;
- политика модернизации промышленности.

В развивающихся странах основной целью экономической политики является индустриализация. Так как индустриализация является стимулом, рычагом формирования внутреннего производства, его развития и укрепления, развития внешнеэкономических отношений, влияющее на технологическое опережение, часто ведутся параллели с развитием. Часто оценку экономического развития стран дают по уровню промышленного их развития.

Развивающие страны определяя свою экономическую стратегию, с учетом осуществления промышленной политики стремятся снизить различия с развитыми странами по уровню благосостояния населения.

Думается, что промышленную политику развитых стран можно назвать политикой лидерства. Так как, промышленная политика в этих странах охватывает систему мер, направленных на обеспечение лидерства промышленности в мировой экономике.

Практика показывает, что промышленная политика стран, где происходит трансформация экономики развитие идет на двух платформах. С одной стороны, определение, реализация мер государственного регулирования реального сектора, с другой стороны, для достижения максимизации эффективности производства взаимодействие предпринимательства и конкурентной среды. Синтез этих направлений должен обеспечить общеэкономические, общерегиональные цели субъектов рынка. Другими словами, оптимальное сочетание либеральной и дирижерских подходов стимулирования промышленного развития является важным условием существования промышленной политики в период трансформации экономики.

**По внешнеэкономических связям**. Отметим, что процесс интеграции в мировое сообществе неизбежен. Несмотря на то, что международные отношения имеют политический, социальный, экономический, военный характер, однако основная причина заключается в эко-

номическом характере. Таким образом, не экономические отношения не приводят к свободным экономическим.

Наконец, следует обратить внимание на то, что стратегическим ориентиром для регионов России в практике успешного применения механизмов ГЧП является присоединение к так называемому «Стандарту ГЧП», разработанному Центром развития ГЧП при поддержке Минэкономразвития России. ГЧП-стандарт – набор рекомендаций для формирования институциональной среды, позволяющей обеспечить успешную реализацию проектов ГЧП в субъектах Российской Федерации. Присоединение к стандарту осуществляется путем подписания соответствующих соглашений. Реализация Стандарта предполагает совместную подготовку Центром ГЧП и субъектом Федерации программных документов по развитию практики ГЧП, включая разработку «дорожной карты» по развитию механизмов ГЧП и формированию эффективной модели управления ГЧП-проектами; гармонизацию регионального законодательства по ГЧП с федеральным, а также разработку предложений по мерам стимулирования и поддержке частных инвесторов, планирующих или реализующих ГЧП-проекты в приоритетных для субъекта Федерации отраслях его экономики.

По нашему мнению, основное место в ходе дальнейшей работы по интеграции практики ГЧП в стратегии развития российских регионов должны занять меры по гарантированию экономического, прежде всего, бюджетного потенциала все более активного участия регионов в проектах ГЧП. Это требует не только более полного согласования методики стратегического и бюджетного планирования, но и ряда специальных мер бюджетной политики, в частности, создания резервных фондов финансирования проектов ГЧП, страхования рисков недофинансирования этих проектов, использования системы имущественных залогов и пр.

**Ключевые слова:** стратегическое планирование, субъекты Федерации, государственно-частное партнерство, инвестиционные стратегии регионов

**Использованная литература**

1. Алиев Дж.К. Государственно-частное партнерство на этапе экономического стратегирования // Федерализм, 2016, №2(82), с.189-195
2. Будаева К.В. Разработка стратегий социально-экономического развития: компаративный анализ институциональной деятельности регионов России в 2015-2016 годах // Региональная экономика. Юг России. 2017, №1(15), с.57-60
3. «План реализации Основ государственной политики регионального развития Российской Федерации на период до 2025 года», в соответствии с Распоряжением Правительства РФ от 5 июня 2017 г. № 1166-р. [Электронный ресурс] СПС КонсультантПлюс
4. Прядко И.А. Концепция развития государственно-частных партнерств в регионах России // Бизнес. Образование. Право. Вестник Волгоградского института бизнеса. 2016, №4 (37), с.180.
5. Указ Президента Российской Федерации от 13 мая №208 «О Стратегии экономической безопасности Российской Федерации на период до 2030 года» [Электронный ресурс] СПС КонсультантПлюс.
6. Федеральный закон от 28 июня 2014 г. № 172-ФЗ «О стратегическом планировании в Российской Федерации». [Электронный ресурс] СПС КонсультантПлюс

7. Федеральный закон от 3 июля 2015 года №224-ФЗ «О государственно-частном партнерстве, муниципально-частном партнерстве в Российской Федерации». [Электронный ресурс] СПС КонсультантПлюс
8. Федеральный закон «О науке и государственной научно-технической политике» от 23 августа 1996 г. №127-ФЗ [Электронный ресурс] СПС КонсультантПлюс.
9. Частные инвестиции в инфраструктуру Московской области – партнерство в действии. М.: Правительство Московской области – Центр ГЧП, 2017, с.3
10. http://economy.gov.ru/minec/activity/sections/StrategTerPlanning/komplstplanning/stsubject/
11. http://www.mosobIduma.ru/Press_centr/news/item/53945/
12. http://economy.gov.ru/minec/activity/sections/strategterplaning/komplstplanning/stsubject/ straterupdate/2016251106.

**Cəmil Əliyev**

## FEDERASİYANIN SUBYEKTLƏRİNİN İQTİSADİ STRATEGİYALARINDA DÖVLƏT-ŞƏXSİ ƏMƏKDAŞLIQ (DŞƏ) TƏCRÜBƏSİ

**Xülasə**

İşin əsas istiqamətlərindən biri ümumi yanaşmaların və ərazinin təsərrüfat və sosial inkişafının prioritet məqsədlərinə nail olmaq üçün dövlət-şəxsi əməkdaşlıq (DŞƏ) təcrübəsinin istifadəsinin konkret istiqamətlərinin regional strategiyasına inteqrasiyasıdır. Lakin DŞƏ-nin tam dəyərli təcrübəsinin regional səviyyədə strateji olması haqqında bu gün danışmaq çox tez olardı. Rusiya subyektlərinin öz strategiyalarında ərazinin təsərrüfat və sosial inkişafına xidmət edən DŞƏ-nin istifadəsinin miqyasının müəyyən edilməsinə və konkret istiqamətlərin uzunmüddətli öncədən müəyyən olunması sahəsində bir sıra məhdudiyyətlər yaradır.

**Açar sözlər:** strateji planlaşdırma, subyektlər, dövlət-şəxsi əməkdaşlıq, regionların investisiya strategiyaları

**Jamil Aliyev**

## PRACTICE OF PUBLIC-PTIVATE PARTNERSHIP (PPP) IN ECONOMIC POLICIES OF THE SUBJECTS OF THE FEDERATION

**Summary**

One of the directions of this work is the integration into the regional strategies of general approaches and specific directions of public –private partnership (PPP) practice to achieve the priority objectives of economic and social development of territories. But today it would be premature to speak about full practice of public –private partnership (PPP) at the regional level. Really, there are a number of limitations, not allowing the subjects of RF to consolidate in their strategies a long-term prediction of the scale and correct directions of using PPP in economic and social development of the territories.

**Keywords:** strategic planning, subjects, public-private partnership, investment strategies of the regions

**UOT – 330.47**

**Təranə Vəliyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# İQTİSADİ İNFORMASİYANIN AVTOMATLAŞDIRILMIŞ İŞLƏNMƏSİ

*Məqalə iqtisadi informasiyanın emal edilməsi üçün avtomatlaşdırma prosesinə həsr olunmuş və avtomatlaşdırmanın elm-texnikanın bir sahəsi kimi fəaliyyəti təhlil edilmişdir. Göstərilmişdir ki, sənayenin və istehsalın bütün sahələri müasir avtomatlaşdırma sistemləri vasitəsilə idarə olunur, iqtisadi informasiyanın avtomatlaşdırılmış işlənməsi AİS ilə istifadəçi arasında qarşılıqlı əlaqə mexanizmi prinsipinə əsaslanır. Məqalədə eyni zamanda, iqtisadi informasiyanın informasiya modeli üzərində təşkili, modelləşmənin mahiyyəti və əməliyyatların avtomatik emalolunma mərhələləri də təhlil edilmişdir.*

Elm və texnikanın müasir inkişaf mərhələsi istehsal sahələrinin, texniki sistemlərin avtomatlaşdırılmasını tələb edir. **Avtomatlaşdırma** - texniki vasitələrin istifadəsinə və riyazi metodlara əsaslanan nizamlı prosesdir. Bu termin hidravlik, pnevmatik, elektronik və kompüter sözlərinin birləşməsi ilə yaranmış “avtomatik” sözündən (1947-ci il) götürülmüşdür. Avtomatlaşdırma obyekti olaraq, insanın praktik fəaliyyəti ilə bağlı istənilən predmet ola bilər. Bu predmetlərdə gedən proseslərə nəzarət və onların idarə edilməsi mümkündür.

Müasir texniki və proqram paketləri əsasında yaradılmış avtomatlaşdırma prosesi obyektlərin səmərəli işlənməsində, keyfiyyətin və məhsuldarlığın yüksəldilməsində, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasında, idarəetmə proseslərinin optimallaşdırılmasında, təhlükəli istehsallarda insanların sağlamlıqlarının qorunmasında həlledici rol oynayır. Proqram paketləri ilkin informasiyanın işlənilməsi və ya idarəetmə məqsədlərini yerinə yetirən vasitə, texniki vasitələr isə avtomatlaşdırma obyektləri ilə bilavasitə əlaqədə olan icra mexanizmləridir [5].

Avtomatlaşdırma sistemlərinin formalaşmasına və qurulmasına layihə əməliyyatları imkan yaradır. Yəni, texniki təklif layihəsi mərhələsində tələblərə uyğun düzgün seçilən texniki təminat, informasiya təminatı və bunların çevikliyini, etibarlılığını yüksəldən intellektual proqram informasiya texnologiyaları zərurətini ortaya çıxarır. Bu informasiya texnologiyaları da avtomatlaşdırmanın keyfiyyətini yüksəldir, ona sərf edilən materialları və mühəndis-texniki işçilərin sayını azaldır.

Müasir dövrdə avtomatlaşdırma elm və texnika sahələrini əhatə edir. Belə ki, maşın və mexanizmlərin konstruksiyalarının, elektrotexniki qurğuların, radioelektron aparatların, texnoloji proseslərin, rəqəmli proqramla idarə olunan qurğuların, yeni proqramların hazırlanması prosesləri geniş fəaliyyət göstərir. İstehsal proseslərinin bütün sahələrində yenidənqurma tələbi olaraq, bu proseslərin tam öyrənilməsi, avadanlıqların analizi və səviyyə uyğunluğu aşağıdakı tələbatların təmin edilməsini tələb edir:

- bir məhsul buraxılışından digər məhsul buraxılışına avtomatlaşdırılmış keçid;
- avadanlıqların bir-birinə qoşulması;
- insan iştirakı olmadan texnoloji prosesin idarə olunması;
- texnoloji proses zamanı avtomatlaşdırılmış ölçmənin təşkili;
- material tullantılarının istehsal sahəsindən avtomatik kənarlaşdırılması;
- avadanlıqların texniki vəziyyətinə nəzarət üçün diaqnostik sistem yaradılması.

Avtomatlaşdırma prosesi verilənlər bazasının yaradılmasına da geniş şərait yaradır. Burada işlərin tərkibi, onların yerinə yetirilmə vəsaitlərinin seçilməsi, nəticənin yoxlanılması, qiymətləndirilməsi, tələblərin mahiyyəti, planları, sxemləri, qiymətləndirmə göstəriciləri nəzərə alınır [2].

**Avtomatlaşdırılmış informasiya sistemi**




Elmi texniki tərəqqinin (ETT) inkişafı ilə əlaqədar sənayenin və istehsalın bütün sahələrinin problemləri avtomatlaşdırma sistemləri vasitəsilə həyata keçirilir. İstehsalın hər bir sahəsi üçün müəyyən iş rejimi və ona uyğun fəaliyyət tələbatı olur. İqtisadiyyatla bağlı bütün müəssisələrdə **iqtisadi informasiya** anlayışı meydana gəlmişdir. *İqtisadi informasiya - müəssisə fəaliyyəti ilə bağlı elmi və təcrübi proseslərdən əldə olunan məlumatdır.* O, ictimai istehsalda və onun idarə edilməsində əsas amil kimi iştirak edir. Başqa sözlə, iqtisadi informasiya iqtisadi prosesləri səciyyələndirir, yəni iqtisadi sistemlərdə dövran etməklə onların fəaliyyətini təmin edir. Onların əsas fərqləndirici xüsusiyyətləri aşağıdakılardır:

- iqtisadi informasiya iqtisadi təsərrüfat fəaliyyətini natural və dəyər göstəriciləri sistemi ilə əks etdirir;
- iqtisadi informasiya fasilələrlə qəbul və emal edilir;
- iqtisadi informasiya maddi daşıyıcılarda *(sənəd, perfo və maqnit daşıyıcıları)* saxlanılır;
- iqtisadi informasiya sonlu nəticələr şəklində ifadə olunur;
- iqtisadi informasiya xətti şəkildə ifadə olunur (sətir və ya sütun);
- iqtisadi informasiya kütləvi və təkrarlanan olur;
- iqtisadi informasiyanın xeyli hissəsi emal olunur, sadəcə bir sənəddən digərinə köçürülür;
- iqtisadi informasiya uzun müddət saxlanılır və s.

İqtisadi informasiya çox mürəkkəb və müxtəlif olduğundan aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

a) idarəetmə funksiyalarına görə;
b) idarəetmə obyektinin gələcək vəziyyətini əks etdirməsinə görə;
c) yaranma mərhələləri və mənbələrinə görə;
d) iqtisadi proseslərin əks etdirilməsinə görə;
e) sabitlik əlamətinə görə;
f) idarə olunan obyekt və idarəedici orqana münasibətə görə;
h) indikasiya *(siqnal forması)* əlamətinə görə.

İqtisadi informasiya və onun elementləri müəyyən quruluş vahidləri ilə də xarakterizə olunur. Belə ki, ən yüksək informasiya quruluş vahidi - **informasiya sistemidir.** *İnformasiya sistemi* iqtisa-

di sistemlərdə idarəetmə obyektlərinin bütün fəaliyyətlərini, yəni orada baş verən əməliyyat və prosesləri əks etdirir. İdarəetmə obyektinin vəziyyətini *göstəricilər,* göstəricilərin qaydaya salınmış məcmusunu *xəbərlər,* müxtəlif məzmunlu xəbərləri isə *massivlər* təşkil edir. İqtisadi informasiyanın ən aşağı səviyyəli quruluş vahidi *rekvizitdir. Rekvizit* - obyektin vəziyyətini, yaxud baş verən hadisələri kəmiyyət və keyfiyyət cəhətdən xarakterizə edir. Avtomatlaşdırılmış sistemlərdə informasiyanın təşkili müxtəlif prinsip və qaydalar əsasında yerinə yetirildiyindən *məlumat bazaları, informasiya fondu, məlumatlar lüğəti* adlı quruluş vahidləri də vardır ki, bunlar da tətbiq olunan proqramlaşdırma dillərindən asılı olaraq *fayllar* terminini yaratmışdır [4].

İqtisadi informasiyanın işlənməsinin avtomatlaşdırılması müxtəlif rejimlərə - paket, multiproqram və interaktiv rejimlərə malikdir.

Paket rejimi iqtisadi tapşırığın həlli olub, informasiya istifadəsi üçün müəyyən ardıcıllıqla emal edilir. Bu rejimdə əsas məqsəd - qoyulmuş məsələni vaxtında yerinə yetirmək, hesablama sistemini tam yükləməkdir. Paket rejimində qarşıya qoyulan məsələnin həlli prosesinə istifadəçinin müdaxiləsi minimuma endirilməklə verilənlərin qurğuya daxil edilməsi, lazımi proqram modullarının işə salınması, emal prosesinin yerinə yetirilməsi və idarə olunması, alınmış nəticələrin nəzərdən keçirilməsi həyata keçirilir.

Paket rejimində tapşırıqlar aşağıdakı kimi yerinə yetirilir:

- ilkin informasiya massivlərinin çevrilməsi;
- işçi massivlərin yaradılması və nizamlanması;
- verilənlərin seçilmiş alqoritmə uyğun emalı;
- çıxış massivlərinin tərtibi;
- tapşırıqların həllinin nəticələrinə nəzarət;
- nəticələrin çıxışa verilməsi.

Sonda iqtisadi verilənlər və informasiya əsasında müxtəlif təyinatlı hesabatlar hazırlanır.

Multiproqram rejimi iqtisadi informasiyanın işlənməsinə sərf olunan vaxtın qısaldılması və hesablama resurslarının səmərələşdirilməsini təmin edir. Bu rejimdə emal prosesi istifadəçinin bir neçə tapşırığına uyğun olaraq paralel emal edilir və yüksək məhsuldarlıqla yerinə yetirilir. Həm də əməliyyatlar sistemi vaxt bölgüsü rejimində işləməklə bir neçə proqramla idarə edilir.

İqtisadi informasiyanın işlənməsinin interaktiv rejimində isə istifadəçi real zamanda emal prosesinin yerinə yetirilməsinə müdaxilə edir və şərtləri daha sərfəlisi və ya uyğunu ilə dəyişə bilir. İstifadəçi ilə qurğu arasında əlaqə xüsusi menyu vasitəsilə təmin olunur. Bu rejimdən daha çox istifadəçi sorğusuna uyğun axtarışların aparılmasında, iqtisadi məsələyə uyğun hesablamaların hazırlanmasında, müxtəlif zaman dövrləri üçün lazım olan məlumatların cədvəl təsviri ilə müqayisəli təhlilində istifadə olunur.

İqtisadi informasiyanın avtomatlaşdırılmış işlənməsi avtomatlaşdırılmış idarəetmə sistemləri (AİS) ilə istifadəçi arasında qarşılıqlı əlaqələrin informasiya, texniki, riyazi-proqram, təşkilati-hüquqi vasitə və prosedurlar yığımıdır. Bu mexanizmin əsas prinsipi iqtisadi obyektlərin idarəedilməsində şəraitə adaptasiya olunmasıdır və aşağıdakı şərtləri təmin edir:

- ilkin sənədlərdən verilənlərin daxil edilməsi;
- verilənlərə nəzarət olunması;
- verilənlərin verilmiş düsturlar üzrə hesablanması;
- informasiya emalına sərf olunan əməyin azaldılması;
- alınan informasiyanın operativliyinin yüksəldilməsi [3].

İqtisadi informasiyanın yeni texnologiya əsasında təşkili informasiya modelinə əsaslanır. İnformasiya modeli vəziyyəti izləməyə imkan verməklə informasiyanın yığılması, saxlanması, axtarılması, işlənməsi və ötürülməsi proseslərinin avtomatlaşdırılmasını sürətləndirir. İqtisadi informasiyanın informasiya modeli çoxaddımlı prosesdir. Verilmiş məsələyə uyğun, obyektin görüntülü təsvirindən maşındaxili təsvirinə qədər texniki obyektlərin avtomatlaşdırılmış sistemləri model yaradır. Modelləşdirməyə yanaşmanın mahiyyəti aşağıdakılardan ibarətdir:

1.Avtomatlaşdırılmış sistemlərin proqram təminatının işlənməsi;

2. Qarşıya çıxan məsələlər çoxluğu üçün informasiya bazası;

3. Modelin təsviri zamanı yerinə yetirilən əməliyyatların ardıcıllığı;
4. Modelləşmənin interaktiv rejimdə həyata keçirilməsi [2].

Ümumiyyətlə, **informasiya modeli** - hər hansı prosesin təqdim olunma forması olub, bu proses haqqında informasiyanın alınmasını sadələşdirir, optimallaşdırır, proqnozlaşdırır və proqramçılar vasitəsi ilə hazırlanıb simvollar formasında əks olunur. Belə ki, hər hansı əməliyyatın avtomatik emal olunması üçün aşağıdakı əsas mərhələlər həyata keçirilir:

1. Əməliyyatın ilkin şərti;
2. Riyazi modelin qurulması;
3. İcra alqoritminin hazırlanması;
4. Hər hansı bir alqoritmik dildə proqram tərtib edilməsi;
5. Proqramın sazlanması;
6. Qurğu vasitəsilə əməliyyatın icrası;
7. Alınan nəticənin təhlili.

XX əsrin 90-cı illərinin ortalarından başlayaraq informasiyanın avtomatlaşdırılmış işlənməsinə və inkişafına yeni emal üsulları tətbiq edilməyə başlanmışdır. Bu istiqamətdə neyron şəbəkələrinə, qeyri-səlis çoxluqların emalına, ehtimal mühakimələrə, öyrətmə və genetik alqoritmlərə və bioloji hesablamalara əsaslanan Soft Computing texnologiyaları meydana gəlmişdir.




*Soft Computing* - elmdə problemin qoyuluşu və həlli üçün nümunə hesab olunan modellər, amillər, biliklər məcmusu, ehtimal nəticə çıxarmaq metodunu bildirən elmi baxış olub, intellektual üsulları özündə əks etdirən yeni texnologiyalardır [6].

İqtisadi informasiya proseslərinin müasir texnologiyalarla emal olunması, bu sahədə görülən işlər və üstünlüklər, yeni texniki və proqram vasitələrinin yaradılması geniş perspektivlərə yol açmışdır. Yəni, ən böyük *fayda* insan əməyinin azaldılması, enerjinin və material istifadəsinin minimuma endirilməsi, keyfiyyətin, dəqiqliyin və həssaslığın artırılması prinsiplərinin əldə olunmasıdır. Nəticə olaraq, avtomatlaşdırma yeni arxitekturalı elektron qurğuların yaradılmasında, modelləşdirmə alətlərinin qurulmasında və müasir intellektual sistemlərin meydana gəlməsində böyük uğurlar əldə etməyə imkan yaratmışdır. Respublika iqtisadiyyatının bütün sahələrində, o cümlədən yeni emal texnologiyaları istiqamətində görüləcək işlər Prezidentin 2012-ci il 29 dekabr Fərmanı ilə təsdiqlənən “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında öz əksini tapmışdır. Konsepsiyaya əsasən, yeni texnologiyalar əsasında yaradılan Yüksək Texnologiyalar Parkı innovasiyalı iqtisadiyyatın inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın qurulmasına, iqtisadiyyatın və İKT sektorunun rəqabət qabiliyyətliyinin yüksəldilməsinə öz töhvəsini verəcəkdir [1].

**Açar sözlər:** avtomatlaşdırma, iqtisadi informasiya, proqram paketləri, iqtisadi informasiya prosesləri, avtomatlaşdırılmış idarəetmə sistemləri, Soft Computing texnologiyası

**İstifadə edilmiş ədəbiyyat**

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir. http://www.president.az/files/future_az.pdf
2. Əhmədov M.A., Məhəmmədli H.M. İnformasiya sistemlərinin avtomatlaşdırılmış modelləşdirilməsi və tədqiqi üsulları. Dərs vəsaiti. Sumqayıt: 2015, 137 s.
3. Əliyev A.Y., Mehdiyeva Q.Y. İnformatikanın əsasları və proqramlaşdırma. Dərslik. Bakı: Bakı universiteti, 2016, 272 s.
4. Əlizadə M.N., Musayev İ.K. İqtisadi informatika. Dərslik. Bakı: Kitab Yurdu.org, 2016, 334 s.
5. Heydərov X.M., Mirzəyev O.H. Konstruksiyaları avtomatik layihəetmə sistemləri. Dərslik. Bakı: 2012, 151 s.
6. Məhəmmədli H.M. ÇİS-in idarəolunmasının avtomatlaşdırılmış layihələndirilməsinin əsas xüsusiyyətlərinin analizi və tədqiqi // Sumqayıt Dövlət Universitetinin “Elmi xəbərlər”i, cild 11, №1, 2011, s.120-126

**Тарана Велиева**

## РАЗРАБОТКА АВТОМАТИЗИРОВАННОЙ ЭКОНОМИЧЕСКОЙ ИНФОРМАЦИИ

### Резюме

Статья посвящена автоматизацию обработки экономический информации. Анализирован деятельность автоматизации как одной из сфер науки и техники. Показан, что все сферы промышленности управляются с помощью автоматизированных систем, которая основывается на принцип механизма взаимоотношений пользователя и АСУ. В статье также рассматривается сущность моделирования, анализируются этапы автоматической обработки операций.

**Ключевые слова:** автоматизирование, экономическая информация, пакет программ, процесс экономический информации, автоматизированные системы управления, технология

**Tarana Valiyeva**

## WORKING OF AUTOMATED OF ECONOMIC INFORMATION

### Summary

The article is devoted to the automation of economic information. It analyzes the activity of automation as one of the spheres of science and technology. It is shown that all spheres of industry are managed with the help of automatic systems, which are based on the principle of the mechanism of mutual relations between the user and ACS. The essence of modeling is discussed, the stages of automatic work of operations are analyzed in the article.

**Keywords:** automation, economic information, software packages, economic information process, automatic control systems, Soft Computing technology

**UOT – 336.02**

**Gülnarə Tanrıverdiyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti, i.ü.f.d.**

# UZUNMÜDDƏTLİ İNVESTİSİYALARIN UÇOTUNUN TƏŞKİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Məqalədə uzunmüddətli investisiyaların, o cümlədən qeyri-maddi aktivlərin, onların köhnəlməsinin uçotunun təşkili məsələləri araşdırılır. Eyni zamanda kapital qoyuluşunun uçotunun təkmilləşdirilməsi istiqamətləri öz əksini tapır.*

Uzunmüddətli investisiyalar təsərrüfatın fəaliyyətində mühüm rol oynadığından onun uçotunun aparılması əsas problemlərdən biri sayılır. Buna görə də uçotun qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- xərc növləri və obyektlərin kontekstində tikinti üçün çəkilən bütün xərclərin tam, vaxtında və dəqiq əks etdirilməsi;
- əsas vəsaitlərin istismarına və tikinti işlərinin gedişinə nəzarətin təmin edilməsi;
- əsas vəsaitlərin, torpaq, təbiət obyektləri, qeyri-maddi aktivlər və qiymətli kağızları investisiya dəyərinin düzgün müəyyən edilməsi və əks olunması;
- uzunmüddətli investisiyaların maliyyə mənbələrinin mövcudluğuna və istifadəsinə nəzarət.

Müəssisənin istehsal (xidmət) sferasında bir ildən çox iştirak edən, dəyəri normativ sənədlərlə tənzimlənən, köhnəldikcə öz dəyərini qanunvericiliklə müəyyən edilmiş normalarla hissə-hissə məhsulun (xidmətin) dəyərinə keçirən, istehsal (xidmət) prosesində öz natural formasını saxlayan əmək vasitələri əsas vəsaitlər adlanır. Azərbaycan Respublikası Vergilər Məcəlləsinə əsasən əsas vəsaitlərin istifadə müddəti bir ildən çox, vahidin və ya dəstinin dəyərinin minimum həddi 500 manatdan çox olan əmək vasitələridir.

Əsas vəsaitlər mühasibat balansının 11-ci maddəsində “Torpaq, tikili və avadanlıqlar” adlanır. “Torpaq, tikili və avadanlıqlar” 7 saylı Milli Mühasibat Uçotu Standartında açıqlanıb. Mühasibat balansının bu maddəsinə təşkilatın mülkiyyətində olan və ya maliyyə icarəsi üzrə istifadə edilən, amortizasiya xərcləri çıxıldıqdan sonra torpağın, tikililərin, avadanlıqların xalis balans dəyəri aiddir. Bu maddəyə həmçinin 13 saylı Milli Mühasibat Uçotu Standartına əsasən torpaq, tikili və avadanlıqların təkrar istehsalı ilə əlaqəli yaranmış hər hansı məsrəflərin kapitallaşdırılması daxildir. Torpaq, tikili və avadanlıqlar müvafiq olaraq hesablar planının 111 və 113-cü hesablarında uçota alınır.

Torpaq, tikili və avadanlıqların uçotu onların nümunəvi təsnifatına müvafiq olaraq, mərkəzləşdirilmiş qaydada təşkil edilir. Uçot hər bir təsnifat qrupu daxilində ayrı-ayrı inventar obyektləri çərçivəsində aparılır. İnventar obyekti dedikdə, vahid bütövlükdə birləşdirilmiş və konkret istehsal funksiyalarını yerinə yetirilməsi üçün ayrılmış torpaq, tikili və avadanlıqların, bioloji aktivlərin hər bir ayrıca əşyası və ya kompleks əşyası başa düşülür.

Uçotun düzgün təşkil edilməsi və torpaq, tikili və avadanlıqların mühafizəsinə nəzarətin təmin edilməsi üçün, hər bir inventar obyektinə müəyyən nömrə verilir. İnventar nömrəsi obyektin təşkilatda bütün istismar dövrü ərzində saxlanılır. O, obyektin mövcud olması və hərəkətini rəsmiləşdirən bütün ilkin sənədlərdə əks olunur.

Torpaq, tikili və avadanlıqların düzgün isifadə edilməsi ölkənin iqtisadiyyatının gələcəkdə yüksəldilməsi üçün böyük əhəmiyyətə malikdir. Ona görə həmin vəsaitlərin yaxşı təşkil edilmiş mühasibat uçotunun təşkili ilə təmin etməlidir.

Kommersiya təşkilatlarında torpaq, tikili və avadanlıqlar, binalar, qurğular, ötürücü qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, alətlər, istehsalat inventarları və ləvazimatları, təsərrüfat inventarları və sair vəsaitlər əsas vəsaitlərin tərkibinə daxil edilir.

Təşkilat ödəmə hesabına, yeni obyektlərin tikilməsi və ya uzunmüddətli investisiyalar qaydasında, fəaliyyətdə olan istehsal güclərinin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən yenidən silahlanması nəticəsndə cari və uzunmüddətli icarə şərtləri ilə torpaq, tikili və avadanlıq əldə edə bilər. Kommersiya təşkilatı nizamnamə kapitalına qoyuluş kimi iştirakçıdan (təsisçidən) tor-

paq, tikili və avadanlıq da ala bilər. Təşkilatın balansına qəbul edilmiş torpaq, tikili və avadanlıqların mövcudluğu və hərəkətinin uçotu 111 saylı “Torpaq, tikili və avadanlıqlar – Dəyər” adlı aktiv inventar hesabında aparılır [3].

İşlərin təşkilinin xarakterinə kapital qoyuluşları ya podrat üsulu ilə, yəni müqavilə əsasında xüsusi tikinti təşkilatı vasitəsi ilə və yaxud da təşkilatların özləri tərəfindən, yəni təsərrüfat üsulu ilə yerinə yetirilir.

Kapital qoyuluşlarının uçotu həm tikinti üzrə bütövlükdə və həm də ayrı-ayrı obyektlər üzrə (binalar, qurğular, ötürücü qurğular və s.) obyektləri işə salana qədər və ya müvafiq işlərin və məsrəflərin silinməsini tamamilə yerinə yetirənə qədər ilin və tikintinin əvvəlindən artan yekunla faktiki məsrəflər üzrə aparılır. Bununla yanaşı, sifarişçi tikintinin həyata keçirilməsi üsulundan asılı olmayaraq həyata keçirilən kapital qoyuluşlarının uçotu smeta dəyəri ilə aparılır. Sifarişçinin mühasibatında bütün maliyyələşmə mənbələrində həyata keçirilən kapital qoyuluşlarının uçotu 113 saylı “Torpaq, tikinti və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması” hesabında aparılır. Hesabın debetində müəyyən edilmiş qaydada torpaq, tikinti və avadanlıqların obyektlərinin ilkin dəyərinə daxil edilən sifarişçinin faktiki məsrəfləri, həmçinin tikili və avadanlıqların obyektlərinin ilkin dəyərinə daxil edilən sifarişçinin faktiki məsrəfləri, həmçinin tikili və avadanlıqların obyektlərinin ilkin dəyərinə daxil edilməyən, tikili və avadanlıqların tikintisi və əldə edilməsi ilə əlaqədar olan məsrəflər də əks olunur.

Uzunmüddətli investisiya qoyuluşlarının uçotunun mürəkkəbliyini nəzərə alaraq, onların analitik uçotunu düzgün təşkil etmək çox vacibdir. Əsaslı tikinti üzrə məsrəflərin analitik uçotu 18 saylı “Kapital qoyuluşları üzrə məsrəflər cədvəlində” aparılır. Kapital qoyuluşları üzrə əməliyyatlar 16 saylı jurnal-orderdə uçota alınır, əməliyyatlar 113 saylı “Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması” hesabının krediti üzrə aparılır. Bu zaman işlər ancaq podrat üsulu ilə həyata keçirilərsə 16 saylı jurnal-orderdə, 113 saylı hesabın krediti üzrə aparılır. Əgər işlər təsərrüfat üsulu ilə aparılarsa, onların istehsalına çəkilən xərclər 10-M/d saylı jurnal-orderdə uçota alınır, buna görə də 113 saylı hesabın krediti üzrə əməliyyatlar 16 saylı jurnal-orderdə əks olunmur.

Podrat üsulu ilə tikinti zamanı sifarişçidə xərclərin uçotunu xərc elementləri üzrə aparmaq lazım gəlmir. Tikinti və quraşdırma işləri üzrə xərclər bütövlükdə obyekt üzrə və ya işlərin mərhələləri üzrə podratçı təşkilatın verdiyi hesablara əsasən smeta dəyəri ilə müəyyən edilir. Xərclərin elementi üzrə uçot, belə halda ancaq öz əksini podratçıda tapır.

Təsərrüfat üsulu ilə tikinti işləri aparılan zaman podrat müqavilələri tərtib olunmur, onlar təşkilatın rəhbərləri tərəfindən müvafiq icraçılara verilir.

İşlərin bu üsulla yerinə yetirilməsi zamanı tikinti-quraşdırma işləri istehsalına məsrəflərin uçotu, təxminən podrat təşkilatlarında olduğu kimi aparılır. Çəkilmiş məsrəflərin uçotunu sifarişçi 202 saylı “İstehsalah xərcləri” hesabında deyil, 113 saylı “Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması” hesabında faktiki maya dəyəri ilə obyektlər, işlərin növləri üzrə aparılır. Əsaslı tikinti şöbəsi və sifarişçi təşkilat arasında yerinə yetirilmiş tikinti-quraşdırma işlərinə görə hesablaşmalar smeta dəyəri ilə deyil, faktiki maya dəyəri ilə aparılır. 113 saylı hesab kalkulyasiya xarakterinə malikdir. Bu hesabın debetində tikinti başlanandan sonra onun tam başa çatmasına və istismarına təhvil verilməsinə qədər artan yekunla tikinti obyektlərinə çəkilən faktiki məsrəflər, müvafiq hesabların (201, 202, 721, 533 və b.) kreditlərində əks etdirilir [3].

Kapital qoyuluşları öz ehtiyacları üçün yerinə yetirən podratçı təşkilatlar tikinti-quraşdırma işləri üzrə məsrəfləri (onlar planda olan zaman) əvvəlcə 202 saylı “İstehsalat məsrəfləri” hesabında uçota alır və işlərin təhvili həyata keçirildikcə 601 saylı “Satış” hesabına keçirirlər. 113 saylı hesabda bu işlər smeta maya dəyəri ilə əks olunur.

Kapital xarakterli bütün xərclər çox vaxt aşağıdakı maya dəyəri maddələri: materiallar, fəhlələrin əmək haqqı, inşaat maşınları və mexanizmlərinin istismarı üzrə məsrəflər, üstəlik xərclər üzrə qruplaşdırırlır.

Montaj tələb edən və qurulmaq üçün ayrılan ölkə və xarici texnoloji, energetika və istehsalat avadanlıqları (emalatxana, təcrübə qurğuları və laboratoriyaları üçün avadanlıqları daxil etməklə) bina tikənlər (sifarişçilər) tərəfindən quraşdırmaya təhvil verənə qədər 113 saylı “Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması” hesabında uçota alınır. Avadanlıq faktiki maya dəyəri ilə uçota alınır, onun tərkibinə aşağıdakılar daxil edilir: malgöndərənin qiyməti ilə avadanlı-

ğın dəyəri; onun qurulması üzrə nəqliyyat xərcləri və tədarük anbar xərcləri. Nəqliyyat və tədarük anbar xərclərinin dəyəri 10-M/d saylı jurnal-orderdə təsdiq olunan smetaya əsasən müəyyən edilmiş maddələr üzrə aparılır [3].

Quraşdırma tələb edən avadanlığın smeta dəyəri yerinə yetirilən kapital qoyuluşlarına daimi istismar yerində onun qurulması üzrə işlər faktiki başlanan aydan və avadanlığın quraşdırılmasına aid qiymət cədvəlinə əsasən ödənilməli olan avadanlığın iriləşdirilmiş yığılması başlanan aydan və ya avadanlığın quraşdırılmasına aid qiymət cədvəlinə əsasən ödənilməli olan avadanlığın iriləşdirilmiş yığılması başlanan aydan başlayaraq daxil edilir.

Həmin avadanlığın dəyəri yerinə yetirilmiş kapital qoyuluşlarına, yerinə yetirilmiş işlərin və məsrəflərin smeta dəyəri haqqında arayış əsasında daxil edilir. Bu arayışlarda quraşdırılması başa çatan hər bir avadanlıq növü və ya onun qovşağı üzrə məlumatlar verilir. Arayış və inventarlaşma aktları əsasında bina tikənlərin (sifarişlərin) mühasibat uçotunda yazılışlar aparılır.

Bina tikintinin (sifarişçinin) uçotunda quraşdırmağa təhvil verilmiş avadanlıqlar 113 saylı hesabda onun əldə edilməsi ilə əlaqədar olan faktiki məsrəflərlə əks etdirilir.

Quraşdırma tələb edən, lakin tikinti smetasına əsasən daimi ehtiyat üçün ayrılan avadanlıqlar yerinə yetirilən kapital qoyuluşlarına ancaq onun təyinat yerinə daxil olmasından, alıcılar tərəfindən mədaxil edildikdən və maddi-məsul şəxsə mühafizəyə təhvil verildikdən sonra daxil edilir. Bu avadanlığın yerinə yetirilmiş kapital qoyuluşuna daxil edilməsi üçün əsas kimi, torpaq, tikili və avadanlıqların təhvil-qəbul (daxili yerdəyişmə) aktı (qaimə) hesab olunur.

Bina tikənlər (sifarişçilər) istehsalat məqsədləri üçün, həmçinin quraşdırma tələb etməyən avadanlıqlar (lokomotivlər, vaqonlar, traktorlar, inşaat və yol maşınları, avtomobillər, hesablama maşınları və s.) əldə edirlər, onlar dayaqlara, özüllərə əlavə olaraq yığılmadan və quraşdırılmadan istismar edilir. Belə avadanlıqların, həmçinin alətlərin və inventarların smeta dəyəri yerinə yetirilən kapital qoyuluşlarına ancaq onlar təyinat yerinə daxil olduqdan, malalanlar tərəfindən torpaq, tikili və avadanlıqların təhvil-qəbul aktına əsasən mədaxil edildikdən və maddi-məsul şəxsə qorunmaq üçün verildikdən sonra daxil edilir.

Əldə edilən avadanlıqların bəzi növləri, yəni sərbəst dayanan dəzgahlar, nəqliyyat vasitələri, inşaat maşınları və mexanizmləri, ölçü aparatları, inventar və alətlər istismara verilmək üçün xərc tələb etmir və buna görə də onlar tikinti və avadanlıqların hazır obyektləri sayılırlar.

Quraşdırma tələb etməyən avadanlıqlar, alətlər və inventarlar 113 saylı hesabda əks olunurlar. Sifarişçinin uçotunda 113 saylı hesabın debeti və 531 saylı “Malgöndərənlər və podratçılara qısamüddətli kreditor borcları” hesabının debeti və 223 saylı “Bank hesablaşma hesablarının” krediti üzrə yazılış tərtib edilir.

Dövlət qəbul komissiyanın aktı əsasında qəbul edilmiş obyekt başa çatmış tikinti hesab olunur. Daha doğrusu, başa çatmış tikintiyə bütün tikinti-quraşdırma işləri, avadanlıqların quraşdırılması üzrə işlər tamamilə başa çatan, müəyyən edilmiş qaydada qəbul aktı ilə rəsmiləşdirilən və təsdiq edilən, istismara qəbul edilmiş obyektlər aiddir. Başa çatmış kapital qoyuluşlarına aiddir: müəyyən edilmiş qaydada işə salınması aktla rəsmiləşdirilən tikinti və quraşdırılması başa çatan obyektlər üzrə məsəflər; tikinti və avadanlıqların tərkibinə daxil edilən quraşdırılması tələb olunmayan avadanlıqların, inventarların, alətlərin və digər əşyaların əldə edilməsi üzrə məsrəflər tikinti və avadanlıqların dəyərini artırmayan məsrəflər; ayrı-ayrı obyektlərin tikintisində pay iştirakı qaydasında digər təşkilatlara verilən maliyyələşmə; qəti surətdə dayandırılmış və həyata keçirilməmiş tikinti üzrə müəyyən edilmiş qaydada məsrəflər. Başa çatmış tikinti üzrə məsrəflər 113 saylı hesabdan müvafiq maliyyələşmə hesabına 341, 342, 544 saylı hesabların debetinə silinir [3].

Buna oxşar qaydada torpaq, tikili və avadanlıqların dəyərini artırmayan məsrəflər və həyata keçirilməyən və qəti surətdə dayandırılan əsaslı tikinti üzrə məsrəflər silinir.

Sifarişçi (bina tikən) tərəfindən ödəməyə qəbul edilməyən başa çatmamış əsaslı işlər mühasibat hesablarında əks olunmur və balansda göstərilmir. Belə işlər ancaq analitik uçotda tikinti obyektləri çərçivəsində sorğu kimi uçota alınmalı və ancaq 2 saylı formada hesabatda göstərilməlidir. 113 saylı hesabda məsrəflər ancaq onları maliyyələşdirən bank təşkilatı tərəfindən ödənildikdə və ya ödəməyə qəbul edildikdə əks olunur.

**Kapital qoyuluşları üzrə əməliyyatların mühasibat hesablarında əks etdirilməsi**

| № | Əməliyyatın məzmunu | Müxabirləşən hesablar | |
|---|---|---|---|
| | | Debet | Kredit |
| 1 | İstismara qəbul edilmiş, habelə ödəmə hesabına başqa təşkilatlardan və şəxslərdən əldə edilən torpaq, tikili və avadanlıqların dəyəri uçotda əks etdirilib. | 111 | 113 |
| 2 | Torpaq, tikili və avadanlıq obyektlərinin ilkin dəyərinə daxil edilməyən, torpaq, tikili və avadanlıqların əldə edilməsi ilə əlaqədar olan məsrəflər silinib. | 341, 342, 544 | 113 |
| 3 | Yerinə yetirilmiş işlərə görə sifarişçidə podratçı təşkilatın hesabı əks etdirilib. | 113 | 531 |
| 4 | Podratçıya köçürülən məbləğə:<br>a) təşkilatın vəsaiti hesabına ödəmə aparılan zaman | 531 | 223 |
| | b) bankın uzunmüddətli kreditləri hesabına ödəmə aparılan | 531 | 401 |
| 5 | Sifarişçinin mühasibat uçotunda anbara daxil olan, quraşdırılma tələb edən avadanlıqlar mədaxil edilib | 113 | 531 |
| 6 | Quraşdırılmış avadanlığın dəyəri sifarişçinin mühasibat uçotunda əks etdirilib. | 113.1 | 113.2 |
| 7 | Təşkilatın nizamnamə kapitalına təsisçilərin qoyuluşları hesabına təsisçilər tərəfindən keçirilən avadanlıqlar mədaxil edilib. | 113.2 | 302 |

Bazar iqtisadiyyatı inkişaf etdikcə qeyri-maddi aktivlərin payı və əhəmiyyəti durmadan artacaqdır. Qeyri-maddi aktivlər fiziki əsası olmayan, lakin sahibkarın imtiyazı və hüququ əsasında dəyər yaradan dövrüyyədənkənar aktivlərdir. Müəssisənin qeyri-maddi aktivlərinə təsərrüfat fəaliyyətində uzun müddət istifadə edilən, gəlir gətirən, torpaq sahələrindən, təbii ehtiyatlardan (sərvətlərdən) istifadə hüquqları, patentlər, lisenziyalar, “nou-hau”, proqram məhsulları, inhisar və imtiyaz (üstünlük) hüququ (xüsusi fəaliyyət növünə verilən lisenziyalar da daxil olmaqla), təşkilati xərclər, ticarət markaları, əmtəə nişanları və s. aiddir. Qeyri-maddi aktivlərin əsas xüsusiyyəti maddi-əmlak (fiziki) quruluşlarının olmaması, uzun müddət ərzində istifadə edilməsi, təşkilata xeyir gətirmə qabiliyyətinin olması hesab olunur [2].

101 №-li “Qeyri-maddi aktivlər” (Dəyər) hesabı müəssisələrin mülkiyyətində olan qeyri-maddi aktivlərin mövcudluğu və hərəkəti haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur. Obyektlərin qeyri-maddi aktivlərə aid edilmə qaydası və onların tərkibi qanunverici və başqa normativ aktlarla nizamlanır. Qeyri-maddi aktivlər qeyri dövriyyə aktivlərinin ayrılmaz hissəsidir.

Qeyri-maddi aktivlər uçot və hesabatda onların alınmasına və planlı məqsədlərə işlənməsi üçün düzəldilib yararlı hala salınmasına çəkilən xərclərlə (ilkin dəyərinə) əks etdirilir və istifadəedildikcə onların dəyəri istismar müddətindən asılı olaraq müəssisə tərəfindən müəyyən edilmiş xüsusi köhnəlmə normaları əsasında hər ay (bərabər miqdarda) köhnəlmə hesablanaraq məhsulun (xidmətin) dəyərinə, tədavül xərclərinə silinməklə ödənilir. Faydalı istifadə müddətini müəyyən etmək mümkün olmayan qeyri-maddi aktivlər üzrə köhnəlmə normaları 10 il müddətinə (müəssisənin fəaliyyət müddətindən çox olmayaraq) müəyyən edilir.

Qeyri-maddi aktivlər 101 №-li “Qeyri-maddi aktivlər” hesabında ilkin dəyərlə uçota alınır. Bu dəyərlər obyektlər üzrə aşağıdakı qaydada müəyyən edilir:

- təsisçilər tərəfindən müəssisəyə nizamnamə kapitalı kimi qoyulan obyektlər üzrə tərəflərin razılığına əsasən;
- digər müəssisə və şəxslərdən pulla əldə edilmiş obyektlər üçün bu obyektlərin əldə edilməsi və hazır vəziyyətə gətirilməsi üzrə faktiki məsrəflərdən asılı olaraq;
- digər müəssisə və şəxslərdən əvəzsiz alınmış obyektlər üçün müəssisənin daim fəaliyətdə olan qiymətlərinə komissiyanın müəyyən etdiyi dəyərlə.

101 №-li “Qeyri-maddi aktivlər” hesabı üzrə analitik uçot qeyri-maddi aktivlərin növləri və ayrı-ayrı obyektləri üzrə aparılır. Bununla əlaqədar olaraq hər bir obyekt üzrə xüsusi formada kart tərtib olunur.

12 saylı mühasibat uçotu standartına əsasən qeyri-maddi aktivin ilkin qiymətləndirilməsi onun ilkin dəyəri əsasında aparılmalıdır.

AR Vergi Məcəlləsinin 143-cü maddəsinə əsasən aktivlərin dəyərinə onların alınması, gətirilməsi, istehsalı, tikilməsi, quraşdırılması və qurulması üçün çəkilən xərclər, həmçinin vergi ödəyici-

sinin gəlirdən çıxmaq hüququna malik olduğu xərclər və əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) istisna edilməklə, aktivlərin dəyərini artıran digər xərclər daxil edilir. Aktivlər kreditlər hesabına alındığı halda, kredit faizləri aktivlərin dəyərini artırmır və AR Vergi Məcəlləsinin 108-ci maddəsinə uyğun olaraq gəlirdən çıxılır. AR Vergi Məcəlləsinin 118-ci “Qeyri-maddi aktivlərə çəkilən xərclərin gəlirdən çıxılması” maddəsinə əsasən:

• Hüquqi və fiziki şəxslərin bir ildən artıq müddətə təsərrüfat fəaliyyətində istifadə etdikləri qeyri-maddi obyektlərə çəkilən xərclər qeyri-maddi aktivlərə aiddir.

• Qeyri-maddi aktivlərə çəkilən xərclər Vergi Məcəlləsinin 114-cü maddəsi ilə müəyyən edilən amortizasiya dərəcəsi ilə hesablanan amortizasiya ayırmaları şəklində gəlirdən çıxılır.

• Qeyri-maddi aktivlərin alınmasına və ya istehsalına çəkilən xərclər vergi ödəyicisinin vergiyə cəlb olunan gəlirinin hesablanması zamanı gəlirdən çıxılmışdırsa, həmin xərclər amortizasiya olunmalı qeyri-maddi aktivlərin dəyərinə aid edilmir [1].

Müəssisəyə daxil olan bütün qeyri-maddi aktivlər kapital qoyuluşu hesab olunmaqla 103 №-li “Qeyri-maddi aktivlərlə bağlı məsrəflərin kapitallaşdırılması” hesabının “Qeyri-maddi aktivlərin əldə edilməsi” subhesabında əks olunur. Səhmdar cəmiyyətlərində səhmdar tərəfindən nizamnamə kapitalı kimi verdiyi qeyri-maddi aktiv bir tərəflərlə razılaşdırılmış qiymətlərlə 101 №-li “Qeyri-maddi aktivlər” hesabının debetinə və 302 №-li “Nominal (nizamnamə) kapitalın ödənilmiş hissəsi” hesabının kreditinə yazılış aparılır (Dt 101 Kt302).

Təsisçilər tərəfindən müəssisəyə nizamnamə kapitalı kimi qoyulan qeyri-maddi aktivlər mədaxil edildikdə 101 №-li “Qeyri-maddi aktivlər” hesabının debetində və 534 №-li “Dividendlərin ödənilməsi üzrə təsisçilərə kreditor borcları” hesabının kreditində əks etdirilir (Dt 101 Kt534).

Digər müəssisə və şəxslərdən pulla əldə edilmiş qeyri-maddi aktivlər 101 №-li “Qeyri-maddi aktivlər” hesabının debetinə və 103 №-li “Qeyri-maddi aktivlərlə bağlı məsrəflərin kapitallaşdırılması” hesabının kreditinə yazılmaqla mədaxil edilir (Dt 101 Kt103).

Dövlət orqanlarından maddi yardım kimi, digər müəssisə və şəxslərdən əvəzsiz alınmış qeyri-maddi aktivlərin mədaxili 101 №-li “Qeyri-maddi aktivlər” hesabının debetində. 331 №-li “Yenidən qiymətləndirmə üzrə ehtiyat” hesabının kreditində əks etdirilir (Dt 101 Kt331).

Qeyri-maddi aktivlər uzun müddət istifadə olunur və öz dəyərlərini tədricən istehsal olunmuş məhsulların dəyərinə keçirir. Bununla əlaqədar olaraq müəyyən olunmuş normalar üzrə qeyri-maddi aktivlərə hər ay köhnəlmə (amortizasiya) hesablanır [2].

Qeyri-maddi aktivlərə köhnəlmə hesablanarkən 202 №-li “İstehsalat ehtiyatları”, “Ümumi təsərrüfat xərcləri” və sairə digər istehsalat xərclərini əhatə edən hesabların debetinə və 102 №-li “Qeyri-maddi aktivlərin köhnəlməsi” hesabının kreditinə yazılış aparılır. Qeyri-maddi aktivlərin ayrı-ayrı obyektləri üzrə köhnəlmənin hesablanması onların səmərəli istifadə olunması müddəti ərzində yerinə yetirilir.

**101 №li “Qeyri-maddi aktivlər” hesabı aşağıdakı hesablarla müxabirləşdirilir:**

**Debet üzrə**

103 № - Qeyri-maddi aktivlərlə bağlı məsrəflərin kapitallaşdırılması;

221 № - Kassa;

223 № - Bank hesablaşma hesabı;

302 № - Nominal (nizamnamə) kapitalının ödənilmiş hisssi;

177 № - Digər uzunmüddətli debitor borcları;

331 № - Yenidən qiymətləndirmə üzrə ehtiyat;

342 № - Mühasibat uçotu siyasətində dəyişikliklər və əhəmiyyətli səhvlər ilə bağlı mənfəət (zərər) üzrə düzəlişlər.

**Kredit üzrə**

151 № - Asılı və birgə müəssisələrdə investisiyalar;

611 № - Sair əməliyyat gəlirləri;

225 № - Pul vəsaitlərinin ekvivalentləri.

Aktivin rəhbərlik tərəfindən nəzərdə tutulmuş tərzdə fəaliyyət göstərməsi üçün yararlı olduğu andan dayandırılır. Buna görə də torpaq, tikili və avadanlıqların istismarı və ya yerdəyişməsi üzrə

xərclər həmin aktivin balans dəyərinə aid edilmir. Məsələn, aşağıda qeyd olunan məsrəflər torpaq, tikili və avadanlıq obyektlərinin balans dəyərinə daxil edilmir:

a) rəhbərlik tərəfindən nəzərdə tutulmuş tərzdə fəaliyyət göstərə bilən obyektin hələ istismara hazır vəziyyətə gətirməli olduğu və ya tam gücü ilə istismar olunmadığı müddət ərzində yaranan məsrəflər;

b) aktivin istifadəsi nəticəsində hazırlanan məhsullara ehtiyacın artdığı zaman yaranan ilkin əməliyyat məsrəfləri;

c) müəssisə tərəfindən həyata keçirilən bütün əməliyyatların və ya onların bir qisminin yerinin dəyişdirilməsi və ya yenidən təşkil olunması məsrəfləri;

d) bəzi əməliyyatlar torpaq, tikili və avadanlıq obyektinin inşa edilməsi və hazırlanması ilə əlaqədar həyata keçirilsə də, bu obyektin rəhbərlik tərəfindən nəzərdə tutulan tərzdə fəaliyyət göstərə bilməsi üçün vacib deyil. Bu təsadüfi əməliyyatlar tikinti və hazırlama fəaliyyətlərindən əvvəl və ya həmin fəaliyyətlərin həyata keçirildiyi müddət ərzində baş verə bilər. Məsələn, tikinti başlayana qədər binanın sahəsini avtomobil parkı kimi istifadə etməklə gəlir qazanmaq olar. Çünki təsadüfi əməliyyatlar rəhbərlik tərəfindən nəzərdə tutulan qaydada fəaliyyət göstərmək üçün obyektin yerləşdirilməsi və işlək vəziyyətə gətirilməsi zəruri əhəmiyyət kəsb etmir. Təsadüfi əməliyyatlar üzrə gəlir və xərclər, müvafiq olaraq mənfəət və zərər haqqında hesabatda tanınır və müvafiq gəlir və xərc maddələrinə daxil edilir.

**Açar sözlər:** uzunmüddətli investisiyalar, qeyri-maddi aktivlər, köhnəlmə, balans, nizamnamə kapitalı

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2016, 360 s.
2. Kərimov A.R. Mühasibat uçotu, vergilər. 13-cü nəşr. Bakı: CBS-PP, 2016, 512 s.
3. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. Mühasibat uçotu. Bakı: İqtisad Universiteti, 2012, 688 s.

**Гульнара Танривердиева**

## ПУТИ ОРГАНИЗАЦИИ И СОВЕРШЕНСТВОВАНИЯ УЧЕТА ДОЛГОСРОЧНЫХ ИНВЕСТИЦИЙ

### Резюме

В статье исследуются вопросы организации учета долгосрочных инвестиций, в.т.ч. нематериальных активов, их износа. Здесь также нашло свое отражение пути совершенствования учета капитальных вложений.

**Ключевые слова:** долгосрочные инвестиции, нематериальные активы, износ, баланс, уставной капитал

**Gulnara Tanriverdiyeva**

## WAYS OF ORGANIZATION AND IMPROVEMENT OF LONG-TERM INVESTMENTS

### Summary

The article explores the issues of the organization of accounting of long-term investments, intangible assets, their wear. Here, it also reflectes the ways to improve the accounting of capital investments.

**Keywords:** long-term investments, intangible assets, wear, balance, charter capital

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

## № 2 (08), 2017

**Redaktorlar:**

***Gülnarə Hacıyeva, Qızılgül Əlimirzəyeva***

**Kompüter tərtibatı:**

***Pərvanə Məcidova***

**Dizayn:**

***Mail Xəlilov***

Yığılmağa verilib: 27.11.2017
Çapa imzalanıb: 30.12.2017
Format: 70x100 16/1
6.6 ş.ç.v
Tiraj: 100